# İLHAM ƏLİYEV

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

# İLHAM ƏLİYEV

## ON SƏKKİZİNCİ KİTAB

## İYUN 2006 - AVQUST 2006

AZƏRNƏŞR
BAKI - 2014

# İLHAM ƏLİYEV

## ÇIXIŞLAR * NİTQLƏR

## BƏYANATLAR * MÜSAHİBƏLƏR

## MƏKTUBLAR * MƏRUZƏLƏR

## MÜRACİƏTLƏR * FƏRMANLAR

AZƏRNƏŞR
BAKI – 2014

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**
**Ə 56** **İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2014, 424 səh.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin «İnkişaf-məqsədimizdir» çoxcildliyinin oxuculara təqdim olunan bu cildində müstəqil Azərbaycan tarixinin ən yeni dövrünün çox mühüm və əhəmiyyətli hadisəsi olan Bakı–Tbilisi–Ceyhan neft kəmərinin istismara verilməsinə həsr olunmuş mərasimdə çıxışı, Avropanın, ümumiyyətlə dünyanın bir çox ölkələri ilə siyasi, iqtisadi, elmi-mədəni və digər sahələrdə uğurlu inkişafa, əməkdaşlığa dair materiallar verilmişdir.

Kitabda prezident İlham Əliyevin ölkəmizdə ətraf mühitin mühafizəsi, regionların sosial-iqtisadi inkişafı, gənc nəslin milli-mənəvi dəyərlərə bağlılığı və intellektual səviyyəsinin yüksəldilməsi, idmanımızın dünya səviyyəsində inkişafı, eyni zamanda ictimai-siyasi həyatın digər məsələlərinə həsr olunmuş çıxış və nitqləri geniş yer tutmuşdur.

Bu cilddə, həmçinin, Bakıya gəlmiş bir sıra dövlət və hökumət başçılarının, beynəlxalq təşkilatların nümayəndələri ilə görüşləri, kütləvi informasiya vasitələrinə verdiyi müsahibələri və Dağlıq Qarabağ probleminin sülh yolu ilə həlli və münaqişənin nizama salınması ilə əlaqədar ölkəmizin prinsipial mövqeyi öz əksini tapmışdır.

**İSBN 978-9952-8100-7-3**

**Я** $\frac{\textbf{0801000000}}{\textbf{M – 651(07) – 2014}}$ **ББК - 32**

© Azərnəşr, 2014

## QARA DƏNİZ BİZNES FORUMUNUN İŞTİRAKÇILARINA

Hörmətli forum iştirakçıları!

Sizi ürəkdən salamlayır və Qara Dəniz Biznes Forumunun işə başlaması münasibətilə təbrik edirəm.

Dünya iqtisadiyyatına inteqrasiya hər bir ölkənin inkişafında mühüm rol oynayır. Müasir dövrdə ölkələrarası iqtisadi əlaqələrin genişlənməsi həmin ölkələrin bu əməkdaşlıqdan qarşılıqlı faydalanması ilə yanaşı, dünyada gedən qloballaşma prosesində onların fəal iştirakı üçün əlverişli imkanlar açır. Bu baxımdan regional əməkdaşlığın əhəmiyyəti çox böyükdür.

Şərqin və Qərbin qovuşuğunda yerləşən Azərbaycan tarixi İpək Yolu vasitəsilə Qara dəniz hövzəsi dövlətləri ilə çoxəsrlik ticarət əlaqələrinə malikdir. Qara dəniz hövzəsi, eyni zamanda, ölkəmizin Avropaya inteqrasiyasında da körpü rolunu oynayır. Təsadüfi deyil ki, keçən əsrin sonlarında Qara dəniz və Xəzər dənizi hövzəsində yerləşən ölkələrin inkişafına dəstək və onların arasında əməkdaşlığın gücləndirilməsi məqsədi ilə yaradılan Qara Dəniz Ticarət və İnkişaf Bankı çox qısa dövr ərzində sürətlə inkişaf edərək ən nüfuzlu regional təşkilatlardan birinə çevrilmişdir. Azərbaycan Respublikası regionda iqtisadiyyatın ayrı-ayrı sahələrinin inkişafına dəstək verən və vacib layihələrin maliyyələşdirilməsində fəal iştirak edən Qara Dəniz Ticarət və İnkişaf Bankı ilə əməkdaşlığa xüsusi diqqət yetirir.

Qara Dəniz Ticarət və İnkişaf Bankı Müdirlər Şurasının toplantısının və bu tədbir çərçivəsində keçirilən biznes forumunun Azərbaycanda təşkili sürətli iqtisadi inkişaf dövrünü yaşayan ölkəmiz üçün əlamətdar hadisədir. Məlumdur ki, sosial-iqtisadi tərəqqi yalnız sahibkarlığın inkişafına dövlət dəstəyi və ölkələr arasında qarşılıqlı səmərəli biznes əlaqələrinin mövcudluğu şəraitində mümkündür. Ona görə də biz inanırıq ki, bankın gördüyü işlər regionda əlverişli biznes mü-

hitinin formalaşmasına və nəhəng layihələrin həyata keçirilməsinə təkan verməklə, bütövlükdə ölkələrimizin tərəqqisinə və insanların həyat səviyyəsinin yüksəlməsinə xidmət edir. Əminəm ki, gələcəkdə də işlərin bu istiqamətdə aparılması regionda, o cümlədən Azərbaycanda iqtisadiyyatın inkişafına öz dəyərli töhfəsini verəcəkdir.

Bugünkü tədbirin Qara dəniz və Xəzər dənizi hövzəsində yerləşən ölkələr üçün əhəmiyyətini bir daha vurğulamaqla Sizə işinizdə uğurlar arzulayıram.

*Dərin hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *12 iyun 2006-cı il*

## CORC BUŞ ADMİNİSTRASİYASI APARATININ KEÇMİŞ RƏHBƏRİ CON SUNUNU İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*12 iyun 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 12-də Prezident sarayında ABŞ-ın Nyu-Hempşir ştatının keçmiş qubernatoru, Corc Buş Administrasiyası aparatının sabiq rəhbəri Con Sununu qəbul etmişdir.*

*Söhbət zamanı Azərbaycan–ABŞ ikitərəfli münasibətləri, regional əməkdaşlıq barədə və qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## «*bp*–AZƏRBAYCAN» ŞİRKƏTİNİN PREZİDENTİ DEVİD VUDVORD VƏ «BTC KO» ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU MAYKL TAUNZEND İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*13 iyun 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 13-də Prezident sarayında «bp–Azərbaycan» şirkətinin prezidenti Devid Vudvordu və «BTC Ko» şirkətinin Baş icraçı direktoru Maykl Taunzendi qəbul etmişdir.*

*Devid Vudvord cənab Maykl Taunzendin Azərbaycanda fəaliyyətinin başa çatdığını xatırladaraq, Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəməri layihəsinin həyata keçirilməsində onun uğurlu işini vurğuladı.*

*Prezident İlham Əliyev Maykl Taunzendin xeyli müddətdir Azərbaycanda işlədiyini bildirərək dedi ki, o, möhtəşəm BTC layihəsinin həyata keçirilməsi sahəsində uğurla çalışmışdır. Maykl Taunzend ölkəmizdə gördüyü işlərə və BTC neft kəmərinin çəkilməsi ilə bağlı əldə edilmiş tarixi nailiyyətlərin iştirakçısı olduğuna görə fəxr edə bilər. Əminəm ki, o, Azərbaycanla əlaqələrini bundan sonra da uzun müddət saxlayacaqdır.*

*Dövlətimizin başçısı BTC layihəsinin həyata keçirilməsində xidmətlərinə görə Maykl Taunzendin «Şöhrət» ordeni ilə təltif olunması barədə sərəncam imzaladığını bildirdi və ordeni ona təqdim etdi.*

Maykl Taunzend yüksək mükafata görə prezident İlham Əliyevə təşəkkürünü bildirərək dedi: Bu mənim üçün böyük

şərəfdir. Sizin qeyd etdiyiniz kimi, mən Azərbaycanda həyatımın ən gözəl illərini yaşadım və işlədim. Burada keçirdiyim illər xoş xatirə kimi qəlbimdə daim yaşayacaqdır. Cənab Prezident, Sizə bir daha dərin təşəkkürümü ifadə edirəm.

## ABŞ-ın «HALLİBÖRTN» ŞİRKƏTİNİN PREZİDENTİ VƏ BAŞ İCRAÇI DİREKTORU DEVİD LEZAR İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*13 iyun 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 13-də Prezident sarayında ABŞ-ın «Hallibörtn» şirkətinin prezidenti və Baş icraçı direktoru Devid Lezarı qəbul etmişdir.*

*Qonaq Azərbaycan nefti yüklənmiş ilk tankerin Ceyhan limanından yola salınması münasibətilə prezident İlham Əliyevi təbrik edərək, bunun çox əlamətdar hadisə olduğunu vurğuladı, eyni zamanda, BTC layihəsinin uğurla həyata keçirilməsində rəhbərlik etdiyi şirkətin iştirakından böyük məmnunluq duyduğunu söylədi. O bildirdi ki, BTC kəmərinin istifadəyə verilməsi Azərbaycanın regional liderliyini nümayiş etdirir və dünya enerji bazarı üçün böyük əhəmiyyət kəsb edir. BTC layihəsinin həqiqətən dünya standartlarına tam cavab verdiyini söyləyən cənab Lezar dedi ki, bu bizim şirkətin indiyədək iştirak etdiyi ən yüksək səviyyəli layihələrdən biridir.*

*Prezident İlham Əliyev Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin istifadəyə verilməsini tarixi hadisə adlandıraraq bildirdi ki, uzun illər bu layihə üzərində böyük iş getmiş və onun uğurla həyata keçirilməsinə nail olunmuşdur. İndi Azərbaycan öz neftini Bakı–Supsa, Bakı–Novorossiysk və Bakı–Tbilisi–Ceyhan kəmərləri ilə Avropa və dünya bazarlarına çıxarmaq üçün lazımi imkanlar qazanmışdır. BTC nadir infrastruktura malikdir və üç dənizi – Xəzər, Qara və Aralıq dənizlərini birləşdirir.*

## AVROPA ŞURASI NAZİRLƏR KOMİTƏSİNİN «AQO» QRUPUNUN SƏDRİ ROLAND VEGENERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*13 iyun 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 13-də Prezident sarayında Avropa Şurası Nazirlər Komitəsinin «Aqo» qrupunun sədri Roland Vegenerin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Roland Vegener Avropa Şurasının Azərbaycanda gedən proseslərə diqqət göstərdiyini vurğuladı. O, ölkəmizə əvvəlki səfərlərini məmnunluqla xatırladaraq bu səfərlər zamanı olduqca maraqlı görüşlər keçirdiyini bildirdi. Azərbaycanda təkrar parlament seçkilərinə toxunan qonaq bu seçkilərin çox yaxşı səviyyədə keçdiyini qeyd etdi. Qrupun sədri Azərbaycanla Venesiya Komissiyası arasında seçki qanunvericiliyinin təkmilləşdirilməsi ilə bağlı aparılan məsləhətləşmələri alqışladığını bildirdi.*

*Prezident İlham Əliyev nümayəndə heyətinin Azərbaycana səfərinin əməkdaşlığın hazırkı vəziyyəti və perspektivlərinin müzakirəsi üçün yaxşı imkan yaratdığını vurğuladı.*

*Görüş zamanı qarşılıqlı maraq doğuran bir sıra məsələlərlə bağlı fikir mübadiləsi aparıldı.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ÜZEYİR HACIBƏYOVUN ANADAN OLMASININ 120 İLLİYİNƏ HƏSR EDİLMİŞ MUĞAM KONSERTİNDƏ İŞTİRAK ETMİŞDİR

*Heydər Əliyev adına saray*

*13 iyun 2006-cı il*

*İyunun 13-də Heydər Əliyev adına sarayda Azərbaycan professional musiqisinin banisi, dahi Üzeyir Hacıbəyovun 120 illiyinə həsr edilmiş muğam konserti olmuşdur.*

*Salona toplaşanlar Azərbaycan prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı hərarətli alqışlarla qarşıladılar.*

*Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyətinin Dostları Fondunun təşəbbüsü və dəstəyi ilə təşkil olunmuş konsertdə Xalq artistləri Möhlət Müslümovun (tar) və Fəxrəddin Dadaşovun (kamança) müşayiəti ilə Xalq artistləri Arif Babayev, Ağaxan Abdullayev, Səkinə İsmayılova, Aygün Bayramova və Mənsum İbrahimovun ifasında səslənən muğamlar musiqi xəzinəmizin bənzərsiz incilərinin əzəmətini bir daha nümayiş etdirdi.*

*Üzeyir Hacıbəyovun 120 illiyi ilə əlaqədar «Space» televiziyasının keçirdiyi «Televiziya muğam müsabiqəsi–2005»in finalçılarının – Babək Niftəliyev, Vəfa Orucova, İlkin Əhmədov, Təyyar Bayramov, Qoçaq Əsgərov, Elnur Zeynalov, Elşad Aydınoğlu, Pərvaz İbrahimli, Zülfiyyə Məmmədova, Aytən Məhərrəmova, Bəyimxanım Mirzəyeva və Gülnar İsayevanın məharətli ifaları da xoş təsir bağışladı. Gənc ifaçıları istedadlı musiqiçilər – «Humay» mükafatı laureatları, tarzən Elçin Həşimov və kamançaçalan Elnur Əhmədov, habelə nağaraçalan Kamran Kərimov müşayiət edirdilər.*

*Xalq artisti Alim Qasımovun qızı Fərqanə ilə birgə çıxışı hərarətli alqışlarla qarşılandı.*

*Müvəffəqiyyətlə keçən konsert başa çatdıqdan sonra səhnə arxasına gələn prezident Ilham Əliyev muğam ifaçılarını təbrik etdi.*

**İ l h a m  Ə l i y e v:** Çox gözəl konsert oldu. Hamımız müsabiqəni iki ay ərzində televiziya vasitəsilə izlədik. Bu, böyük hadisədir. Milli sərvətimiz olan muğam sənətimiz yaşayır və nə qədər ki, Azərbaycan xalqı yaşayacaq, muğam sənəti də yaşayacaqdır. Bu gün muğamın yeni dövrü başlayır. Mən hamınıza – həm ustadlara, həm də müsabiqə iştirakçılarına dərin təşəkkürümü bildirmək istəyirəm. Bu konsertdə iki nəsil – həm ustadlarımız, həm də gənclərimiz, uşaqlarımız, balalarımız iştirak edirdilər. Çox gözəl bir konsert oldu. Həqiqətən, bütün salonda əhval-ruhiyyə çox yüksək idi. Ona görə dərin minnətdarlığımı bildirir və sizə gələcək fəaliyyətinizdə uğurlar arzulayıram.

*Xalq artistləri Arif Babayev, Mənsum İbrahimov dövlətimizin başçısına təşəkkür edərək müraciətlə dedilər ki, cənab Prezident, bütün bunlar Sizin sayənizdə mümkün olmuş, hazırda muğamımız bu səviyyəyə yüksəlmişdir. Biz sənət adamlarıyıq. Yaşlılar, cavanlar hamımız deyirik ki, Allah Sizə ömür versin, yüz yaşayasınız. Nə arzularınız varsa, hamısı həyata keçsin.*

*Onlar qədim muğam sənətimizin qorunub-saxlanması, zəngin tarixə malik ifaçılıq sənətinin gələcək nəsillərə çatdırılması, nəhayət, muğamın inkişafı, yeni ifaçılar nəslinin yetişdirilməsi sahəsində Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidenti, YUNESKO-nun Xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevanın gördüyü işləri yüksək qiymətləndirdilər və ona bir daha dərin minnətdarlıqlarını bildirdilər.*

**İ l h a m  Ə l i y e v :** Mehriban xanımın rəhbərlik etdiyi həm Heydər Əliyev Fondu, həm də Azərbaycan Mədəniyyətinin Dostları Fondu tərəfindən müsabiqə təşkil olunmuşdur. Muğam Mərkəzi də tikiləcəkdir. Biz onun təməl daşını bərabər qoyduq.

İndi yaxın zamanlarda tikinti işləri başlayacaqdır və o, Muğam Mərkəzi kimi əbədi yaşayacaqdır.

Sağ olun. Sizə bir daha təşəkkür edirəm.

## BAKININ XƏZƏR RAYONUNUN ZİRƏ VƏ BİNƏ QƏSƏBƏLƏRİNDƏ BİR SIRA OBYEKTLƏRİN AÇILIŞ MƏRASİMİ

*15 iyun 2006-cı il*

*Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva iyunun 15-də Bakının Xəzər rayonunun Zirə və Binə qəsəbələrində bir sıra yeni obyektlərin açılışında iştirak etmişlər.*

*Zirəlilər dövlətimizin başçısını və xanımını qəsəbənin girəcəyində milli memarlıq üslubunda tikilmiş alaqapı önündə səmimiyyətlə, gül-çiçəklə qarşıladılar.*

**V ə s i l ə  A b b a s o v a** (*Qəsəbənin ağbirçək sakini, təqaüdçü müəllimə*): Xoş gəlmisiniz. Milli Qurtuluş günü – bu böyük bayram münasibətilə Sizi təbrik edir, xoş arzularımı bildirirəm. Bu bayramın nəticəsi olaraq yaratdıqlarınız üçün Sizə minnətdarlığımı bildirirəm. Dövlətimizin başında həmişə Sizin kimi qədirbilən rəhbərin olmasını, xalq üçün görülən böyük işlərə hər zaman dayaq olmağınızı arzulayıram. Bu gün çox böyük işlər görürsünüz, nailiyyətlər qazanırsınız. Sizə bu yolda gələcəkdə də uğurlar diləyirəm. Bütün planlarınızın həyata keçəcəyinə ümid bəsləyir, inanırıq.

Mehriban xanım görüşlərin birində bizə söz vermişdi ki, bir neçə ildən sonra qəsəbəni tanınmaz vəziyyətdə, onun yaxşılığa doğru dəyişdiyini görəcəksiniz. İndi artıq bu bizim üçün reallıqdır və onu gözümüzlə görürük. Buna görə bütün qəsəbə sakinləri və məktəbimizin müəllim kollektivi adından dərin minnətdarlığımızı bildirirəm.

*Qəsəbə sakini Nazim Məmmədov rayonda son vaxtlar geniş vüsət alan quruculuq-abadlıq işlərinin sakinlərdə yüksək əhval-*

*ruhiyyə doğurduğunu bildirdi, deputat kimi Mehriban xanımın bu sahədə şəxsi təşəbbüskarlığını xüsusi vurğuladı.*

**İ l h a m Ə l i y e v:** Mən də sizin hamınızı bayram münasibətilə ürəkdən təbrik edirəm. Bu bayram günündə birlikdə olmağımız da çox boyük rəmzi xarakter daşıyır. Çünki Azərbaycanın hər bir yeri, hər bir qəsəbəsi gərək inkişaf etsin.

Bilirsiniz ki, prezident kimi, mən mütəmadi qaydada bölgələrə gedir, vəziyyətlə tanış oluram. Regionların inkişaf proqramı icra edilir. Bu yaxınlarda Bakıətrafı qəsəbələrin də inkişafına dair proqram qəbul olunub və artıq icrasına başlanmışdır. Çünki uzun illər ərzində Bakının xüsusilə uzaqda yerləşən qəsəbələrində o qədər də böyük inkişaf getmirdi. Sosial problemlər, insanların məişət problemləri, təhsil və səhiyyə ilə bağlı problemlər öz həllini gözləyir.

Bu gün artıq bütün Bakıətrafı qəsəbələrin yeni inkişaf dövrü başlayır. Yolların, elektrik xətlərinin çəkilməsi, məktəblər, xəstəxanalar, poliklinikalar, idman komplekslərinin tikilməsi, parkların salınması – bütün bunlar bizim planlarımızda var. Əsas odur ki, indi yerlərdə olan insanlar da gərək bütün bu işlərə ürəklə qoşulsunlar.

Prezident kimi, mən lazım olan bütün qərarları verdim və tədbirləri də görürəm. Millət vəkilləri də bu işlərə qoşulublar. Xəzər rayonunda artıq böyük işlər görülübdür. Ancaq bu, işlərin hələ əvvəlidir. Biz bütün sahələrdə bu işlərin elə bil ki, təməlini qoyuruq. Əminəm ki, bir, iki, üç il ərzində bütün qəsəbələrin görkəmi tamamilə dəyişəcək, insanların həyat səviyyəsi yaxşılaşacaq, qaz, elektrik enerjisi təchizatı ilə bağlı problemlər tamamilə aradan qaldırılacaqdır. Uşaqlar yaxşı məktəblərdə oxumalıdır, əgər insanların müalicəyə ehtiyacı varsa, yüksək tibbi xidmət göstərilməlidir. İnsanın gündəlik həyatda təmasda olduğu bütün məsələlər ən yüksək səviyyədə həll edilməlidir. Bunu etmək üçün, əlbəttə, çox güclü iqtisadi potensial lazımdır. Bu da Azərbaycanda indi yaranır. Azərbaycan indi ən dinamik inkişaf edən ölkədir. Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə tikintisinə başlanmış və bu gün artıq reallığa çevrilmiş Bakı–

Tbilisi–Ceyhan neft kəməri işə düşübdür. Bu bizim üçün həyati əhəmiyyət kəsb edir, yəni tarixi bir hadisədir.

Maaşlar, pensiyalar artırılacaq, bütün başqa sosial bölmələrə daha çox vəsait ayrılacaqdır. Beləliklə, insanlar daha da yaxşı yaşayacaqlar.

**H a c ı  Ə j d ə r** (*Din xadimi, axund*): *Müstəqil Azərbaycan dövlətinin qurucusu, ulu öndər Heydər Əliyevin ruhuna dua oxudu, bu böyük insanın xatirəsini dindarların həmişə hörmətlə yad etdiyini söylədi. Bu əziz bayram günü Zirəyə gələn Azərbaycan prezidentinin qəsəbənin tarixində buraya təşrif gətirən ilk dövlət rəhbəri olduğunu vurğuladı, ölkə başçısına, ailəsinə Allah-taaladan cansağlığı arzuladı. O dedi ki, Mehriban xanım bu qəsəbədə gördüyü işlərə görə artıq hər bir ailənin sevimlisinə çevrilmişdir.*

**İ l h a m  Ə l i y e v:** Azərbaycanın, Bakının hər bir yeri mənim üçün əzizdir, doğmadır. Mən birinci dəfədir ki, Zirəyə gəlmişəm. Eyni zamanda, birinci dəfədir ki, prezident buraya gəlir. Bu, əlamətdar hadisədir. Bundan sonra daha da tez-tez gələcəyəm.

Əlbəttə, bu bölgənin deputatı kimi, Mehriban xanım burada tez-tez olur. Deputat seçilən gündən çox fəal işə başlayıbdır.

* * *

*Sonra prezident İlham Əliyev və Mehriban xanım qəsəbənin mərkəzinə gəldilər. Burada onları gül-çiçək dəstələri ilə səmimiyyətlə qarşıladılar.*

**S a b i r  Ə l i y e v** *(Qəsəbə sakini):* Cənab prezident, Bakı–Tbilisi–Ceyhan neft boru kəmərinin işə düşməsi münasibətilə Sizi və xalqımızı səmimi-qəlbdən təbrik edirəm. Bədxahlarımız bu işə çox şübhə ilə yanaşırdılar. Ancaq ulu öndərin uzaqgörənliyi, zəkası, iradəsi sayəsində bu məsələ öz həllini tapdı və xalqımıza firavanlıq gətirəcəkdir. Heydər Əliyev həmişə bizim fəxrimiz olub. Allah onun ruhunu şad etsin.

**İ l h a m  Ə l i y e v:** Kəmərin istifadəyə verilməsi Azərbaycan üçün tarixi əhəmiyyət kəsb edən ən böyük hadisədir.

Azərbaycan xalqı bundan sonra uzun illər, onilliklər ərzində firavan yaşayacaqdır.

**G ü l z a r  Q o c a y e v a** (*müəllimə*): Hörmətli Prezident və nəinki Azərbaycan xalqı, bütün Zirə camaatı tərəfindən çox sevilən, bu rayonun hər bir qəsəbəsində həmişə səbirsizliklə gözlənilən, bəlkə də dünya azərbaycanlı qadınlarının lideri olan Mehriban xanım, mən sizi yaşı min illəri ötən qədim Zirənin bütün sakinləri adından səmimi salamlayıram. Bu gün hər yerdə sizi sevirlər, hər yerdə səmimiyyətlə gözləyirlər. Qəsəbəmizə xüsusi diqqət və qayğınız göz qabağındadır. Bu gün elə burada olmağınız bizim hədsiz sevincimizə səbəb olur. Doğrudan da, hamımızın qəlbi böyük iftixar hissi ilə döyünür. Milli Qurtuluş günü müna0sibətilə sizi səmimi-qəlbdən təbrik edirik, sizə uzun ömür, cansağlığı arzulayırıq.

*Zirəlilər camaatın yekdil arzusu ilə Mehriban xanımı qəsəbənin fəxri sakini seçdiklərini bildirdilər.*

*Azərbaycan prezidenti və xanımı Zirədə doğulub boya-başa çatmış Xalq rəssamı, onlarca gəncə rəssamlığın sirlərini öyrətmiş istedadlı pedaqoq Baba Əliyevin qəsəbədə Heydər Əliyev Fondunun təşəbbüsü ilə qoyulmuş xatirə lövhəsinə baxdılar. Rəssamın ailə üzvləri dövlətimizin başçısına və xanımına minnətdarlıqlarını bildirdilər və Baba Əliyevin çəkdiyi avtoportreti xatirə olaraq Heydər Əliyev Fonduna bağışladılar.*

*Dövlətimizin başçısı və xanımı qəsəbə sakinləri ilə xatirə şəkli çəkdirdilər.*

*Mehriban Əliyeva Azərbaycan prezidentinə məlumat verərək dedi ki, son dəfə mən sakinlərlə görüşəndə bildirmişdilər ki, Zirədə xəstəxana yoxdur. İndi bu, dövlət proqramına salınıbdır. Qarşısında dayandığımız bu böyük, tikintisi yarımçıq binanın bir hissəsində uşaq bağçası olacaq, digər hissəsində isə poliklinika, xəstəxana və doğum evi yerləşəcəkdir. Yəqin ki, tikinti işləri çox qısa zamanda başa çatacaqdır.*

*Mehriban xanım fond tərəfindən bu ərazidə həm də parkın, istirahət guşəsinin salınacağını, ulu öndər Heydər Əliyevin*

*büstünün ucaldılacağını, digər sosial və idman obyektlərinin inşa olunacağını da bildirdi.*

*Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov Azərbaycan prezidentinə tikililərin layihəsi ilə bağlı ətraflı məlumat verdi.*

*Dövlətimizin başçısı tikinti-abadlıq işlərinin vaxtında başa çatdırılması ilə bağlı tapşırıq və tövsiyələrini verdi.*

*Sakinlərin güzəranı, əsas məşğuliyyəti ilə bağlı məsələlərlə maraqlanan prezidentə məlumat verildi ki, işləyən əhalinin 80 faizi Dövlət Neft Şirkətinin müəssisələrində çalışır. Son zamanlar bu strukturda əməkhaqqı bir neçə dəfə qaldırılmışdır. Hər ailənin torpaq sahəsi var, fərdi təsərrüfatla da məşğul olurlar.*

* * *

*Sonra prezident İlham Əliyev və Mehriban xanım Əliyeva Binə qəsəbəsinə gəldilər.*

*Ölkəmizin başçısı və xanımı qəsəbənin girəcəyində Heydər Əliyev Fondunun təşəbbüsü ilə tikilmiş alaqapıya baxdılar. Burada istirahət guşəsi yaradılmış, oturacaqlar qoyulmuş, su xətti çəkilmişdir.*

*Dövlətimizin başçısı Xəzər rayonunun elektrik enerjisi ilə təchizatını yaxşılaşdırmaq məqsədi ilə inşa edilmiş yeni yardımçı stansiyada gedən son tamamlama işləri ilə də tanış oldu. Məlumat verildi ki, yaxın beş-altı günə stansiya işə düşəcək və bundan sonra ətraf qəsəbələrin elektrik enerjisinə olan tələbatı da tam ödəniləcək, digər yardımçı stansiyalarda əlavə yüklənmə olmayacaqdır.*

*Azərbaycan prezidenti İlham Əliyev Binə qəsəbəsində elektrik enerjisi çatışmazlığının aradan qaldırılması üçün görülən işləri müsbət dəyərləndirdi, ümumiyyətlə, Bakıətrafı qəsəbələrin elektrik enerjisi ilə etibarlı, fasiləsiz təminatı üçün bir sıra sənədlər imzaladığını, bu məsələnin tam həllini tapması üçün «Azərenerji»nin qarşısında ciddi vəzifələr qoyulduğunu, respublika hökumətinin də bu işlərə yardımçı olacağını bildirdi.*

*Əsaslı təmir olunmuş, şəhid Ərəstun Bəylərovun adını daşıyan 70 nömrəli uşaq bağçası–körpələr evinin kollektivi dövlətimizin başçısını və xanımını gül-çiçəklə qarşıladı.*

*Uşaq bağçası ilə tanışlıq zamanı prezidentə məlumat verildi ki, qəza vəziyyətində olan bu təlim-tərbiyə ocağı deputat Mehriban Əliyevaya müraciətdən sonra yenidən quruldu, musiqi salonu tikildi, müasir avadanlıq alındı. İndi əlavə qruplar da açılacaqdır, uşaqların sayı 100-dən çox olacaqdır. Bunun üçün artıq hər cür şərait vardır.*

*Buraya toplaşan valideynlər, tərbiyəçilər uşaqlara göstərilən diqqət və qayğıya görə kollektiv adından prezidentə və xanımına minnətdarlıq etdilər, onlara nəvə görməyi arzuladılar.*

*Sonra prezident İlham Əliyev və Mehriban xanım Binə qəsəbəsində 1176 şagird üçün orta məktəb binasının təməlqoyma mərasimində iştirak etdilər.*

*Təhsil naziri Misir Mərdanov məlumat verdi ki, əvvəllər dərslər bir-birindən uzaqda yerləşən iki binada keçirilirdi, bu da tədrisin səviyyəsinə mənfi təsir göstərir, obyektiv çətinliklər yaradırdı. Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə həyata keçirilən «Yeniləşən Azərbaycana yeni məktəb» layihəsinin ikinci mərhələsi çərçivəsində tikiləcək bu bina 2 mərtəbədən ibarət olacaqdır. Yeni məktəbdə sinif, kompüter otaqları ilə yanaşı, Heydər Əliyev muzeyi, kitabxana, ingilis dili kabineti, idman salonu, istilik sistemi, yeməkxana da olacaq, yaxınlıqda futbol meydançası tikiləcək, istirahət guşələri yaradılacaq, bura abad şəhərciyə çevriləcəkdir.*

*Yeni dərs ilinədək Əzizbəyov rayonunda 5 yeni məktəb binası tikiləcək, bununla da rayonda bu sahədə mövcud problemlər həll olunacaqdır. Mayın 9-da təməli qoyulan Türkan məktəbinin tikintisi də sürətlə davam edir. Sentyabrın 15-də paytaxtda yeni avadanlıqla təmin edilmiş 35 yeni məktəbin açılışı olacaqdır.*

*Tikinti işlərini aparan «Rabitə-inşaat» ASC-nin nümayəndələri bildirdilər ki, təhsil ocağı yeni dərs ilinə kimi istifadəyə*

*veriləcəkdir. Bunun üçün təcrübəli işçi qüvvəsi, müasir texnika, tikinti materialları vardır, avadanlığın da əsas hissəsi sifariş edilmişdir.*

*Tikintiyə yerli sakinlər də cəlb olunacaqdır.*

*Mərasimə toplaşan qəsəbə sakinləri bu günü çoxdan həsrətlə gözlədiklərini bildirərək prezident İlham Əliyevə və xanımına təşəkkür etdilər, onlara ən xoş arzularını çatdırdılar. Onlar Mehriban xanımın Heydər Əliyev Fondunun prezidenti, Milli Məclisin deputatı kimi fəaliyyətini yüksək qiymətləndirdilər, seçkiqabağı vədlərinin əksəriyyətini qısa müddətdə yerinə yetirmiş deputatın təcrübəsinin, seçicilərlə ünsiyyət mədəniyyətinin, sadəlik və səmimiyyətinin əsl örnək olduğunu vurğuladılar. 15 iyun Milli Qurtuluş gününün müasir tariximizdəki rolu vurğulanaraq bildirildi ki, Azərbaycanın inkişaf yoluna çıxması, siyasi sabitliyi, iqtisadi tərəqqisi məhz 1993-cü ilin bu günündən – ulu öndər Heydər Əliyevin xalqın təkidli çağırışları ilə ikinci dəfə respublikamızda siyasi rəhbərliyə qayıdışından başlanır.*

**İ l h a m Ə l i y e v:** Doğrudan da bu gün çox tarixi bir gündür. Azərbaycanın yeni inkişaf dövrü məhz iyunun 15-dən sonra başlanmışdır. Əgər keçmişə nəzər salsaq görərik ki, o vaxt Azərbaycan hansı vəziyyətdə idi, hansı proseslər gedirdi. İndi Azərbaycan dünyanın ən sürətli inkişaf edən ölkəsidir. Təkcə iqtisadi cəhətdən yox, eyni zamanda, sosial məsələlərin həllində də böyük nailiyyətlərimiz var.

Bu məktəbin təməlinin qoyulması özlüyündə bunun əyani sübutudur. Bu gün yeni yardımçı stansiyanın açılışı oldu və bir həftədən sonra işə salınacaqdır. Qəsəbədə işıq problemi olmamalıdır. Fondun xətti ilə əsaslı təmir edilmiş uşaq bağçasının açılışı oldu. Mən baxdım, orada uşaqlar üçün çox gözəl şərait var. Bilirsiniz ki, indi Azərbaycanda məktəb tikintisi çox geniş vüsət alıbdır. Keçən il 300-dən çox məktəb tikilibdir. Bu il artıq Bakıətrafı qəsəbələrdə də məktəblərin tikintisi başlayır. Xüsusi proqram var və hər bir qəsəbədə məktəb, uşaq bağçası tikiləcək, bütün başqa məsələlər də öz

həllini tapacaqdır. Fondun xətti ilə keçən il 132 məktəb tikilib, bu il isə 100 məktəb tikiləcəkdir. Bu iş əvvəlcə Heydər Əliyev Fondunun təşəbbüsü ilə başlanmışdı. Sonra biz də bu təşəbbüsə qoşulduq. Gərək Azərbaycanın bütün məktəblərini yüksək dərəcədə şəraitlə təmin edək. Azərbaycanda 4500 məktəb var. Mən Təhsil nazirinin qarşısında vəzifə qoymuşam ki, onların hamısı üçün gərək ya yeni binalar tikilsin, yaxud da binalar əsaslı təmir olunsun. Uşaqlar gərək yaxşı şəraitdə oxusunlar, müəllimlər də gərək yaxşı şəraitdə işləsinlər. Bu çox lazımdır.

* * *

*Sakinlərlə səmimi söhbətdən sonra prezident İlham Əliyev və millət vəkili Mehriban Əliyeva məktəbin layihəsi ilə tanış oldular.*

*Prezident və xanımı Heydər Əliyev Fondunun «Yeniləşən Azərbaycana yeni məktəb» layihəsinə əsasən tikilir. 15 iyun 2006-cı il» sözləri yazılmış kağızı gilizə qoyaraq özülə atdılar, buraya toplaşanların alqışları altında bünövrəyə ilk beton qarışığını tökdülər.*

*Azərbaycan prezidenti əsrin əvvəllərində inşa edilmiş və Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə bərpa işləri artıq başa çatdırılmış Binə məscidi ilə də tanış oldu.*

*Məscidin axundu prezident İlham Əliyevə müqəddəs Qurani-Kərim təqdim etdi.*

*Dövlətimizin başçısı burada görülmüş işləri yüksək qiymətləndirərək dedi ki, məscidin memarlığı da çox gözəldir. Vaxtilə də gözəl tikilibdir. Həm işıqlıdır, həm də gözəl arxitekturası var, hündürdür. Bütün parametrlər dəqiqdir. Çox ağılla tikilib. İndi biz buna yeni həyat veririk. Bizdən sonrakılar da bunu yenidən təmir edəcəklər.*

*Mehriban Əliyeva prezidentə müraciətlə dedi ki, məscid Azərbaycanın tarixi abidələri siyahısına salınıbdır. Ona görə də Sizin icazənizlə, bu barədə sənədi məscidin axunduna təqdim*

*etmək istəyirəm. Səlim Müslüm məscidi artıq tarixi abidə kimi, dövlət tərəfindən qorunur.*

*Dövlətimizin başçısı vurğuladı ki, indi məscid artıq qanuni şəkildə tarixi abidədir.*

*Din xadimləri dinimizə, müqəddəs ibadətgahlarımıza göstərilən diqqət və qayğıya görə dövlət başçısına və xanımına razılıqlarını bildirdilər, onlara xalqımızın firavanlığı, vətənimizin çiçəklənməsi, tərəqqisi naminə ən xoş arzularını yetirdilər, ulu öndər Heydər Əliyevin ruhuna dua etdilər.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN QAZAXISTANA SƏFƏRİ

*16 iyun 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev «Asiyada qarşılıqlı fəaliyyətə və etimad tədbirlərinə dair müşavirə»də iştirak etmək üçün iyunun 16-da Qazaxıstanın Almatı şəhərinə yola düşmüşdür.*

*Azərbaycan prezidentini Heydər Əliyev adına hava limanında Baş nazir Artur Rasizadə, Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yola saldılar.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 16-da Almatıya gəlmişdir.*

*«Asiyada qarşılıqlı fəaliyyətə və etimad tədbirlərinə dair müşavirə»nin üzvü olan dövlətlərin, o cümlədən Azərbaycanın dövlət bayrağı ilə bəzədilmiş hava limanında prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Milli geyimli uşaqlar dövlətimizin başçısına gül dəstəsi təqdim etdilər.*

*Prezident İlham Əliyevi Qazaxıstanın Xarici İşlər naziri Qasımcomərd Tokayev və digər rəsmi şəxslər ehtiramla qarşıladılar.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ QAZAXISTAN PREZİDENTİ NURSULTAN NAZARBAYEVİN GÖRÜŞÜ

*16 iyun 2006-cı il*

*Qazaxıstan prezidentinin Almatıdakı sarayında Azərbaycan prezidenti İlham Əliyevin və Qazaxıstan prezidenti Nursultan Nazarbayevin görüşü olmuşdur.*

*Dövlət başçıları hər iki ölkənin beynəlxalq imicinin artdığını vurğuladılar.*

*Prezident İlham Əliyev xalqımızın ümummilli lideri Heydər Əliyevin və Qazaxıstan prezidenti Nursultan Nazarbayevin birgə səyləri nəticəsində bünövrəsi möhkəm qoyulan Azərbaycan–Qazaxıstan münasibətlərinin uğurla inkişaf etdiyini söylədi.*

*Qazaxıstan prezidenti Nursultan Nazarbayevin Azərbaycana rəsmi səfərlərinin real töhfələr verdiyini bildirdi.*

*Prezident Nursultan Nazarbayev əlaqələrin daha da inkişafı üçün böyük potensial imkanlar olduğunu, Azərbaycan iqtisadiyyatının sürətli inkişafına qazaxıstanlıların da sevindiyini vurğuladı. Vaxtilə ulu öndər Heydər Əliyevin ən mühüm məsələlərdə Qazaxıstanı hərtərəfli dəstəklədiyini xüsusi qeyd etdi. Xəzərin statusu məsələsində hər iki ölkənin mövqeyinin üst-üstə düşdüyünü bildirən Nursultan Nazarbayev dedi ki, Xəzərlə bağlı işbirliyi regional əməkdaşlığa da əlverişli imkanlar yaradır. Neft-qaz sektorunu uğurla inkişaf etdirən Qazaxıstan Azərbaycanın bu sahədə zəngin təcrübəsindən bəhrələnməkdə maraqlıdır.*

*Dövlət başçıları iqtisadi sahədə, o cümlədən kənd təsərrüfatı sahəsində əməkdaşlığın genişləndirilməsi üçün böyük potensial imkanların olduğunu vurğuladılar.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsinə dair də ətraflı fikir mübadiləsi aparıldı.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ RUSİYA PREZİDENTİ VLADİMİR PUTİNİN GÖRÜŞÜ

*Almatı,*
*«Almalı» iqamətgahı*

*16 iyun 2006-cı il*

*Prezident İlham Əliyevlə Almatıda görüşməyindən məmnunluğunu bildirən prezident Putin dedi ki, biz nəinki tez-tez görüşürük, həm də ölkələrimiz arasında ikitərəfli əlaqələr sürətlə inkişaf edir. Bu əlaqələr iqtisadi və humanitar sahələrdə xüsusilə uğurludur. Bütün bunlar Azərbaycan rəhbərliyinin illər boyu tutduğu düzgün istiqamət nəticəsində mümkün olmuşdur. Mən buna görə Sizə minnətdaram. Bizim münasibətlərimizin həcmini nəzərə alsaq, bugünkü görüş çox məhsuldar xarakter daşıyır.*

*Səmimi sözlərə görə təşəkkür edən Azərbaycan prezidenti İlham Əliyev Rusiya rəhbəri ilə yenidən görüşməyindən çox şad olduğunu bildirdi. Dövlətimizin başçısı dedi ki, sonuncu dəfə Azərbaycanda «Rusiya İli»nin açılışı zamanı görüşmüş və ikitərəfli məsələləri müzakirə etmişdik. Hazırda Rusiya İli çox uğurla davam edir. Ölkələrimiz arasında əlaqələr müsbət istiqamətdə inkişaf edir və bundan çox məmnunuq. Əlaqələr bütün istiqamətlərdə, o cümlədən siyasi sahədə də inkişaf edir. Ölkələrimiz arasında ticarət dövriyyəsi də iki dəfə artıb və bunun daha da genişləndirilməsi üçün yeni imkanlar var. Humanitar sahədə də çox yaxşı əməkdaşlığın mövcud olduğunu bildirən prezident İlham Əliyev dedi ki, Rusiya ilə münasibətlər bizim üçün prioritet xarakter daşıyır. Ölkələrimiz arasındakı dinamik inkişafdan məmnunuq. Bu münasibətlər dostluq, qardaşlıq, qonşuluq və tərəfdaşlığa əsaslanır.*

# QAZAXISTANIN BTC-yə QOŞULMASI HAQQINDA MÜQAVİLƏNİN İMZALANMASI MƏRASİMİ

*Almatı,*
*«Almalı» iqamətgahı*

*16 iyun 2006-cı il*

*Dövlət başçılarının görüşü başa çatdıqdan sonra Prezident sarayında «Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası arasında neftin Qazaxıstan Respublikasından Xəzər dənizi və Azərbaycan Respublikasının ərazisi ilə Bakı–Tbilisi–Ceyhan sistemi vasitəsilə beynəlxalq bazarlara nəql edilməsinə dəstək verilməsi və şərait yaradılması haqqında» müqavilənin imzalanması mərasimi oldu. Müqaviləni Azərbaycan prezidenti İlham Əliyev və Qazaxıstan prezidenti Nursultan Nazarbayev imzaladılar.*

*Müqavilə imzalandıqdan sonra dövlət başçıları kütləvi informasiya vasitələrinin nümayəndələri üçün brifinq keçirdilər.*
*Prezidentlər brifinqdə bəyanatlarla çıxış etdilər.*

## Qazaxıstan prezidenti Nursultan Nazarbayevin bəyanatı

Hörmətli xanımlar və cənablar!
Kütləvi informasiya vasitələrinin hörmətli nümayəndələri!
İndi biz Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə çox mühüm, səmimi danışıqlar apardıq. Elə indicə, sizin gözləriniz qarşısında Qazaxıstan neftinin Bakı–Tbilisi–

Ceyhan boru kəməri ilə nəqlinə şərait yaradılması haqqında müqavilə imzaladıq. Bu çox mühüm müqavilədir və biz onu uzun müddət işləyib hazırlamışıq. Mütəxəssislərimiz yaxşı işlədilər və sənədin imzalanmasını mümkün etdilər.

Müqavilənin əhəmiyyətini lazımınca qiymətləndirmək çətindir. Xəzər dənizinin hər iki tərəfindən məhz Qazaxıstan və Azərbaycan Mərkəzi Asiya regionunun dövlətləri ilə ticarət üçün əsas birləşdirici vasilədir, ən başlıcası isə, neftin nəqli üçün biz Rusiya və Çin istiqamətləri ilə yanaşı, üçüncü yolu da əldə edirik. 2015-ci ilədək Qazaxıstanda neft hasilatının getdikcə artacağı bu yolun da işləməsini zərurətə çevirir. Müqaviləyə uyğun olaraq 2010-cu ilədək Xəzərin həm Qazaxıstan, həm də Azərbaycan sahilində infrastruktur obyektləri tikiləcək – mən yeni terminalları, tankerlərlə nəql-etmə üçün yeni imkanları nəzərdə tuturam. Bütün bunlara müvafiq vəsait qoyulacaqdır. Sonra neftin getdikcə artan həcmdə miqdarı müəyyənləşdiriləcək, neft Qazaxıstan üçün çox vacib olan bu boru kəməri ilə nəql ediləcəkdir.

Hesab edirəm ki, bu, ənənəvi surətdə dost olan, bir-birinə həmişə səmimiyyətlə yanaşan, ümumi kökləri, ümumi mədəniyyəti olan dövlətlərimizin qarşılıqlı münasibətlərində çox mühüm tarixi hadisə, ticarətimizin yüksək sürətlə artması üçün vacib imkandır.

İlham Heydər oğlu, mən Sizi bu müqavilə münasibətilə təbrik edir və salamlayıram, bu müşavirədə iştirak etmək üçün gəldiyinizə görə Sizə təşəkkürümü bildirirəm.

## Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli xanımlar və cənablar!

İlk növbədə Qazaxıstana dəvətə görə hörmətli Qazaxıstan prezidenti Nursultan Abışoviç Nazarbayevə təşəkkür etmək istərdim. Bu mənim üçün çox vacibdir. İkitərəfli münasibətlərə, regional əməkdaşlığa dair məsələlərin olduqca geniş spektri haqqında çox mühüm danışıqlar aparıldı. Enerji təhlükəsizliyi,

kommunikasiya, nəqliyyat, regionda təhlükəsizlik tədbirlərinin gücləndirilməsi məsələləri də, əlbəttə ki, regionda ölkələrimiz arasında sıx qarşılıqlı fəaliyyətdən asılı olacaqdır.

Qazaxıstan neftinin Bakı–Tbilisi–Ceyhan boru kəməri sistemi ilə nəqli haqqında Qazaxıstan ilə Azərbaycan arasında imzalanmış bugünkü dövlətlərarası müqavilə də ölkələrimizin münasibətlərinin yüksək səviyyədə olduğunu bir daha göstərir. Bu, qardaş xalqlar arasında, bir-birinə həmişə kömək etmiş və bu gün də müttəfiqlik nümunəsi olan ölkələr arasında ənənəvi münasibətlərdir.

Bakı–Tbilisi–Ceyhan boru kəmərinin əhəmiyyəti yəqin ki, sonralar özünü göstərəcəkdir. Biz ona doğru çox uzun müddət irəliləmişik. Bu layihənin həyata keçirilməsi üçün Azərbaycanda çox böyük iş görülmüşdür. Boru kəmərinin Azərbaycanın ulu öndəri Heydər Əliyevin adını daşıması təsadüfi deyil, çünki bu layihə məhz onun təşəbbüsü ilə həyata keçirilməyə başlanmışdır. Çoxları onu qeyri-real, mümkün olmayan, kommersiya baxımından səmərəsiz və sair və ilaxır layihə kimi qəbul edirdi. Amma həyat göstərdi ki, bu layihəyə inananlar, onu həyata keçirənlər haqlıdırlar. İndi Bakı–Tbilisi–Ceyhan reallıqdır, Xəzəri Aralıq dənizi ilə ilk dəfə birləşdirən və bununla da Xəzərin enerji ehtiyatlarını dünya bazarlarına çıxarmağa imkan verən nadir nəqliyyat infrastrukturudur. O, ən müasir texnologiyadır və Azərbaycana, Qazaxıstana həmin istiqamətdə milyonlarla ton neft nəql etməyə imkan verəcəkdir. Boru kəmərinin buraxılış gücü hazırda ildə 50 milyon tondur, lakin texniki təkmilləşdirmələr hesabına bu, demək olar, iki dəfə artırıla bilər.

Beləliklə, o, regionun ən iri neft arteriyası olacaqdır. Boru kəməri işə salındıqdan heç bir ay keçməmiş Qazaxıstanın ona qoşulması da bu layihənin nə dərəcədə vacib olduğuna sübutdur. Boru kəməri bu il mayın 28-də, Azərbaycanın Respublika günündə istismara verildi. İndi o işləyir, neftlə doldurulur və gələcəkdə xalqlarımız onun fəaliyyətindən həm iqtisadi cəhətdən, həm müstəqil siyasətimizin möhkəmlənməsi

baxımından, həm də regional əməkdaşlığın inkişafı baxımından və əlbəttə ki, regionda təhlükəsizlik sisteminin möhkəmlənməsi sarıdan ancaq fayda götürəcəklər.

Mənə çox xoşdur ki, bu tarixi gündə biz regionun dinamik inkişafını, enerji ehtiyatlarının dünya bazarlarına çatdırılmasının alternativ yolunu on illərlə öncədən müəyyənləşdirən bir sənəd imzaladıq.

İndi enerji təhlükəsizliyi məsələləri ön sıraya keçir. Ona görə də Qazaxıstanın və Azərbaycanın səylərini birləşdirmək bizim üçün də, ümumən regional layihələr üçün də çox vacibdir.

Bu mühüm tarixi hadisə münasibətilə Qazaxıstan prezidenti Nursultan Abışoviç Nazarbayevi, habelə Qazaxıstan və Azərbaycan xalqlarını təbrik etmək istəyirəm.

## AQFETM-in II SAMMİTİNDƏ* AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI

*Almatı,*
*«Regent Ankara» mehmanxanası*

*17 iyun 2006-cı il*

Hörmətli cənab sədr!
Hörmətli dövlət və hökumət başçıları!
Xanımlar və cənablar!

İlk növbədə, bizə göstərilmiş qonaqpərvərliyə görə və sammitin gözəl təşkilinə görə Nursultan Abışoviç Nazarbayevə təşəkkür etmək istərdim.

Biz «Asiyada qarşılıqlı fəaliyyətə və etimad tədbirlərinə dair müşavirə»nin II sammitini dövlətlərimizin səylərini daha da əlaqələndirmək, regionda təhlükəsizlik tədbirlərini gücləndirmək, habelə səmərəli iqtisadi əməkdaşlığı qaydaya salmaq işində çox mühüm hadisə kimi qiymətləndiririk.

Asiya regionu dünyanın ən dinamik inkişaf edən regionudur. Bu gün və gələcəkdə onun inkişaf perspektivləri bütün sahələrdə daha səmərəli əməkdaşlıq üçün yeni imkanlar açacaqdır. Ölkələrimiz arasında siyasi əlaqələr yüksək səviyyədədir, bizi regional məsələlər bağlayır. İstərdik ki, iqtisadi

---

* Sammitdə Çin Xalq Respublikasının sədri Xu Szintao, Rusiya prezidenti Vladimir Putin, Özbəkistan prezidenti İslam Kərimov, Pakistan prezidenti Pərviz Müşərrəf, Tacikistan prezidenti İmaməli Rəhmon, Əfqanıstan prezidenti Həmid Kərzai, Qırğızıstan prezidenti Kurmanbek Bakiyev, Tailandın Baş naziri Taksin Çinavat, Türkiyə Baş nazirinin müavini, Xarici Işlər naziri Abdullah Gül, İsrail Baş nazirinin müavini Şimon Peres, Monqolustan, İran nümayəndələri və başqaları çıxış etdilər.

əməkdaşlıq məsələlərində də böyük nailiyyətlər və irəliləyiş olsun. Bu baxımdan, planlaşdırdığımız mühüm nəqliyyat layihələrinin həyata keçirilməsi regional inkişaf üçün tamamilə yeni şərait yarada bilər. Bu isə regionumuzda təhlükəsizlik və sabitlik tədbirlərini möhkəmləndirməyin mühüm elementidir. Azərbaycan öz növbəsində nəqliyyat, kommunikasiya layihələrində mühüm rol oynamağa hazırdır. Biz Şərq–Qərb nəqliyyat dəhlizi layihəsində fəal iştirak edirik. Tarixi İpək Yolunun bərpası ilə bağlı məsələlər regional inkişaf üçün, habelə Avropa ilə Asiya arasında əlaqələr üçün böyük maraq doğurur. Hazırda biz Avropa ilə Asiya arasında dəmir yolu əlaqəsi sisteminin möhkəmləndirilməsinə dair mühüm layihə üzərində fəal işləyirik. Bu baxımdan məhz Azərbaycan elə bir ölkədir ki, Asiya ilə Avropa arasında bu təbii körpü buradan keçir. Bizim vəzifəmiz bu strukturu möhkəmlətməkdən, tərəfdaşlarımız üçün sərfəli şərait yaratmaqdan və bununla da ölkələrimizin potensialını tam işə salmaqdan ibarətdir. Biz Şimal–Cənub nəqliyyat dəhlizinə də çox böyük əhəmiyyət veririk. Azərbaycan bunda da kifayət qədər fəal iştirak edir və özünün infrastrukturunu bütünlüklə tərəfdaş ölkələrin sərəncamına verməyə hazırdır.

Hər bir dövlətin inkişafı ancaq sabitlik şəraitində mümkündür. Dövlətlərimizin müsbət nümunəsi göstərir ki, sabitlik olan yerdə, ictimai konsensus olan yerdə inkişaf da var. Ölkələrimizin iqtisadiyyatlarının sürətlə inkişafı buna əyani sübutdur. Lakin regionumuzda böyük təhlükə də var. Bu gün artıq bu barədə danışıldı. Bu, ilk növbədə, beynəlxalq terrorizmdir. O, əslində bütün planlarımızı alt-üst edə və sonu bəlli olmayan nəticələrə gətirib çıxara bilər. Təcrübə göstərmişdir ki, bu bəla ilə təklikdə mübarizə aparmaq mümkün deyildir. Bu məsələdə bütün dövlətlərin səylərini sıx birləşdirmək lazımdır, vahid yanaşma lazımdır, ikili standartlardan qurtarmaq lazımdır. Terrorizmin milliyyəti yoxdur, dini yoxdur, ona görə də bu məsələyə vahid mövqedən yanaşmaq üçün çox ciddi səylər gərəkdir. Pis terror təşkilatları,

bitərəf terror təşkilatları ola bilməz, onların hamısına eyni mövqedən yanaşılmalıdır. Terrorizmdən ziyan çəkən ölkə kimi, Azərbaycan terrorizmlə mübarizə ilə bağlı bir çox tədbirlərdə iştirak edir. Biz bu istiqamətdə gələcəkdə də işləyəcəyik. Erməni terror təşkilatları ölkəmizdə 32 terror aktı törətmiş və bunun nəticəsində iki min günahsız vətəndaşımız həlak olmuşdur. Terrorizmin xalqımıza vurduğu ağrı-acılar yaxşı məlumdur. Ona görə də bir daha demək istəyirəm ki, yalnız birgə səylər, vahid yanaşma bu bəlanı aradan qaldırmağa imkan verə bilər.

Regionumuzdakı həll edilməmiş münaqişələr də sabitlik üçün potensial və praktiki təhlükə törədir. Azərbaycan Ermənistanın təcavüzü nəticəsində ərazisinin 20 faizi işğal altında olan ölkədir və bu işğal artıq 10 ildən çoxdur davam edir. Azərbaycanlılara qarşı həyata keçirilmiş etnik təmizləmə nəticəsində hazırda bir milyondan çox vətəndaşımız qaçqın və məcburi köçkün vəziyyətindədir. Biz ümid edirik ki, nüfuzlu beynəlxalq təşkilatların Ermənistan–Azərbaycan münaqişəsi ilə bağlı qətnamələri yerinə yetiriləcəkdir. Təəssüf ki, BMT-nin dörd qətnaməsi indiyədək yerinə yetirilməyibdir. Bu qətnamələrdə bütün işğalçı qüvvələrin Azərbaycan ərazisindən qeyd-şərtsiz çıxarılması tələb olunur. Ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı prinsipi beynəlxalq hüququn hamılıqla qəbul olunmuş prinsipidir və ona dönmədən əməl edilməlidir. O ki qaldı ölkələrimizin ərazilərindəki azlıqların təhlükəsiz yaşaması məsələsinə, onların, demək olar, hər birində milli azlıqlar var. Lakin azlıq olmaq hələ o demək deyil ki, ərazinin azlıq yaşayan hissəsinin ayrılmasını tələb etmək və davakar separatçılıq siyasəti yürütmək lazımdır. Bu gün qəbul ediləcək bəyannamədə bu barədə çox aydın bəhs edilir. Ərazi bütövlüyü, separatçılıqla mübarizə regional inkişafın və təhlükəsizliyin dəyişməz elementləridir. Çünki separatçılıq meyllərinə göz yumulsa, bu məsələdə də ikili standartlardan çıxış edilsə, bir yerdə ərazi bütövlüyünün pozulması mümkün, digər yerdə qeyri-mümkün sayılsa, onda bu, bir çox ölkələr və

bütün dünya üçün fəlakətli nəticələrə gətirib çıxaracaqdır. Ona görə də bunun üzərində çox ciddi düşünmək və belə məsələlərin həllinə vahid mövqedən yanaşmaq lazımdır. Dünyada muxtariyyətlərin çox müsbət təcrübəsi mövcuddur. Muxtariyyətlər Asiya regionunda da, Avropa regionunda da var. Odur ki, bu cür hər bir münaqişə yalnız və yalnız beynəlxalq hüquq normaları çərçivəsində, etimad tədbirlərinin möhkəmləndirilməsi şəraitində həll olunmalıdır.

Azərbaycan regional əməkdaşlıq məsələlərində iştirakına özünün xarici siyasətinin çox mühüm elementi kimi baxır. Biz hesab edirik ki, gələcəkdə Asiya regionunda əməkdaşlıq genişlənəcək, inkişaf edəcək, ölkələrimizin həm iqtisadi potensialı, həm də qarşılıqlı siyasi fəaliyyəti buna təkan verəcəkdir. Biz öz tərəfimizdən bütün regional layihələrə fəal qoşulmağa hazırıq və bunlarda iştirak etmək niyyətindəyik.

Diqqətinizə görə təşəkkür edirəm.

* * *

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 16-da onun üçün ayrılmış iqamətgahda – «Regent Ankara» mehmanxanasında İsrail Baş nazirinin müavini Şimon Peresi qəbul etmişdir.*

*Şimon Peres xalqımızın ümummilli lideri Heydər Əliyevlə görüşlərini məmnunluqla xatırlatdı.*

*Görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər barədə fikir mübadiləsi aparıldı.*

* * *

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 16-da onun üçün ayrılmış iqamətgahda – «Regent Ankara» mehmanxanasında Fələstin Azadlıq Təşkilatı İcraiyyə Komitəsinin üzvü Məhəmməd Səəd Audiyanı qəbul etmişdir.*

*Görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər barədə ətraflı fikir mübadiləsi oldu.*

* * *

*«Asiyada qarşılıqlı fəaliyyətə və etimad tədbirlərinə dair müşavirə»nin II sammitində iştirak etmək üçün Qazaxıstanda səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 17-də Vətənə yola düşmüşdür.*

*Dövlətimizin başçısını Almatının hava limanında Qazaxıstan hökumətinin yüksək vəzifəli şəxsləri səmimiyyətlə yola saldılar.*

*Prezident İlham Əliyev həmin gün axşamüstü Bakıya qayıtdı.*

## BAKIDA İSLAM KONFRANSI TƏŞKİLATININ ÜZVÜ OLAN ÖLKƏLƏRİN XARİCİ İŞLƏR NAZİRLƏRİ ŞURASININ 33-cü SESSİYASINDA* NİTQ

*«Gülüstan» sarayı*

*19 iyun 2006-cı il*

*İyunun 19-da Bakıda, «Gülüstan» sarayında İslam Konfransı Təşkilatının (İKT) üzvü olan ölkələrin Xarici İşlər Nazirləri Şurasının 33-cü sessiyası işə başlamışdır.*

*Azərbaycan prezidenti İlham Əliyev sessiyada iştirak etmişdir.*

*Sessiyanın açılışından əvvəl müqəddəs Qurani-Kərimdən ayə oxundu. Şuranın 32-ci sessiyasına sədrlik etmiş Yəmənin Xarici Işlər naziri Əbubəkr Abdulla əl-Qirbi sessiyanı açaraq Azərbaycan prezidentini və iştirakçıları salamladı, bu tədbirin yüksək səviyyədə təşkil olunmasına görə dövlətimizin başçısına dərin minnətdarlığını bildirdi. O, sessiyanın gündəliyi barədə məlumat verdi. Üç gün davam edən sessiyanın işində 57 ölkənin nümayəndələri iştirak edirdilər. Sessiyanın sonunda Bakı Bəyannaməsi qəbul olundu.*

*Azərbaycan prezidenti İlham Əliyev sessiyada nitq söylədi.*

**İ l h a m Ə l i y e v:** Hörmətli cənab Baş katib!

Hörmətli nazirlər, nümayəndə heyətlərinin başçıları!

Əziz qonaqlar!

---

* Yəmənin Xarici İşlər naziri Əbubəkr Abdulla əl-Qirbi, Malayziyanın Xarici İşlər naziri Seyid Həmid Cəfər Albar, İslam Konfransı Təşkilatının Baş katibi İkmaləddin İhsanoğlu, Azərbaycan Xarici İşlər naziri Elmar Məmmədyarov sessiyada məruzə etdilər.

Mən sizin hamınızı ürəkdən salamlayıram və Azərbaycana «Xoş gəlmisiniz» deyirəm.

Biz İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin Xarici İşlər Nazirləri Şurasının 33-cü sessiyasının Azərbaycanda keçirilməsinə böyük əhəmiyyət veririk. İlk dəfədir ki, Azərbaycanda belə mötəbər görüş keçirilir. Əlbəttə, çox istəyirik ki, sessiya zamanı aparılan müzakirələr, fikir mübadiləsi bizim işimizi daha da təkmilləşdirsin, aramızda olan əlaqələri daha da möhkəmləndirsin. Mən şübhə etmirəm ki, qəbul ediləcək qərarlar, o cümlədən Bakı Bəyannaməsi bizim işimizə çox böyük töhfə verəcəkdir.

İslam Konfransı Təşkilatı öz mövqelərini möhkəmləndirir, dünyada gedən proseslərə təşkilatın təsir imkanları artır və əlbəttə ki, bu bizi çox sevindirir. Aramızda olan qardaşlıq, dostluq əlaqələri, həmrəylik bizi daha da gücləndirir. Siyasi müstəvidə bizim əlaqələrimiz çox yüksək səviyyədədir. İkitərəfli əlaqələrlə yanaşı, biz çoxtərəfli formatda müxtəlif beynəlxalq tədbirlərdə, müxtəlif regional əməkdaşlıq layihələrində uğurla iştirak edirik. Əlbəttə, çox istərdik ki, bizim aramızda bütün sahələrdə əlaqələr möhkəmlənsin. İlk növbədə iqtisadi sahədə. Çünki müasir dünyada iqtisadi imkanlar, iqtisadi potensial, əlbəttə ki, ölkənin gücünü müəyyən edir, təsir imkanlarını genişləndirir. Biz öz fəaliyyətimizlə çalışmalıyıq ki, bir-birimizin iqtisadiyyatına dəstək verək, onu gücləndirək. Bunu etmək üçün, şübhəsiz, qarşılıqlı ticarət əlaqələri daha da genişlənməlidir. Mən ümid edirəm ki, bugünkü görüş bu sahədə gələcəkdə görüləcək işlərə çox mühüm təkan verəcək və təşkilatın üzvü olan dövlətlər arasında bütün sahələrdə əməkdaşlıq daha da möhkəmlənəcəkdir.

Eyni zamanda, bu sessiyada bizi narahat edən məsələlər də müzakirə olunacaq və biz öz mövqeyimizi bildirməliyik. Dünyada gedən proseslər bəzi hallarda bizi narahat edir. İlk növbədə, bəzi ölkələrin kütləvi informasiya vasitələrində və müəyyən siyasi dairələr tərəfindən islamı terrorizmlə eyniləşdirmək cəhdləri bizi çox üzür, narahat edir və hiddətləndirir.

Biz buna heç cür imkan verə bilmərik. İslamı terrorizmlə eyniləşdirmək olmaz. İslam sülh dinidir, mehribanlıq dinidir, dözümlülük dinidir. Azərbaycan özü terrorun qurbanıdır. Erməni terror təşkilatları bizə qarşı 30-dan çox terror aktı törətmişlər. Bu terror aktları nəticəsində 2 mindən artıq azərbaycanlı həlak olmuşdur. Ancaq biz bu terrorçu təşkilatları hər hansı bir dinə bağlamırıq. Bu, düzgün deyildir. Terrorizmin nə dini var, nə də milliyyəti. Ona görə biz bu məsələlərə öz etirazımızı daha da inamla bildirməliyik, öz sözümüzü deməliyik. Eyni zamanda, gərək bütün təbliğat imkanlarımızdan istifadə edərək çox böyük narahatlıq doğuran bu mənfi meylə münasibətimizi bildirək, öz hərəkətlərimizlə bunun qarşısını alaq.

Bizi narahat edən digər məsələ bəzi ölkələrdə islama nifrət meyllərinin güclənməsidir. Biz indi sivilizasiyalar arasında dialoqdan çox danışırıq, amma əslində, real həyatda bunun əksini görürük. Onu görürük ki, müxtəlif ölkələrdə dini zəmində ayrı-seçkilik halları artır, islam dininə mənsub olan insanlara münasibət bəzi hallarda lazımi səviyyədə deyil və bu dini ayrı-seçkiliyə heç cür yol verə bilmərik. İndi biz qloballaşmadan söhbət açırıq, sivilizasiyalar arasında dialoqdan söhbət açırıq, demokratik dəyərlərə daha da sürətlə yiyələnirik. Belə olan halda biz hər hansı bir zəmində – dini, yaxud da ki, milli zəmində ayrı-seçkiliyin olması, yaxud da hansısa dinin nümayəndələrinə mənfi münasibət göstərilməsi ilə heç cür barışa bilmərik. Mən əminəm ki, İslam Konfransı Təşkilatı ölkələrinin birgə səyləri nəticəsində biz bütün bu məsələlərə dair öz mövqeyimizi bildirəcək, öz sözümüzü deyəcəyik. Ümid edirəm ki, birgə fəaliyyətimiz, müştərək işimiz bizi narahat edən bütün məsələlərə aydınlıq gətirəcək və onların qarşısı alınacaqdır.

Biz bu gün Azərbaycanda yığışmışıq. Mən qeyd etdim, bu bizim üçün çox böyük hadisədir. İlk dəfədir belə mötəbər tədbir Azərbaycanda keçirilir və ümid edirəm ki, siz eyni zamanda, ölkəmizlə də tanış olmaq imkanından istifadə edəcəksiniz. Azərbaycan çox qədim diyardır, çox tarixi bir yerdir. Ancaq müstəqil dövlət kimi gəncdir. Yalnız 15 il bundan əvvəl Azərbaycan

öz dövlət müstəqilliyini bərpa etdi və o gündən bu günə qədər beynəlxalq aləmin üzvü kimi, öz mövqelərini möhkəmləndirir. Bizim müstəqil siyasətimiz Azərbaycan xalqının maraqlarına xidmət edir. Biz müxtəlif regional və beynəlxalq layihələrin iştirakçılarıyıq, onların təşəbbüskarıyıq. Azərbaycanda siyasi sabitlik mövcuddur, vətəndaş həmrəyliyi var. Biz öz iqtisadi potensialımızı çox sürətlə möhkəmləndiririk və iqtisadi artım baxımından Azərbaycan indi dünyada lider dövlətlər sırasındadır. Keçən il ümumi daxili məhsulun artımı 26 faiz təşkil etmişdir. Bu ilin beş ayında təxminən 40 faiz olmuşdur. O cümlədən, sənaye istehsalının artımı da çox yüksək səviyyədədir. Çoxlu iş yerləri açılır, yoxsulluqla mübarizə çox cəsarətlə və sürətlə aparılır. Bir sözlə, Azərbaycan iqtisadi cəhətdən çox dinamik şəkildə inkişaf edən ölkədir və əlbəttə ki, bu bizim qarşımızda yeni imkanlar yaradır, yeni üfüqlər açır. Dünya Birliyinin üzvü kimi, Azərbaycan bütün beynəlxalq təşkilatlarda çox konstruktiv mövqedən çıxış edir. Birləşmiş Millətlər Təşkilatında, bütün başqa təşkilatlarda biz İslam Konfransı Təşkilatının üzvü olan dövlətlərin mövqelərini həmişə müdafiə etmişik və bu siyasət bundan sonra da davam edəcəkdir.

Eyni zamanda onu da qeyd etmək istəyirəm ki, müstəqilliyimizi əldə edəndən sonra bu günə qədər biz həmişə İslam Konfransı Təşkilatının üzvü olan dövlətlərdən dəstək, kömək görmüşük. Beynəlxalq təşkilatlarda Azərbaycanın mövqeyinin müdafiə olunmasında İKT dövlətlərinin səylərini çox yüksək qiymətləndiririk və bu fürsətdən istifadə edib mən bütün nümayəndələrə öz təşəkkürümü bildirmək istəyirəm.

Nailiyyətlərlə yanaşı, əlbəttə ki, sosial, iqtisadi problemlər də mövcuddur və biz bunları həll edirik. Amma elə problemlər var ki, biz onları təkbaşına həll edə bilmirik. Onların ən böyüyü, bizim üçün ən başlıca problem Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsidir. Uzun illərdir ki, Ermənistanın Azərbaycana etdiyi hərbi təcavüz nəticəsində torpaqlarımızın 20 faizi işğal altındadır. Ermənistanın Azərbaycana qarşı etnik təmizləmə siyasəti nəticəsində bir milyondan artıq azərbaycanlı öz doğma dədə-baba

torpaqlarından didərgin düşüb və qaçqın-köçkün kimi yaşayır. Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan torpaqlarının 20 faizində bütün binalar, bütün infrastruktur tamamilə dağıdılıbdır. Ulu babalarımızın qəbirləri, məscidlər, tarixi abidələr, bütün binalar ermənilər tərəfindən yerlə yeksan edilibdir. Bu, misli görünməmiş vandalizmdir. Azərbaycanın üzləşdiyi bu problem, əlbəttə ki, bütün regionda əməkdaşlıq meyllərini azaldır. Biz çalışırıq və ümid edirik, nail olacağıq ki, bu məsələni sülh yolu ilə, danışıqlar yolu ilə həll edək. Biz sülh danışıqlarına sadiqik. Ancaq eyni zamanda, mövcud olan vəziyyətlə də barışa bilmərik. Azərbaycanın ərazi bütövlüyü, Ermənistan istisna olmaqla, bütün dünya tərəfindən tanınır. Birləşmiş Millətlər Təşkilatı bu məsələyə dair dörd qətnamə qəbul edibdir. O qətnamələrdə deyilir ki, erməni silahlı qüvvələri Azərbaycan torpaqlarından qeyd-şərtsiz çıxmalıdır. Fəqət bu qətnamələr icra olunmur. Digər mötəbər beynəlxalq təşkilatların qərarları da bunu tələb edir. O cümlədən İslam Konfransı Təşkilatı, Avropa Şurası, GUAM təşkilatı və bir sıra başqa təşkilatlar bu məsələdə öz açıq, prinsipial mövqelərini ortaya qoyubdur. Ancaq əfsuslar olsun ki, bu qərarların icra mexanizmi yoxdur. Bizi narahat edən ən əsas məsələ odur ki, dünyanın ən mötəbər təşkilatı olan Birləşmiş Millətlər Təşkilatının da qərarların icrası ilə bağlı səmərəli mexanizmi yoxdur. İndi Birləşmiş Millətlər Təşkilatında gedən islahatlar haqqında fikir mübadiləsi aparılır. Hesab edirəm ki, birinci islahat ondan ibarət olmalıdır ki, bütün qəbul edilmiş qərarların icra mexanizmi olsun. Əgər qərar qəbul edilibsə, o icra olunmalıdır. Əgər o ölkə ki, qərarı icra etmir, ona qarşı müəyyən tədbirlər görülməlidir. Bu, Birləşmiş Millətlər Təşkilatının işini daha da təkmilləşdirəcəkdir.

Azərbaycan öz ərazi bütövlüyünün pozulması ilə heç vaxt barışmayacaqdır. Aparılan danışıqlar yalnız və yalnız o təqdirdə sülh sazişinə gətirib çıxara bilər ki, Azərbaycanın ərazi bütövlüyü bərpa edilsin. Mən ümid edirəm ki, biz buna nail olacağıq.

Tarixi baxımdan Dağlıq Qarabağ Azərbaycan torpağıdır, ermənilər oraya XIX əsrin əvvəllərində gəlmişlər. Hüquqi cəhətdən Azərbaycanın ərazi bütövlüyü tanınır və Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir. Siyasi cəhətdən Azərbaycanın mövqeləri daha da möhkəmlənir və beynəlxalq təşkilatların dəstəyi bizim üçün çox əhəmiyyətlidir. O cümlədən, İslam Konfransı Təşkilatının mövqeyi və artan nüfuzu bizim siyasətimizə daha da böyük güc verir. İqtisadi baxımdan Azərbaycan çox sürətlə inkişaf edir. Biz hələ işin əvvəlindəyik, gələcəyimiz çox uğurlu olacaqdır. Bütün hesablamalara görə, Azərbaycanın sürətli iqtisadi inkişafı onu çox zəngin ölkəyə çevirəcəkdir. Bütün bu amillər deməyə əsas verir ki, biz məsələnin həllinə nail olacağıq və mən istəyirəm ki, biz bunu sülh yolu ilə edək. Ancaq eyni zamanda, bütün başqa variantlar da masa üzərində olmalıdır.

Mən fürsətdən istifadə edərək bizim haqq işimizə dəstək verdiyi üçün İslam Konfransı Təşkilatına bir daha öz dərin minnətdarlığımı, təşəkkürümü bildirirəm.

Əlbəttə ki, biz bölgədə gedən proseslərə öz münasibətimizi bildirməliyik. Ancaq və ancaq sülh, təhlükəsizlik, sabitlik şəraitində hansısa inkişafdan söhbət gedə bilər. Əgər müsbət nümunələrə nəzər salsaq görərik ki, hansı ölkədə bu, təmin olunursa, o ölkədə inkişaf da mövcuddur. Biz bu regionda yaşayırıq. Ona görə regionda gedən proseslər, şübhəsiz ki, bizim siyasətimizi müəyyən dərəcədə müəyyənləşdirir. Eyni zamanda, Azərbaycanın siyasəti regionda gedən proseslərə öz təsirini göstərir. Belə olan halda hamımız çalışmalıyıq ki, regionda sülh, təhlükəsizlik tam şəkildə bərqərar olunsun, mümkün olan risklər azalsın. Biz yeni risklərin yaranmasına imkan verməməliyik və bütün məsələləri danışıqlar yolu ilə həll etməliyik. Biz bunun tərəfdarıyıq və belə olan halda bölgədə risklər daha da azalacaqdır. Biz bunu istəyirik. Biz istəyirik ki, ölkələrimiz inkişaf etsin, insanlarımız daha da yaxşı yaşasınlar, daha da savadlı olsunlar. Bizim qarşımızda duran problemlərin biri də təhsillə bağlıdır. İnsanlarımızın maarifləndirilməsi, yüksək biliyə yiyələnməsi çox

önəmli məsələdir və dünyanın gələcəyini müəyyən edir. Bilik, savad, yeni texnologiyaların tətbiq olunması – bütün bunlar bizim üçün önəmli məsələlərdir. Bizim həmrəyliyimiz, bir-birimizi dəstəkləməyimiz, əlbəttə ki, işimizi daha da asanlaşdıracaqdır.

Əziz qonaqlar, bir daha demək istəyirəm: mən çox şadam ki, siz bu gün Azərbaycandasınız, bizə qonaq gəlmisiniz. Bəziləriniz üçün bu, Azərbaycana ilk səfərdir və gözəl fürsətdir ki, Azərbaycanla tanış olasınız. Əminəm ki, İslam Konfransı Təşkilatının üzvü olan dövlətlərlə bundan sonra da əlaqələrimiz daha da möhkəm olacaqdır. Yenə də deyirəm, cəmi 15 ildir ki, Azərbaycan beynəlxalq aləmin üzvüdür. Biz gərək özümüzü tanıdaq, özümüzü təqdim edək, imkanlarımızı təklif edək ki, əməkdaşlıq daha da sürətlə getsin. Azərbaycan İslam Konfransı Təşkilatındakı fəaliyyətini daha da möhkəmləndirmək əzmindədir. Biz hesab edirik ki, təşkilatın çox önəmli rolu var və ümid edirik ki, bu rol artacaqdır. Təşkilat nə qədər möhkəm olsa, bizim mövqeyimiz də bir o qədər güclənəcəkdir.

Mən bir daha sizin hamınızı Azərbaycanda ürəkdən salamlayıram və sessiyanın işinə uğurlar arzulayıram.

Sağ olun.

**SLOVENİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB YANEZ DRNOVŞEKƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Sloveniya arasındakı münasibətlər xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da dostluq və əməkdaşlıq zəminində inkişaf edəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost xalqınıza əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *19 iyun 2006-cı il*

**XORVATİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB STİPE MESİÇƏ**

Hörmətli cənab Prezident!

Xorvatiya Respublikasının milli bayramı – Dövlət elan edilməsi günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından təbrik edirəm.

Əminəm ki, Azərbaycan–Xorvatiya münasibətlərinin ahəngdar inkişafı üçün atdığımız addımlar sayəsində əlaqələrimizin hərtərəfli genişlənməsinə və bütün sahələrdə faydalı əməkdaşlığa nail olacağıq.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Xorvatiya xalqına sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *19 iyun 2006-cı il*

**MOZAMBİK RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB ARMANDU EMİLİU GEBUZAYA**

Hörmətli cənab Prezident!

Milli bayramınız – Müstəqillik günü münasibətilə Sizə və bütün xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Ümidvaram ki, ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı üçün bütün imkanlardan səmərəli istifadə edəcəyik.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Mozambik xalqına sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *19 iyun 2006-cı il*

**CİBUTİ RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB İSMAİL ÖMƏR QULLEHƏ**

Hörmətli cənab Prezident!

Cibuti Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından təbrik edirəm.

Ümidvaram ki, xalqlarımızın xoş məramından irəli gələn dostluq və əməkdaşlıq münasibətlərimiz daim inkişaf edəcək və möhkəmlənəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Cibuti xalqına əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *19 iyun 2006-cı il*

## İORDANİYA KRALLIĞININ XARİCİ İŞLƏR NAZİRİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*19 iyun 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 19-da Prezident sarayında İordaniya Haşimilər Krallığının Xarici işlər naziri Əbdül İlah əl-Xətibi qəbul etmişdir.*

*Görüşdə İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin Xarici İşlər Nazirləri Şurasının 33-cü sessiyasının Azərbaycanda keçirilməsinin böyük əhəmiyyət daşıdığı bildirildi, eyni zamanda, bu mötəbər tədbirin Azərbaycan haqqında geniş məlumatın əldə olunması üçün yaxşı imkan yaratdığı vurğulandı.*

*Söhbət zamanı Azərbaycan ilə İordaniya arasında ikitərəfli münasibətlər barədə fikir mübadiləsi aparıldı.*

## ATƏT-in BAŞ KATİBİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*19 iyun 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 19-da Prezident sarayında ATƏT-in Baş katibi Mark Perrən de Brişambonu qəbul etmişdir.*

*ATƏT-in Baş katibi prezident İlham Əliyevi İslam Konfransı Təşkilatı kimi nüfuzlu qurumun Xarici İşlər Nazirləri Şurasının növbəti sessiyasının Azərbaycanda keçirilməsi münasibətilə təbrik edərək dedi ki, bu, Azərbaycanın beynəlxalq aləmdə gedən proseslərdə yaxından iştirakını bir daha sübut edir.*

*Bu yaxınlarda Rumıniyada keçirilmiş «Dialoq və tərəfdaşlıq naminə» Qara dəniz forumunda iştirakını xatırladan Mark Perrən de Brişambo bildirdi ki, Azərbaycan prezidentinin forumdakı çıxışı iştirakçılarda böyük təəssürat doğurmuşdur.*

*Prezident İlham Əliyev dedi ki, İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin Xarici İşlər Nazirləri Şurasının 33-cü sessiyasının Bakıda keçirilməsi və bu konfransa Azərbaycanın sədrlik etməsi regional və beynəlxalq əməkdaşlıq baxımından ölkəmiz üçün böyük önəm daşıyır.*

*Dövlətimizin başçısı Azərbaycanın müxtəlif nüfuzlu beynəlxalq təşkilatlarla yaxından əməkdaşlıq etməsinin əhəmiyyətini vurğuladı, ölkəmizin çoxşaxəli uğurlu xarici siyasət yeritdiyini bildirdi.*

*Görüş zamanı Azərbaycanın ATƏT ilə əməkdaşlığı və qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər müzakirə edildi.*

## TÜRKİYƏ BAŞ NAZİRİNİN MÜAVİNİ, XARİCİ İŞLƏR NAZİRİ ABDULLAH GÜLÜN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*19 iyun 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 19-da Prezident sarayında Türkiyə Respublikası Baş nazirinin müavini, Xarici Işlər naziri Abdullah Gülün başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Abdullah Gül İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin Xarici İşlər Nazirləri Şurasının 33-cü sessiyasına dost və qardaş Azərbaycanın ev sahibliyi etməsinin böyük əhəmiyyət daşıdığını vurğuladı. O dedi ki, cənab Prezident, Azərbaycana gəlmək, Sizinlə görüşmək, danışmaq bizim üçün hər zaman böyük şərəfdir və bundan məmnunluq duyuruq. Prezident İlham Əliyev belə bir mötəbər tədbirin Azərbaycanda keçirilməsini yüksək qiymətləndirdi və dedi ki, sessiyada iştirak edən nazirlərin bəziləri Azərbaycana ilk dəfədir gəlmişlər. Bu, ölkəmizi tanımaq baxımından çox önəmlidir. Ümid edirəm, bu tədbir İslam Konfransı Təşkilatının fəaliyyətinə gözəl bir töhfə verəcəkdir. Biz bütün məsələlərdə səylərimizi birləşdirməliyik.*

## İRAQIN XARİCİ İŞLƏR ÜZRƏ DÖVLƏT NAZİRİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*19 iyun 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 19-da Prezident sarayında İraqın Xarici İşlər üzrə Dövlət naziri Rafe əl-İssavini qəbul etmişdir.*

*Görüş zamanı İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin Xarici İşlər Nazirləri Şurasının 33-cü sessiyasının Azərbaycanda uğurla keçdiyi bildirildi, xalqlarımız arasında tarixi köklərin mövcudluğu vurğulandı.*

*Dövlətimizin başçısı İlham Əliyev tezliklə İraqda sülhün bərqərar olacağına əminliyini bildirdi, İraq xalqına firavanlıq arzularını çatdırdı.*

## İRANIN XARİCİ İŞLƏR NAZİRİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*19 iyun 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 19-da Prezident sarayında İran İslam Respublikasının Xarici İşlər naziri Mənuçehr Mottəkini qəbul etmişdir.*

*Mənuçehr Mottəki İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin Xarici İşlər Nazirləri Şurasının 33-cü sessiyasının Azərbaycanda yüksək səviyyədə təşkil edilməsi və uğurla keçirilməsi münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırdı.*

*Azərbaycan prezidenti İlham Əliyev bu tədbirin ölkəmiz üçün böyük əhəmiyyət daşıdığını vurğuladı.*

*Görüş zamanı Azərbaycan–İran ikitərəfli münasibətləri ilə bağlı bir sıra məsələlər müzakirə olundu.*

## TAİLANDIN XARİCİ İŞLƏR NAZİRİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*19 iyun 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 19-da Prezident sarayında Tailand Krallığının Xarici İşlər naziri Kantathi Suphamonqkonu qəbul etmişdir.*

*Tailandın xarici siyasət idarəsinin başçısı Azərbaycana ilk dəfə səfər etdiyini və bundan böyük məmnunluq duyduğunu bildirdi. O, İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin Xarici İşlər Nazirləri Şurasının 33-cü sessiyasının Bakıda yüksək səviyyədə keçdiyini və ikitərəfli münasibətlərimizin bundan sonra da genişlənəcəyinə ümidvar olduğunu söylədi.*

*Azərbaycan prezidenti İlham Əliyev ölkələrimiz arasında əlaqələrin daha da genişlənməsi üçün böyük potensial imkanların olduğunu bildirdi. Dövlətimizin başçısı əlaqələrimizin müxtəlif sahələrdə inkişaf edəcəyinə əminliyini vurğuladı.*

*Söhbət zamanı ikitərəfli münasibətlərin müxtəlif sahələrinə dair fikir mübadiləsi aparıldı.*

## İSLAM KONFRANSI TƏŞKİLATININ BAŞ KATİBİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*19 iyun 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 19-da Prezident sarayında İslam Konfransı Təşkilatının Baş katibi Ekmələddin İhsanoğlunu qəbul etmişdir.*

*İKT-nın Baş katibi İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin Xarici İşlər Nazirləri Şurasının 33-cü sessiyasının yüksək səviyyədə təşkilinə və bu tədbirdə dərin məzmunlu nitqinə görə prezident İlham Əliyevə minnətdarlığını bildirdi. O, xalqımızın ümummilli lideri, görkəmli siyasi xadim Heydər Əliyevin tarixi xidmətlərini və 1998-ci ildə İKT-dəki tarixi çıxışını məmnunluqla xatırlatdı.*

*Prezident İlham Əliyev belə önəmli tədbirin ölkəmizdə keçirilməsindən şad olduğunu söylədi və dedi ki, mən böyük xidmətlərinizi nəzərə alaraq bu gün sizi Azərbaycanın yüksək mükafatı – «Şöhrət» ordeni ilə təltif etmişəm.*

*Dövlətimizin başçısı «Şöhrət» ordenini Ekmələddin İhsanoğluna təqdim etdi.*

**LÜKSEMBURQUN BÖYÜK HERSOQU ƏLAHƏZRƏT ANRİYƏ**

Əlahəzrət!

Lüksemburq Böyük Hersoqluğunun milli bayramı – Böyük Hersoqun təvəllüd günü münasibətilə Sizə və bütün xalqınıza ən səmimi təbriklərimizi yetirməkdən məmnunluq duyuram.

Əminəm ki, dost ölkələrimiz arasındakı münasibətlərin hərtərəfli inkişafı üçün qarşılıqlı səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Lüksemburq xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *19 iyun 2006-cı il*

## İSLAM TİCARƏT VƏ SƏNAYE PALATASININ PREZİDENTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*20 iyun 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 20-də Prezident sarayında İslam Ticarət və Sənaye Palatasının prezidenti şeyx Saleh bin Abdullah Kamalı qəbul etmişdir.*

*Görüşdə ölkəmizin İslam Ticarət və Sənaye Palatası ilə əməkdaşlığına dair bir sıra məsələlər barədə fikir mübadiləsi aparıldı.*

# İSLAM TƏHSİL, ELM VƏ MƏDƏNİYYƏT TƏŞKİLATININ BAŞ DİREKTORU İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*20 iyun 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 20-də Prezident sarayında İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının Baş direktoru Əbdüləziz əl-Tuveyjrini qəbul etmişdir.*

*Əbdüləziz əl-Tuveyjri Azərbaycanda keçirilən İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin Xarici İşlər Nazirləri Şurasının 33-cü sessiyasının böyük əhəmiyyəti olduğunu söylədi, təmsil etdiyi təşkilatın fəaliyyəti haqqında məlumat verdi. O, Azərbaycanın müvafiq nazirlikləri və strukturları ilə sıx əlaqə saxladıqlarını, bu əməkdaşlığın bundan sonra daha da genişlənəcəyinə əminliyini bildirdi.*

*Prezident İlham Əliyev ölkəmizdə keçirilən mötəbər tədbirin əhəmiyyətini vurğulayaraq dedi ki, bu, İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin Bakıya gələn xeyli sayda rəsmi nümayəndələrinin Azərbaycanda gedən inkişaf prosesləri ilə yaxından tanış olması üçün yaxşı şərait yaradır.*

*Dövlətimizin başçısı əmin olduğunu bildirdi ki, ölkəmizin müvafiq strukturları ilə İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatı arasında əməkdaşlıq bundan sonra da inkişaf edəcəkdir.*

## BEYNƏLXALQ MİQRASİYA TƏŞKİLATININ BAŞ DİREKTORU İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*20 iyun 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 20-də Prezident sarayında Beynəlxalq Miqrasiya Təşkilatının Baş direktoru Brunson MakKinlini qəbul etmişdir.*

*Brunson MakKinli son illər Azərbaycanda gedən iqtisadi inkişafı xüsusi vurğuladı. O, Bakıya əvvəlki səfərləri zamanı xalqımızın ümummilli lideri Heydər Əliyevlə görüşünü məmnunluqla xatırlayaraq dedi ki, cənab Prezident, o, miqrasiya məsələlərinə xüsusi diqqət yetirirdi. Sizin də bu sahəyə verdiyiniz önəm bizi sevindirir.*

*Prezident İlham Əliyev ölkəmizin beynəlxalq təşkilatlarla, o cümlədən miqrasiya təşkilatı ilə əməkdaşlığın uğurla inkişaf etdiyini bildirdi.*

## DİALOQ VƏ ƏMƏKDAŞLIQ UĞRUNDA İSLAM KONFRANSI GƏNCLƏR FORUMUNUN PREZİDENTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*20 iyun 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 20-də Prezident sarayında Dialoq və Əməkdaşlıq Uğrunda İslam Konfransı Gənclər Forumunun prezidenti Əli Sarıqayanı qəbul etmişdir.*

*Forumun prezidenti İslam Konfransının üzvü olan ölkələrin Xarici İşlər Nazirləri Şurasının 33-cü sessiyasının yüksək səviyyədə təşkil olunduğunu, uğurla davam etdiyini söylədi. O, Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı, təşkilatın yaranması və fəaliyyəti ilə bağlı məlumat verdi.*

*Prezident İlham Əliyev Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, özünün salamlarını Baş nazirə çatdırmağı xahiş etdi.*

## GÖRKƏMLİ QAZAX ŞAİRİ, ALİM VƏ İCTİMAİ-SİYASİ XADİM OLJAS SÜLEYMENOV İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*21 iyun 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 21-də Prezident sarayında görkəmli qazax şairi, alim və ictimai-siyasi xadim Oljas Süleymenovu qəbul etmişdir. Dövlətimizin başçısı İlham Əliyev bildirdi ki, Azərbaycan və Qazaxıstan respublikaları arasında qarşılıqlı əlaqələrin möhkəmləndirilməsindəki xidmətlərinə görə Oljas Süleymenovu ölkəmizin yüksək mükafatı – «Şöhrət» ordeni ilə təltif etmişdir. Prezident İlham Əliyev ordeni Oljas Süleymenova təqdim edərək dedi ki, siz ölkəmizin ən ağır vaxtlarında Azərbaycan xalqının yanında olmusunuz, Azərbaycanın ərazi bütövlüyü məsələsində daim birmənalı mövqe nümayiş etdirmisiniz. Biz bunu unutmuruq və yüksək qiymətləndiririk. Azərbaycan xalqı sizi sevir, sizin yaradıcılığınız və vətəndaşlıq mövqeyiniz böyük hörmətə layiqdir.*

*Yüksək mükafata görə təşəkkürünü bildirən Oljas Süleymenov dedi ki, hər dəfə Azərbaycana gələndə sevinirəm, Azərbaycanın dinamik inkişafını görməyimdən çox məmnunam.*

*Sonra Oljas Süleymenov yenicə çapdan çıxmış kitabını Azərbaycan prezidenti İlham Əliyevə təqdim etdi.*

# BAKI DƏNİZ VAĞZALININ ƏSASLI YENİDƏNQURMADAN SONRA AÇILIŞ MƏRASİMİ

*21 iyun 2006-cı il*

*İyunun 21-də Bakı Dəniz Vağzalının əsaslı yenidənqurmadan sonra açılışı olmuşdur. Azərbaycan prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir. Dövlətimizin başçısı əvvəlcə vağzalın xarici görünüşünü seyr etdi, ətraf ərazidə gedən tikinti, abadlıq işləri ilə maraqlandı.*

*Sonra prezident İlham Əliyev Bakı Dəniz Vağzalının rəmzi açılışını bildirən lenti kəsdi, burada yaradılan şəraitlə yaxından tanış oldu, «Dəniz Vağzalının dünəni və bu günü» fotostendinə baxdı.*

*Xəzər Dəniz Gəmiçiliyinin rəisi dövlətimizin başçısına məlumat verdi ki, bu vağzalın binasının əsası 70-ci ildə xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulmuşdur. Lakin ötən illər ərzində burada təmir işləri aparılmamış, Bakıda baş vermiş zəlzələdən sonra isə binada çatlar əmələ gəlmişdi. 2004-cü ildə Bakı Beynəlxalq Dəniz Ticarəti Limanının daxili imkanları hesabına burada əsaslı yenidənqurma işlərinə başlanmışdır. Müasir standartlara cavab verən, ən yeni avadanlıq quraşdırılmış dəniz vağzalı gün ərzində 1200 sərnişinə xidmət edə biləcəkdir. Burada məlumat bürosu, xəzinədarlıq, valyuta mübadiləsi məntəqəsi, mehmanxana da fəaliyyət göstərir. Hazırda Qazaxıstan, Türkmənistan və Rusiyaya gəmi-bərələr işləyir, iki gəmi isə Neft Daşlarında işləyənlərə xidmət edir. Gələcəkdə yeni gəmilərin alınması da planlaşdırılır. Əvvəllər vağzalda 16 nəfər çalışsa da, indi iş yerlərinin sayı 120-yə çatdırılmışdır.*

*Prezident İlham Əliyev Dəniz Vağzalının 120 nəfərlik ziyafət, 400 yerlik konfrans salonlarını, qonaq və digər xidmət otaqlarını gəzdi, gömrük-sərhəd xidmətinin işi ilə yaxından tanış oldu.*

*Dövlətimizin başçısı binanın ikinci mərtəbəsindən dənizi seyr etdi, vağzalın ətrafında abadlıq işlərinin aparılması, səliqə-sahman yaradılması, paytaxtın dəniz qapılarının imkanlarından səmərəli istifadə olunması barədə müvafiq tapşırıqlar verdi.*

*Sonra prezident İlham Əliyev özünün idarə etdiyi motorlu qayıqla Bakı buxtasında dəniz gəzintisinə çıxaraq, Milli park, Bayıl və Nargin adası istiqamətlərində ərazini nəzərdən keçirdi.*

## RESPUBLİKA TAEKVONDO FEDERASİYASININ RƏHBƏRLİYİ, AVROPA ÇEMPİONATLARINDA MEDAL QAZANMIŞ İDMANÇILAR VƏ ONLARIN MƏŞQÇİLƏRİ İLƏ GÖRÜŞ

*Bakı,*
*Milli Olimpiya Komitəsi*

*21 iyun 2006-cı il*

**İ l h a m  Ə l i y e v:** Mən Azərbaycan idmançılarını təbrik edirəm. İdmanın bu növü bizim ölkəmizdə çox sürətlə inkişaf edir. Taekvondo Federasiyasının uğurları bizi çox sevindirir. Artıq sizin qələbələriniz ənənəvi xarakter daşıyır. Müxtəlif beynəlxalq yarışlarda çox uğurla çıxış edir və Vətənə böyük mükafatlarla qayıdırsınız. Son müddət ərzində bir neçə idmançı Avropa çempionatında fəxri kürsünün ən yüksək pilləsinə qalxmışdır. Beləliklə, bu həm ölkəmizdə taekvondo idman növünün inkişafını təmin edir, eyni zamanda, Azərbaycanın idman şöhrətini ucaldır.

Hamımız yaxşı xatırlayırıq ki, iki il bundan əvvəl Afinada Yay Olimpiya oyunlarında bizim idmançılarımız medallara çox yaxın olmuşdular. Ancaq hakimlərin ədalətsiz qərarlarına görə medal ala bilməmişdik. Amma buna baxmayaraq, mübarizə əzminiz qırılmadı, əksinə, siz o ədalətsizliyə qarşı öz iradənizi ortaya qoydunuz və olimpiadadan keçən dövr ərzində müxtəlif yarışlarda çox yaxşı çıxış etdiniz. Ona görə, bu gün mən bu münasibətlə sizi təbrik etmək istəyirəm. Öz minnətdarlığımı bildirmək istəyirəm ki, siz Azərbaycanın bayrağını həmişə yüksəklərdə saxlayırsınız və qələbə ənənələri davam edir.

Qarşıda başqa çempionatlar olacaq, olimpiya oyunlarına artıq iki il qalıbdır. Şübhəsiz ki, siz də bunu nəzərə alaraq,

olimpiya oyunlarına hazırlaşırsınız. Mən əminəm ki, biz olimpiya oyunlarına lisenziya qazanacağıq və taekvondoçular öz çıxışları ilə bizi sevindirəcəklər. Sizi bir daha salamlayıram, bütün qələbələr münasibətilə təbrik edirəm.

Federasiyanın rəhbərliyini təbrik edir və onların fəaliyyətini yüksək qiymətləndirirəm. Bilirəm ki, sizin beynəlxalq əlaqələriniz də möhkəmlənir. Kəmaləddin Heydərov Beynəlxalq Taekvondo Federasiyası İcraiyyə Komitəsinin üzvü və vitse-prezidenti seçilibdir. Bu çox böyük göstəricidir. Yəni dünya idman aləmi, Beynəlxalq Taekvondo Federasiyası sizin qələbənizi etiraf edir. Çünki idman belədir ki, hər şeyi medallar həll edir. İşlər yaxşı təşkil oluna, çox gözəl tədbirlər keçirilə bilər, Azərbaycanda da çempionatlar keçirilə bilər və keçirilir də. Ancaq əgər medal yoxdursa, nəticə yoxdursa, onda bunun əhəmiyyəti faktiki olaraq itir. Sizdə həm gözəl nəticələr var, eyni zamanda, bütün təşkilati məsələlər öz həllini tapır.

Beynəlxalq Taekvondo Federasiyası ilə çox yaxşı əlaqələriniz var. Səhv etmirəmsə, Beynəlxalq Taekvondo Federasiyasının başçısı, prezidenti Azərbaycanda iki dəfə olmuşdur. Yəni burada gedən işlərlə tanış olubdur. Artıq üç ilə yaxındır ki, burada gözəl Taekvondo Mərkəzi fəaliyyət göstərir. Biz onu 2003-cü ildə bərabər açmışdıq və ondan sonra böyük mərkəzə çevrilibdir. Bilmirəm, regionda yerləşən başqa ölkələrdə belə mərkəzlər var, yoxsa yox. Hər halda, inanmıram ki, olsun. Yəni siz bu məsələlərə hərtərəfli yanaşmısınız. Belə olan halda, əlbəttə, nəticələr də olacaqdır.

Federasiya, Milli Olimpiya Komitəsi, Gənclər və İdman Nazirliyi, idman cəmiyyətləri – hamısı birlikdə işləyir və beləliklə, bizim qələbələrimizi təmin edirlər. Ona görə sizi bir daha təbrik edirəm və idmançılara yeni-yeni uğurlar arzulayıram.

**Kəmaləddin Heydərov** (*Azərbaycan Taekvondo Federasiyasının prezidenti*): Möhtərəm cənab Prezident, bu gün bizi qəbul etdiyinizə, bizim idmançılar, federasiya haqqında dediyiniz xoş sözlərə və işimizə verdiyiniz yüksək qiymətə görə

bütün idmançılar, taekvondoçular adından Sizə dərin təşəkkürümüzü bildiririk. Qarşımıza qoyduğunuz əsas məqsədə çatmaq – olimpiya oyunlarında medallar qazanmaq üçün əlimizdən gələni əsirgəməyəcəyimizə söz veririk.

Bildiyiniz kimi, mayın 26–28-də Avropa çempionatında 12 idmançımız iştirak edirdi və onlar 5 medal – 1 qızıl, 3 gümüş və 1 bürünc medal gətirmişlər. Sevindirici haldır ki, Şəhrun Yusifova da medala layiq görülmüşdür. Ulu öndərimiz Azərbaycan gəncliyinə müraciətində deyirdi ki, sağlam bədəndə sağlam ruh olar. Taekvondoçular da bu sözləri rəhbər tutmuşlar. Bu gün Azərbaycanda bölmələrdə 15 mindən artıq gənc taekvondo ilə məşğul olur. Gənclərin artıq yeni nəslinin taekvondoya marağı artıbdır, İlkin Şahbazov Avropa çempionu adını qazanmışdır. Balaca uşaqlar da bu idman növü ilə məşğul olurlar. Tanınmış idmançılardan Niyaməddin Paşayev zədələndiyinə görə çempionatda 5-ci yerə çıxmış, Rəşad Əhmədov isə 2-ci yeri tutmuşdur. Bütün bunlar Sizin gənclər və idman siyasəti sahəsində apardığınız işlərin nəticəsidir.

Möhtərəm cənab Prezident, bu yaxınlarda Vyetnamda gənclər arasında dünya çempionatı olacaqdır. İdmançılarımız orada Azərbaycanı təmsil edəcəklər. Ola bilsin, orada bir məsələ də həll edilsin. Yəni, növbəti dünya çempionatı Azərbaycanda keçirilsin. Biz buna çalışırıq.

**İlham Əliyev:** Siz əvvəl də keçirmişdiniz.

**Kəmaləddin Heydərov:** Avropa çempionatı idi.

**İlham Əliyev:** Bu yaxşı olar.

**Kəmaləddin Heydərov:** Biz olimpiadaya lisenziyalar əldə etmək istəyirik.

**İlham Əliyev:** Keçən olimpiadada iki idmançı – Niyaməddin Paşayev ilə Rəşad Əhmədov iştirak edirdilər.

**Kəmaləddin Heydərov:** Bəli, bu dəfə iki qız, iki oğlan idmançı hazırlaşdırırıq.

**İlham Əliyev:** Artıq Şəhrun Yusifova medal qazanıbdır. Bu çox yaxşıdır.

**K ə m a l ə d d i n   H e y d ə r o v:** Finalda uduzduğu İspaniya idmançısı ikiqat dünya çempionu, üçqat Avropa çempionudur.

**İ l h a m   Ə l i y e v:** Növbəti dəfə udar. Sənin neçə yaşın var?

**Ş ə h r u n   Y u s i f o v a:** İyirmi iki.

**İ l h a m   Ə l i y e v:** İdmanla çoxdan məşğul olursan?

**Ş ə h r u n   Y u s i f o v a:** 3 ildir.

**K ə m a l ə d d i n   H e y d ə r o v:** Cənab Prezident, idmançıların sosial qayğılarına diqqət göstərdiyinizə görə də Sizə dərin təşəkkürümü bildirirəm.

**İ l h a m   Ə l i y e v:** İlin sonunda növbəti mükafatlar olacaqdır. Siz də öz siyahınızı verin. Biz gərək idmançıları mükafatlandıraq, ev şəraitlərini yaxşılaşdıraq. Yəqin ki, dekabr ayında buna kompleks şəkildə baxacağıq. Amma, əlbəttə, indi başqa imkanlar olarsa, həll etməliyik.

Bu uğurlar onu göstərir ki, indi yeni uşaqlar, cavanlar yetişir. Əsas odur ki, uşaq, yeniyetmə idmanı olmasa, ölkədə idman inkişaf edə bilməz. Demək olar ki, bizim idmançılarımızın tam əksəriyyəti öz yetirmələrimizdir. Əvvəllər xaricdən dəvət edirdik. Yadımdadır, 2000-ci ildə. 2004-cü ildə olimpiya oyunlarında faktiki olaraq yox idi. Bizim öz istedadlarımız var, gənclər çox güclüdürlər. Azərbaycanda idman çox inkişaf edir. İndi hər bir yerdə, hər bir bölgədə olimpiya idman kompleksləri tikilir. Gənclər orada məşqlərə başlayır, sonra müxtəlif yarışlarda çıxış edirlər. Şəhrun taekvondo ilə cəmi 3 ildir məşğul olur. Əgər hamınız taekvondoya bu qədər diqqət göstərməsəydiniz, bəlkə də o, başqa idman növü ilə məşğul olardı, yaxud da heç məşğul olmazdı. İndi məşğul olmaq üçün hər cür imkan var. İdman belədir ki, əgər ənənə varsa, o daim saxlanılmalıdır. Bizim ənənəvi idman növlərimiz var. Məsələn, Azərbaycanda həmişə güləş olubdur. Taekvondo heç vaxt olmayıbdır. Bəziləri heç bilmirdi ki, bu nədir. 80-ci illərdə karate çox məşhur olubdur. O vaxt karateyə rəsmi icazə verilmirdi. Amma taekvondonun ənənələrini siz yaradırsınız,

özü də qısa müddət ərzində. Faktiki olaraq biz buna Sidneydə fikir verdik. Biz sübut edirik ki, idman ölkəsi kimi möhkəmlənirik. Əlbəttə, Pekin olimpiya oyunları daha da çətin olacaqdır. Çünki çinlilər çox ciddi hazırlaşırlar. Onlar, ümumiyyətlə, vəzifə qoyublar ki, bütün medalları qazansınlar. Belə ki, orada idman sahələri inkişaf etdiyinə görə çətin olacaqdır. Hansı idman növlərində də iştirak etmirlər, yaxud zəif çıxış edirlər, o növlərə də böyük diqqət göstərirlər. Yəni, Pekində çətin olacaqdır. Ona görə gərək indidən hazırlaşasınız.

* * *

*Sonra prezident İlham Əliyev taekvondo üzrə Avropa çempionatının mükafatçıları və Taekvondo Federasiyasının nümayəndələri ilə xatirə şəkli çəkdirdi.*

## RESPUBLİKA GÜLƏŞ VƏ CÜDO FEDERASİYALARININ RƏHBƏRLİYİ, AVROPA ÇEMPİONATLARINDA MEDAL QAZANMIŞ İDMANÇILAR VƏ ONLARIN MƏŞQÇİLƏRİ İLƏ GÖRÜŞ

*Bakı,*
*Milli Olimpiya Komitəsi*

*21 iyun 2006-cı il*

**İlham Əliyev:** İdmançılarımız həmişə bizi sevindirirlər. Güləş və Cüdo federasiyalarının səmərəli fəaliyyəti nəticəsində növbəti yarışlarda böyük qələbə əldə edilibdir. Avropa çempionatlarında qızıl, gümüş və bürünc medallar qazanılmışdır. Bu, böyük nailiyyətdir. Mən bu münasibətlə sizi təbrik edirəm, sizə yeni-yeni uğurlar arzulayıram.

Güləş bizim üçün ənənəvi idman növüdür, milli idman növüdür və çox vacibdir ki, idmançılarımız bu növdə həmişə yüksək pillələrə qalxsınlar. Bu, hər bir idman növündə lazımdır, amma xüsusilə güləşdə. Çox sevinirəm ki, Namiq Abdullayev yenidən öz formasını bərpa edib və böyük nailiyyət əldə edibdir. O cümlədən başqa idmançılar da. Bu, gözəl ənənədir və davam edir, yeni nəsil yetişir. Eyni zamanda, təcrübəli idmançılar da öz gücünü göstərirlər.

Cüdo idman növündə də Avropa çempionatında yaxşı nəticələr var. İndi siyahıya baxırdım, yeni adları tanımadım. Mən bütün idmançıları tanıyıram. Dedilər ki, təzə idmançıdır. Çox gözəl.

Sənin neçə yaşın var?

**Elnur Məmmədli** (*Cüdo üzrə Avropa çempionu*): 17 yaşım var.

**İ l h a m  Ə l i y e v:** Kifayət Qasımova da böyük nəticə əldə edibdir. O çox təcrübəli idmançıdır. Amma deyəsən, ilk dəfə medal əldə edibdir. Həm də medal qazanan ilk qadın idmançıdır. Bu da çox yaxşı göstəricidir ki, qızlar da yarışlarda uğurla çıxış edirlər. Mən indi taekvondoçularla görüşdüm. Onlar da bir qızıl medal qazanıblar. Çox yaxşı nəticədir.

Azərbaycanda idman inkişaf edir. İdman ölkəsi kimi, Azərbaycan artıq özünü dünyaya təqdim edibdir və bu gözəl ənənələr davam edir. Mən də həmişə olduğu kimi, idmana rəhbərlik edirəm. Baxmayaraq ki, başqa vəzifəm də var, amma bu vəzifə də mənim üçün çox əzizdir. Artıq 10 ilə yaxındır ki, idmançılarla birlikdəyəm. Ona görə hər dəfə yeni uğur olanda, yaxud da yeni cavan idmançı öz gücünü göstərəndə həmişə sevinirəm. Bu, davam etməlidir. Bu gün istədim sizinlə görüşüm, qələbələr münasibətilə sizi təbrik edim və sizə yeni-yeni uğurlar arzulayım.

**A b b a s  A b b a s o v** (*Azərbaycan Güləş Federasiyasının prezidenti*): Möhtərəm cənab Prezident, hörmətli idmançılarımız, məşqçilərimiz!

Hesab edirəm, bu gün hamımız fürsət əldə edib cənab Prezidentlə görüşə toplaşmışıq və Azərbaycan idmançılarını belə yüksək səviyyədə təmsil edirik.

Cənab Prezident, bunun üçün Sizə dərin təşəkkürümü və minnətdarlığımı bildirirəm. Siz çox düzgün qeyd etdiniz ki, Azərbaycanda yeni-yeni idmançılar, yeni çempionlar yetişir, böyüyür. Bunun hamısının zəmini Sizin idmana olan qayğınızdır. Həqiqətən, Azərbaycanda təkcə idmanın kütləviliyi üçün yox, peşəkar idmanın inkişafı üçün də çox gözəl şərait yaradılmışdır. Azərbaycan artıq beynəlxalq miqyaslı yarışların keçirildiyi ölkəyə çevrilmişdir.

Mən fürsətdən istifadə edərək, Sizə müraciət etmək istəyirəm. İyunun 23-də 6 ölkədə keçirilən Qızıl qran-pri yarışının final mərhələsi ilk dəfə Azərbaycanda olacaqdır. Artıq 28 ölkə bu mötəbər yarışda iştirak edəcəyini təsdiqləyibdir. Yarış ümummilli liderimiz Heydər Əliyevin adını daşıyan, 10 min

tamaşaçı yeri olan möhtəşəm sarayda keçiriləcəkdir. Hesab edirəm ki, bütün iştirakçı ölkələrin nümayəndələri Azərbaycanda idmana göstərilən qayğının, idmanın necə inkişaf etdiyinin bir daha şahidi olacaqlar.

FİLA-nın prezidenti Rafael Martinetti Azərbaycana, Bakıya gəlir. Demək olar ki, FİLA-nın bütün idarə heyəti Azərbaycanda olacaqdır. Bu da böyük bir beynəlxalq təşkilatın Azərbaycana olan hörmət və etimadıdır.

Cənab Prezident, bu yarışın final mərhələsinin Azərbaycanda keçirilməsi bizim xalqımıza, ölkəmizə və şəxsən Sizə göstərilən böyük bir hörmətin daha bir təzahürüdür.

**F ü z u l i Ə l ə k b ə r o v** (*Azərbaycan Cüdo Federasiyasının prezidenti*): Gələn il Bakıda olimpiya lisenziya turniri keçiriləcək. İdmançılarımızın yaxın gələcəkdə də uğurlar qazanacağına ümidvaram.

Cənab Prezident, sonuncu Avropa çempionatında 38 ölkənin nümayəndələri iştirak edirdi. Azərbaycan komanda hesabında Fransa, Almaniya və Rusiyadan sonra 4-cü yerə çıxdı. Sizin dediyiniz kimi, həqiqətən, uzun illərdir bizdə gənc idmançılara, yeniyetmələrə böyük diqqət verilir. Sizə məlumat vermək istəyirəm ki, 1998-ci ildən indiyədək Azərbaycan yığma komandası yeniyetmələrin Avropa çempionatında 4 dəfə birinci yerə layiq görülüb, digər hallarda isə hər il mükafatçı olubdur. Bizim olimpiya ehtiyatımız məhz bu idmançıların hesabına artır.

Siz düzgün qeyd etdiniz ki, bu gün idmanda yeni adlar meydana çıxır. Onlardan 9 idmançımız olimpiya ehtiyat qüvvəsi hesab edilə bilər. Digər idmançıların adlarını Siz bilirsiniz, hamısı respublikada tanınırlar. Yəni, deyə bilərik ki, Pekin olimpiya oyunlarına hazırlaşacaq 17 idmançımız var. Onların lisenziya qazanması üçün potensial imkanları vardır. Digər tərəfdən, qarşıdakı bir-iki il ərzində bir neçə idmançımız da yetişəcəkdir. Sizin tapşırığınız əsasında Azərbaycan Cüdo Federasiyası beynəlxalq əlaqələrini genişləndirir. Bu ilin

avqustunda Bakıda «A» kateqoriyalı turnir, gələn il lisenziya turniri keçiriləcəkdir.

**İ l h a m  Ə l i y e v:** Olimpiya oyunlarına lisenziya turniri Bakıda keçiriləcək, danışmısınız?

**F ü z u l i  Ə l ə k b ə r o v:** Bəli, danışmışıq, 10 gün bundan əvvəl təsdiqi gəldi. Biz aprel ayında bu məsələ ilə əlaqədar beynəlxalq federasiyanın rəhbərini Bakıya dəvət etmişdik. Bu məsələ öz həllini tapdı. Bizim idmançılarımız indiyə kimi müxtəlif beynəlxalq yarışlarda himnimizin səslənməsinə, bayrağımızın ucaldılmasına nail olublar.

Cənab Prezident, bilirik ki, Sizin arzunuz idmançılarımızın olimpiya oyunlarında uğurla çıxış etməsidir. İdmançılarımız buna çox böyük məsuliyyətlə yanaşırlar. İnşallah, Pekin olimpiya oyunlarında nəticələr əldə edəcəyik.

**İ l h a m  Ə l i y e v:** Sağ olun, mən də buna inanıram. Biz həm Sidneydə, həm də Afinada medallara çox yaxın idik. Deyəsən, Sidneydə Rəsul Səlimov 5-ci yeri tutmuşdu. Onun 3-cü yeri tutmağa şansı var idi. Afinada Mövlud Mirəliyev mükafata çox yaxın idi. Mehman Əzizov da Rusiya idmançısı ilə son görüşdə yarışırdı. Yəni, bir az bəxti gətirmədi. Amma bu dəfə mən də uğura inanıram.

Ancaq görürəm ki, bu dəfə medal qazananlar ancaq cavanlardır. Tanınmış idmançılar iştirak etməyiblər, yoxsa necə?!

**A ğ a y a r  A x u n d z a d ə** (*Cüdo üzrə Baş məşqçi*): Cənab Prezident, Elçin İsmayılov iştirak etməmişdir. Gələn ildən yarışlara qoşulacaq, məşqlərini davam etdirir.

**İ l h a m  Ə l i y e v:** O, keçən il 3-cü dəfə çempion olubdur.

**A ğ a y a r  A x u n d z a d ə:** Bəli. Mövlud Mirəliyev də cərrahiyyə əməliyyatı keçiribdir.

**İ l h a m  Ə l i y e v:** Hələ yarışır? Yaşı da bir az çoxdur.

**A ğ a y a r  A x u n d z a d ə:** Bəli, bir az yaşlıdır. Mehman Əzizovun da şansı var idi. Amma nədənsə, bəxti gətirmədi.

**İ l h a m  Ə l i y e v:** Rəsul Səlimov idmanda çıxışlarını bitiribdir.

**A ğ a y a r  A x u n d z a d ə:** İki dəfə cərrahiyyə əməliyyatı keçiribdir. Bu ona imkan vermir.

**İ l h a m  Ə l i y e v:** Heyif, çox ümidverici idmançı idi.

* * *

*Görüşün sonunda dövlətimizin başçısı iştirakçılarla xatirə şəkli çəkdirdi.*

## BAKIDA MÜDAFİƏ NAZİRLİYİNİN MƏRKƏZİ HƏRBİ KLİNİK HOSPİTALININ CƏRRAHİYYƏ KORPUSUNUN AÇILIŞ MƏRASİMİ

*22 iyun 2006-cı il*

*İyunun 22-də Bakıda Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Klinik Hospitalının cərrahiyyə korpusunun açılışı olmuşdur.*

*Azərbaycan prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev mərasimdə iştirak etmişdir.*

*Dövlətimizin başçısını hospitalın həyatində Müdafiə naziri, general-polkovnik Səfər Əbiyev qarşılayaraq raport verdi: «Möhtərəm Prezident, cənab Ali Baş Komandan, Mərkəzi Hərbi Klinik Hospitalın cərrahiyyə korpusu açılışa hazırdır».*

*Prezident İlham Əliyev korpusun rəmzi açılışını bildirən lenti kəsdi, xalqımızın ümummilli lideri Heydər Əliyevin foyedəki büstü önünə gül dəstəsi qoydu, ulu öndərin ölkəmizdə Silahlı Qüvvələrin yaradılmasındakı xidmətlərini və prezident İlham Əliyevin orduya göstərdiyi diqqət və qayğını əks etdirən «Azərbaycan xalqının dünəni, bu günü və sabahı» fotostendinə baxdı.*

*Ali Baş Komandana məlumat verildi ki, Mərkəzi Hərbi Klinik Hospitalın həyatında misilsiz yenilik baş vermişdir. Ulu öndər Heydər Əliyev Türkiyənin Gülhanə Tibb Akademiyasında olarkən demişdir ki, bizim ordumuzun, dövlətimizin də belə bir əzəmətli Akademiyası, hərbi tibb müəssisəsi olacaqdır. ümummilli liderimizin dediyi bu sözlər indi real həqiqətə çevrilmişdir. Ən müasir standartlara uyğun olan 300 çarpayılıq cərrahiyyə korpusu tikilib istifadəyə verilmişdir. Bu, MDB məkanında analoqu olmayan hərbi tibb müəssisəsidir. Zirzəmidən və 6 mərtəbədən ibarət, 14 min 800 kvadratmetr sahəsi olan bu binada 26 bölmə və çoxsaylı yardımçı otaqlar*

*vardır. Binanın zirzəmisində emalatxana, qan bankı, təmizləmə aftoklav mərkəzi yerləşmişdir. Birinci mərtəbədə qəbul və diaqnostika bölmələri, ikinci mərtəbədə təxirəsalınmaz yardım mərkəzi və təxirəsalınmaz cərrahiyyə bölməsi, üçüncü mərtəbədə cərrahiyyə əməliyyatları üçün böyük əməliyyat bloku və neyrocərrahiyyə bölməsi yerləşir.*

*Digər mərtəbələrdə ürək-damar, ginekologiya, travmatologiya, urologiya, süni böyrək və müxtəlif zədələnmələr üzrə cərrahiyyə bölmələri fəaliyyət göstərir. Bütün bölmələr müasir tibbi cihazlar, alətlər və avadanlıqla təmin edilmişdir. Yeni korpusda yüksək biliyə və ixtisas hazırlığına malik tibb heyəti fəaliyyət göstərəcəkdir. Həkimlərin 90 faizi döyüş travması və yaralarını müalicə etmək təcrübəsinə malikdir. Çoxlarının 15–20 illik həkim-cərrah təcrübələri vardır. Onların 80 faizi Türkiyədə, Rusiyada və digər dövlətlərdə öz ixtisasları üzrə dəfələrlə təkmilləşmə kursları keçmişlər. Hospitalda ştat üzrə 1089 nəfər işləyir. Yeni korpusun istifadəyə verilməsi hərbçilərimizə dövlət qayğısının daha bir nümunəsi kimi qiymətləndirildi.*

*Prezident İlham Əliyev flüoqrafiya, genoqrafiya, fotolaboratoriya, nüvə maqnit rezonans müayinəsi, rentgen şəkillərinin arxivi, ultrasəs müayinə, angioqrafiya, kompüter tomoqrafiyası otaqlarına, hiperbarik oksigenasiya, təxirəsalınmaz cərrahiyyə, intensiv terapiya bölmələrinə, təcili tibbi yardım mərkəzinə, konfrans salonuna, yeməkxanaya baxdı, tibb aparatlarının imkanları ilə maraqlandı.*

*Bildirildi ki, konfrans salonunda Cərrahiyyə İnformasiya Mərkəzi fəaliyyət göstərir. Mərkəz ən yüksək dünya standartlarına cavab verən avadanlıqla təchiz olunmuşdur. Cərrahiyyə korpusunun 11 cərrahiyyə otağına 14 izləyici kamera quraşdırılmışdır. Bu kameralar vasitəsilə aparılan cərrahiyyə əməliyyatlarının hamısını yaxından və uzaqdan olduğu kimi izləmək olur və əməliyyatların gedişi disklərə yazılır. Lazım olan vaxt xəstənin valideynləri, eləcə də həkimlər diskə yenidən baxa*

*bilirlər. Hərbi tibb fakültəsinin tələbələri də prosesi buradan izləyə bilirlər.*

*Dövlətimizin başçısı palataları gəzdi, buradakı şəraitlə maraqlandı.*

*Cərrahiyyə korpusuna məxsus təcili tibbi yardım maşınlarına baxdı. Burada hər cür tibbi avadanlıqla təchiz olunmuş 7 böyük və 4 kiçik tutumlu universal təcili yardım maşını vardır.*

*Azərbaycan prezidenti İlham Əliyev şəxsi heyətə uğurlar arzuladı, bu hərbi tibb müəssisəsinin işçiləri ilə xatirə şəkli çəkdirdi.*

## MÜDAFİƏ NAZİRLİYİNİN GORADİL QƏSƏBƏSİNDƏKİ İSTİRAHƏT EVİ İLƏ TANIŞLIQ

*22 iyun 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev iyunun 22-də Müdafiə Nazirliyinin Bakının Goradil qəsəbəsində istifadəyə verilmiş istirahət evi ilə tanış olmuşdur.*

*Yataq korpusundan, 140 yerlik yeməkxanadan, idman salonlarından və müxtəlif xidmət sahələrindən ibarət istirahət evində bütün infrastruktur ən müasir tələblərə cavab verir.*

*Dövlətimizin başçısı ayrı-ayrı otaqlara, istirahət evinin ərazisində yerləşən kotteclərə, uşaqlar və böyüklər üçün nəzərdə tutulmuş üzgüçülük hovuzuna baxdı. Ali Baş Komandan burada hərbçilər üçün yaradılmış şəraitdən razı qaldı.*

## AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT QULLUQÇULARINA

Hörmətli dövlət qulluqçuları!

Sizi – müstəqil Azərbaycan Respublikasının bütün dövlət qulluqçularını peşə bayramı günü münasibətilə təbrik edirəm.

Bir qədər əvvəl mən Azərbaycan Respublikasında demokratik dövlət və vətəndaş cəmiyyəti quruculuğu prosesində dövlət qulluğunun rolunu və Birləşmiş Millətlər Təşkilatı Baş Məclisinin tövsiyəsini nəzərə alaraq, hər il iyun ayının 23-nün ölkəmizdə dövlət qulluqçularının peşə bayramı günü kimi qeyd edilməsi haqqında sərəncam imzaladım. Azərbaycanın müstəqillik əldə etdiyi andan bu günə qədər həyata keçirdiyi dövlət siyasətinin əsas vəzifələri sırasına iqtisadi, siyasi, sosial və mənəvi həyatın bütün sahələrinin yeni əsaslar üzərində qurulması ilə bərabər, bu işləri icra edən müasir dövlət qulluğu sisteminin yaradılması da daxildir. Dövlət qulluğu siyasətinin əsas məqsədi ölkəmizdə səmərəli, məsuliyyətli və demokratik idarəçiliyin yaradılmasından, dövlət orqanlarının fəaliyyətində çevikliyin və şəffaflığın gücləndirilməsindən, o cümlədən vətəndaşların qayğı və ehtiyaclarının daha dolğun təmin edilməsindən ibarətdir.

Müstəqil Azərbaycan Respublikasında müasir dövlət qulluğu sisteminin formalaşması və inkişafı ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Məhz Heydər Əliyevin ali siyasi hakimiyyətə qayıdışından sonra ölkədə xaos və anarxiyanın qarşısı alındı, dövlət nizamı və sabit dövlət idarəçiliyi bərpa edildi, demokratik, hüquqi dövlət quruculuğu prosesi başlandı. Onun rəhbərliyi altında həyata keçirilən idarəçilik fəaliyyəti insanlarımızda dövlətçilik şüurunu gücləndirdi, hakimiyyət və idarəetmə orqanlarının işinə inamı artırdı.

Son illərdə dövlət idarəetmə orqanlarının işinin dövrün tələblərinə uyğun yenidən qurulması, keyfiyyətli kadr korpusunun yaradılması, nazirlik və komitələrin müvafiq istiqamətlər üzrə vahid dövlət siyasətini həyata keçirən hakimiyyət orqanlarına çevrilməsi istiqamətində zəruri tədbirlər görülmüşdür. İdarəçilikdə paralel strukturlar ləğv edilmiş, mərkəzi hakimiyyət və icra orqanlarının işində bürokratik əngəllərin aradan qaldırılması, şəffaflığın və hesabatlılığın gücləndirilməsi üçün lazımi addımlar atılmışdır. Həyata keçirilən islahatlar nəticəsində dövlət orqanlarının səlahiyyətləri dəqiqləşdirilmiş, onların öz vəzifələrini daha dəqiq və dürüst icra etmələri üçün imkanlar genişləndirilmiş və məsuliyyət artırılmışdır.

Dövlət qulluğunun qanunvericilik bazası yaradılmış, «Dövlət qulluğu haqqında» qanun və digər hüquqi-normativ sənədlər qəbul edilmişdir.

Ölkəmizdə həyatın bütün sahələrində dinamik inkişaf proseslərinin getdiyi, perspektivli sosial-iqtisadi inkişaf proqramlarının icra olunduğu bir zamanda dövlət qulluqçuları qarşısında tamamilə yeni və müasir tələblər qoyulur. Onlar yüksək peşəkarlıq, səriştəlilik, əxlaq və mənəviyyat nümunəsi göstərməklə öz fəaliyyəti, insanlarla rəftarı, qəbul etdiyi qərarlar və hərəkətləri ilə rəsmi orqanlara hörmət qazandırmalı, vətəndaşlara dövlət siyasətinin məqsəd və vəzifələrini təlqin etməlidirlər. Dövlət qulluqçuları öz fəaliyyətində qanunun aliliyi, vəzifə borcuna sədaqət, humanizm, sosial ədalət prinsiplərini rəhbər tutmalı, vətəndaşın və dövlətin maraqlarını uzlaşdırmalıdırlar.

Müstəqil Azərbaycan Respublikasında dövlət qulluğunda çalışmaq hər bir insan üçün son dərəcə şərəfli işdir. Bu o deməkdir ki, həmin vətəndaşa müstəqil, demokratik dövlət və vətəndaş cəmiyyəti quruculuğunun ön sıralarında olmaq imkanı etibar edilmişdir. Hər bir şəxs bilməlidir ki, dövlət qulluğunda olmaq imtiyaz deyil, məsuliyyətdir, insanlara xidmət imkanıdır. Tutduğu vəzifənin səviyyəsindən və əhəmiyyətindən asılı

olmayaraq, dövlət qulluqçusu həmişə xatırlamalıdır ki, o, xalqın xidmətçisidir, insanlara xidmət, onların qayğıları ilə yaşamaq onun əsas vəzifəsidir. Mən imzaladığım fərman və sərəncamlarda, çoxsaylı müxtəlif tədbir və görüşlərdə həmişə vəzifəli şəxslərdən, səlahiyyət sahiblərindən tələb etmişəm ki, insanların ehtiyac və qayğılarına diqqətlə yanaşsınlar, problemlərini həll etsinlər, təşəbbüskarlıq nümayiş etdirsinlər. Bütün dövlət qulluqçularına mənim münasibətim də, ilk növbədə, onların bu meyarlara və vəzifə öhdəliklərinə nə dərəcədə cavab vermələri ilə müəyyən olunur.

Dövlət qulluqçularının qarşısında qoyulan digər tələb ondan ibarətdir ki, onlar dünyada gedən qlobal proseslərdən xəbərdar olmalı, informasiya texnologiyalarını, demokratik idarəçilik metodlarını mənimsəməli, müasir düşüncə sahibi olmalıdırlar. Bütün bunlar öz növbəsində bizə sivil, demokratik vətəndaş cəmiyyətinin tələblərinə tam cavab verən dövlət idarəçiliyi sistemi qurmağa imkan verəcəkdir.

Hörmətli dövlət qulluqçuları!

Sizi əlamətdar bayram münasibətilə bir daha təbrik edir, hər birinizə möhkəm cansağlığı, müstəqil, demokratik dövlət quruculuğunda, sosial-iqtisadi proqramların həyata keçirilməsində, xalqın rifahı naminə fəaliyyətinizdə uğurlar arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 iyun 2006-cı il*

**KANADANIN GENERAL-QUBERNATORU**
**ZATİ-ALİLƏRİ**
**XANIM MİŞEL JANA**

Hörmətli xanım General-qubernator!

Ölkənizin milli bayramı – Kanada günü münasibətilə Sizi və dost Kanada xalqını öz adımdan və Azərbaycan xalqı adından təbrik edirəm.

Əminəm ki, ölkələrimiz arasında yaranmış münasibətlər bundan sonra da dostluq və əməkdaşlıq ruhunda inkişaf edəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost ölkənizə sülh və çiçəklənmə diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 iyun 2006-cı il*

**KANADANIN BAŞ NAZİRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB STİVE HARPERƏ**

Hörmətli cənab Baş nazir!

Kanadanın milli bayramı – Kanada günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Əminəm ki, Azərbaycan ilə Kanada arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı daim xalqlarımızın rifahına xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Kanada xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 iyun 2006-cı il*

**BELARUS RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ALEKSANDR LUKAŞENKOYA**

Hörmətli Aleksandr Qriqoryeviç!

Milli bayram – Müstəqillik günü münasibətilə Sizi və dost Belarus xalqını ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Belarus arasında dostluq və əməkdaşlıq, dövlətlərarası münasibətlərimizin daha da inkişaf etməsi və möhkəmlənməsi bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Hörmətli Aleksandr Qriqoryeviç, Sizə möhkəm cansağlığı, xoşbəxtlik və uğurlar, dost Belarus xalqına sülh, tərəqqi və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 iyun 2006-cı il*

## HEYDƏR ƏLİYEV ADINA AZƏRBAYCAN ALİ HƏRBİ MƏKTƏBİNİN NÖVBƏTİ BURAXILIŞINA HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ* NİTQ

*23 iyun 2006-cı il*

*Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin növbəti, 6-cı buraxılışı münasibətilə təntənəli mərasim keçirilmişdir.*

*Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev mərasimdə iştirak etmək üçün məktəbə gəldi.*

*Dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Müdafiə naziri general-polkovnik Səfər Əbiyev və fəxri qarovul dəstəsinin rəisi Ali Baş Komandana raport verdilər.*

*Mərasimdən əvvəl dövlətimizin başçısı ümummilli lider Heydər Əliyevin abidəsi önünə əklil qoydu.*

*Prezident İlham Əliyev sonra Heydər Əliyev adına Ali Hərbi Məktəbin növbəti buraxılışı münasibətilə mərasimin keçirildiyi stadiona gəldi. Mərasimə toplaşanlar dövlətimizin başçısını hərarətli alqışlarla qarşıladılar.*

*Ali Hərbi Məktəbin rəisi general-mayor Heydər Piriyev Ali Baş Komandana raport verərək, şəxsi heyətin buraxılış mərasimi münasibətilə düzüldüyünü bildirdi.*

*Azərbaycan prezidenti, Ali Baş Komandan İlham Əliyev məzunları «Salam, gənc zabitlər!» sözləri ilə salamladı.*

---

* Mərasimdə Baş nazir Aqtur Rasizadə, Milli Məclisin sədri Oqtay Əsədov, Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev, Baş nazirin, parlament sədrinin müavinləri, nazirlər, komitə və şirkət rəhbərləri, Milli Məclisin deputatları, xarici ölkələrin Bakıdakı səfirləri və ictimaiyyətin nümayəndələri iştirak edirdilər.

*Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərin və ümummilli lider Heydər Əliyevin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olundu.*

*Müdafiə Nazirliyinin əlahiddə nümunəvi orkestrinin və kursantların ifasında Azərbaycanın dövlət himni əzəmətlə səsləndi.*

*Mərasimi Müdafiə naziri general-polkovnik Səfər Əbiyev açdı.*

*Mərasimdə Azərbaycan prezidenti, Ali Baş Komandan İlham Əliyev nitq söylədi.*

**İlham Əliyev:** Əziz kursantlar, zabitlər, generallar!

Əziz məzunlar!

Hörmətli xanımlar və cənablar!

Sizi qarşıdan gələn Silahlı Qüvvələr günü münasibətilə ürəkdən təbrik edirəm, Azərbaycan Milli Ordusunun bütün şəxsi heyətinə uğurlar arzulayıram.

Eyni zamanda, bu gün Heydər Əliyevin adını daşıyan Azərbaycan Ali Hərbi Məktəbinin növbəti buraxılışıdır. Bütün məzunları bu gözəl hadisə münasibətilə təbrik edirəm. Əminəm ki, öz təhsilini tamamlamış məzunlar Azərbaycan ordusunda şərəflə xidmət edəcəklər.

Bu məktəbin ulu öndər Heydər Əliyevin adını daşıması ali hərbi məktəbdə oxuyanların üzərinə əlavə məsuliyyət qoyur. Ulu öndər bütün dövrlərdə Azərbaycanda ordu quruculuğunun inkişafında böyük xidmətlər göstərmişdir. Məhz 70-ci illərdə yaradılmış Naxçıvanski adına Hərbi Məktəbin yetirmələri bu gün Azərbaycan Milli Ordusunda çox şərəflə, ləyaqətlə xidmət edirlər və bizim hərbi potensialımızı möhkəmləndirirlər.

Azərbaycan dövlət müstəqilliyini bərpa edəndən sonra isə Heydər Əliyevin rəhbərliyi altında Azərbaycanda ordu quruculuğu işi sürətlə aparılmışdır. Nəzərə alsaq ki, müstəqilliyimizin ilk illərində orduda vahid komandanlıq yox idi, Azərbaycanda ordu quruculuğu prosesinin necə çətin şəraitdə getdiyini görərik. Bir tərəfdən, daxildə müxtəlif xoşagəlməz hadisələr,

iqtisadi böhran, siyasi-hərbi böhran, daxili çəkişmələr, digər tərəfdən, Ermənistanın Azərbaycana qarşı təcavüzü və bu təcavüz nəticəsində torpaqlarımızın itirilməsi – belə bir şəraitdə ordu quruculuğu faktiki olaraq sıfırdan başlanmışdı. Ancaq qısa müddət ərzində Azərbaycanda çox güclü ordu yaranmışdır və bu gün ordumuz qarşıda duran bütün vəzifələri həll etməyə qadirdir. Ordumuzun maddi-texniki bazası möhkəmlənmiş, peşəkarlıq artmışdır. Əlbəttə ki, hazırlıq məsələlərinə çox böyük diqqət göstərilir. Bu baxımdan Ali Hərbi Məktəbin fəaliyyətinin təkmilləşməsi, əlbəttə, böyük əhəmiyyət kəsb edir. Artıq bir neçə ildir ki, bu məktəb öz məzunlarını orduya daxil edir və beləliklə, ordumuzun gücü möhkəmlənir.

Bu gün ordu quruculuğu prosesinə böyük diqqət verilir. Siz bunu hiss edirsiniz, cəmiyyət bunu hiss edir. Çünki ordunun möhkəmləndirilməsi hər bir vətəndaşın işidir, hər bir vətəndaşın borcudur. İlk növbədə, dövlət öz diqqətini əsirgəməməlidir. Biz bütün sahələrdə orduda gedən proseslərin inkişafına çalışırıq. Maddi-texniki bazanın möhkəmləndirilməsi işində, təbii ki, dövlət büdcəsindən orduya ayrılmış xərclərin artması zəruridir və biz bunu edirik. Son 3 il ərzində hərbi xərclərimiz 4 dəfə artmışdır. 2003-cü ildə orduya ayrılan xərclər 135 milyon dollar idi, 2006-cı ildə isə bu rəqəm 700 milyon dollara yaxındır və gələcəkdə biz bu xərcləri daha da artıracağıq. Son illər ərzində maddi-texniki bazanın möhkəmləndirilməsində böyük işlər görülmüşdür, çoxlu texnika, avadanlıq, müasir silahlar alınmışdır və beləliklə, Azərbaycan ordusu xeyli dərəcədə güclənmişdir. Biz bu prosesi davam etdirəcəyik. Azərbaycan müharibə şəraitində yaşayır və belə olan halda, ilk növbədə, ordu quruculuğuna böyük diqqət göstərilməlidir.

Mən tez-tez müxtəlif hərbi hissələrə gedir, vəziyyətlə tanış oluram, əsgərlərlə görüşürəm və görürəm ki, hazırlıq səviyyəsi də yüksəlir. Bu məni çox sevindirir. Çünki orduda həm gözəl təminat, xidmət üçün gözəl şərait olmalıdır, eyni zamanda, peşəkarlıq, yüksək hazırlıq, döyüş ruhu olmalıdır. Bütün bunlar

da var. Əlbəttə ki, gənclərimizin vətənpərvərlik ruhunda tərbiyə alması, bu ruhda böyüməsi də bizim üçün çox vacibdir.

Hər bir ölkənin uğurunu, inkişafını müəyyən edən bir sıra amillər var. Azərbaycanda da bu amillər mövcuddur. Hesab edirəm ki, güclü iqtisadiyyat, insanlarımızın yaxşı şəraitdə yaşaması, müstəqilliyimizin möhkəmlənməsi və güclü ordunun mövcudluğu Azərbaycanın inkişafına çox böyük təsir göstərəcəkdir. İndi ölkəmiz inkişafdadır. Bu inkişaf bütün sahələrdə göz qabağındadır və şübhəsiz ki, bunun əsasında Azərbaycanda aparılan iqtisadi islahatlar, uğurlu neft strategiyası dayanır. Neft strategiyasının təşəbbüskarı da ulu öndər Heydər Əliyev olmuşdur. Onun təşəbbüsü ilə 1994-cü ildə «Əsrin müqaviləsi»nin imzalanması və ondan sonra bütün başqa neft layihələrinin icra olunması sayəsində bu gün Azərbaycan iqtisadi cəhətdən heç kimdən asılı deyildir. Azərbaycan iqtisadi yüksəliş dövrünü yaşayır və bu siyasət, görülən tədbirlər ölkəmizin uzunmüddətli inkişaf strategiyasını müəyyən edir.

Bakı–Tbilisi–Ceyhan neft kəmərinin işə düşməsi tarixi hadisədir. Bizim xalqımız, ölkəmiz, region üçün, regionda təhlükəsizlik tədbirlərinin möhkəmlənməsi, regional əməkdaşlıq üçün, Azərbaycanın Dünya Birliyində daha da güclü yerə malik olması üçün bu, əvəzedilməz hadisədir. Bu layihənin təşəbbüskarı ulu öndər Heydər Əliyev olmuşdur. Bakı–Tbilisi–Ceyhan neft kəmərinin işə düşməsi ilə Azərbaycanın bütün sahələrində inkişaf daha da güclü olacaqdır.

Bizim iqtisadiyyatımız möhkəmlənir. Keçən il Azərbaycanda iqtisadi artım dünyada ən yüksək səviyyəyə qalxmış, 26 faiz təşkil etmişdir. Bu ilin beş ayında isə ümumi daxili məhsul təxminən 40 faiz artmışdır. Gələcəkdə, Azərbaycanın bütün iqtisadi proqramları həyata keçdikcə, biz daha da böyük nailiyyətlərə sahib olacağıq. Bu, iqtisadiyyatımızı möhkəmləndirir, ölkəmizə əlavə maliyyə resursları gətirir və beləliklə, bizim imkanlarımız artır. Büdcəmiz artır, indi təxminən 5 milyard dollara yaxındır. İcmal büdcə isə ondan da

artıqdır. Azərbaycanın dövlət büdcəsi son illər ərzində bir neçə dəfə artıbdır. Bu bizə imkan verir ki, bütün məsələlər öz həllini tapsın. İlk növbədə, ordu quruculuğu. Əgər bu iqtisadi imkanlar olmasaydı, əlbəttə ki, biz orduya bu qədər vəsait ayıra bilməzdik. Gələcəkdə bizim büdcəmiz daha da artacaq və beləliklə, orduya ayrılan xərclər daha da çox olacaqdır.

Eyni zamanda, Azərbaycanda sosial məsələlərin həllinə böyük diqqət göstərilir. Bildiyiniz kimi, ildə iki dəfə maaşlar artırılır, minimum əməkhaqqı, müxtəlif kateqoriyalı insanların əmək haqları artırılır. Mən dünən hərbçilərin əmək haqlarının iki dəfə artırılması barədə müvafiq sərəncam imzaladım. Bütövlükdə, son üç ildə hərbçilərin maaşları üç dəfə artmışdır. Mən hesab edirəm ki, bu da bizi qane edə bilməz. Ancaq bu artım göz qabağındadır. Gələcəkdə iqtisadi imkanlarımız artdıqca, əlbəttə ki, biz maaşlara da daha böyük diqqət göstərəcəyik. Təkcə orduda xidmət edənlərin maaşları yox, bütün kateqoriyalardan olan insanların əmək haqları qaldırılmalıdır.

Azərbaycanda böyük quruculuq, abadlıq işləri aparılır. Ölkəmizin bu günü, gələcəyi üçün çox böyük önəmi olan layihələr həyata keçirilir. Azərbaycanın energetika sektorunun möhkəmlənməsi üçün indi ölkədə 6 elektrik stansiyası tikilir. Bakıya su kəməri çəkilməyə başlayıbdır. Qaz xətləri yeniləşir. Təkcə keçən bir il ərzində Azərbaycanda 300-dən çox məktəb tikilibdir. Azərbaycanda 10-dan çox müasir müalicə mərkəzi tikilir və bildiyiniz kimi, dünən mən hərbi hospitalın cərrahiyyə korpusunun açılışında iştirak etdim və çox sevinirəm ki, Azərbaycanda belə gözəl tibb müəssisəsi yaranıbdır. Bu, inkişaf deməkdir. O deməkdir ki, ölkəmiz hərtərəfli inkişaf edir, iqtisadi islahatlar uğurla aparılır, iqtisadi yüksəliş mövcuddur, sənaye istehsalının artımı yüksək sürətlə gedir.

Bizim bütün neft proqramlarımız uğurla icra edilir. Qeyd etdim ki, Bakı–Tbilisi–Ceyhan boru kəməri işə düşübdür. İlin sonuna qədər Bakı–Tbilisi–Ərzurum qaz kəmərinin istismara verilməsi nəzərdə tutulubdur. Bu da Azərbaycana əlavə maliyyə

imkanları gətirəcək və eyni zamanda, bizim bölgədəki mövqeyimizin möhkəmlənməsinə böyük xidmət göstərəcəkdir.

Beynəlxalq aləmdə Azərbaycan öz mövqelərini möhkəmləndirir. Biz bir sıra beynəlxalq təşkilatların üzvüyük və onlarda çox fəal rol oynamağa başlamışıq. Azərbaycanın beynəlxalq imici, nüfuzu, bizə hörmət artır və bu reallıqdır. Bu gün Azərbaycan sözün əsl mənasında bölgədə ən yüksək mövqelərə malik olan bir ölkədir. Əlbəttə ki, bunu şərtləndirən müxtəlif amillər var. O cümlədən iqtisadi potensial və ordunun güclü olması. Biz tarixi yaxşı bilirik və uğur qazanmış ölkələrin təcrübəsini də öyrənirik. Güclü ordu güclü dövlət deməkdir. Bizim məqsədimiz güclü ordu yaratmaqdır. Biz bunu edirik, yaradırıq və daha da möhkəm orduya malik olmalıyıq.

Mən qeyd etmək istəyirəm ki, Azərbaycanın üzləşdiyi problemlərin həlli işində bizim proqramımız var. Çox dəqiq tədbirlər planımız var. Bilirsiniz ki, regionların sosial-iqtisadi inkişafı proqramı uğurla icra edilir. Son üç il ərzində 400 min yeni iş yeri açılıbdır. Bakıətrafı qəsəbələrin sosial problemləri həll olunmağa başlayıb və bu sahəyə böyük vəsait ayrılıbdır. Yol infrastrukturuna çox böyük vəsait yönəldilibdir. Bakıda, bütün rayon mərkəzlərində, kəndlərdə, eyni zamanda, magistral yolların təmirində böyük işlər görülür.

Bir sözlə, ölkəmiz inkişafdadır. Mən şübhə etmirəm ki, biz ölkəmizin qarşısında duran bütün vəzifələri həll edəcəyik. Artıq gördüyümüz işlər, nəticələr bunu deməyə əsas verir. Bizim hər bir sahə üzrə konkret, dəqiq proqramımız var və onlar icra olunur.

Ölkəmizin qarşısında duran bir nömrəli problem Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsidir. Əfsuslar olsun ki, bu sahədə heç bir irəliləyiş yoxdur. Doğrudur, danışıqlar gedir, müəyyən çərçivədə danışıqlar aparılır. Ancaq bu danışıqların heç bir səmərəsi yoxdur. Çünki nəticəyə gələ bilmirik. Azərbaycanın mövqeyi həmişə çox konstruktiv olubdur. Biz 10 ildən artıqdır ki, danışıqlar prosesinə sadiqik və bu bizim konstruktivliyimizi bir daha sübut

edir. Baxmayaraq ki, bizim torpaqlarımız işğal altındadır və Ermənistanın Azərbaycana qarşı etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan artıq azərbaycanlı qaçqın, köçkün vəziyyətinə düşübdür, amma biz çalışırıq ki, sülh prosesinin imkanlarından axıra qədər istifadə edək. Ona görə danışıqlarda Azərbaycanın mövqeyi çox konstruktivdir. Ancaq əfsuslar olsun ki, Ermənistanın qeyri-konstruktiv mövqeyi bizə imkan vermir ki, bu münaqişənin həllinə nail olaq.

Biz beynəlxalq hüquq normalarının tərəfdarıyıq. Bu münaqişə və bütün başqa beynəlxalq məsələlər yalnız və yalnız müəyyən çərçivələrdə öz həllini tapa bilər. Kiminsə arzusu ilə, kiminsə istəyi ilə bu məsələ öz həllini tapa bilməz. Xüsusilə, əgər bu arzular reallığı əks etdirmirsə və beynəlxalq hüququn çərçivələrindən kənardadırsa. Beynəlxalq hüquq bütün ölkələrə şamil edilir. Əgər beynəlxalq davranış qaydaları, normalar, beynəlxalq təşkilatların qərarları gözlənilməsə və qərarların nəticəsində tədbirlər, işlər görülməsə, onda bütövlükdə beynəlxalq davranış qaydaları pozular. Çünki dünya müəyyən qaydalarla idarə olunur. Bütün ölkələr Birləşmiş Millətlər Təşkilatının üzvləridir və BMT dünyanın bir nömrəli təşkilatıdır. Bu təşkilatın Ermənistan–Azərbaycan münaqişəsinə dair 4 qətnaməsi var. Orada açıq-aşkar deyilir ki, işğalçı silahlı qüvvələr zəbt olunmuş torpaqlardan qeyd-şərtsiz çıxmalıdır. Ancaq əfsuslar olsun ki, Ermənistan buna məhəl qoymur, bu qətnamələri icra etmir.

Digər beynəlxalq təşkilatlar da öz qərarları, qətnamələri ilə bu məsələyə münasibətlərini bildirmişlər. Avropa Şurasının qəbul etdiyi qətnamədə Ermənistan təcavüzkar dövlət kimi tanınır. Ancaq bu qətnamə də nəticəsiz qalıbdır. Bu yaxınlarda GUAM təşkilatı dondurulmuş münaqişələrə dair bəyanat qəbul edibdir. O da Ermənistana təsir etmir. İqtisadi Əməkdaşlıq Təşkilatının Azərbaycanda keçirilmiş zirvə görüşündə müvafiq qətnamə qəbul edilmişdir. İcrasız qalır. Bu günlərdə Azərbaycanda İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin Xarici İşlər nazirlərinin görüşü çərçivəsində bu məsələyə dair

çox önəmli qərarlar qəbul edilibdir. Ancaq Ermənistan heç bir beynəlxalq təşkilatın qərarına məhəl qoymur. Belə olan halda, biz bütövlükdə beynəlxalq tənzimləmə mexanizmlərinə artıq ümidsizliklə yanaşırıq. Əgər beynəlxalq təşkilatların qərarları, qətnamələri, özü də reallığı, ədaləti, beynəlxalq hüquq normalarını əks etdirən qərarlar icra olunmursa, onda biz nə etməliyik?! Biz bu vəziyyətlə, torpaqlarımızın itirilməsi ilə heç vaxt barışa bilmərik. Dağlıq Qarabağın Azərbaycandan ayrılmasına heç vaxt icazə verməri̇k və bu, danışıqlar mövzusu deyildir. Azərbaycanın ərazi bütövlüyü bütün dünya tərəfindən tanınır. Birləşmiş Millətlər Təşkilatı tərəfindən tanınır. Bütün dünya Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır və eyni zamanda, tarixi, hüquqi, siyasi baxımdan, bütün başqa tərəflərdən də bu belədir. Ona görə danışıqlar predmeti yalnız və yalnız Azərbaycanın ərazi bütövlüyünün bərpası olmalıdır. Bölgədə yaşayan bütün xalqların təhlükəsizliyinin təmin edilməsi olmalıdır. Bundan kənarda heç bir razılaşma mümkün deyildir.

Ancaq yenə də qeyd edirəm, biz beynəlxalq təşkilatların səylərini, qərarlarını yüksək qiymətləndiririk. ATƏT-in Minsk qrupunun fəaliyyətini yüksək qiymətləndiririk. Həqiqətən, onlar çalışırlar ki, razılaşma əldə edilsin. Ancaq Ermənistanın qeyri-konstruktiv mövqeyi, bütün beynəlxalq hüquq normalarına məhəl qoymaması imkan vermir ki, biz bu məsələyə nail olaq. Belə olan halda, Azərbaycan öz siyasətinə müəyyən düzəlişlər etməlidir. Biz nə vaxta qədər danışıqlarda iştirak edəcəyik? Nə vaxta qədər gözləyəcəyik? Bizim səbrimiz tükənməz deyildir!

Bu gün Azərbaycan sürətlə inkişaf edən ölkədir. Ermənistan artıq nə iqtisadi cəhətdən, nə siyasi, nə də hərbi cəhətdən bizimlə rəqabət apara bilmir. Bizim üstünlüyümüz artıq reallıqdır. Biz hələ inkişafımızın əvvəlindəyik. Qoy Ermənistanda fikirləşsinlər, bir ildən sonra, üç ildən sonra, beş ildən sonra Azərbaycan harada olacaq, Ermənistan harada olacaqdır. Ermənistanın inkişaf etməsi üçün heç bir imkan yoxdur. Onlar bütün beynəlxalq, regional layihələrdən təcrid

olunmuşlar. Onlarda iqtisadi artım imkanları çox məhduddur. Ölkə əhalisinin, demək olar ki, yarısı ölkəni tərk edibdir. Bizdə olan məlumata görə, onlar hətta təmas xəttinin qorunmasında çətinlik çəkirlər. Çünki canlı qüvvə çatışmır. Bu tərəfdən də iqtisadi cəhətdən, ordu quruculuğu baxımından günü-gündən möhkəmlənən, siyasi cəhətdən bölgənin mərkəzinə çevrilən Azərbaycan və bizim iqtisadi perspektivlərimiz.

Mən bu yaxınlarda bəzi rəqəmləri xatırlatdım. Bir daha demək istəyirəm, beynəlxalq maliyyə qurumları tərəfindən hesablanıb ki, gələn 20 ildə Azərbaycan təkcə neft layihələrindən 140 milyard dollar vəsait əldə edəcəkdir. Dağlıq Qarabağ bizim bir nömrəli problemimizdir və bu problemdən başqa, mən Azərbaycanın qarşısında ayrı heç bir problem görmürəm.

Şübhəsiz, biz bu imkanlardan istifadə edib ordumuzu daha da möhkəmləndirəcək, gücləndirəcəyik ki, istənilən anda o, doğma torpaqlarımızı geri qaytarsın. Mən buna şübhə etmirəm və ümid edirəm ki, bizim siyasətimiz buna gətirib çıxaracaqdır.

Sadəcə, təəssüf edirəm ki, vaxt keçir və Ermənistan vaxtı uzatmaqla heç nə əldə etmir. Vaxt, zaman onların xeyrinə işləmir, əksinə, zaman bizim xeyrimizə işləyir. Biz ölkəmizdə bütün imkanlardan istifadə etməliyik. İndi bizdə çox gözəl şərait var: iqtisadi artım, siyasi sabitlik, vətəndaş həmrəyliyi, iqtidarla xalq arasında vəhdət, birlik, vətəndaş cəmiyyətinin möhkəmlənməsi, demokratikləşmə prosesinin uğurla inkişaf etməsi, bölgədəki vəziyyətimizin möhkəmlənməsi, beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlığımız və regional müstəvidə lider mövqeyimiz. Budur bizim məramımız, budur bizim bugünkü həyatımız. Ən önəmlisi odur ki, biz gələcəyi də çox açıq-aydın görürük, bilirik ki, haraya gedirik, bizi nələr gözləyir. Bilirik ki, Azərbaycan qısa müddət ərzində dünyanın ən inkişaf etmiş ölkələri sırasında olmalıdır. Buna imkan var, siyasi iradə var, xalqın birliyi var, istedadı var və biz buna nail olacağıq.

Azərbaycan heç vaxt Dağlıq Qarabağın ondan ayrılması ilə barışmayacaq, sülh yolu ilə və ya hərbi yolla öz ərazi bütovlüyünü bərpa edəcəkdir.

Bir məsələni də qeyd etmək istəyirəm. Bildiyiniz kimi, bu yaxınlarda Azərbaycanda Müdafiə Sənayesi Nazirliyi yaradıldı. Əlbəttə ki, əgər biz müharibə şəraitində olmasaydıq, bu nazirliyin yaradılmasına ehtiyac olmazdı. Ancaq bir halda ki, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi hələ öz həllini tapmır, biz qərara gəldik ki, Azərbaycanda güclü hərbi sənaye kompleksi yaradılsın və bu istiqamətdə əməli addımlar atılır. Ümid edirəm ki, qısa müddət ərzində Azərbaycanda çox güclü hərbi sənaye yaradılacaq və bu, öz növbəsində, orduya böyük dəstək olacaqdır.

Əziz dostlar!

Əziz hərbçilər!

Sizi qarşıdan gələn Silahlı Qüvvələr günü münasibətilə bir daha ürəkdən təbrik edirəm. Məzunları təbrik edirəm. Ali Hərbi Məktəbi bitirmiş məzunlar Azərbaycan Milli Ordusunda ləyaqətlə xidmət edəcək və Azərbaycanın müdafiə qüdrətini möhkəmləndirəcəklər.

Sağ olun.

## «TOTAL» ŞİRKƏTİNİN HƏVƏSKAR FUTBOL KOMANDASININ ÜZVLƏRİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*23 iyun 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 23-də Prezident sarayında «Total–Azərbaycan» şirkətinin Baş meneceri Tyeri Normanın rəhbərlik etdiyi «Total» şirkətinin həvəskar futbol komandasının üzvlərini qəbul etmişdir.*

*Dövlətimizin başçısı qonaqları salamlayaraq dedi ki, «Total» şirkəti Bakıda çoxdan fəaliyyət göstərir. Ancaq ilk dəfədir ki, onun futbol komandası Azərbaycana gəlibdir. Bunun özü gözəl göstəricidir, bizim münasibətlərimizi əks etdirir. Həm «Total»ın Azərbaycandakı fəaliyyətini göstərir, həm də Fransa ilə Azərbaycan arasında olan dostluq münasibətlərinin əlamətidir. Bizim münasibətlərimiz çox uğurla inkişaf edir. «Total» şirkətinin də bu işdə fəaliyyəti çox böyükdür.*

*«Total–Azərbaycan» şirkətinin Baş meneceri Tyeri Norman qəbula görə respublikamızın prezidentinə minnətdarlığını bildirdi və həvəskar futbol komandasının üzvlərini təqdim etdi. O, komandanın Bakıda bir neçə oyun keçirdiyini bildirdi, prezident İlham Əliyevin Azərbaycanda idmanın inkişafına böyük diqqət və qayğı göstərdiyi barədə məlumatları olduqlarını bildirdi. Tyeri Norman Fransa milli yığma komandasının üzvlərinin xüsusi olaraq Azərbaycan prezidentinə göndərdikləri və üzərində oyunçuların imzaları olan futbol topunu dövlətimizin başçısına təqdim etdi.*

*Prezident İlham Əliyev qonaqlarla xatirə şəkli çəkdirdi.*

## BAKIDA SƏRBƏST GÜLƏŞ VƏ YUNAN–ROMA GÜLƏŞİ ÜZRƏ «QIZIL QRAN-PRİ» BEYNƏLXALQ TURNİRİNİN FİNAL MƏRHƏLƏSİNİN AÇILIŞ MƏRASİMİ

*Heydər Əliyev adına İdman-konsert kompleksi*

*23 iyun 2006-cı il*

*İyunun 23-də Heydər Əliyev adına İdman-konsert kompleksində sərbəst güləş və yunan–roma güləşi üzrə «Qızıl Qran-pri» beynəlxalq turnirinin final mərhələsinin açılış mərasimi olmuşdu.*

*Mərasimə toplaşanlar Azərbaycan prezidenti İlham Əliyevi hərarətlə qarşıladılar.*

*Yarışda 25 ölkədən 200-dək idmançı (kişilər və qadınlar) iştirak edir. Onlar 7 çəki dərəcəsində yarışacaqlar. Azərbaycan 11 güləşçi ilə təmsil olunmuşdur.*

*Turnirin əvvəlki mərhələlərinin keçirildiyi ölkələrin bayraqları salona gətirildi.*

*Tamaşaçılar açılışdan əvvəl göstərilən və zəmanəmizin görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin xatirəsinə həsr olunmuş «Həmişə bizimlədir» musiqili klipini sürəkli alqışlarla qarşıladılar.*

*Azərbaycanın Dövlət himni səsləndi.*

*Sonra iştirakçı ölkələrin təmsilçilərinin paradı keçirildi.*

**A z a d R ə h i m o v** (*Gənclər və İdman naziri*): Azərbaycanın mötəbər beynəlxalq yarışlar keçirilməsində zəngin təcrübəsi var. Ölkədə idmanın inkişafı, onun maddi-texniki bazasının möhkəmlənməsi sahəsində mühüm işlər görülür. Azərbaycan idmanı öz inkişafının keyfiyyətcə yeni mərhələsini yaşayır, idmançılarımızın bütün uğurları idmana və bədən

tərbiyəsinə daim qayğı göstərmiş ümummilli lider Heydər Əliyevin adı ilə bilavasitə bağlıdır. Ulu öndərin bu sahədəki uzaqgörən siyasətini hazırda dövlətimizin başçısı Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev uğurla davam etdirir. Azərbaycan idmanının dünyada nüfuzunun yüksəlməsi, respublikamızın idman ölkəsinə çevrilməsi bunun nəticəsidir.

İndiki yarışların Azərbaycan paytaxtında keçirilməsi təşəbbüsünə görə Beynəlxalq Güləş Federasiyaları Assosiasiyasının (FİLA) rəhbərliyinə təşəkkür edirəm, idmançılara isə uğurlar arzulayıram.

**Rafael Martinetti** (*FİLA-nın prezidenti*): Mən beynəlxalq turnirin final mərhələsinin iştirakçılarını salamlayıram. Dünyanın bir sıra tanınmış güləşçilərinin Bakı turnirində iştirakını mühüm hadisə hesab edirəm. Azərbaycan indiki turnirin keçirilməsi üçün təsadüfən seçilməmişdir. Bu, Azərbaycanda beynəlxalq miqyaslı idman tədbirlərinin təşkili sahəsində gözəl ənənələrlə bağlıdır. İdmanın inkişafına qayğı və diqqət yetirdiyinə, turnirin yüksək səviyyədə təşkilinə görə Azərbaycan dövlətinin başçısı İlham Əliyevə təşəkkürümü bildirirəm.

**Abbas Abbasov** (*Yarışın Təşkilat komitəsinin sədri, Azərbaycan Güləş Federasiyasının prezidenti*): Son illər ölkəmizdə beynəlxalq güləş yarışları dəfələrlə uğurla keçirilmişdir. Ümummilli lider Heydər Əliyev idmanın inkişafına böyük əhəmiyyət verirdi, onun təşəbbüsü ilə bütün ölkədə çoxsaylı idman qurğuları ucaldılmışdır. Bu ənənə, idmançılarımıza yüksək qayğı prezident İlham Əliyev tərəfindən davam etdirilir.

*Sonra milli güləşlə məşğul olan idmançıların və incəsənət ustalarının çıxışları oldu.*

*FİLA-nın prezidenti Rafael Martinetti bu beynəlxalq idman təşkilatı tərəfindən təsis olunmuş ilk qızıl ordeni Azərbaycan dövlətinin başçısı İlham Əliyevə təqdim etdi. Azərbaycan Güləş Federasiyasının başçısı Abbas Abbasov isə prezident İlham Əliyevə federasiyanın kubokunu təqdim etdi.*

*Sonra yunan–roma güləşi üzrə yarış başlandı. 55 kiloqramadək çəki dərəcəsində güləşən Azərbaycan pəhləvanı Rövşən Bayramov finalda Gürcüstan idmançısı ilə qarşılaşdı və ölkəmizə ilk qızıl medalı qazandırdı.*

*Prezident İlham Əliyev «Qızıl Qran-pri» turnirinin ilk qalibinə qızıl medalı təqdim etdi.*

*Dövlətimizin başçısı idmançılarla və FİLA rəhbərliyi ilə xatirə şəkli çəkdirdi.*

## QARŞIDAKI QIŞ MÖVSÜMÜNDƏ ƏHALİNİN TƏBİİ QAZ, İSTİLİK, ELEKTRİK ENERJİSİ İLƏ TƏCHİZATI MƏSƏLƏLƏRİ VƏ ENERGETİKA SEKTORUNDAKI VƏZİYYƏTLƏ BAĞLI MÜŞAVİRƏDƏ ÇIXIŞ

*Prezident sarayı*

*24 iyun 2006-cı il*

Mən bugünkü müşavirəni energetika sektorundakı vəziyyəti müzakirə etmək üçün keçirirəm. Çünki hesab edirəm ki, biz bu gün bu məsələlərə baxmalıyıq. Qışa hazırlıq məsələlərini müzakirə etməliyik və bütövlükdə energetika sektorundakı vəziyyəti gərək təhlil edək və görülən tədbirlər haqqında fikir mübadiləsi aparaq.

Amma bu müşavirəni nizam-intizam məsələləri ilə başlamaq istəyirəm. Mən bu gün səhər işə gəldim, Baş nazirə zəng etdim, vəziyyətlə maraqlandım. Mənə iqtisadi göstəricilər haqqında, görülən işlər haqqında məlumat verdi. Dedim ki, belə bir müşavirə çağıraq, bu məsələləri müzakirə edək. Bu gün şənbə günüdür. Təxminən saat 11-in yarısında danışdıq. Dedim ki, müvafiq icra orqanlarının rəhbərlərini də dəvət edin, bunu müzakirə edək. İndi saat birə iyirmi dəqiqə işləyibdir. Təxminən iki saat lazım oldu ki, sizi yığsın. Düzdür, bu hamıya aid deyil, bəziləri iş yerində idi, amma bəziləri bura iki saata gəldilər. Çünki işdə deyildilər. Bu dözülməz bir haldır. Buna son qoymaq lazımdır. Mən sizə ciddi xəbərdarlıq edirəm. Mən, sadəcə olaraq, kameralar qarşısında ad çəkmək istəmirəm, kameralar çıxandan sonra ad çəkəcəyəm. Mən sizi xalq qarşısında biabır etmək istəmirəm. Nədir, ölkənin bütün məsələləri həll olunub, bütün problemlər öz həllini tapıb ki, siz

səhər istirahət edirsiniz? Özü də nə səhər, artıq günortadır. Saat birə iyirmi dəqiqə işləyir. Təxminən iki saat bundan əvvəl mən Baş nazirə dedim ki, bunları çağırın. Baş nazir, sizdən qat-qat yaşlı olan adam yerində, Prezidentin İcra Aparatının rəhbəri yerində, siz isə yoxsunuz. Nə ilə məşğulsunuz?

Mən sizə ciddi xəbərdarlıq edirəm. Vəzifəli şəxs, məsuliyyət daşıyan şəxs işlə məşğul olmalıdır. Prezident şənbə günü məsələləri həll etmək üçün səhər işə gəlibdir. Sizi isə tapmaq mümkün deyildir. Ona görə ciddi nəticə çıxarın və bu halları yığışdırın.

O ki qaldı energetika məsələlərinə, indi Azərbaycanın qarşısında böyük vəzifələr durur. Biz bunları həll etməliyik. Bizim energetika sistemimiz təkmilləşir, müasirləşir. Çox böyük işlər görürük. Həm elektrik enerjisi istehsalının keyfiyyəti artır, həm də regionların sosial-iqtisadi inkişafı proqramı çərçivəsində, Bakı qəsəbələrinin inkişafı proqramı çərçivəsində yeni elektrik stansiyaları tikilir, qaz xətləri çəkilir. Digər energetika infrastrukturu da yaradılır. Ancaq gərək biz bütün məsələlərə bir daha baxaq. Elə etməliyik ki, qış aylarında nə elektrik enerjisi, nə də qaz qıtlığı olmasın. Bunu etmək üçün indidən tədbirlər görməliyik. Qaz anbarlarına kifayət qədər qaz vurulmasını təmin etməliyik. Elektrik stansiyalarının səmərəli işləməsini təmin etməliyik. İstilik sisteminin bərpasına daha da ciddi yanaşmalıyıq. Bilirsiniz ki, bu sahədə böyük tədbirlər görülür və «Azəristiliktəchizat»ın yaranmasından sonra Bakı şəhərinin çoxmərtəbəli binalarının istilik təchizatı təmin olunur. Düzdür, tam həcmdə deyil, amma çalışırıq ki, tam həcmdə olsun. Bir tərəfdən, əhaliyə istilik veriləcək, digər tərəfdən, elektrik enerjisinə qənaət olunacaqdır.

Azərbaycan qazın bir miqdarını, hələ ki, xaricdən idxal edir. Bu bizim enerji balansında öz əksini tapır. Biz gələcəkdə də bunu etmək fikrindəyik. Eyni zamanda, «Şahdəniz» qaz yatağının istismara verilməsindən sonra Azərbaycanda daha böyük qaz hasilatı gözlənilir.

Yəni, bütün bu məsələlər bir-biri ilə bağlıdır və bunun təməlində Azərbaycanın enerji təhlükəsizliyi məsələləri dayanır. Biz bu baxımdan kifayət qədər imkanlara malikik. Biz enerji təhlükəsizliyi məsələlərini özümüz həll edirik və imkanlarımızı daha da artırırıq. Məhz bu məqsədlə həm rayonlarda, həm də Sumqayıt şəhərində yeni elektrik stansiyaları tikilir və digər stansiyaların tikintisi də nəzərdə tutulur. Onların bəziləri artıq istismara verilibdir.

Astara Elektrik Stansiyasının istismara verilməsindən sonra bu bölgədə elektrik enerjisi istehlakı təxminən 50 faiz artıbdır və keyfiyyət də artıbdır. Yəni bu nəyi göstərir?! Onu göstərir ki, əvvəllər kifayət qədər elektrik enerjisi verilmirdi. Əgər 50 faiz artıbdırsa, deməli, həmin 50 faiz yox idi, insanlar çətinlik çəkirdilər. Həmişə mən soruşanda ki, bölgələrdə elektrik enerjisi ilə bağlı vəziyyət necədir, deyirdilər yaxşıdır. Amma mən bilirəm ki, belə deyil. Mən rayonlarda oluram, insanlarla görüşürəm, məlumatım var. Əgər biz cənub bölgəsinin elektrik enerjisi təminatını 50 faiz artıra bilmişiksə, deməli, başqa bölgələrdə də qıtlıq var. İndi başqa bölgələrdə elektrik stansiyalarının tikintisindən sonra orada da təminat yaxşılaşmalıdır.

Uzun fasilədən sonra biz Naxçıvanı qazla təmin etməyə başladıq. Bu da həm iqtisadi, həm də sosial baxımdan böyük məsələdir. 13 ildən sonra Naxçıvana təbii qazın verilməsi böyük nailiyyətdir. İndi orada 90 meqavat gücündə yeni elektrik stansiyası tikilir. Çoxdan fəaliyyətsiz qalmış elektrik stansiyası da bərpa olunur və o da 50 meqavat enerji verəcəkdir. Yəni biz Naxçıvanın da enerji təhlükəsizliyi məsələlərini həll edirik. Çox işlər görülür. Mən «Azəriqaz»a göstəriş vermişəm ki, əvvəllər qazlaşdırılmamış bölgələrə qaz xətləri çəkilsin. Vəsait də ayırdıq, indi də işlər gedir, Lerikə və Yardımlıya qaz xətləri çəkilir. O rayonlarda heç vaxt qaz olmamışdır. Heç sovet vaxtında da oraya xətlər çəkilməmişdir. Çünki relyef çox mürəkkəbdir və çox böyük texniki çətinliklər var. Təbii ki, maliyyə məsələləri də həll olunmalıdır. Amma biz bunu edirik.

Çünki gərək insanlar təbii qazla təmin olunsunlar, daha da yaxşı yaşasınlar. Yenə də deyirəm, bütün bu məsələlər, əlbəttə, bizim öz imkanlarımızla bağlıdır.

Azərbaycan indi böyük həcmdə neft hasil edən ölkəyə çevrilir. Azərbaycanda qaz hasilatı artır və artmalıdır. Həm «Şahdəniz» qaz yatağından hasilata başlanacaq, eyni zamanda, Dövlət Neft Şirkəti qarşısında vəzifə qoymuşam ki, qaz hasilatını artırsın. İndi böyük işlər görülür. Mənə verilən məlumata görə, gələn il, bəlkə də 500 milyon–1 milyard kubmetr arasında əlavə qazın hasil edilməsi planlaşdırılır.

Bu gün bu məsələləri müzakirə edəcəyik və əminəm ki, qəbul ediləcək qərarlar energetika sektorundakı vəziyyəti daha da yaxşılaşdıracaqdır.

* * *

*Prezident İlham Əliyevin sədrliyi ilə keçən müşavirədə gündəlikdəki məsələlər barədə geniş müzakirə aparıldı.*

## BMT-nin TİCARƏT VƏ İNKİŞAF KONFRANSININ BAŞ KATİBİ SUPAÇAİ PANİTÇPAKDİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*26 iyun 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 26-da Prezident sarayında BMT-nin Ticarət və İnkişaf Konfransının Baş katibi Supaçai Panitçpakdini qəbul etmişdir.*

*Cənab Supaçai Panitçpakdi ölkəmizə səfərindən məmnun olduğunu, bu səfərin Azərbaycanda gedən iqtisadi inkişaf prosesləri, o cümlədən qlobal enerji layihələrinin həyata keçirilməsi ilə bağlı aparılan işlərlə yaxından tanış olmaq üçün yaxşı imkan yaratdığını bildirdi.*

*Dövlətimizin başçısı ölkəmizin iqtisadi sahədə əldə etdiyi uğurlar, dünya miqyaslı enerji layihələrinin müvəffəqiyyətlə həyata keçirilməsi istiqamətində görülən işlərdən danışdı.*

## GÜRCÜSTAN PREZİDENTİNİN MİLLİ TƏHLÜKƏSİZLİK MƏSƏLƏLƏRİ ÜZRƏ KÖMƏKÇİSİ, KONSTANTİN KEMULARİNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*27 iyun 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 27-də Prezident sarayında Gürcüstan prezidentinin Milli Təhlükəsizlik Məsələləri üzrə köməkçisi, Gürcüstanın Milli Təhlükəsizlik Şurasının katibi Konstantin Kemularinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan–Gürcüstan münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyini və bu münasibətlərin regional əməkdaşlığın daha da genişləndirilməsi işinə töhfə verdiyini vurğuladı. Prezident İlham Əliyev ölkələrimizin müxtəlif qurumları arasındakı qarşılıqlı əlaqələrin əhəmiyyətini qeyd edərək bu səfərin iki ölkənin təhlükəsizlik orqanları arasındakı əməkdaşlığın genişləndirilməsinə xidmət etdiyini bildirdi.*

*Konstantin Kemulari Gürcüstan prezidenti Mixeil Saakaşvilinin salamlarını prezident İlham Əliyevə çatdırdı. O, iki ölkə arasındakı münasibətlərin bütün istiqamətlərdə uğurla inkişaf etdiyini vurğuladı.*

*Prezident İlham Əliyev Gürcüstan prezidenti Mixeil Saakaşvilinin salamlarına görə minnətdarlığını bildirdi və onun da salamlarını Gürcüstanın dövlət başçısına çatdırmağı xahiş etdi.*

## BMT-nin ASİYA VƏ SAKİT OKEAN ÜÇÜN İQTİSADİ VƏ SOSİAL KOMİSSİYASININ İCRAÇI KATİBİ KİM HAK-SUN İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*27 iyun 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 27-də Prezident sarayında BMT-nin Asiya və Sakit okean üçün İqtisadi və Sosial Komissiyasının icraçı katibi Kim Haksunu qəbul etmişdir.*

*Kim Hak-sun BMT-nin Asiya və Sakit okean üçün İqtisadi və Sosial Komissiyasının təşkil etdiyi konfransda iştirak etmək üçün ölkəmizə səfər etdiyini bildirdi. Qonaq Azərbaycanın iqtisadi sahədə əldə etdiyi böyük uğurlarla bağlı prezident İlham Əliyevi təbrik etdi.*

*Dövlətimizin başçısı konfransda müzakirə edilən məsələlərin ölkəmiz üçün vacib olduğunu bildirdi. Prezident İlham Əliyev iqtisadiyyatın digər sahələrində olduğu kimi, energetika sahəsində də Azərbaycanın böyük uğurlar qazandığını qeyd edərək qeyri-neft sektorunun, infrastrukturun inkişafına mühüm diqqət yetirildiyini vurğuladı.*

## MƏŞHUR MUSİQİÇİ HERBİ HANKOOK İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*27 iyun 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 27-də Prezident sarayında məşhur musiqiçi Herbi Hankooku qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycanda caz festivalının keçirilməsinin və Herbi Hankookun bu tədbirdə iştirakının ölkəmizin mədəni həyatında mühüm hadisə olduğunu vurğuladı. Prezident İlham Əliyev Azərbaycan mədəniyyətinin böyük ənənələrə malik olduğunu bildirdi və bu sahənin inkişafına daim xüsusi diqqət göstərildiyini qeyd etdi.*

*Herbi Hankook ölkəmizə ilk dəfə səfər etdiyini bildirdi. Caz festivalının yüksək səviyyədə təşkil edildiyini diqqətə çatdıran qonaq Azərbaycanda mədəniyyətin inkişafına dövlət tərəfindən verilən dəstəyin onda xoş təəssürat yaratdığını qeyd etdi.*

## AVROPA YERLİ VƏ REGİONAL HAKİMİYYƏTLƏR KONQRESİNİN SƏDRİ HALVDAN SKARDIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*27 iyun 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 27-də Prezident sarayında Avropa Şurasının məsləhətçi orqanı olan Avropa Yerli və Regional Hakimiyyətlər Konqresinin sədri Halvdan Skardın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüş zamanı ölkəmizin müvafiq strukturları ilə Avropa Yerli və Regional Hakimiyyətlər Konqresi arasında əməkdaşlığın müxtəlif sahələri ilə bağlı bir sıra məsələlər müzakirə olunmuşdur.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV PREZİDENTİN İŞLƏR İDARƏSİNİN KİTABXANASINDA

*27 iyun 2006-cı il*

*Azərbaycan prezidenti İlham Əliyev iyunun 27-də Prezidentin İşlər İdarəsinin kitabxanasında olmuşdur.*

*Bu kitabxana 2003-cü ildə xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə Bakının iki böyük kitabxanasının – keçmiş Lenin adına Mərkəzi şəhər kitabxanasının və keçmiş Siyasi maarif evinin kitabxanasının bazasında yaradılmışdır.*

*Kitabxana ilə tanışlıq zamanı prezident İlham Əliyevə məlumat verildi ki, fondda XVIII–XIX əsrlərdə və XX əsrin əvvəllərində müxtəlif dillərdə çap olunmuş nadir nəşrlər saxlanılır. Kitabxananın dövri mətbuat fonduna respublikamızda və digər ölkələrdə çıxan 230 adda jurnal, qəzet və digər dövri nəşrlər daxil olur.*

*Prezident İlham Əliyev kitabxananın biblioqrafiya xidməti və oxu zalları ilə tanışlıqdan sonra fondun elektron nəşrlərlə komplektləşdirilməsi ilə də maraqlandı. Dövlət başçısına bildirildi ki, elektron nəşrlərə ümummilli lider Heydər Əliyevin 1993–2003-cü illərdə ölkəmizə rəhbərlik etdiyi zaman söylədiyi nitqləri, məruzələri, çıxışları, müsahibələri, habelə 2003-cü ilin oktyabr ayından başlayaraq prezident İlham Əliyevin müxtəlif tədbirlərdəki nitq və çıxışları, həmçinin müsahibələri daxildir. Elektron nəşrlərdə ölkəmizin ictimai-siyasi və mədəni həyatının ən mühüm sahələrini əks etdirən materiallar da toplanmışdır.*

*Azərbaycan prezidenti kitabxananın fondunun daha da zənginləşdirilməsi, habelə maddi-texniki bazasının möhkəmləndirilməsi ilə bağlı tövsiyələrini verdi.*

## VYETNAM SOSİALİST RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HQUEN MİNH TRİETƏ

Hörmətli cənab Prezident!

Vyetnam Sosialist Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan Respublikası ilə Vyetnam Sosialist Respublikası arasında təşəkkül tapmış dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Vyetnam xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *27 iyun 2006-cı il*

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB VLADİMİR PUTİNƏ**

Hörmətli Vladimir Vladimiroviç!

Rusiya Federasiyasının İraqdakı səfirliyi əməkdaşlarının ölümü barədə xəbər məni dərindən sarsıtdı.

Diplomatik missiyanın nümayəndələrinə divan tutulması aktını qəti şəkildə pisləyir, Sizə, həlak olanların ailələrinə, bütün Rusiya xalqına Azərbaycan xalqı adından və şəxsən öz adımdan dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *27 iyun 2006-cı il*

## BAŞ NAZİR ARTUR RASİZADƏYƏ VƏ UZUN MÜDDƏT MÜXTƏLİF DÖVLƏT VƏZİFƏLƏRİNDƏ ÇALIŞAN CƏFƏR VƏLİYEVƏ «İSTİQLAL» ORDENİNİN TƏQDİM EDİLMƏSİ MƏRASİMİ

*Prezident sarayı*

*27 iyun 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 28-də Prezident sarayında Baş nazir Artur Rasizadəyə və uzun müddət müxtəlif dövlət vəzifələrində çalışan Cəfər Vəliyevə ölkəmizin yüksək dövlət mükafatını – «İstiqlal» ordenini təqdim etmişdir.*

*Prezident İlham Əliyev Baş nazir Artur Rasizadəyə və Cəfər Vəliyevə təbriklərini çatdırdı, müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsində onların fəaliyyətini yüksək qiymətləndirdi. İstər 70–80-ci illərdə, istərsə də müstəqillik dövründə müxtəlif dövlət vəzifələrində çalışan bu insanların Azərbaycanın inkişafı naminə gərgin əmək sərf etdiklərini bildirən dövlətimizin başçısı onların fəaliyyətlərinin ölkəmizin rifahına yönəldiyini söylədi və hər ikisinə uğurlar arzuladı.*

*Baş nazir Artur Rasizadə əməyinə verilən yüksək qiymətə görə Azərbaycan prezidentinə minnətdarlığını bildirdi, ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında uzun müddət işləməsini böyük fəxrlə xatırladı. Azərbaycanda başlanmış vüsətli quruculuq işlərinin bu gün prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini vurğulayan Baş nazir xalqımızın və dövlətimizin qarşısında duran problemlərin, xüsusilə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli*

*sahəsində məqsədyönlü fəaliyyətində dövlətimizin başçısına uğurlar dilədi və bundan sonra da müstəqil Azərbaycan naminə ölkə prezidentinin əsgəri olacağını bildirdi.*

*Uzun müddət ümummilli lider Heydər Əliyevlə işlədiyini böyük minnətdarlıq duyğuları ilə yada salan Cəfər Vəliyev fəaliyyətlərində yüksək məsuliyyəti və xalqa sədaqət nümunələrini məhz ulu öndərdən öyrəndiklərini vurğuladı. O bundan sonra da müstəqil dövlətimizin inkişafı və möhkəmləndirilməsi yolunda Azərbaycan rəhbəri ilə bir olacağını bildirdi.*

**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB CORC BUŞA**

Hörmətli cənab Prezident!

Amerika Birləşmiş Ştatlarının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və dost Amerika xalqını şəxsən öz adımdan və bütün Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Bu gün bütün dünya miqyasında sülhün, sabitliyin və təhlükəsizliyin təmin edilməsi üçün Birləşmiş Ştatların göstərdiyi səylər böyük razılıq hissi doğurur. Qlobal təhlükələrə və çağırışlara qarşı beynəlxalq birliyin mübarizəsində Birləşmiş Ştatların qətiyyətli mövqeyi və aparıcı rolu hər cəhətdən təqdirəlayiqdir.

Strateji tərəfdaş olan ölkələrimizin xüsusən beynəlxalq terrorizmə qarşı mübarizə, enerji təhlükəsizliyinin təmin edilməsi sahəsində yaxından əməkdaşlığı uğurla davam etməkdədir. Xəzər dənizinin Azərbaycan sektorundakı neft və qaz yataqlarının işlənilməsində, enerji daşıyıcılarının dünya bazarlarına çatdırılması üçün transmilli nəqliyyat infrastrukturunun yaradılmasında Birləşmiş Ştatların dəstəyi bizim üçün çox vacibdir. Biz həmçinin cəmiyyətimizin demokratikləşdirilməsi proseslərinə Birləşmiş Ştatların maraq və yardımını yüksək qiymətləndiririk.

Xalqımızın ən ağrılı problemi olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılması üçün ATƏT-in Minsk qrupunun həmsədri kimi, Birləşmiş Ştatların ardıcıl səyləri ölkənizin xoş məramını bariz şəkildə ifadə edir və biz bu səylər nəticəsində nizamasalma prosesi çərçivəsində tezliklə irəliləyişlər əldə ediləcəyinə böyük ümidlər bəsləyirik.

Bir daha, cənab Prezident, Sizi təbrik edir, Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Amerika xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *27 iyun 2006-cı il*

## AMERİKA TÜRK ASSOSİASİYALARI ASSAMBLEYASININ PREZİDENTİ VURAL CENGİZ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*28 iyun 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 28-də Prezident sarayında Amerika Türk Assosiasiyaları Assambleyasının prezidenti Vural Cengizi qəbul etmişdir.*

*Vural Cengiz Azərbaycanda keçirdiyi bir sıra görüşlər barədə dövlətimizin başçısına məlumat verdi, ABŞ-dakı Azərbaycan ilə türk diasporaları arasında çox gözəl münasibətlərin olduğunu bildirdi.*

*Dövlətimizin başçısı Amerikadakı Azərbaycan və türk diasporaları arasında sıx əməkdaşlığın həyata keçirilməsindən məmnunluğunu vurğulayaraq, bu əlaqələrin Azərbaycan haqqında həqiqətlərin dünyaya daha geniş yayılması işinə xidmət etdiyini bildirdi.*

## «XALQ YAZIÇISI» VƏ «XALQ ŞAİRİ» FƏXRİ ADLARINA LAYİQ GÖRÜLMÜŞ BİR QRUP ƏDƏBİYYAT XADİMİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*28 iyun 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 28-də Prezident sarayında «Xalq yazıçısı» və «Xalq şairi» fəxri adlarına layiq görülmüş bir qrup ədəbiyyat xadimi – Çingiz Abdullayev, Gülhüseyn Abdullayev (Hüseynoğlu), Nəriman Həsənzadə, Sabir Rüstəmxanlı və Zəlimxan Yaqubla görüşmüşdür.*

**İlham Əliyev**: Keçən il sizə «Xalq yazıçısı», «Xalq şairi» yüksək fəxri adları verdim. İstəyirəm bu gün nişanları sizə təqdim edim. Çoxdan istəyirdim ki, görüşək. Amma vaxt məhdudluğundan imkan olmurdu. Sizi şəxsən bir daha təbrik etmək istəyirəm. Siz uzun illərdir ki, ədəbiyyat sahəsində çox fəal işləyirsiniz. Demək olar ki, Azərbaycanın ən görkəmli şair və yazıçılarısınız. Mən də çox şadam ki, bu yüksək adları sizə təqdim edirəm.

Bilirsiniz ki, bəzi hallarda müxtəlif fikirlər olur, bu fəxri adlar olsun, ya olmasın. Əlbəttə, xalq məhəbbəti, xalq sevgisi hər şeydən üstündür və siz öz fəaliyyətinizlə, yaradıcılığınızla bunu sübut etmisiniz. Belə fikirlər var ki, bu adlara ehtiyac yoxdur. Amma mən hesab edirəm ki, bu, mütləq olmalıdır. Çünki görkəmli mədəniyyət xadimlərinə dövlət də öz tərəfindən münasibətini bildirməli, onların fəaliyyətini qiymətləndirməlidir. Ona görə mən hesab edirəm ki, bu ənənə yaşamalıdır və Azərbaycanın qabaqcıl mədəniyyət, incəsənət, ədəbiyyat xadimlərinin fəaliyyəti yüksək qiymətləndirilməlidir.

Biz artıq 15 ildir ki, müstəqil dövlət kimi yaşayırıq. Ondan əvvəl, əsrlər boyu Azərbaycan dövlət müstəqilliyindən məhrum olmuşdur. Bizim xalqımız müəyyən dövrlərdə müstəmləkə şəraitində, müəyyən dövrlərdə başqa formada başqa ölkələrin tərkibində yaşamışdır. Sual olunur, necə olub ki, bütün bunlara baxmayaraq, Azərbaycan öz xüsusiyyətlərini saxlamışdır? Azərbaycan xalqı assimilyasiyaya məruz qalmamış, öz tarixi keçmişini qoruyub saxlaya bilmişdir?

Mən hesab edirəm ki, müxtəlif amillər olubdur. Amma onların içərisində ana dili və ədəbiyyat ən başlıca amildir. Çünki bizi millət kimi qoruyub saxlayan məhz dilimiz, ədəbiyyatımız, tariximiz, ənənələrimizdir. Azərbaycanın keçmişində bütün dövrlərdə sənət adamları – şairlər, yazıçılar ictimai-siyasi həyatda da həmişə çox fəal olmuşlar. Bəlkə də başqa keçmiş sovet respublikaları ilə müqayisə etsək görərik ki, məhz Azərbaycanda bu sahəyə həmişə böyük maraq olmuşdur. Deyə bilərəm ki, bizim yazıçılarımız, şairlərimiz Azərbaycanda ən populyar insanlardır. Keçmişdə də belə olub və bu gün də belə olmalıdır.

Düzdür, bütün inkişaf etmiş ölkələr kimi, indi Azərbaycan da öz fəaliyyətini bazar iqtisadiyyatı prinsipi əsasında qurur. Əlbəttə, dünya praktikası artıq sübut edib ki, bu, ən mütərəqqi bir yanaşmadır. Ancaq bəzi hallarda əgər mənəviyyat itirsə, mənəvi dəyərlər o bazar iqtisadiyyatı içərisində əridilirsə, bu, cəmiyyətin normal yaşamasına böyük təhlükə yarada bilər. Biz çalışmalıyıq ki, ölkəmizin uğurlu iqtisadi inkişafını şərtləndirən bütün amillərlə yanaşı, mütləq və mütləq mənəvi dəyərlər itməsin. Bizim ənənələrimiz, tarixi nailiyyətlərimiz saxlanılsın, qorunsun. Əlbəttə, ölkənin gücü, zənginliyi onun iqtisadi qüdrətindədir. Ancaq eyni zamanda, onun mənəvi gücündədir. Ona güc verən məhz mənəvi dəyərlərdir. Əlbəttə, bunda yazıçıların, şairlərin əvəzsiz rolu vardır.

Biz hamımız istəyirik ki, ölkəmiz daha da müasirləşsin, zənginləşsin, qüdrətlənsin və bütün amillər bunda mühüm rol oynamalıdır. Ona görə mən çalışıram ki, bu sahə də daim

diqqətlə əhatə olunsun. İqtisadi nailiyyətlərlə yanaşı, bu sahədə də böyük irəliləyiş olsun. Cəmiyyət bunu tələb edir və Azərbaycanın hərtərəfli inkişafı bunu tələb edir. Çalışıram ki, öz fəaliyyətimdə bu prinsipləri eyni səviyyədə saxlayım və beləliklə, ölkəmizin normal, hərtərəfli inkişafına daha da sürətlə nail olaq.

Sizi bir daha görməyimə şadam. Sizi bu hadisə münasibətilə təbrik edir və uğurlar arzulayıram.

İndi isə icazə verin, mən nişanları təqdim edim.

*Sonra Çingiz Abdullayevə, Gülhüseyn Abdullayevə (Hüseynoğlu), Nəriman Həsənzadəyə, Sabir Rüstəmxanlıya və Zəlimxan Yaquba «Xalq yazıçısı» və «Xalq şairi» fəxri adlarının verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamlarının mətni oxundu. Dövlətimizin başçısı İlham Əliyev görüş iştirakçılarına nişanları və vəsiqələri təqdim etdi.*

**Çingiz Abdullayev** (*«Xalq yazıçısı» adına layiq görülən Azərbaycan Yazıçılar Birliyinin katibi*): Çox sağ olun ki, bu gün Siz şəxsən özünüz vaxt tapıb nişan və vəsiqələri bizə təqdim etdiniz. Öz adımdan deyə bilərəm ki, bu mənim üçün çox gözlənilməz oldu. Mən bunu Sizə demişəm, indi də deyirəm: hesab edirəm, bundan sonra da çalışmalıyam ki, Azərbaycan mədəniyyəti, ədəbiyyatı inkişaf etsin, bütün dünyada bizi tanısınlar. Söz verirəm, indiyədək necə işləmişəmsə, eləcə də işləyəcəyəm ki, bizi bütün dünya tanısın. Azərbaycan yazıçılarını, onların əsərlərini dünyanın hər yerində tanısınlar. Çox sağ olun.

**Nəriman Həsənzadə** (*Xalq şairi)*: Yüksək fəxri ada görə dövlətimizin başçısına dərin minnətdarlığımı bildirirəm. Prezident İlham Əliyevin Azərbaycan mədəniyyəti, ədəbiyyatı və incəsənətinə göstərdiyi diqqət və qayğını xüsusi qeyd edirəm.

**İlham Əliyev:** Bu, yaxşı fürsətdir, bir az söhbətləşək. İndi hansı məsələlər var, hansı problemlər var, narahatedici məqamlar nədir, mən necə kömək edə bilərəm. Çünki bilirsiniz, mən bir daha demək istəyirəm, bu çox vacib sahədir. Ölkəmizin

inkişafının möhkəmlənməsi üçün, xalqımızın daha da tərəqqisi üçün, bütövlükdə, bu humanitar sahəyə böyük diqqət göstərilməlidir. Mən də çalışıram başqa cəhətlərdən, maddi cəhətdən kömək edim. Əlavə nə kimi tədbirlər görülməlidir? Misal üçün, kitablarımızın latın qrafikası ilə çap olunmasına qısa müddət ərzində nail olduq. Əlbəttə, bu, böyük hadisədir. Amma dövlət, hökumət başqa hansı tədbirləri görməlidir ki, biz bu işdə istədiyimizə daha da tezliklə nail olaq. Bəlkə hansısa təklifləriniz var, hansısa narahatedici məsələlər var?

**Sabir Rüstəmxanli** (*Xalq şairi*): Cənab Prezident, mən də təşəkkür etmək istəyirəm. İstənilən bir qələm adamı üçün, şübhəsiz, ən böyük ad, mükafat Xalq şairi və Xalq yazıçısı olmalıdır. Çünki ömrün boyu millət üçün yazırsan və bundan yüksək ad yoxdur. Bu fəxri adın rəsmi sənədini, vəsiqəsini Sizin əlinizdən almaq bizə çox xoşdur.

Azərbaycanın tarixində bəxti gətirməyən bir zümrə varsa, o da ziyalılardır. Bütün tariximiz boyu ziyalılar döyülüblər, söyülüblər, dərisi soyulub, dar ağacından asılıb, çox müsibətlər görüblər. Bu gün bu otaqda mərhum prezidentimiz Heydər Əliyevin xatirəsi və ruhu qarşısında bir şeyi etiraf etməliyəm, onun dövrü bəlkə də Azərbaycan tarixinin yeganə dövrü olub ki, ziyalılar bu qədər ciddi qayğı görüblər.

Rəssama, bəstəkara, şairə, alimə – bütün ziyalılara son dərəcə yüksək qiymət verilibdir. Biz bunu onun özünün iştirakı ilə dəfələrlə demişik. Onun ziyalılara xüsusi bir münasibəti var idi. Ziyalısız bir millətin perspektivinin olmadığını gözəl hiss edirdi, bilirdi. Həmişə, bütün şəraitlərdə, lap SSRİ-nin sərt çərçivələri dövründə də Azərbaycan ziyalılarını çox yüksək səviyyədə təbliğ edirdi. Biz SSRİ Yazıçılar İttifaqına gedəndə divarda Sosialist Əməyi qəhrəmanlarının şəkilləri arasında birdən-birə dörd azərbaycanlını görəndə sevinirdik ki, heç bir respublikada belə bir hal yoxdur. Mən sevinirəm ki, həmin ənənə, başqa sahələrdə olduğu kimi, bu gün də davam edir, yaşayır.

Ən ağır vaxtlarda bizim ziyalılara Prezident təqaüdünün verilməsini də demək istəyirəm. Bəzi MDB ölkələrindən maraqlanırdılar ki, ziyalılarınızın vəziyyəti necədir. Deyəndə ki, Azərbaycanda belə bir ənənə var, onlar doğrudan da heyrətlənirdilər. Təbii ki, hamının, xalqın vəziyyəti yaxşılaşmalıdır. Amma bir də fərdlər var ki, onlar tarixin yetişdirdiyi xüsusi adamlardır. O adamları çətin dövrdə xilas etmək, əslində, ölkənin mədəniyyətinə və gələcəyinə xidmətdir. Bu iş görülüb və bu gün də davam edir və ona görə Sizə çox minnətdaram. Mən istəyirəm ki, Azərbaycan ziyalılarına prezident səviyyəsində olan münasibət kiçik idarələr tərəfindən pozulmasın. Bəzən xırda məmurlar ziyalını, sənət adamını nəzərə almır. Çünki o sahəni bilmir və buna görə də həmin sahəyə yabançı baxır. Gərək onlar da bu münasibəti nəzərə alsınlar.

1989-cu ildə Bakıda «Səadət» sarayının bir hissəsi Bakı Şəhər İcra Hakimiyyətinin qərarı ilə «Ziyalı evi» kimi təsdiq olunmuşdur. Bakı kimi bir şəhərdə «Ziyalı evi» yoxdur. Yaradıcılıq evləri var, o da bəzi insanlar üçündür. Amma ümumi bir «Ziyalı evi»nin olması zəruridir və Azərbaycanın bütün elitar ziyalı təbəqəsi orada görüşə, yığışa, müəyyən tədbirlər keçirə bilə. Məncə buna ehtiyac vardır.

**İlham Əliyev:** Çox sağ olun ki, vacib məsələyə toxundunuz. Doğrudan da, gərək bütün məmurlar, bütün dövlət strukturlarında işləyənlər ziyalılara daha böyük diqqət və qayğı ilə yanaşsınlar. Mənim mövqeyim belədir. Hamımız bilirik ki, hər bir cəmiyyəti irəliyə aparan, tərəqqiyə aparan, inkişaf etdirən aparıcı qüvvə var. Bu həm siyasi elitadır, eyni zamanda, ziyalı elitasıdır. Yəni cəmiyyətin önündə gedənlərdir. Onlar bütün dövrlərdə – bunu hər bir ölkəyə şamil etmək olar – ölkənin uğurlarını müəyyən ediblər, təmin ediblər. O cümlədən, Azərbaycanda da. Ona görə ziyalılar cəmiyyətimizin elitasıdır və ölkənin inkişafı xeyli dərəcədə onların fəaliyyətindən asılıdır. Belə olan halda, ziyalı insanlara maksimum dərəcədə qayğı, diqqət göstərilməlidir, onlar yaxşı yaşamalıdırlar.

Bilirsiniz, indi biz özümüzü keçmişdə olan bəzi xoşagəlməz hallardan təmizləyirik. Amma etiraf etməliyik ki, sovet dövründə ziyalı insanlara xüsusi münasibət var idi, yəni çox təqdirəlayiq münasibət var idi. Onların maddi vəziyyəti, təminatı, yaradıcılıq evlərinin tikintisi – bütün bunlar var idi. Biz bunu etiraf etməliyik. Sovet İttifaqı dağılandan sonra, əlbəttə ki, bütün respublikalar çətin vəziyyətə düşdü. İlk növbədə, bütün təsərrüfat əlaqələri kəsildi və beləliklə, hər bir respublika, artıq müstəqil ölkə çətinliklərlə üzləşdi, o cümlədən də Azərbaycan. Belə olan halda, əlbəttə, mədəniyyət sahəsinə diqqət azalmışdı. Ona görə yox ki, siyasət belə idi. Ona görə ki, imkan yox idi, maddi imkanlar yox idi.

Hamımız yaxşı xatırlayırıq ki, 90-cı illərin əvvəllərində, daha doğrusu, 90-cı illərin ortalarına qədər Azərbaycanda çox ciddi iqtisadi böhran yaşanırdı. Ancaq indi ölkəmiz güclənir, maddi imkanlarımız artır və ilk növbədə, ziyalı insanların bütün təminatı daha da yüksək olmalıdır. Prezident təqaüdlərinin təsis edilməsi də bu məqsədi güdürdü. Çünki hansısa işlə, ticarətlə, yaxud da bizneslə məşğul olan insanlar özlərini təmin edirdilər. Ancaq yazıçı, alim, ziyalı insan çətin vəziyyətə düşürdü. Çünki onun qazancı onun kitablarından əldə edilən gəlirlər idi, qonorarlar idi. Kitablar isə çap olunmurdu, vəsait ayrılmırdı. Belə olan halda bu insanlar çox çətin vəziyyətə düşdülər. Bir vaxt olduqları ən qabaqcıl mövqelərdən ən çətin vəziyyətə düşdülər. O cümlədən, akademiya üzvləri. Siz bunları yaxşı bilirsiniz. Biz bunları bərpa etməliyik. Prezident təqaüdlərinin təsis edilməsinin məqsədi də məhz bunda idi.

İndi imkanlarımız daha da genişdir. Ona görə mən istəyirəm biz bu sahədə daha da geniş proqramlar müəyyən edək. Həm bizim görkəmli yazıçılarımızı, mədəniyyət xadimlərimizi, eyni zamanda, gənc istedadları gərək dəstəkləyək. Gənc nəsil yetişməlidir. Sizdən sonrakı nəsil gərək bütün o gözəl ənənələri yaşatsın. Bu baxımdan bütün bu məsələlərə gərək kompleks şəkildə baxaq. Ona görə mən sizdən də təklif gözləyirəm ki, bu işləri daha da səmərəli şəkildə aparaq.

O ki qaldı Azərbaycanda gedən proseslərə, mən hesab edirəm bu, müsbət istiqamətdə inkişaf edir. İndi həm bölgədə, həm də dünyada ölkəmizin mövqeləri möhkəmlənir. Azərbaycanın seçdiyi yol düzgün yoldur. Bunu həyat, praktika sübut edir. Prezident kimi, mənim də əsas məqsədim Azərbaycanı daha da möhkəmləndirmək, insanların həyat səviyyəsini yaxşılaşdırmaq və bütövlükdə, ölkəmizi qorumaqdır. Çünki indi dünya və bizim bölgə, necə deyərlər, elə bir dövrə qədəm qoyur ki, müəyyən risklər artır. Bəzi hallarda təhlükələr artır. Azərbaycanın yerləşdiyi bölgə çox həssas bölgədir. Burada müxtəlif maraqların toqquşması da baş verir. Azərbaycanın nüfuzu və önəmi artır. Əlbəttə, bunun çox müsbət əlamətləri var. Eyni zamanda, bizə maraq da, diqqət də artır. Bəzi hallarda bu maraqlar burada toqquşur.

Bilirsiniz, həmişə mən demişəm ki, ilk növbədə, Azərbaycanın milli maraqları qorunmalıdır və biz onları təmin etməliyik. Bu gün və gələcəkdə ilk növbədə, Azərbaycanın təhlükəsizliyi təmin olunmalıdır ki, bizim xalqımız rahat yaşasın. Bizim siyasətimiz belədir ki, özümüzə aid olmayan məsələlərə müdaxilə etmirik, heç bir başqa ölkənin daxili işlərinə qarışmırıq. Bu bizim prinsipial siyasətimizdir. Bütün dost, tərəfdaş ölkələrlə səmərəli münasibətlər qurulmasının tərəfdarıyıq.

Bir daha deyirəm, indiki dövrdə biz hər şeyi etməliyik ki, ölkəmizi qoruyaq. Bunu etmək üçün, əlbəttə, iqtisadi potensial möhkəmlənməlidir. Bizim bölgədəki mövqelərimiz güclənməlidir. Bunu etmək üçün, şübhəsiz ki, ikitərəfli müstəvidə, regional əməkdaşlıq çərçivəsində qonşu dövlətlərlə, tərəfdaşlarla münasibətlər daha da möhkəmlənməlidir. Daxildə gedən proseslər müsbət istiqamətdə inkişaf etməlidir. Aşkarlıq, demokratikləşmə, ictimai nəzarət – bütün bunlar bir-birilə çox bağlı olan məsələlərdir.

Mən bir neçə dəfə demişəm, iqtisadi cəhətdən güclü olmaq hələ o demək deyil ki, bütün məsələlər həllini tapacaqdır. Biz dünya təcrübəsini də, keçmişi də, tarixi də bilirik, oxumuşuq,

öyrənmişik. Əgər ictimai quruluş insanlara məhdudiyyətlər tətbiq edirsə, heç bir iqtisadi irəliləyiş uğura gətirib çıxarmaz. Sovet İttifaqının təcrübəsini o dövlətdə yaşamışıq. İqtisadi cəhətdən, təbii ehtiyatlar, neft, qaz, sənaye kompleksi, hərbi sənaye – bütün sahələrdə ən zəngin ölkə idi. Amma ölkə dağıldı. Nəyə görə? Çünki ictimai quruluş belə idi ki, onun davamlı inkişafı mümkün deyildi. Bu nə vaxtsa qurtarmalı idi. Elə də oldu.

Ona görə iqtisadi islahatlar, sərbəst bazar iqtisadiyyatı, eyni zamanda, azad cəmiyyət, demokratik cəmiyyət – yalnız və yalnız bunların sintezi uğura gətirib çıxara bilər. Sadəcə olaraq, baxmaq lazımdır ki, hansı ölkələr bu gün dünyada gedən proseslərə təsir edir, onları müəyyən edir, hansı ölkələr, sadəcə olaraq, buna passiv tamaşa edir. Onda görərik ki, o ölkələr öndədir ki, orada həm iqtisadi, həm də siyasi cəhətdən, ictimai məsələlər baxımından işlər düzgün qurulubdur. Biz də istəyirik ki, Azərbaycan qüdrətli dövlətə çevrilsin. Bunu etmək üçün bütün bu amillər bir-birilə çox bağlıdır və böyük əhəmiyyət kəsb edir.

Bizim böyük nailiyyətimizdir, bizim böyük uğurumuzdur ki, Azərbaycanda daxildə vətəndaş cəmiyyəti yaradılması sahəsində işlər görülür, vətəndaş həmrəyliyi var, yekdil fikir var. Azərbaycanın bütövlükdə gələcək inkişafı ilə bağlı ictimaiyyətdə fikir ayrılığı yoxdur. Çox vacibdir ki, biz bilirik haraya gedirik. Biz gələcəyi, 5 ildən sonra, 10 ildən sonra, 20 ildən sonra nə olacağını görməliyik. Bu gün Azərbaycanın uzunmüddətli inkişaf strategiyası müəyyən olunur, çünki ölkə yeni bir dövrə qədəm qoyur. Müstəqillik qazanıldıqdan sonrakı birinci dövr başa çatıbdır. O, kiçik dövrlərə də bölünə bilər, amma bütövlükdə bu, artıq başa çatıbdır. İqtisadi çətinliklər, torpaqlarımızın işğal olunması, bölgədəki gərginliklər və böhrandan çıxmaq məsələləri və sabitləşmə prosesi.

Bu gün yeni dövr başlayır. Bu, sırf Azərbaycanın inkişafı ilə bağlı dövr olacaqdır. Mən demişəm və bir də demək istəyirəm ki, Azərbaycanda yoxsulluq, işsizlik aradan qaldırılacaq, güclü

sənaye potensialı yaranacaq və ölkəmiz demokratik inkişaf baxımından çox sürətlə irəliyə gedəcəkdir. Yəni bir sözlə, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ məsələsindən başqa, mən bizim qarşımızda elə ciddi problem görmürəm. Mən əminəm ki, biz onu da həll edəcəyik. Bizim buna iradəmiz də çatır, gücümüz də çatır. Sadəcə olaraq, istəyirik bunu sülh yolu ilə həll edək ki, qan tökülməsin, müharibə olmasın.

Ancaq bilirsiniz ki, biz bütün başqa variantlara da hazır olmalıyıq və hazırlaşırıq. Çünki biz heç vaxt Dağlıq Qarabağın Azərbaycandan ayrılması ilə barışmayacağıq. Ermənistanın mövqeyi qeyri-konstruktivdir. Faktiki olaraq, indi onlar çıxılmaz vəziyyətdədirlər. Çünki həm siyasi, həm tarixi, həm də ümumi cəhətdən haqsızdırlar. Dağlıq Qarabağ tarixi baxımdan, siyasi cəhətdən Azərbaycan torpağıdır. Bütün dünya Azərbaycanın ərazi bütövlüyünü tanıyır və indi siyasi cəhətdən Azərbaycan Ermənistandan qat-qat üstün mövqelərə malikdir. Hüquqi cəhətdən də həmçinin. Birləşmiş Millətlər Təşkilatı Azərbaycanın ərazi bütövlüyünü, Dağlıq Qarabağ daxil olmaq şərtilə, tanıyır. Belə olan halda, hansı güzəştlərdən söhbət gedə bilər? Bizim ermənilərə, Ermənistana məxsus olan nəyimiz var ki, onlara güzəşt edək. Biz onlara güzəşt edə bilmərik. Ərazi bütövlüyü güzəşt predmeti ola bilməz. Güzəşt ondan ibarət ola bilər ki, bəli, məsələnin həlli üçün sülhməramlı qoşunlar gələ bilər. Biz buna hazır ola bilərik. Halbuki, buna razılıq vermək o qədər də asan məsələ deyildir. Çünki bilirsiniz ki, Azərbaycanda heç bir başqa ölkənin silahlı birləşmələri yoxdur. Bu bizim prinsipial mövqeyimizdir. Bəzən bu barədə də çox şayiələr gəzir ki, Azərbaycanda hansısa hərbi baza yaradılacaqdır. Mənim mövqeyim açıqdır, hesab edirəm ki, buna ehtiyac yoxdur. Mən belə bir ehtiyac duymuram. Bizim bütün ölkələrlə münasibətlərimiz qarşılıqlı hörmət, dostluq müstəvisində aparılmalıdır. Yenə də deyirəm, hər bir ölkə kimi, biz də ilk növbədə, öz milli maraqlarımız haqqında fikirləşməliyik və bunu təmin edirik. Yəni ki, bu güzəşt ola bilər.

Digər tərəfdən, Dağlıq Qarabağa yüksək muxtariyyət statusunun verilməsinə razılıq böyük güzəştdir. Çünki onun statusu həmişə muxtar vilayət olubdur. Mən bəyan etmişəm, bir də deyirəm, dünyada hansı muxtariyyət statusu varsa, onun ən yüksək variantını biz burada tətbiq etməyə hazırıq. Bundan başqa güzəşt ola bilməz!

Əlbəttə, Ermənistanın vəziyyəti getdikcə çətinləşir. Onlar dünyada artıq işğalçı dövlət kimi tanınırlar. Mən bizim bütün nümayəndələrimizə göstəriş vermişəm, beynəlxalq təşkilatlarda, bütün tədbirlərdə gərək onların işğalçı siyasəti ifşa olunsun. Biz gərək öz mövqeyimizi dünya ictimaiyyətinə çatdıraq və beləliklə, təbliğat baxımından üstünlük artıq bizdədir. Ona görə ermənilər çalışırlar müxtəlif yollarla ya bizi şantaj etsinlər, ya reallığı əks etdirməyən bəyanatlar versinlər. Təəssüf edirəm ki, bunu onların rəsmi orqanları edir. Bəzi hallarda Ermənistanın Xarici İşlər Nazirliyi həqiqəti əks etdirməyən və yaxud, necə deyərlər, daxili istehlaka yönəldilmiş qeyri-ciddi tezisləri ortaya atır.

Bizim mövqeyimizdə heç bir dəyişiklik yoxdur və olmayacaqdır. İnanıram ki, biz torpaqlarımızı geri qaytaracağıq. Bunu etmək üçün həm siyasi, həm iqtisadi, həm hərbi, həm də bütün başqa imkanlar var. Ona görə, bu problemdən başqa mən Azərbaycanın qarşısında ciddi problem görmürəm. Mən hesab edirəm ki, 5 ildən, 10 ildən, 15 ildən sonra Azərbaycan daha da möhkəmlənəcək və artıq bugünkü artan mövqelərini daha da gücləndirəcəkdir. Belə planlar var.

Bilirsiniz ki, indi bölgələrdə böyük abadlıq işləri gedir. Mən tez-tez bölgələrdə oluram. Hər dəfə inkişafı görəndə çox sevinirəm. Azərbaycan gərək nümunəvi ölkə olsun. Bizim buna imkanlarımız çatır və Azərbaycanın hərtərəfli inkişafı təmin ediləcəkdir.

Bu işdə sizin də böyük rolunuz var, həmişə olub, gələcəkdə də olmalıdır ki, bizim xalqımıza xas olan mənəvi dəyərlər gərək yaşasın. Çünki bir daha demək istəyirəm, biz müstəmləkə kimi yaşamışıq, əsarət altında yaşamışıq. Azərbaycanı müxtəlif

dövrlərdə işğal etmişlər, zəbt etmişlər, ancaq Azərbaycan xalqının iradəsini heç kim qıra bilməyibdir.

Müstəqillik əldə olunandan sonra Azərbaycan dərhal müstəqil dövlətə xas olan bütün əlamətlərini bərpa edibdir. Bu baxımdan ədəbiyyat, tarix, ana dili kitablarımız, necə deyərlər, ən böyük rol oynayıbdır. Bəzi hallarda yəqin sizə də, mənə də sual verilir ki, necə olub, siz öz xüsusiyyətlərinizi saxlamısınız? Bizim ana dilimiz, kitablarımız, ədəbiyyatımız olubdur. Çünki o dövrdə heç bir başqa amil yox idi. Müstəqil dövlət deyildik, ideoloji çərçivələr içərisində yaşayırdıq, məhdudiyyətlər var idi. Bizi bir millət kimi saxlayan nə idi?! Bunlar idi. Gələcək inkişafı təmin edəcək amillər də bunlardır. Əlbəttə, biz iqtisadi cəhətdən güclü olanda, bütün işlər daha da sürətlə gedəcəkdir. Milli ruh, bizim mənəvi dəyərlərimiz, tariximiz, torpağa bağlılığımız – budur bizim gələcəyimizi müəyyən edən amillər.

Mən bir daha demək istəyirəm ki, bu işdə sizin fəaliyyətiniz çox önəmlidir. Bütün ziyalıların, mədəniyyət işçilərinin fəaliyyəti çox vacibdir və çox dəyərlidir. Ona görə mən istəyirəm gələcək fəaliyyətinizdə sizə bir daha uğurlar diləyim.

**Z ə l i m x a n  Y a q u b** (*Xalq şairi*): Siz bizə çox böyük şərəf verərək fəxri adların təqdimatına dəvət etdiniz, buna görə çox sağ olun. Şübhəsiz, Azərbaycan xalqının əxlaqi dəyərlərini, mənəvi sərvətlərini, tarixi keçmişini, ədəbiyyatını, mədəniyyətini, incəsənətini, böyük şəxsiyyətlərini qoruyan, yüksəldən, daha da hörmətli edən bu dövlətin Heydər Əliyev ənənəsi var. Biz hamımız çox xoşbəxtik ki, bu gün həmin ənənə çox yüksək səviyyədə Sizin tərəfinizdən davam etdirilir.

**İ l h a m  Ə l i y e v:** Çox sağ olun.

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN UCAR RAYONUNA SƏFƏRİ

*29 iyun 2006-cı il*

*Azərbaycan prezidenti İlham Əliyev iyunun 29-da Ucar rayonuna gəlmişdir. Şəhərin mərkəzi meydanında on minlərlə rayon sakini dövlətimizin başçısını və xanımı Mehriban Əliyevanı hörmət və ehtiramla qarşıladı. Buraya toplaşanların əllərində ulu öndər Heydər Əliyevin, eləcə də prezident İlham Əliyevin portretləri, dövlətimizin başçısını salamlayan şüarlar, ümummilli liderimizin kəlamları yazılmış transparantlar var idi.*

*Prezident İlham Əliyev əvvəlcə Heydər Əliyev adına parkda ulu öndərin tuncdan tökülmüş abidəsinin təntənəli açılış mərasimində iştirak etdi. Dövlətimizin başçısı abidənin üzərindən ağ örtüyü götürdü. Abidənin müəllifləri Rəssamlıq Akademiyasının müəllimləri Nəriman Məmmədov və İslam Abdullayevdir. Qranit postamentlə birlikdə heykəlin hündürlüyü 5 metrdir.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva abidənin önünə gül dəstəsi qoydular və sonra parkı seyr etdilər. Bildirildi ki, beş hektar ərazisi olan park tamamilə yenidən qurulmuş, yaraşıqlı fəvvarələr quraşdırılmışdır. Burada şəhər sakinlərinin istirahəti üçün lazımi şərait yaradılmışdır.*

* * *

*Azərbaycan prezidenti İlham Əliyev iyunun 29-da Ucar şəhərində Heydər Əliyev muzeyinin təntənəli açılış mərasimində iştirak etmişdir.*

*Muzey şəhərin Nərimanov küçəsində, ulu öndərin adını daşıyan parkda müasir memarlıq üslubunda inşa edilmişdir. Yerli sənətkarlar tərəfindən daxili imkanlar hesabına tikilmiş binanın geniş salonunda görkəmli dövlət xadimi və siyasi xadim, dahi şəxsiyyət Heydər Əliyevin həyat və fəaliyyətinin ayrı-ayrı dövrlərini, o cümlədən xarici ölkələrə səfərlərini əks etdirən fotoşəkillər toplanmışdır. Heydər Əliyevin 1978-ci ildə Ucar rayonuna səfərinə həsr olunmuş ayrıca bölmə prezident İlham Əliyevdə xüsusi maraq doğurdu. Muzeydə ümummilli liderin büstü də qoyulmuşdur.*

*Muzey həm də Heydər Əliyevin zəngin irsinin öyrənilməsində ideoloji mərkəz rolunu oynayacaqdır. Məktəblilər, rayona gələn qonaqlar burada ulu öndərin həyat və fəaliyyəti ilə bağlı geniş məlumat əldə edə biləcəklər. Prezident İlham Əliyevə «Xalqın yaddaşında əbədi yaşayan ulu öndər» fotoalbomu təqdim olundu.*

*Dövlətimizin başçısı muzeylə tanışlıqdan sonra Xatirə kitabına ürək sözlərini yazdı:*

«Heydər Əliyev muzeyində nümayiş etdirilən fotoşəkillər ulu öndərin həyat və fəaliyyətinin bəzi məqamlarını əks etdirir.

Bütün dövrlərdə ümummilli lider Heydər Əliyev doğma xalqına sədaqətlə xidmət etmişdir. Onun Ucar rayonuna səfəri rayonun inkişafına böyük təkan vermişdir. Bu gün də Ucar rayonu uğurla inkişaf edir və ulu öndər Heydər Əliyevin ideyaları və siyasəti yaşayır və əbədi yaşayacaqdır.

Bütün ucarlılara öz dərin hörmət və məhəbbətimi bildirirəm.

**İLHAM ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

29.06.2006-ci il».

## UCAR RAYONU İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ NİTQ

*29 iyun 2006-cı il*

Əziz dostlar!

Xanımlar və cənablar!

Əziz ucarlılar!

Mən sizin hamınızı ürəkdən salamlayıram. Bu gün Ucar rayonuna gəlmişəm. Sizinlə birlikdəyəm və çox şadam ki, biz bu gün görüşürük. Bu gün ulu öndər Heydər Əliyevin abidəsinin, onun adını daşıyan muzeyin açılışı oldu. Bir daha muzeydəki fotoşəkillərə nəzər salaraq hamımız görürük ki, bütün dövrlərdə ulu öndərin həyat və fəaliyyəti Azərbaycan xalqına xidmət etməkdən ibarət olmuşdur. Azərbaycanı 70-ci illərdə və 90-cı illərdə məhz Heydər Əliyevin siyasəti nəticəsində inkişaf etdirmək mümkün olmuşdur. Ucar rayonuna da ulu öndərin həmişə böyük diqqəti olmuşdur və muzeyin eksponatları 1978-ci ildə onun buraya səfərini bu gün bir daha bizə xatırlatdı. Bu gün də Azərbaycan Heydər Əliyev yolu ilə uğurla inkişaf edir. Bütün sahələrdə biz Heydər Əliyev siyasətini davam etdiririk və bu siyasət Azərbaycan xalqının milli maraqlarına cavab verir. Azərbaycan xalqı müdrik xalqdır, istedadlı xalqdır və həmişə ulu öndərin siyasətini dəstəkləmişdir. Bu gün Azərbaycanın uzunmüddətli inkişaf strategiyası müəyyən olunur. Ölkəmizin sosial-iqtisadi inkişafı xeyli dərəcədə regionların inkişafından asılıdır. Məhz bu məqsədlə iki il yarım bundan əvvəl mənim təşəbbüsümlə regionlarin sosial-iqtisadi inkişafı Dövlət Proqramı qəbul edilmişdir və bu gün uğurla icra olunur. Mənim bölgələrə mütəmadi səfərlərimin əsas məqsədi yerlərdəki vəziyyətlə tanış

olmaq, mövcud olan problemləri araşdırmaq və əlavə tədbirlər haqqında qərarların verilməsindən ibarətdir. Bilirsiniz ki, son iki il yarım ərzində regionlarda böyük quruculuq-abadlıq işləri görülübdür. İqtisadi inkişaf, yeni iş yerlərinin açılması, yoxsulluğun azaldılması – bütün bu amillər Azərbaycanı daha da möhkəmləndirir və insanlarımızın rifah halını daha da yaxşılaşdırır.

Azərbaycan iqtisadi inkişaf sürəti baxımından dünyada birinci ölkədir. Dünyada hər hansı bir sahədə birinciliyi əldə etmək asan məsələ deyildir. Nəzərə alsaq ki, dünyada 200-dən çox ölkə mövcuddur, bunların içərisində iqtisadi inkişaf templərinə görə birinci yerdə olmaq, həqiqətən, böyük nailiyyətdir. Bu bizim işimizin nəticəsidir. 90-cı illərin ortalarında Heydər Əliyev tərəfindən müəyyən edilmiş düzgün iqtisadi siyasətin nəticəsidir ki, Azərbaycan bu gün ən qabaqcıl ölkələr sırasındadır.

Bilirsiniz ki, son illər ərzində yeni iş yerlərinin açılmasına çox böyük diqqət yetirilir. Çünki yeni iş yerlərinin açılması, bir tərəfdən, bölgələrin vəziyyətini, insanların həyat səviyyəsini yaxşılaşdırır və digər tərəfdən, bütövlükdə yerli istehsalın güclənməsinə təkan verir. Son iki il yarım ərzində Azərbaycanda 400 min yeni iş yeri açılmışdır. Mən xatırlayıram ki, 2003-cü ildə prezident seçkiləri ərəfəsində belə bir proqramla çıxış etmişdim ki, 5 il ərzində 600 min iş yerinin açılması nəzərdə tutulubdur. Bu gün artıq həyat göstərir ki, bizim bütün qərarlarımız, bütün planlarımız yerinə yetirilir. Çünki onlar reallığa əsaslanır.

Biz öz fəaliyyətimizi, siyasətimizi düşünülmüş, konkret şəkildə aparırıq. Azərbaycanın hərtərəfli inkişafına çalışırıq. Belə olan halda, əlbəttə ki, uğurlar da var. Azərbaycanda yoxsulluğun səviyyəsi təkcə bir il ərzində 20 faiz aşağı düşmüşdür. Bizim iqtisadi proqramlarımız icra olunur, abadlıq-quruculuq işləri aparılır, yeni yollar salınır, elektrik stansiyaları tikilir, su xətləri, qaz kəmərləri çəkilir. Təkcə keçən il Azərbaycanda 300-dən çox məktəb tikilmişdir. Bütün bölgələrdə yeni müasir tibb ocaqları tikilir. O cümlədən Ucar

rayonunda da bu işlər görülür. Məktəb, xəstəxana tikintisi bu gün Azərbaycanda prioritet məsələdir. Bizim insanlarımız yaxşı şəraitdə oxumalı, yaxşı tibbi xidmət almalıdırlar. Abadlıq, quruculuq olmalıdır, yaxşı yollar olmalıdır, işıq, qaz, su təchizatı olmalıdır. Biz bütün bu problemlər üzərində işləyirik, müxtəlif proqramlar qəbul edilib və icra olunur.

Bölgələrin inkişafı gələcəkdə daha da sürətlə gedəcək, çünki Azərbaycanın maddi imkanları artır. Bunun əsas səbəbi Azərbaycanda Heydər Əliyevin neft strategiyasının uğurla aparılmasıdır. Çünki 1994-cü ildə neft strategiyasının həyata keçirilməyə başlanması ilə Azərbaycana böyük sərmayə qoyulubdur və bu gün Azərbaycan öz neft layihələrini uğurla həyata keçirir. Bakı–Tbilisi–Ceyhan neft kəmərinin istismara verilməsi tarixi hadisədir. Məhz Heydər Əliyevin qətiyyəti, onun cəsarəti nəticəsində, Azərbaycan xalqının müdrikliyi nəticəsində bu kəmər artıq reallıqdır. Baxmayaraq ki, onun tikintisi çox böyük çətinliklərlə müşayiət olunmuşdur. Çünki bəzi qüvvələr bunu istəmirdi, daxildə bəzi qüvvələr bunun əleyhinə çıxmışdı. Ancaq baxın, əgər Bakı–Tbilisi–Ceyhan neft kəməri inşa edilməsəydi, bizim iqtisadi gələcəyimiz o qədər də nikbin olmazdı.

Bu gün isə kəmərin işə düşməsi ilə əlaqədar Azərbaycanın maddi vəziyyəti ildən-ilə, özü də çox kəskin şəkildə yaxşılaşacaqdır. Çünki Azərbaycan neft hasil və ixrac edən çox önəmli ölkəyə çevriləcəkdir. Ölkə xəzinəsinə milyardlarla dollar vəsait gələcəkdir. Nəzərə alsaq ki, artıq bizim bütün sahələrlə bağlı proqramlarımız var və onların icrası xeyli dərəcədə maliyyə mənbələrindən asılıdır, belə olan halda, şübhəsiz ki, növbəti illərdə Azərbaycanda bütün sahələrdə çox böyük irəliləyiş gözlənilir. Maddi imkanlar, əlbəttə, çox önəmli rol oynayır, eyni zamanda insanların bütün proqramlarda iştirak etməsi, siyasətimizi dəstəkləməsi bizi daha da gücləndirir. Bu gün Azərbaycanda həm ictimai-siyasi, həm iqtisadi, həm də sosial vəziyyət çox müsbətdir. Xalqla iqtidar arasında birlik var, bizim siyasətimiz xalq tərəfindən dəstəklənir. Prezident kimi,

mən öz başlıca vəzifəmi xalqa xidmət etməkdə görürəm və öz fəaliyyətimlə bunu etməyə çalışıram. Çalışırıq ki, bizi narahat edən, düşündürən və insanları incidən bütün məsələləri aradan qaldıraq. İqtisadi inkişaf, sosial ədalət, maddi rifah, abadlıq-quruculuq – budur bugünkü Azərbaycanın əsas prioritetləri. Bir də demək istəyirəm ki, bunları icra etmək, bu planları həyata keçirmək üçün bütün imkanlar var.

Düşünülmüş proqramlar var, siyasi iradə, xalqın dəstəyi var və insanlarımızın istedadı və bacarığı var. Biz bütün bu amilləri səfərbər edib Azərbaycanımızı daha da zənginləşdirməliyik. Müasir, qüdrətli dövlət qurmalıyıq. Onsuz da bizim bölgədəki mövqelərimiz günü-gündən möhkəmlənir. Azərbaycan artıq regionda çox önəmli və bir çox məsələlərdə həlledici mövqelərə malikdir. Getdikcə bizim önəmimiz ancaq və ancaq artacaqdır. Çünki bizim coğrafi vəziyyətimiz, neft-qaz yataqlarımızın olması, artıq fəaliyyətə düşmüş nəhəng neft kəməri, nəqliyyat infrastrukturu – bütün bunlar ölkəmizin önəmini artırır. Biz də bundan çox məharətlə istifadə etməliyik və istifadə də edirik.

Bu gün Azərbaycan bölgədə gedən proseslərdə çox fəal iştirak edir, bəzi hallarda çox önəmli, dünya üçün önəmli məsələlərdə təşəbbüskardır və gələcəkdə bizim rolumuz artacaqdır. Beynəlxalq mövqelərin möhkəm olması, əlbəttə ki, daxili vəziyyətə də müsbət təsir göstərir. Bir sözlə, Azərbaycanın uğurlu inkşafı artıq realdır.

Ancaq biz əldə edilmiş nailiyyətlərlə kifayətlənməməliyik. Problemlər də, həllini gözləyən məsələlər də çoxdur. İqtisadi sahədə, sosial sahədə, bütün sahələrdə. Biz onların hamısını həll etməliyik. Ancaq mərkəzdə – Bakıda qəbul edilmiş qərarlar buna kifayət etməz. Mənim yerlərdəki nümayəndələrim bütün göstərişləri icra etməli və insanlara ləyaqətlə xidmət etməlidirlər. Mən yerlərdəki bütün nümayəndələrimə həmişə deyirəm ki, siz xalq üçün işləməli, xalq üçün çalışmalı, xalqın qayğıları ilə yaşamalısınız. Çünki bizim əsas məqsədimiz bundan ibarətdir və bütün icra orqanlarından tələb edirəm ki, öz vəzifə borcunu şərəf və ləyaqətlə yerinə yetirsinlər.

Bir sözlə, Azərbaycanın gələcək perspektivləri çox aydındır. Bizim siyasətimiz çox açıqdır. Biz irəliyə gedirik, özü də sürətlə gedirik. İndi Azərbaycanda bütün sahələrdə yeniliklər var, irəliləyiş var. Bəzi sahələrdə bu irəliləyiş daha da sürətlə gedir, bəzi sahələrdə bir az ləngdir, amma gedir. İqtisadi, siyasi, sosial, mədəni və bütün başqa sahələrdə.

Mən gələcəkdə Azərbaycanın qarşısında ciddi problemlər görmürəm, mövcud olan problemlər öz həllini tapacaqdır. Ancaq ən birinci problem Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsidir və Ermənistanın Azərbaycana etdiyi təcavüz, etnik təmizləmə siyasəti və bunun acı nəticələridir. Bilirsiniz ki, biz çalışırıq bu məsələni sülh yolu ilə yoluna qoyaq. Bu məqsədlə danışıqlarda iştirak edirik. Düzdür, artıq 10 ildən çoxdur ki, danışıqlar gedir, ancaq heç bir nəticə yoxdur və bəzi hallarda danışıqlar prosesinə inamsızlıq da yaranır. Həm xalqda, həm də danışıqlarda iştirak edən şəxslərdə də belə bir fikir yaranır. Çünki nə vaxta qədər biz bu danışıqlarda iştirak etməliyik? Nə vaxta qədər biz gözləməliyik? Biz çalışırıq ki, məsələni sülh yolu ilə həll edək, istəmirik müharibə olsun, qan tökülsün. Amma digər tərəfdən, torpaqlarımızın itirilməsi ilə də heç vaxt barışmayacağıq. Azərbaycan rəhbərliyi Dağlıq Qarabağın Azərbaycandan ayrılması ilə heç vaxt barışmayacaq və heç vaxt Azərbaycanın milli maraqlarına uyğun olmayan heç bir sülh sazişinə getməyəcəkdir. Bizim mövqeyimiz çox açıqdır, aydındır. Bu mövqe hələ bir neçə il bundan əvvəl mənim tərəfimdən bəyan olunmuşdur. Azərbaycanın ərazi bütövlüyü danışıqlar predmeti deyil və müzakirə oluna bilməz. Azərbaycanın ərazi bütövlüyü bütün dünya tərəfindən tanınır. Birləşmiş Millətlər Təşkilatı Azərbaycanı öz sıralarına qəbul edəndə Dağlıq Qarabağla birlikdə qəbul etmişdir və Dağlıq Qarabağ bütün dünya tərəfindən Azərbaycanın ayrılmaz hissəsi kimi tanınır. Bu, məsələnin sülh yolu ilə həll olunmasına çox gözəl hüquqi əsas yaradır. Azərbaycan bu mövqelərdən geri çəkilməyəcəkdir.

Digər tərəfdən, hamımız bilirik ki, Dağlıq Qarabağ bütün dövrlərdə Azərbaycan torpağı olmuşdur, ermənilər qonaq kimi gəlmişdilər və bunu təsdiq edən dəqiq sənədlər var, faktlar var. Siyasi cəhətdən bu gün Azərbaycanın üstünlüyü göz qabağındadır. İqtisadi cəhətdən ölkəmizin inkişafı imkan verəcək ki, Azərbaycan iqtisadiyyatı Ermənistan iqtisadiyyatından 10–20 dəfə üstün olsun. Bu gün bizim iqtisadiyyatımız artıq 5 dəfə üstündür. Hərbi cəhətdən bilirsiniz ki, biz ordu potensialını gücləndiririk və bu məqsədlə böyük tədbirlər görürük. Bütün sahələrdə bizim üstünlüyümüz artıq göz qabağındadır və mən əminəm ki, bu məsələni biz öz xeyrimizə həll edəcəyik.

Əziz bacılar və qardaşlar, sizi bir daha ürəkdən salamlayıram, sizi görməyimə çox şadam. Arzu edirəm ki, Ucar rayonu daha da yaxşı inkişaf etsin, insanlar daha da yaxşı yaşasınlar. Sizə xoşbəxtlik, cansağlığı arzulayıram. Sağ olun.

* * *

*Sonra dövlətimizin başçısı İlham Əliyev sakinlərlə görüşüb, səmimi söhbət etdi, onların problemləri ilə maraqlandı. Sakinlər onlara göstərilən diqqət və qayğıya görə dərin minnətdarlıqlarını bildirdilər, ulu öndər Heydər Əliyevin tarixi xidmətlərini xatırlayaraq onun layiqli davamçısı kimi, prezidentə gələcək fəaliyyətində uğurlar arzuladılar.*

## ŞƏHİD AİLƏLƏRİNƏ VƏ QARABAĞ MÜHARİBƏSİ ƏLİLLƏRİNƏ YENİ MƏNZİLLƏRİN VERİLMƏSİ MƏRASİMİ

*Ucar şəhəri*

*29 iyun 2006-cı il*

*Azərbaycan prezidenti İlham Əliyev iyunun 29-da Ucar şəhərində şəhid ailələri və Qarabağ müharibəsi əlilləri üçün tikilmiş yaşayış evinin istifadəyə verilməsi münasibətilə keçirilən mərasimdə iştirak etmişdir.*

*Şəhərin mərkəzində yerləşən 4 mərtəbəli 32 mənzilli bina dövlət vəsaiti hesabına tikilmişdir. İnşaat işləri «Azəraqrartikinti» Açıq Səhmdar Cəmiyyətinin Ucardakı 1 nömrəli Aqrotikinti filialı tərəfindən görülmüşdür.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva ikinci qrup Qarabağ əlilləri Sadiq Baxışovun və Niyazi Müslümovun mənzillərində oldular, burada yaradılmış şəraitlə maraqlandılar. Müharibə əlilləri hər bir şəraiti olan bu mənzillərdə özlərini çox rahat hiss etdiklərini bildirdilər və dövlətin onlara göstərdiyi qayğını yüksək qiymətləndirdilər.*

*Sonra dövlətimizin başçısı yeni mənzil alanlara orderləri təqdim etdi. Şəhid ailələrinin üzvləri və Qarabağ müharibəsi əlilləri bu diqqət və qayğıya görə prezident İlham Əliyevə ürəkdən minnətdarlıq etdilər, lazım gələrsə, Azərbaycanın ərazi bütövlüyü uğrunda bundan sonra da silaha sarılaraq Ali Baş Komandanın əmrini yerinə yetirməyə hazır olduqlarını söylədilər.*

**İ l h a m  Ə l i y e v:** Mən sizi təbrik edirəm, Azərbaycan xalqı, dövləti, hökumət orqanları – hamımız çalışmalıyıq ki,

şəhid ailələri, Qarabağ müharibəsi əlilləri yaxşı yaşasınlar, onların maddi vəziyyəti yaxşılaşsın, məişət problemləri öz həllini tapsın. Ona görə biz bu istiqamətdə böyük işlər görürük və bundan sonra da görməliyik. Siz buna layiqsiniz, siz vətən uğrunda vuruşmusunuz, sağlamlığınızı itirmisiniz, şəhid olanlar var. Ona görə bütün aidiyyəti dövlət qurumları gərək sizin problemlərinizi həll etsinlər. Belə gözəl binanın tikilməsi də bizim tərəfimizdən atılmış növbəti bir addımdır. Siz daha da böyük işlərə layiqsiniz və Azərbaycanın qüdrəti möhkəmləndikcə, iqtisadi imkanlarımız artdıqca sizin problemləriniz daha da sürətlə öz həllini tapacaqdır. Sizi bir daha təbrik edirəm, yeni evlərdə xoşbəxt yaşayın.

* * *

*Sonra yeni mənzillərin sahiblərinə Azərbaycan prezidenti adından rəngli televizorlar hədiyyə olundu.*

## UCAR ŞƏHƏRİNDƏ YENİ AVTOVAĞZALIN AÇILIŞ MƏRASİMİ

*Ucar şəhəri*

*29 iyun 2006-cı il*

*İyunun 29-da Ucar şəhərində əsaslı təmir və bərpa işlərindən sonra istifadəyə verilmiş avtovağzalın açılış mərasimi olmuşdur.*

*Mərasimə toplaşanlar Azərbaycan prezidenti İlham Əliyevi böyük səmimiyyətlə qarşıladılar.*

*Dövlətimizin başçısı avtovağzalın rəmzi açılışını bildirən lenti kəsdi və bina ilə yaxından tanış oldu, ulu öndər Heydər Əliyevin xarici ölkələrə səfərlərini əks etdirən fotostendə baxdı.*

*Prezidentə məlumat verildi ki, daxili imkanlar və kredit hesabına yenidən qurulmuş avtovağzal gündə 700–800 sərnişinə xidmət edə biləcəkdir. Yerli reyslərlə yanaşı, buradan Moskva istiqamətində də reyslərin təşkili nəzərdə tutulur.*

*Prezident İlham Əliyev avtovağzalın dispetçer və məlumat otaqlarına, kassa şöbəsinə baxdı, avtovağzalın bir hissəsində yerləşən Avtonəqliyyatservis Departamentinin 9 nömrəli regional Nəqliyyat MMC ilə də tanış oldu. Məlumat verildi ki, burada nəqliyyat vasitələrinin lisenziyalaşdırılması və fərqlənmə nişanlarının rəsmiləşdirilməsi şöbəsi fəaliyyət göstərir. Burada əsasən Ucar, Zərdab, Kürdəmir rayonlarının hüquqi və fiziki şəxslərinə lisenziya və fərqlənmə nişanları veriləcəkdir.*

*Ümumiyyətlə, bu avtovağzal kompleksində və ətraf xidmət sahələrində 100-ə yaxın işçi çalışır.*

*Prezident İlham Əliyev regional nəqliyyat qurumunun mühasibat, fərqlənmə nişanlarının verilməsi şöbələri ilə də tanış oldu.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV UCAR RAYONUNDA

### Akademik Zərifə Əliyeva adına Qazıqumlaq kənd xəstəxanasının açılışı mərasimi

*29 iyun 2006-cı il*

*İyunun 29-da Azərbaycan prezidenti İlham Əliyevin iştirakı ilə akademik Zərifə Əliyeva adına Qazıqumlaq kənd xəstəxanasının təntənəli açılış mərasimi olmuşdur.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva akademik Zərifə Əliyevanın xəstəxananın binası qarşısında ucaldılmış büstü önünə gül dəstələri qoydular.*

*Sonra dövlətimizin başçısı xəstəxananın rəmzi açılışını bildirən lenti kəsdi, foyedə Zərifə xanımın fəaliyyətindən bəhs edən guşə ilə tanış oldu. Prezidentə məlumat verildi ki, kənd xəstəxanası 35 çarpayılıqdır, Heydər Əliyev Fondunun təşəbbüsü və vəsaiti hesabına iki ay yarım ərzində əsaslı şəkildə bərpa olunmuş və müasir avadanlıqla təmin edilmişdir. Hazırda burada 25 nəfər çalışır. Burada poliklinika da fəaliyyət göstərir. Prezident İlham Əliyev burada cərrahiyyə otağı, stomatoloji kabinet, doğum, göz xəstəlikləri şöbələri ilə yaxından tanış oldu.*

### 2 nömrəli məktəbin açılışı

*İyunun 29-da Ucar rayonunun Qazıqumlaq kəndində Heydər Əliyev adına 2 nömrəli orta məktəbin əsaslı təmirindən sonra açılışı olmuşdur. Dövlətimizin başçısı və xanımı mərasimdə iştirak edirdilər.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, 564 şagirdi, 45 nəfərlik pedaqoji kollektivi olan məktəb Heydər Əliyev Fondu-*

*nun təşəbbüsü ilə təmir olunmuşdur. Məktəb 1998-ci ildə, xalqımızın ümummilli lideri Heydər Əliyevin 75 illiyi münasibətilə tikilmişdi. Burada dərslər bir növbədə keçirilir.*

*Dövlətimizin başçısı ulu öndərin fəaliyyətindən bəhs edən guşəyə, onun büstünə baxdı, məktəbin idman zalı, ayrı-ayrı sinif otaqları, linqafon kabineti, emalatxana, yeməkxana ilə tanış oldu, şagirdlərin yüksək bilik alması üçün yaradılan şəraitdən razılığını bildirdi.*

*Prezident İlham Əliyev məktəbin pedaqoji kollektivi ilə görüşdü. Müəllimlər göstərilən diqqət və qayğıya görə dövlətimizin başçısına təşəkkür etdilər. Onlar Mehriban xanımın təşəbbüslərinin əhəmiyyətindən söz açdılar və onun mədəniyyətə və təhsilə göstərdiyi qayğını xüsusi vurğuladılar. Eyni zamanda, ulu öndər Heydər Əliyevin tarixi xidmətlərini xatırladılar və onun siyasi xəttini layiqincə davam etdirən prezident İlham Əliyevə dərin minnətdarlıqlarını bildirdilər.*

*Sonra prezident İlham Əliyev məktəbin stadionuna gələrək kənd uşaqlarının futbol oynamasına baxdı, buradan ətrafı seyr etdi. Kənddə yeni yaraşıqlı evlərin tikilməsinin ölkəmizin ümumi iqtisadi inkişafı ilə bağlı olduğu vurğulandı. Azərbaycan prezidenti şagirdlərin yüksək təhsilə və biliyə sahib olmaları üçün hər cür şəraitin yaradılmasının zəruriliyini və onların bir neçə dil öyrənməsinin əhəmiyyətli olduğunu söylədi.*

*Daha sonra Qazıqumlaq kəndində yaraşıqlı parka gələn prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva ulu öndərin burada ucaldılmış abidəsini ziyarət etdilər.*

## QAZIQUMLAQ KƏNDİNDƏKİ ŞADLIQ EVİNDƏ KEÇİRİLƏN TOY MƏRASİMİNDƏ ÇIXIŞ

*29 iyun 2006-cı il*

*Prezident İlham Əliyev iyunun 29-da Ucar rayonunun Qazıqumlaq kəndində yeni istifadəyə verilmiş şadlıq evində keçirilən toy mərasimində iştirak etmişdir.*

*Dövlətimizin başçısı və xanımı Mehriban Əliyeva şadlıq evinin qarşısında ulu öndər Heydər Əliyevin büstü önünə gül dəstələri* qoydular.

*Prezidentə məlumat verildi ki, 460 yerlik şadlıq evində bu gün ilk toy mərasimi keçirilir. Toya gələnlər əziz qonaqları hərarətli alqışlarla qarşıladılar.*

**İlham Əliyev:** Əziz balalar! Mən sizi bu gözəl toy mərasimi münasibətilə ürəkdən təbrik edirəm. Siz bu gün ailə qurursunuz, birgə həyata başlayırsınız. Qoy sizin yolunuz həmişə açıq olsun, həmişə bir-birinizə dayaq olasınız, həmişə birlikdə olasınız. Bu çox gözəl hadisədir. Azərbaycanda yeni ailə yaranır, yeni ailə qurulur. Əlbəttə ki, Azərbaycanda gedən bütün proseslər, görülən işlər imkan verir ki, cavanlar gələcəyə daha da inamla baxsınlar, ailə qursunlar, xoşbəxt yaşasınlar. Bu il Azərbaycanda böyük quruculuq işləri gedir. Mən bu gün bu kənddə bir neçə yerdə olmuşam. Görürəm ki, kənd abadlaşır. Mən bir müddət bundan əvvəl qarşıya vəzifə qoymuşdum ki, kəndlərin səviyyəsi şəhər səviyyəsinə yaxınlaşmalıdır, çatmalıdır. Kəndlə şəhər arasında fərq çox az olmalıdır. Biz bu gün bunu bu kənddə görürük. İndi burada ən müasir xəstəxana fəaliyyət göstərir. Məktəb, gözəl şadlıq evi, gözəl yollar, xiyaban, elektrik enerjisi – hər şey var. Üstəlik, bu gözəl məclis. Bu onu göstərir ki, Azərbaycan yaşayır, Azərbaycan inkişaf edir. Ölkəmiz hərtərəfli inkişaf edir. Çünki ölkəmizin gücü,

qüdrəti məhz bundadır. Şəhər, rayon, kənd – budur Azərbaycanın inzibati quruluşu. Mən həmişə deyirəm, əgər hər bir kəndin problemi həll olunarsa, deməli, bütün ölkəmizin problemləri həll edilmiş olur. Bu gün mən bunu bu gözəl məclisdə görürəm. Mən bu gün çox böyük sevinc içindəyəm.

Ucar rayonu inkişaf edir, burada gözəl abadlıq-quruculuq işləri görülür, ab-hava yaxşıdır, əhval-ruhiyyə yüksəkdir. Budur bu gün Azərbaycanı səciyyələndirən amillər. Ölkədə vətəndaş birliyi var, inkişaf, iqtisadi irəliləyiş var, sabitlik, sülh var, insanlar rahat, təhlükəsizlik, əmin-amanlıq şəraitində yaşayırlar. Biz hamımız çalışmalıyıq ki, bu gözəl işlər davam etdirilsin, ölkəmiz daha da möhkəmlənsin, müasirləşsin, səviyyə yüksəlsin. Bu, gözəl şadlıq evidir. Mən bu gün sizə deyirəm, yəqin ki, başqa rayonlardan da gəlib burada toy məclislərini keçirmək istəyənlərin sayı az olmayacaqdır. Bütün bölgələrdə, bütün kəndlərdə belə gözəl şərait olmalıdır. Biz buna doğru gedirik. Biz irəliyə gedirik və əlbəttə ki, gənc nəslin fəaliyyətindən çox şey asılıdır. Ona görə təhsilə böyük diqqət göstərilməlidir. Gənc nəsil vətənpərvərlik ruhunda tərbiyə olunmalı, gözəl şəraitdə yaşamalıdır. Bu gün bu iki gəncin birləşməsində həm də böyük məna var. O məna ki, Azərbaycan xalqı yaşayır, yaxşı yaşayır, bundan da yaxşı yaşamalıdır və biz bunu təmin edəcəyik.

Sizi bir daha ürəkdən təbrik edirəm, sizə xoşbəxtlik arzulayıram. Bütün Ucar sakinlərinə xoşbəxtlik, əmin-amanlıq, inkişaf arzulayıram. Mən də öz tərəfimdən çalışacağam ki, Azərbaycanın inamlı inkişafı daha da sürətlə getsin, ölkəmiz daha da möhkəmlənsin, insanlar daha da yaxşı yaşasınlar. Sağ olun.

## TÜRKİYƏ CÜMHURİYYƏTİ SİLAHLI QÜVVƏLƏRİNİN BAŞ QƏRARGAH RƏİSİ ORDU GENERALI HİLMİ ÖZKÖK İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*29 iyun 2006-cı il*

**İ l h a m Ə l I y e v:** Çox şadam ki, siz yenidən Azərbaycandasınız. Sizinlə olan çox gözəl, mehriban görüşlərimizi xatırlayıram. Bizim üçün şərəfdir ki, ölkələrimiz arasında olan münasibətlərə böyük dəstək verirsiniz. Türkiyə ilə Azərbaycan arasında əlaqələr çox yüksək səviyyədədir və günü-gündən möhkəmlənir. Müxtəlif beynəlxalq məsələlərdə birgə fəaliyyət göstəririk. Birgə həyata keçirdiyimiz çox önəmli beynəlxalq layihələr öz həllini tapır. Türkiyə–Azərbaycan dostluğu, birliyi, qardaşlığı bizim mövqelərimizi daha da möhkəmləndirir. Bu sahədə silahlı qüvvələrin əməkdaşlığı böyük əhəmiyyət daşıyır.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra ötən bütün dövr ərzində biz həmişə Türkiyə Silahlı Qüvvələrinin dəstəyini hiss etmişik, yardımını görmüşük. Azərbaycanın peşəkar ordusunun formalaşmasında sizin böyük xidmətləriniz olubdur. Azərbaycan xalqı bunu həmişə çox böyük minnətdarlıq hissi ilə qeyd edir. Hörmətli Baş Qərargah rəisi, bu sahədə şəxsən sizin fəaliyyətiniz, xidmətləriniz çox dəyərli olub və biz bunu çox yüksək qiymətləndiririk. Ordu quruculuğu sahəsində Azərbaycanın uğurlarının səbəblərindən biri də türk qardaşlarımızın bizə dəstəyi və yardımıdır. Biz bir neçə gün bundan əvvəl Silahlı Qüvvələr gününü qeyd etmişik. Orada Azərbaycan pilotları öz məharətlərini göstərdilər. Onlardan bir neçəsi Türkiyənin hərbi məktəblərində təhsil almışdır. Bu, əyani

sübutdur ki, bizim əməkdaşlığımız Azərbaycanda ordu quruculuğunun inkişafında çox böyük əhəmiyyətə malikdir. Sizin böyük xidmətlərinizi nəzərə alıb, mən bu gün Sizi Azərbaycan dövlətinin yüksək mükafatı – «Şöhrət» ordeni ilə təltif etmişəm. İstəyirəm ki, bu yüksək mükafatı sizə təqdim edim.

**H i l m i  Ö z k ö k:** Azərbaycanın «Şöhrət» ordeninə layiq görüldüyüm  üçün cənab Prezident, Sizə dərin minnətdarlığımı bildirirəm və bundan sonra da ölkələrimiz arasında əlaqələrin inkişafında səylərimi əsirgəməyəcəyimi bildirirəm.

## «CİSCO SYSTEMS» ŞİRKƏTİNİN PREZİDENTİ CON ÇEMBERSİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*29 iyun 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 29-da Prezident sarayında «Cisco Systems» şirkətinin prezidenti Con Çembersin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan iqtisadiyyatının sürətlə inkişaf etdiyini, ümumi daxili məhsulun artım sürətinə görə ölkəmizin dünyada aparıcı yer tutduğunu vurğuladı. Prezident İlham Əliyev iri xarici şirkətlərin, o cümlədən «Cisco Systems» şirkətinin Azərbaycana marağının getdikcə artmasının ölkəmizin uğurlu inkişafının göstəricisi olduğunu nəzərə çatdırdı.*

*Dövlətimizin başçısı ölkəmizin inkişafının hazırkı mərhələsində yeni texnologiyalara ehtiyac duyulduğunu və bu baxımdan «Cisco Systems» şirkətinin Azərbaycanda fəaliyyətinin uğurlu olacağına ümidvar olduğunu bildirdi.*

*Con Çembers Azərbaycanın əldə etdiyi uğurlara görə prezident İlham Əliyevi təbrik etdi. Bu səfərinin ölkəmizlə yaxından tanış olmağa imkan yaratdığını bildirən qonaq «Cisco Systems»in Azərbaycanda fəaliyyət göstərəcək ilk texnologiya şirkəti olmasından məmnunluğunu söylədi. O, rəhbərlik etdiyi şirkətin ölkəmizlə əlaqələrinin daha da genişlənəcəyinə əminliyini vurğuladı.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ZƏRDAB RAYONUNA SƏFƏRİ

*30 iyun 2006-cı il*

*Azərbaycan prezidenti İlham Əliyev iyunun 30-da Zərdab rayonuna gəlmişdir.*

*Prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı rayonun mərkəzi meydanında minlərlə sakin böyük hörmət və ehtiramla, gül-çiçəklə qarşıladılar. Meydana toplaşanların əllərində ümummilli lider Heydər Əliyevin, prezident İlham Əliyevin portretləri, ulu öndərin kəlamları yazılmış transparantlar, Azərbaycanın dövlət bayraqları, prezidenti salamlayan şüarlar var idi.*

*Dövlətimizin başçısı əvvəlcə Heydər Əliyev parkında ümummilli liderin heykəlinin açılış mərasimində iştirak etdi. Prezident İlham Əliyev heykəlin üzərindən ağ örtüyü götürdü. Tuncdan tökülmüş, postamentlə birlikdə hündürlüyü təxminən 6 metr olan əzəmətli abidənin müəllifləri Nəriman Məmmədov və İslam Abdullayevdir.*

*Prezident İlham Əliyev və xanımı abidənin önünə gül dəstələri qoydular.*

## ZƏRDAB RAYONU İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ NİTQ

*30 iyun 2006-cı il*

Əziz bacılar və qardaşlar!

Əziz zərdablılar!

Mən sizin hamınızı ürəkdən salamlayıram. Bu gün mən Zərdab rayonuna gəlmişəm, sizinlə birlikdəyəm, vəziyyətlə tanış olacağam. Ancaq indi rayona daxil olarkən görürəm ki, çox gözəl abadlıq-quruculuq işləri aparılır, yollar salınır. Bu məni çox sevindirir. Çünki hər bir rayonun inkişafı bizim üçün çox vacibdir və bu, indi Azərbaycanın siyasətinin əsas istiqamətlərindən biridir.

Bildiyiniz kimi, regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrası nəticəsində Azərbaycanda 600 mindən artıq yeni iş yerinin açılması nəzərdə tutulur. Onların da böyük əksəriyyəti artıq iki il yarım ərzində açılmışdır. Rayonların sosial-iqtisadi inkişafı, infrastruktur layihələrinin həyata keçirilməsi, abadlıq-quruculuq işlərinin aparılması Azərbaycanı daha da hərtərəfli inkişaf etdirəcəkdir. Çünki bizim ölkəmizin gələcək inkişaf perspektivləri çox gözəldir və çox aydındır. Mən çox istəyirəm ki, Azərbaycanın hər bir bölgəsi inkişaf etsin, hər bir rayon mərkəzi müasir standartlara cavab versin, bütün kəndlərdə abadlıq işləri aparılsın, yollar salınsın, elektrik enerjisi ilə təminat yaxşılaşsın. Bir sözlə, insanların gündəlik həyatında çox müsbət dəyişikliklər baş versin. Biz indi bu işləri görürük. Azərbaycanın çox inamlı inkişafı göz qabağındadır. Ümid edirəm ki, gələcək illərdə biz daha böyük uğurlara nail olacağıq.

Görülən bütün bu işlərin təməli 90-cı illərin ortalarında qoyulmuşdur. Ulu öndər Heydər Əliyevin abidəsinin önündə çıxış edərkən qeyd etməliyəm ki, məhz onun fəaliyyəti nəticəsində Azərbaycan çox ağır, çətin vəziyyətdən uğurla çıxmışdır və indi iqtisadi baxımdan dünyada ən dinamik və sürətlə inkişaf edən ölkələrdən biridir. Bu gün Azərbaycan yüksəliş yolundadır, ölkəmiz hərtərəfli inkişaf edir və bu sahədə, əlbəttə, gələcəkdə də böyük işlər görülməlidir. Əsas odur ki, ümumi xətt – Heydər Əliyev siyasəti dəyişməz olaraq qalır, strategiya dəyişməz olaraq qalır. Biz bunu rəhbər tutaraq Azərbaycanımızı daha da zənginləşdirəcəyik.

Ancaq həyat yerində durmur. Qarşımıza yeni məsələlər çıxır, yeni çağırışlar ortaya çıxır, dünyada vəziyyət dəyişir, bölgədə vəziyyət dəyişir. Biz buna hazır olmalıyıq. İlk növbədə, Azərbaycanın iqtisadi təhlükəsizliyi, enerji təhlükəsizliyi təmin olunmalıdır. İndi bu məsələlər dünyada gedən proseslərə çox böyük dərəcədə təsir göstərir. O ölkələr ki, öz siyasətini, öz fəaliyyətini daxili imkanlar üzərində qurur, onlar, əlbəttə, öz siyasətini müstəqil şəkildə apara biləcəklər.

Bizim əsas məqsədimiz müstəqilliyimizi daha da möhkəmləndirməkdir və bunu etmək üçün iqtisadi imkanlar daha da geniş olmalıdır. Məhz bu məqsədlə iqtisadi islahatlar aparılır. Yeni proqramlar qəbul olunur və Azərbaycan iqtisadi cəhətdən tam şəkildə özü-özünü təmin edir. Biz heç kimin yardımından asılı deyilik, heç kimin maddi dəstəyinə də ehtiyacımız yoxdur. Azərbaycanın uğurlu neft strategiyası onu iqtisadi inkişaf baxımından qabaqcıl ölkələr sırasına gətirib çıxaracaqdır.

Bildiyiniz kimi, bu yaxınlarda Bakı–Tbilisi–Ceyhan neft kəmərinin işə düşməsi təkcə bizim üçün yox, bütün bölgə üçün tarixi hadisədir. Gələcəkdə bu neft kəməri dünyada gedən proseslərə böyük təsir göstərəcəkdir. Bakı–Tbilisi–Ceyhan neft kəməri Azərbaycanın uzunmüddətli inkişaf imkanlarını artırır. Xalqımız daha da yaxşı yaşayacaq, Azərbaycanın büdcəsi daha da artacaqdır. Son üç il ərzində büdcə xərcləri təxminən üç dəfə, ondan da çox artmışdır. Bu bizə imkan verir ki, müxtəlif sosial

proqramları həyata keçirək. İndi Azərbaycanda müxtəlif yerlərdə 6 elektrik stansiyası tikilir. Bu o deməkdir ki, qısa müddət ərzində Azərbaycanda elektrik enerjisi qıtlığı aradan qaldırılacaqdır. Müxtəlif bölgələrə qaz xətləri, su kəmərləri çəkilir, həm magistral yollar, eyni zamanda şəhərlərarası yollar salınır.
Misal üçün, Ucar–Zərdab yolu əsaslı təmir edilmişdir və indi yüksək standartlara cavab verir. O cümlədən kənd yollarının abadlaşmasına böyük diqqət göstərilməlidir. Çünki bu, infrastruktur deməkdir. İnfrastruktur olmayan yerdə heç bir inkişafdan söhbət gedə bilməz. Yeni müəssisələrin fəaliyyətə başlaması üçün elektrik enerjisi lazımdır. Biz bunu da yeni stansiyaların tikintisi ilə təmin edirik. İqtisadi sahə Azərbaycanda artıq çox uğurla inkişaf edir. Məqsəd ondan ibarətdir ki, insanların rifah halı daha da sürətlə yaxşılaşsın. Bu məqsədlə maaşlar, pensiyalar artırılır və gələcəkdə də artırılacaqdır. Bu məqsədlə sahibkarlığın inkişafına böyük dəstək verilir və bu il Azərbaycan büdcəsində sahibkarlığın inkişafı üçün təxminən 100 milyon dollara qədər vəsait nəzərdə tutulubdur.

Kreditlər veriləcəkdir ki, iş adamları, xüsusilə rayonlarda fəaliyyət göstərən iş adamları bu kapitaldan istifadə edib yeni iş yerləri açsınlar, yeni müəssisələri işə salsınlar. Beləliklə, hər bir bölgə daha da sürətlə inkişaf etsin. Biz çalışırıq ki, kənd təsərrüfatının inkişafına öz köməyimizi göstərək. Bildiyiniz kimi, bu məqsədlə dövlət «Aqrolizinq» yaratdı və onun xətti ilə fermerlərə texnikanın verilməsi nəzərdə tutulur. Gələn il bu məqsədlərə daha da böyük həcmdə vəsait ayrılacaqdır. Beləliklə, rayon yerlərində iş yerlərinin açılması daha da sürətlə gedəcəkdir.

Sosial məsələlərin həlli də diqqət mərkəzindədir. İndi Azərbaycanda məktəb tikintisi geniş vüsət almışdır. Təkcə keçən il 300-dən çox məktəb tikilibdir. Bu il də təxminən bu qədər yeni məktəb tikiləcəkdir. Çünki buna böyük ehtiyac var. Azərbaycanda 4500 məktəb var. Onların təxminən 60–70 faizi o

qədər də yaxşı vəziyyətdə deyil, təmirə ehtiyac var, yeni məktəblərin tikintisinə ehtiyac var.

Bunu etmək üçün vəsait lazımdır. Biz də bunu təmin edirik. Tibb mərkəzləri, digər sosial infrastruktur obyektləri tikilir, bütövlükdə sosial sahəyə böyük diqqət verilir. Bilirsiniz, indi Azərbaycan bazar iqtisadiyyatı şəraitində yaşayır. Bazar iqtisadiyyatının özünəməxsus əlamətləri var. Doğrudur, bunlar dünyada ən mütərəqqi prinsiplərdir və bütün inkişaf etmiş ölkələrdə bazar iqtisadiyyatı tam şəkildə bərqərar olunubdur. Ancaq bununla yanaşı, biz sosial məsələlərin həllinə də çalışmalıyıq. Sırf bazar iqtisadiyyatı üzərində qurulan iqtisadi mexanizm o qədər də böyük uğur gətirmir. Çünki belə olan halda, insan amili unudulur. Biz isə istəyirik ki, əsas səylərimizi məhz insanların daha da yaxşı yaşamasına yönəldək. Ona görə bizim dövlət büdcəmiz də sosialyönümlüdür. Orada maaşların, pensiyaların, digər müavinətlərin verilməsinə böyük xərclər nəzərdə tutulub və bu, gələcəkdə daha da artacaqdır.

Bu gün Azərbaycanın dövlət büdcəsi, icmal büdcə 5 milyard dollardan yuxarıdır. Halbuki üç il bundan əvvəl bu təxminən 1 milyard dollardan bir az çox idi. Gələcək illərdə bu daha da artacaq və öz növbəsində, Azərbaycanın bütün məsələlərinin həllində bizə imkan yaradacaqdır. Beləliklə, biz ölkəmizi daha da möhkəmləndirəcəyik, zənginləşdirəcəyik. Azərbaycanın bütün bölgələri daha da sürətlə inkişaf edəcəkdir. Regionların sosial-iqtisadi inkişafı proqramı çox uğurla icra edilir və beləliklə, Azərbaycanın qarşısında duran əsas problemlər öz həllini tapacaqdır.

Mən də buna çalışıram. Mənim məqsədim bundan ibarətdir. İki il yarım bundan əvvəl prezident seçkiləri ərəfəsində bu proqramla çıxış etmişəm. Bu gün bu sözlərə sadiqəm. Həyat və praktika onu göstərir ki, verilmiş bütün vədlər, təklif edilmiş bütün proqramlar reallıqda öz əksini tapır. Əsas da budur. Əsas odur ki, sözlə əməl arasında birlik olsun, görülən tədbirlər nəticəsində irəliləyiş olsun. Bu irəliləyiş təkcə iqtisadi göstəricilərdə yox, eyni zamanda insanların gündəlik həyatında

öz əksini tapsın. Əgər belə olarsa, onda Azərbaycan xalqı daha da yaxşı, firavan yaşayacaqdır. Bizim də məqsədimiz bundan ibarətdir ki, insanlar yaxşı yaşasınlar, zəngin yaşasınlar, sülh, təhlükəsizlik, əmin-amanlıq şəraitində yaşasınlar. Azərbaycanda ictimai-siyasi sabitlik qorunub saxlanılsın, vətəndaş birliyi möhkəmlənsin, Azərbaycan xalqı qarşıda duran bütün vəzifələri inamla yerinə yetirsin. Bu gün biz bunu görürük.

Son illər ərzində Azərbaycanda gedən müsbət proseslər Zərdab rayonunun timsalında artıq özünü göstərir. Sizin rayonunuz abadlaşır, gözəlləşir. Siz bunu məndən yaxşı bilirsiniz, burada yaşayırsınız. Gələcəkdə görüləcək tədbirlər nəticəsində rayon daha da gözəlləşəcək, abadlaşacaq, insanlar daha da yaxşı yaşayacaqlar. Mən bunu arzulayıram və bu məramla Zərdaba gəlmişəm.

Sizi bir daha ürəkdən salamlayıram, sizə uğurlar arzulayıram. Sağ olun.

* * *

*Sonra prezident İlham Əliyev sakinlərlə görüşüb, səmimi söhbət etdi, onların vəziyyəti ilə maraqlandı. Sakinlər günü-gündən abadlaşan rayonda yeni iş yerlərinin açıldığını, sosial-iqtisadi proqramların uğurla icra olunduğunu vurğuladılar, xalqımızın ümummilli lideri Heydər Əliyevin zərdablılara göstərdiyi diqqət və qayğını xatırlatdılar, dövlətimizin başçısına gələcək fəaliyyətində uğurlar arzuladılar.*

* * *

*Rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdən sonra Azərbaycan prezidenti İlham Əliyev və xanımı xalqımızın ümummilli liderinin xatirəsinə salınmış və 5 hektar sahəni əhatə edən «Heydər parkı»na gəldilər.*

*Ulu öndərin burada ucaldılmış abidəsi parka xüsusi görkəm verir. Parkda üç fəvvarə və bir şəlalə var, üçtağlı giriş qapısı, dörd kölgəlik tikilmişdir. 8 min kvadratmetrdən çox sahədə*

*yaşıllıq salınmışdır. Gələcəkdə daha bir fəvvarənin tikilməsi planlaşdırılır.*

*Dövlətimizin başçısı sakinlərin mədəni istirahətinin və asudə vaxtlarının səmərəli keçirilməsi üçün bu cür parkların salınmasının faydalı olduğunu və şəhərə xüsusi gözəllik verdiyini vurğuladı.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV ZƏRDAB RAYONUNDA

*30 iyun 2006-cı il*

### Zərdab şəhərində Heydər Əliyev muzeyinin təntənəli açılış mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev iyunun 30-da Zərdab şəhərində Heydər Əliyev muzeyinin təntənəli açılış mərasimində iştirak etmişdir.*

*Dövlətimizin başçısı rəmzi açılışı bildirən lenti kəsdi və muzeylə tanış oldu. Şəhərin Heydər Əliyev prospektində, ulu öndərin adını daşıyan parkda yerli mütəxəssislər tərəfindən memarlıq üslubunda tikilmiş muzeydə xalqımızın ümummilli liderinin zəngin həyat və fəaliyyətinin ayrı-ayrı dövrlərini əks etdirən kitablar, sənədlər, fotoşəkillər toplanmışdır. Muzeydə ulu öndərin büstü də qoyulmuşdur. 10 guşədə yerləşdirilmiş eksponatlar arasında ümummilli lider Heydər Əliyevin 1978-ci ildə Zərdaba gəlişini, keçirdiyi görüşləri əks etdirən bölmə xüsusi yer tutur.*

*Xüsusi vurğulandı ki, Heydər Əliyevin zəngin irsinin öyrənilməsində ideoloji mərkəz rolunu oynayacaq bu muzeyin yaradılması dahi şəxsiyyətə zərdablıların böyük məhəbbətinin təzahürüdür. 1978-ci ildə Kür çayında baş vermiş daşqınlarla əlaqədar Zərdab rayonu böyük fəlakətlə üzləşmişdir. Çətin gündə həmişə öz xalqı ilə bir yerdə olan ulu öndərimiz o vaxt zərdablıları darda qoymamış, rayona gələrək problemlə yerindəcə tanış olmuş və dəyərli məsləhətlərini vermiş, rayonu fəlakətdən qurtarmışdır. Ulu öndər o zaman təsərrüfatlarda da*

*olmuş, ağsaqqallarla, ictimaiyyətin nümayəndələri ilə səmimi görüşlər keçirmişdir.*

*Bütün bunları əks etdirən fotoşəkillər prezident İlham Əliyevdə xüsusi maraq doğurdu.*

*Dövlətimizin başçısı muzeylə tanışlıqdan sonra xatirə kitabına ürək sözlərini yazdı:*

«Heydər Əliyev muzeyinin fotoşəkilləri ulu öndərin həyat və fəaliyyətini nümayiş etdirir. Muzeyin xarici görünüşü və daxili tərtibatı yüksək standartlara cavab verir. Heydər Əliyevin 1978-ci ildə Zərdab rayonuna səfəri rayonun sosial-iqtisadi inkişafına böyük təkan vermişdir. Bu gün də Zərdab rayonu inkişaf edir, burada quruculuq, abadlıq işləri gedir. Azərbaycanın hərtərəfli inkişafını təmin etmək üçün regionların sosial-iqtisadi inkişaf proqramı sürətlə icra olunmalıdır.

Ulu öndər Heydər Əliyevin həyat və fəaliyyəti, doğma vətənimizə sədaqətlə xidmət etməsi bizim üçün örnək və nümunədir. Heydər Əliyev siyasəti yaşayır və davam etdirilir.

Bütün zərdablılara öz hörmət və məhəbbətimi bildirir, onlara yeni uğurlar arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

30.06.2006-cı il».

## Şəhid ailələrinə və qarabağ müharibəsi əlillərinə yeni mənzillərin verilməsi mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev iyunun 30-da Zərdab şəhərində şəhid ailələri və Qarabağ müharibəsi əlilləri üçün tikilmiş yaşayış evinin istifadəyə verilməsi münasibətilə keçirilən mərasimdə iştirak etmişdir.*

*Şəhərin Şəhriyar küçəsində yerləşən dördmərtəbəli 32 mənzilli bina dövlət vəsaiti hesabına tikilmiş, bu məqsədlə 360*

*min manat xərclənmişdir. Yerli inşaatçıların tikdiyi binada bütün mənzillər su, təbii qaz və elektrik enerjisi ilə təchiz edilmişdir.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva yeni binada Qarabağ müharibəsi əlilləri Soltan Cəbrayılovun, Şahin Əhmədovun və Asif Qəhrəmanovun mənzillərində oldular, burada yaradılmış şəraitlə maraqlandılar. Müharibə əlilləri hər cür rahatlığı olan bu mənzillərə görə təşəkkür etdilər, dövlətin onlara göstərdiyi diqqətdən razılıqlarını bildirdilər.*

*Sonra dövlətimizin başçısı yeni mənzil alanlara orderləri təqdim etdi. Şəhid ailələrinin üzvləri və Qarabağ müharibəsi əlilləri bu qayğıya görə prezident İlham Əliyevə ürəkdən minnətdarlıq etdilər, ulu öndərə Allahdan rəhmət dilədilər.*

*Prezident İlham Əliyev yeni mənzillərə köçənləri təbrik edərək dedi ki, burada xoşbəxt yaşayın. Həmişə çalışırıq ki, Qarabağ müharibəsi əlilləri, şəhid ailələri daha da yaxşı yaşasınlar. Siz buna layiqsiniz. Siz Vətən uğrunda vuruşmusunuz, sağlamlığınızı itirmisiniz. Ona görə dövlət həmişə sizə böyük qayğı göstərməlidir. İndi bizim imkanlarımız artır, Azərbaycan iqtisadi cəhətdən daha da güclənir və gələcəkdə də belə gözəl binaların tikintisi nəzərdə tutulmuşdur ki, ehtiyacla olan insanlar yaxşı şəraitdə yaşasınlar. Onların maddi təminatı yaxşı olsun və bütövlükdə, heç bir çətinlik çəkməsinlər. Mən mənzillərə baxdım, gözəldir, bütün şəraiti var və burada rahat yaşayacaqsınız. Hamınızı təbrik edirəm.*

*Sonra yeni mənzillərin sahiblərinə Azərbaycan prezidenti adından rəngli televizorlar hədiyyə olundu.*

## Zərdabda «Bank of Azerbaijan»ın filialinin açılış mərasimi

*İyunun 30-da Zərdab şəhərində «Bank of Azerbaijan» Açıq Tipli Səhmdar Cəmiyyətinin 16 nömrəli filialının açılışı olmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir. Dövlətimizin başçısı yeni filialla tanış oldu, fəaliyyəti ilə maraqlandı. Prezidentə məlumat verildi ki, burada müvafiq maliyyə əməliyyatları keçirilir, hüquqi və fiziki şəxslərə kreditlər verilir. Ümumiyyətlə, bank regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrası ilə bağlı büdcə vəsaiti hesabına maliyyələşdirilən layihələrin həyata keçirilməsində iştirak edir. İqtisadi rayonlar üzrə cəmi 140 layihə həyata keçirilir. Zərdabda açılmış filialda bir neçə yerli sakin işlə təmin olunmuşdur və gələcəkdə iş yerlərinin sayı artırılacaqdır.*

*Prezident İlham Əliyev bu cür layihələrin ölkənin iqtisadi inkişafı, regionlarda yeni iş yerlərinin açılması üçün əhəmiyyətli olduğunu bildirdi.*

*Açılış mərasimindən xatirə olaraq, dövlətimizin başçısına hədiyyə təqdim olundu.*

## Heydər Əliyev fondunun təşəbbüsü ilə Zərdabda tikilmiş yeni məktəb binasinın açılış mərasimi

*İyunun 30-da Zərdab rayonunun Dəkkəoba kəndində Heydər Əliyev Fondunun «Yeniləşən Azərbaycana yeni məktəb» proqramı çərçivəsində orta məktəb binası istifadəyə verilmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva bu təhsil ocağına gəldilər. Pedaqoji kollektiv, kənd sakinləri prezidenti və xanımını böyük səmimiyyətlə qarşıladılar.*

*Dövlətimizin başçısı məktəbin rəmzi açılışını bildirən lenti kəsdi.*

*200 yerlik məktəbi 8 nömrəli İxtisaslaşdırılmış dəmir yol tikinti idarəsinin kollektivi inşa etmişdir. 12 sinif otağından ibarət, lazımi avadanlıqla təchiz olunmuş məktəbdə tədrisin müasir tələblər səviyyəsində qurulması üçün hər cür şərait yaradılmışdır. Geniş idman salonu və açıq idman meydançası da vardır. Burada dərslər bir növbədə keçirilir.*

*Prezident İlham Əliyev məktəbdəki şəraitlə maraqlandı, kompüter və riyaziyyat kabinetlərinə, ayrı-ayrı sinif otaqlarına baxdı. Bildirildi ki, gələn ilin sonunadək Azərbaycanda orta məktəblərin kompüterləşdirilməsi proqramı başa çatdırılacaqdır.*

*Heydər Əliyev Fondunun vəsaiti ilə bu il rayonun Pərvanlı kəndində 240 yerlik, Ləläağacı kəndində isə 160 yerlik məktəb binaları da tikiləcəkdir.*

*Sonra prezident İlham Əliyev məktəbin pedaqoji kollektivi ilə görüşdü, onları təbrik etdi, ölkəmizin bütün bölgələrində, o cümlədən Zərdabda yeni müasir təhsil ocaqlarının tikilməsindən, şagirdlərin yüksək bilik alması üçün yaradılan şəraitdən razılığını bildirdi. Uşaqların yaxşı oxuması, biliyə yiyələnməsi, vətənpərvərlik ruhunda tərbiyə alması üçün daha səylə çalışmağı tövsiyə etdi.*

*Müəllimlər ulu öndərin tarixi xidmətlərini, təhsilə göstərdiyi diqqət və qayğını xatırlatdılar, prezident İlham Əliyevin tövsiyəsinin, arzu və istəklərinin yerinə yetirilməsi üçün əzmlə çalışacaqlarını bildirdilər.*

*Onlar Mehriban xanımın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun fəaliyyətini də yüksək qiymətləndirdilər.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN AĞSU RAYONUNA SƏFƏRİ

*30 iyun 2006-cı il*

*Azərbaycan prezidenti İlham Əliyev Zərdab rayonuna səfərdən qayıdarkən iyunun 30-da yolüstü Ağsu şəhərində olmuşdur.*

*Xalqımızın ümummilli lideri Heydər Əliyevin adını daşıyan mərkəzi meydana toplaşan on minlərlə insan prezidenti və onun xanımını böyük hörmət və ehtiramla, hərarətli alqışlarla qarşıladılar.*

*Rayon ağsaqqalı Şahnəzər Nəzərov prezidenti salamlayaraq Ağsuda, eləcə də respublikamızda gedən böyük quruculuq işlərinə, insanların həyat səviyyəsinin yaxşılaşdırılmasına göstərdiyi diqqət və qayğıya görə minnətdarlığını bildirdi. O, dövlətimizin başçısına müraciətlə dedi:*

Cənab Prezident, sağlam bədəndə sağlam ruh olar. Sizin gördüyünüz işlər, tikdirdiyiniz stadionlar, idman zalları gələcək nəsillər üçündür. Gənclər buna daha çox meyl edirlər. Əsrlər, qərinələr keçəcək, qədirbilən xalqımız Sizi həmişə iftixar hissi ilə yad edəcəkdir.

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva ulu öndər Heydər Əliyevin mərkəzi meydanda ucaldılmış abidəsi önünə gül dəstələri qoydular.*

## AĞSU RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ NİTQ

*30 iyun 2006-cı il*

Əziz dostlar!

Əziz bacılar və qardaşlar!

Əziz ağsulular!

Sizi ürəkdən salamlayıram. Bildiyiniz kimi, mən mütəmadi qaydada bölgələrə səfər edir və vəziyyətlə tanış oluram. Dünən və bu gün Ucar və Zərdab rayonlarında olmuşam. Sözün düzü, Ağsuya səfər nəzərdə tutulmurdu. Mən düşünürdüm ki, buraya ayrıca bir səfər edim. Ancaq biz dünən buradan keçəndə fikirləşdim ki, dayanıb sizinlə görüşüm. Amma tələsirdim, Ucar rayonunda tədbirlər var idi. Bu gün isə Bakıya qayıdarkən dedim ki, mən mütləq ağsulularla görüşməliyəm, burada gedən vəziyyətlə tanış olmalıyam və sizə öz ürək sözlərimi deməliyəm.

Mən çox şadam ki, Azərbaycanın bütün bölgələrində, o cümlədən Ağsuda işlər yaxşı gedir. Abadlıq, quruculuq işləri aparılır, yeni binalar tikilir, yollar çəkilir, küçələr abadlaşdırılır, parklar salınır, məktəblər tikilir. Bu, Azərbaycanın inkişafını göstərir. Onu göstərir ki, Azərbaycan hərtərəfli inkişaf edir. Bildiyiniz kimi, bölgələrdə olan vəziyyət, regional inkişaf proqramlarının həyata keçirilməsi çox böyük əhəmiyyət kəsb edir.

Mənim məqsədim odur ki, Azərbaycanın hər bir bölgəsi, təkcə böyük şəhərlər deyil, təkcə paytaxt Bakı deyil, bütün bölgələr, bütün rayonlar inkişaf etsin. Rayonlarda olan səviyyə şəhər səviyyəsinə uyğunlaşsın və beləliklə, kəndlə şəhər arasında fərq azalsın. Bütün inkişaf etmiş ölkələrdə bu

mövcuddur və onların inkişafını şərtləndirən amillərdən biri də odur ki, şəhərlə kənd arasında fərq çox azdır. Azərbaycanda da biz buna çalışmalıyıq, buna nail olmalıyıq. Bunu etmək üçün əlbəttə ki, iqtisadi imkanlar, maliyyə imkanları lazımdır. Biz də bunları yaradırıq. Azərbaycanın düşünülmüş iqtisadi siyasəti var. Bu siyasətin təməli 90-cı illərin ortalarında ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuşdur və bu gün uğurla davam etdirilir.

Bizim iqtisadi imkanlarımız artır, büdcə gəlirləri artır. Bildiyiniz kimi, uzun illər üzərində işlədiyimiz, Heydər Əliyevin adını daşıyan Bakı–Tbilisi–Ceyhan neft kəməri işə düşübdür və artıq Azərbaycan nefti dünya bazarlarına çıxarılır. Bu, ölkəmizə çox böyük maddi imkanlar açacaq, maliyyə resursları gətirəcək və xalqımız ildən-ilə daha da yaxşı yaşayacaq, Azərbaycanın iqtisadiyyatı daha da möhkəmlənəcəkdir.

İqtisadiyyatı güclü olan dövlətdə bütün problemlər asanlıqla öz həllini tapır. Çünki indi biz bazar iqtisadiyyatı şəraitində yaşayırıq və hər bir ölkənin inkişafını müəyyən edən onun iqtisadi potensialıdır. Biz bunu yaradırıq və Azərbaycanın gələcəyi çox uğurlu, çox parlaq olacaqdır.

Mən bir neçə dəfə bunu demişəm, beynəlxalq maliyyə qurumları Azərbaycanda gedən iqtisadi islahatları çox yüksək qiymətləndirirlər və onların hesablamalarına görə, Azərbaycan növbəti 20 il ərzində 140 milyard dollar vəsait əldə edəcəkdir. Bu bizə imkan verəcək ki, ölkəmizi müasirləşdirək, yeniləşdirək, yeni iş yerləri açılsın, insanların rifah halı yaxşılaşsın. Beləliklə, Azərbaycan qüdrətli dövlətə çevriləcəkdir.

Ancaq ölkənin inkişafı yalnız iqtisadi amillərlə bağlı deyildir. Ölkədə ictimai-siyasi vəziyyət də müsbət, yaxşı olmalıdır. Bu da Azərbaycanda var. Uzun illər ərzində Azərbaycanda hökm sürən ictimai-siyasi sabitlik, vətəndaş birliyi ölkəmizin inkişafına çox böyük dəstək verir. Biz görürük, bəzi ölkələr var ki, orada daxildə çəkişmələr gedir, ziddiyyətlər mövcuddur.

Siyasi qüvvələr bir-biri ilə çəkişir, vuruşur. Nəticədə isə ölkənin inkişafı ləng gedir. Harada ki, sabitlik var, iqtidarla xalq arasında birlik, qarşılıqlı hörmət var, o ölkələrdə inkişaf var. Bunu keçmiş və yaxın tarix göstərir. Bunu bu günün gerçəkliyi, bölgədə, dünyada gedən proseslər əyani şəkildə göstərir. Ona görə, bir tərəfdən, güclü iqtisadiyyat, digər tərəfdən, ictimai proseslərin düzgün istiqamətdə getməsi, demokratikləşmə proseslərinin sürətlənməsi, bölgədəki mövqelərimizin möhkəmlənməsi Azərbaycanın tam müstəqil siyasət aparmasının təminatıdır.

Bütün bu amillər Azərbaycanın uzunmüddətli inkişaf strategiyasını müəyyən edir və deyə bilərəm ki, bütün sahələrdə irəliləyiş göz qabağındadır. Biz çalışmalıyıq ki, Azərbaycanı hərtərəfli inkişaf etdirək. Həm iqtisadi potensial, həm də hərbi potensial möhkəmlənməlidir. Bu istiqamətdə də böyük işlər görülür və bu gün ordumuz qarşıda duran bütün vəzifələri həll etməyə qadirdir. Sosial məsələlərin həlli də yaddan çıxmamalıdır. Biz, iqtidar xalq üçün işləyir, xalq üçün çalışırıq. Ona görə ki, xalqın rifah halının yaxşılaşması bir nömrəli məsələdir. Sosial məsələlər, yəni məktəb, xəstəxana tikintisi, maaşların, pensiyaların artırılması – bütün bunlar bilirsiniz ki, bizim prioritet məsələlərimizdir. Azərbaycanda, demək olar, bütün bölgələrdə, bütün rayonlarda inkişaf var. Haradasa daha da sürətlə gedir, haradasa bir az ləng gedir, amma bu proses artıq geniş vüsət alıbdır. O cümlədən Ağsu rayonunda da gedən işlər bizi çox sevindirir. Burada da proqramlar icra olunur, vəziyyət yaxşılaşır və əminəm ki, gələcək illərdə daha da yaxşı olacaqdır. Bizim ildən-ilə artan büdcəmiz Azərbaycanda bütün problemlərin həllinə imkan verəcəkdir. Növbəti illərdə biz gərək öz proqramlarımızı dəqiqləşdirək. İki il yarım bundan əvvəl qəbul edilmiş regionların sosial-iqtisadi inkişafı proqramı icra edilir. Proqramda çox önəmli məsələlər öz əksini tapıbdır. Bildiyiniz kimi, son iki il yarım ərzində 400 min yeni iş yeri açılıbdır. Bu, böyük göstəricidir, böyük nailiyyətdir. Ancaq bundan sonrakı mərhələlərdə biz gərək hər bir rayon üzrə xüsusi

proqram hazırlayaq və bu məqsədlə müvafiq göstərişlər verilibdir. Orada rayonun bütün problemləri əks olunmalıdır, onun icra mexanizmləri, maliyyə mənbəyi mütləq nəzərdə tutulmalıdır və bu proqram konkret xarakter daşımalıdır.

Bilirsiniz ki, bəzi hallarda proqramlar qəbul edilir, ancaq onlar şüar xarakteri daşıyır, niyyət xarakteri daşıyır. Bu bizə lazım deyildir. Bizə lazımdır ki, konkret göstərilsin – harada, nə vaxt, nə və necə tikiləcək, yaradılacaq və fəaliyyətə başlayacaqdır. Budur bizim məqsədimiz və biz bu yolla gedirik.

Sahibkarlığın inkişafına dəstəyi artırırıq, kreditlər verilir, kənd təsərrüfatı texnikası üzrə təchizat yaxşılaşıb və «Aqrolizinq» vasitəsilə bu məsələ öz həllini tapır. Yəni, harada ki, dövlətin dəstəyi lazımdır, biz çalışırıq bütün sahələrdə kömək göstərək. Şübhəsiz ki, insanların fəal işləri bölgələrdə gedən proseslərə də böyük dəstək, köməkdir. Çünki hər şey mərkəzdən idarə oluna bilməz. Mərkəzdə, Bakıda hökumət, prezident siyasi qərarları verir, istiqamətləri müəyyən edir, görüləcək tədbirlərin həyata keçirilməsi üçün maliyyə mənbələrini formalaşdırır. Ancaq yerlərdə bu proqramların icra olunması ilə əlaqədar işlər sürətlə getməlidir. Yerlərdəki rəhbərlərdən, onların fəaliyyətindən çox şey asılıdır.

Mən çalışıram ki, bütün bölgələrdəki vəziyyətlə tanış olum. İlk növbədə, problemlərin aşkar olunması üçün. Nailiyyətlər var, uğurlar var, biz bunu bilirik və bilməliyik. Ancaq bütün diqqətimizi bizi narahat edən problemlərə yönəltməliyik. Harada insanları məsələlər narahat edir, harada sosial vəziyyət yaxşı deyil, harada ədalətsizlik hökm sürür, harada insanları incidirlər. Ona görə bu məsələlərə daim diqqət göstərilməlidir. Mənə verilən bütün ərizə və şikayətlərə baxıram, göstərişlər verirəm. Orada əks olunan məsələlərə biz dərhal reaksiya veririk. Ancaq bir şeyi demək istəyirəm ki, son bir il ərzində birincisi, o ərizə, şikayətlərin sayı azalıb, ikincisi isə, orada qaldırılan məsələlər daha çox şəxsi xarakter daşıyır. Kiminsə maddi yardıma ehtiyacı var, kiminsə müalicəyə ehtiyacı var. Yəni bu da təbiidir. İnsanların, hər bir insanın, hər bir ailənin

problemləri var. Amma ümumi problemlər, şikayət xarakterli problemlər kəskin şəkildə aşağı düşübdür. Bu bir tərəfdən, onu göstərir ki, ölkədəki problemlər həll olunur, digər tərəfdən, yerlərdə insanlara münasibət müsbət istiqamətdə dəyişir və belə də olmalıdır.

Mənim yerlərdəki nümayəndələrimdən tələbim də bundan ibarətdir. Xalq sizdən razı olmalıdır. Siz xalq üçün yaşamalı, yaratmalısınız, xalqın qayğıları ilə yaşamalısınız və xalqa xidmət etməlisiniz. Bu bizim hamımızın borcudur və biz bu borcu şərəflə yerinə yetirməliyik.

Mən Bakıya qayıdarkən Ağsuda görüşmək istədim və heç gözləmirdim ki, belə qısa müddət ərzində buraya bu qədər adam yığışacaqdır. Sizə minnətdaram, öz təşəkkürümü bildirirəm, gələcək işlərinizdə uğurlar arzulayıram. Sağ olun.

* * *

*Azərbaycan prezidenti İlham Əliyev sonra sakinlərə yaxınlaşaraq görüşüb söhbət etdi, onları narahat edən məsələlərlə maraqlandı, problemlərin həlli ilə bağlı tədbirlərin görüləcəyini bildirdi.*

## YORK HERSOQU, ŞAHZADƏ ENDRYU İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*30 iyun 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 30-da Prezident sarayında York hersoqu, şahzadə Endryunu qəbul etmişdir.*

*Şahzadə Endryu ölkəsinin Azərbaycanla münasibətləri daha da inkişaf etdirmək istəyində olduğunu vurğuladı. Qonaq Bakı–Tbilisi–Ceyhan boru kəməri ilə Ceyhan limanından ilk neftin yola salınması hadisəsinin əhəmiyyətini vurğulayaraq, bu səfərinin qarşıdan gələn illərdə Azərbaycanın inkişaf planlarını daha yaxından öyrənmək üçün yaxşı imkan yaratdığını bildirdi.*

*Dövlətimizin başçısı ötən il şahzadə Endryunun Azərbaycana səfər etdiyini məmnunluqla xatırladı. Azərbaycanın yeni inkişaf mərhələsinə qədəm qoyduğunu vurğulayan prezident İlham Əliyev ölkəmizdə qlobal enerji layihələrinin uğurla həyata keçirildiyini bildirdi.*

*Görüş zamanı qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər ətrafında da fikir mübadiləsi aparıldı.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV VƏ BÖYÜK BRİTANİYA KRAL AİLƏSİNİN ÜZVÜ, YORK HERSOQU, ŞAHZADƏ ENDRYU HEYDƏR ƏLİYEV FONDUNDA OLMUŞLAR

*30 iyun 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və ölkəmizdə səfərdə olan Böyük Britaniya kral ailəsinin üzvü, York hersoqu, şahzadə Endryu iyunun 30-da Heydər Əliyev Fondunda olmuşlar.*

*Hörmətli qonağa Azərbaycan xalqının ümummilli lideri, ölkəmizin müasir tarixində müstəsna xidmətləri olan ulu öndər Heydər Əliyevin mənalı, ibrətamiz həyat yolu və fəaliyyəti haqqında geniş məlumat verildi.*

*Prezident İlham Əliyev ümummilli liderin irsinin layiqincə təbliği üçün Heydər Əliyev Fondunun kompleks iş apardığını vurğuladı, fondun silsilə layihələr həyata keçirdiyini bildirdi.*

*Xatirə şəkli çəkdirildikdən sonra York hersoqu, şahzadə Endryu Fondun xatirə kitabına ürək sözlərini yazdı. Hörmətli qonağa hədiyyələr təqdim edildi.*

*Sonda Heydər Əliyev Fondunun çoxşaxəli fəaliyyətindən bəhs edən film göstərildi.*

* * *

*Həmin gün axşam Azərbaycan prezidenti İlham Əliyevin adından York hersoqu, şahzadə Endryunun şərəfinə «Yaxt klub»da rəsmi ziyafət verildi.*

## NATO BAŞ KATİBİNİN MÜAVİNİ JAN FURNEN İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*3 iyul 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 3-də Prezident sarayında NATO Baş katibinin müavini Jan Furneni qəbul etmişdir.*

*Görüş zamanı Azərbaycanla NATO arasında əməkdaşlığın uğurla inkişaf etdirildiyi vurğulandı, qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN SƏDRLİYİ İLƏ ÖLKƏMİZDƏ EKOLOJİ VƏZİYYƏTİN YAXŞILAŞDIRILMASI MƏSƏLƏLƏRİNƏ HƏSR OLUNMUŞ MÜŞAVİRƏDƏ NİTQ

*Prezident sarayı*

*3 iyul 2006-cı il*

Ölkəmizin sosial-iqtisadi inkişafı bizim qarşımızda yeni imkanlar açır. Biz çalışırıq ki, ölkəmizin hərtərəfli inkişafı daha da sürətlə getsin. Şübhəsiz ki, iqtisadi nailiyyətlər bu işdə əsas rol oynayır. Bu baxımdan da bizim işlərimiz çox uğurla gedir. İqtisadi artım çox yüksək sürətlə gedir, ümumi daxili məhsul ildən-ilə artır və bu göstəriciyə görə Azərbaycan dünyada birinci yerdədir. Eyni zamanda, böyük infrastruktur layihələr həyata keçirilir, Bakı–Tbilisi–Ceyhan neft kəməri işə düşübdür. Bakı–Tbilisi–Ərzurum qaz kəmərinin tikintisi uğurla davam etdirilir və ilin sonuna qədər istismara veriləcəkdir. Böyük abadlıq-quruculuq işləri aparılır və regionların sosial-iqtisadi inkişafı sürətlə gedir. Mənim rayonlara mütəmadi səfərlərim bunu bir daha göstərir ki, hər yerdə quruculuq-abadlıq işləri gedir. Bilirsiniz ki, sosial məsələlərin həllinə böyük diqqət göstərilir və Azərbaycanda məktəb, xəstəxana tikintisi geniş vüsət alıbdır. Azərbaycanda elə bir sahə yoxdur ki, sürətlə inkişaf etməsin. Yol tikintisi – həm magistral yolların, həm kənd yollarının tikintisi geniş şəkildə aparılır. Bütövlükdə ölkəmiz yeniləşir, müasirləşir, zənginləşir. Biz həyatımızın hər bir sahəsinə böyük diqqət göstərməliyik. Bütün bunlar, əlbəttə, ölkənin iqtisadi potensialına söykənir və bu potensialın möhkəmlənməsi bizim üçün ən başlıca vəzifədir. Çox şadam ki,

biz bunu uğurla icra edirik. Bu baxımdan elə bir sahə olmamalıdır ki, diqqətdən kənarda qalsın, yaxud da o sahəyə kifayət qədər diqqət göstərilməsin.

Bugünkü müşavirə Azərbaycanda ekoloji vəziyyətin yaxşılaşdırılması ilə bağlı olacaqdır. Biz bu sahəyə də böyük diqqət göstərməliyik. Bir müddət bundan əvvəl mənim tərəfimdən Ekologiya və Təbii Sərvətlər Nazirliyinə göstəriş verilmişdir. Bu işlər çox geniş şəkildə təhlil edildi, çirklənmiş ərazilərin xəritəsi tərtib olundu, demək olar ki, ekoloji cəhətdən narahatlıq doğuran bütün məsələlər ətraflı öyrənildi və müəyyən təkliflər də artıq mövcuddur.

Mən istərdim ki, bugünkü müşavirədə biz bu məsələləri kompleks şəkildə müzakirə edək. Bundan əvvəl hökumətə, Ekologiya və Təbii Sərvətlər Nazirliyinə, digər müvafiq qurumlara göstərişlər verilmişdi. Ancaq məsələlərin həlli, əlbəttə, kompleks yanaşmadan asılıdır. Azərbaycanın hərtərəfli uğurlu inkişafı bizə imkan verir ki, bu sahəyə də böyük diqqət göstərək, maliyyə resurslarını müəyyən edək və işə başlayaq.

Bildiyiniz kimi, uzun illər ərzində bütövlükdə bu sahəyə diqqət yetirmək çox çətin idi. Çünki sovet vaxtında «ekologiya» sözü ümumiyyətcə, heç mövcud deyildi, heç belə bir anlayış da yox idi. Sadəcə olaraq planın yerinə yetirilməsi məsələsi qarşıya qoyulurdu.

Azərbaycan neft ölkəsidir. Uzun illərdir ki, Azərbaycanda neft hasilatı aparılır. Ancaq əfsuslar olsun ki, heç vaxt ekoloji məsələlərə böyük diqqət göstərilmirdi. İndi Azərbaycan xarici neft şirkətləri ilə birgə fəaliyyətə başlayıbdır. 1994-cü ildən bu günə qədər «Əsrin müqaviləsi»nin və başqa müqavilələrin icrası nəticəsində bizim bu sahədə də təcrübəmiz artır. Bildiyiniz kimi, xarici neft şirkətlərinin ekologiya məsələlərinə böyük diqqəti vardır. Bu, bütün müqavilələrdə öz əksini tapıbdır və xarici neft şirkətlərinin Azərbaycanda fəaliyyəti ekoloji baxımdan bizi qane edir. Düzdür, bəzi hallarda müəyyən pozuntular da olur. Amma bizim Ekologiya və Təbii Sərvətlər Nazirliyi dərhal bu məsələlərə öz münasibətini bildirir.

Azərbaycanda neftlə çirklənmiş ərazilər kifayət qədərdir. Mənə verilən məlumata görə, Abşeron yarımadasında 10 min hektardan artıq torpaq neftlə çirklənmişdir. Bu, böyük bir ekoloji təhlükədir. Bizim insanlarımızın səhhətinə də mənfi təsir göstərir. Həm neftlə çirklənmiş torpaqlar, eyni zamanda, Bakı buxtası ekoloji cəhətdən yaxşı vəziyyətdə deyildir. Bütün kanalizasiya suları, demək olar ki, Bakı buxtasına axıdılır. Qurğular sıradan çıxıb, biz gərək onları yenidən quraq. Buna böyük vəsait lazımdır. İndi biz müxtəlif beynəlxalq təşkilatlarla bu işləri görürük, kreditlər də ayrılıbdır. Hövsan kanalizasiya sisteminin bərpa edilməsi ilə əlaqədar işlər görülməyə başlanıbdır. Ancaq bu bizi qane etmir.

Bu yaxınlarda mənə məlumat verildi ki, Xəzər dənizinin çimərliklərində vəziyyət həddindən artıq gərgindir. Mən müvafiq orqanlara dərhal göstəriş verdim və təcili tədbirlər görürlər. Artıq bu gün mənə verilən məlumata görə, Xəzər dənizinin çimərlikləri ekoloji normalara uyğundur. Ancaq nə üçün bu məlumat mənə iyun ayında verildi?! Aprel, may ayında müvafiq işlər aparılmalı idi. Dənizin suyunun tərkibi yay mövsümünə qədər öyrənilməli idi. Biz çox qısa müddət ərzində bunu etməyə məcbur olduq. Yəni bütün bu məsələlərə kompleks şəkildə yanaşılmalıdır.

Neftlə çirklənmiş torpaqlar təmizlənə bilər, müasir texnologiyalar var. Ancaq əgər biz çirklənmə mənbəyini aradan götürməsək, bunun heç bir əhəmiyyəti olmayacaqdır. Biz Bakı buxtasını təmizləyə bilərik. Düzdür, bu, böyük bir işdir və çoxlu maliyyə vəsaiti tələb edən məsələdir. Ancaq əgər o kanalizasiya suları, yaxud neft mədənlərindən axan çirklənmiş sular yenə oraya axıdılacaqsa, onun heç bir əhəmiyyəti olmayacaqdır.

Mən şəxsən özüm o yerləri gəzmişəm. O süni gölməçələrin yaranması böyük ekoloji fəlakətə gətirə bilər. Aeroport yolunun altından keçən kanal neftlə çirklənmiş suları təmizlənməmiş düz dənizə axıdır. Mən indi bu məsələləri qaldırıram. Müvafiq orqanlar bu məsələlərə böyük diqqət göstərməlidirlər, bu onların gündəlik işi olmalıdır.

Bir daha demək istəyirəm ki, biz iqtisadi cəhətdən möhkəmlənirik. Azərbaycanın uğurlu iqtisadi inkişafı artıq gerçəklikdir, faktdır və gələcəkdə bizə böyük imkanlar gətirəcəkdir. Ancaq insanların sağlamlığı, ekoloji vəziyyət, udduğumuz hava, içdiyimiz su – bütün bunlara biz çox böyük diqqət göstərməliyik. Ona görə bu məsələlər bu gün geniş müzakirə olunmalıdır. Müşavirə nəticəsində müvafiq sərəncam da hazırlanmalıdır və mən onu imzalayacağam. Ondan sonra geniş proqram da tərtib olunmalıdır.

Bütün qurumlar, bütün aidiyyəti orqanlar bilməlidirlər ki, kim nə etməlidir, nə vaxt etməlidir, hansı müddət əzrində etməlidir, buna nə qədər vəsait lazımdır, bu vəsaiti biz haradan alacağıq. Bütövlükdə, qısa müddət ərzində biz Azərbaycanın, Abşeron yarımadasının ekoloji vəziyyətini yaxşılaşdırmalıyıq. Ən çətin vəziyyət Bakı, Abşeron və Sumqayıtdadır. Azərbaycanın digər bölgələrində belə böyük problemlər yoxdur. Mən Azərbaycanın müxtəlif bölgələrində tez-tez oluram. Həm havası təmizdir, həm də ekoloji vəziyyət müsbətdir. Ancaq Bakı, Abşeron, Sumqayıt bu baxımdan ən çətin vəziyyətdədir. Burada təxminən 3 milyona yaxın insan yaşayır. Belə olan halda biz bu məsələlərə ciddi baxmalıyıq və nə lazımdırsa, onu da etməliyik.

**Hüseynqulu Bağırov:** Möhtərəm Prezident!

Hörmətli müşavirə iştirakçıları!

Azərbaycan Respublikası hazırda dünyada nadir olan iqtisadi inkişaf dövrünü yaşayır. Müharibənin vurduğu yaralara baxmayaraq, belə yüksək göstəricilər banisi ümummilli liderimiz Heydər Əliyev olan sabitlik və sosial-iqtisadi inkişaf strategiyasının mürəkkəb bir şəraitdə uğurla həyata keçirilməsi və cənab Prezident, Sizin yeni dövrdə bu strategiyanı yeni məzmunda, enerji, coşqu, dəmir iradə ilə davam etdirməyiniz nəticəsində mümkün olmuşdur.

Ətraf mühitin mühafizəsi, insanların sağlam təbii mühitdə yaşaması və təbii sərvətlərdən xalqımızın rifahının yaxşılaş-

dırılması naminə istifadə məsələsi Sizin apardığınız sosial-iqtisadi islahatlarda mühüm yer tutur. Ölkəmizin ekoloji durumuna həm vaxtilə ulu öndərimizin göstərdiyi, həm də möhtərəm Prezident, Sizin çox gərgin iş rejiminizdə göstərdiyiniz xüsusi diqqət və qayğı ictimaiyyət tərəfindən daim yüksək qiymətləndirilmişdir.

Respublikanın başqa ərazilərində olduğu kimi, Abşeron yarımadasında da ətraf mühitin sağlamlaşdırılması sahəsində müəyyən tədbirlər görülmüşdür. Sumqayıtın bir neçə min kvadratmetr ərazisində 40 min tondan çox civə tərkibli təhlükəli tullantılar toplanaraq, emal olunaraq, daşınaraq xüsusi poliqonda müasir standartlara uyğun şəkildə basdırılmışdır. Həmin tullantıların basdırıldığı və ən müasir standartlara cavab verən poliqon Dünya Bankının krediti hesabına tikilmişdir və bu və ya başqa ərazilərdəki təhlükəli tullantılar üçün nəzərdə tutulmuşdur. Poliqona 7 kilometr yol çəkilmiş, asfalt döşənmişdir.

Cənab Prezident, Sizin sərəncamınızla Abşeron yarımadasında – Şah dili ərazisində 800 hektardan çox sahədə Abşeron milli parkı yaradılmışdır ki, bundan sonra yarımadanın nadir təbiəti qorunub saxlanılsın. Həmin parkda müvafiq infrastruktur yaradılır, xüsusi mərkəz, muzey və idarə binaları tikilmişdir. Burada insanlara Abşeronun real təbiəti ilə tanış olmaq imkanı yaradılır. Abşeron yarımadasının çirkləndirilməsində əsas rolu olan neftlə çirklənmiş torpaqların pozulmuş hidrologiyası nəticəsində yaranmış çoxsaylı göllərin vəziyyəti öyrənilmiş, xüsusi xəritələr, hesabatlar hazırlanmış və tədbirlər planı tutulmuşdur. Bakı aeroportunda uçuş-enmə zolağı boyunca ərazilərin vəziyyəti tədqiq edilmiş və ekoloji vəziyyətin yaxşılaşdırılması üçün Azərbaycan Dövlət Neft Şirkəti və «Azərbaycan Hava Yolları» Dövlət Konserni ilə razılaşdırılmış tədbirlər planı hazırlanmışdır. Abşeron yarımadasının sahilləri, çimərlik zonası tədqiq edilmiş, vəziyyəti nəzarət altında saxlamaq üçün müasir tələblərə cavab verən 7 ekoloji laboratoriya yaradılmışdır. Həmin ərazilərdə vəziyyət barədə

məlumat qərar qəbul edən şəxslərə mütəmadi olaraq çatdırılır. Bir neçə istiqamətdə gündəlik, həftəlik, aylıq xüsusi məlumat bülletenləri hazırlanır, dövlət orqanlarına təqdim olunur.

Cənab Prezident, görülən bu işlərlə yanaşı, Sizin tamamilə düzgün qeyd etdiyiniz kimi, respublikada həlli vacib olan ekoloji problemlər də mövcuddur. Bunların da əksəriyyəti Abşeron yarımadasında cəmləşmişdir. Ölkə əhalisinin təxminən 40 faizinin və sənaye potensialının 70 faizinin cəmləşdiyi bu ərazi ekoloji cəhətdən respublikanın ən gərgin regionudur. Ümumi sahəsi 222 min hektar olan Abşeron yarımadasındakı yararsız torpaqların, yəni üst qatı pozulmuş, çirklənməyə məruz qalmasa da, öz təbii imkanlarını itirmiş torpaqların sahəsi 30 min hektara qədərdir. Bunun neftlə çirklənmiş hissəsi 10,6 min hektara yaxındır. Neft və neft məhsulları ilə ən çox çirklənmiş torpaq sahələri Qaradağ, Binəqədi, Sabunçu, Suraxanı, Əzizbəyov və Səbail rayonları ərazisindədir.

Abşeron yarımadasının çirklənmiş və sıradan çıxmış torpaqlarının bərpası ilə əlaqədar nazirlik tərəfindən bu zonanın ekoloji vəziyyəti və onun sağlamlaşdırılması üçün zəruri tədbirlər proqramı və Bibiheybət zonasında ekoloji vəziyyət və onun yaxşılaşdırılması üçün zəruri tədbirlər proqramı hazırlanmışdır. Abşeron yarımadasının ekoloji problemlərindən biri sənaye və məişət sularından əmələ gəlmiş və bu sularla çirklənmiş göllərdir. Ümumi sahəsi 3325 hektara yaxın 800-ə qədər göldən 200-ü nisbətən iri göllərdir. Onların tərkibinə hər il 40 milyon kubmetrdən çox çirkab və yaxud lay suları axıdılır. Göllərin ekoloji vəziyyətini gərginləşdirən əsas amillər neftlə çirklənmə, istehsal, sənaye mənşəli tullantı suları, kommunikasiya sistemləri ilə təchiz olunmadan inşa edilən çoxsaylı yeni yaşayış evlərindən və ictimai binalardan axıdılan məişət və təsərrüfat sularından ibarətdir. Böyükşor, Bülbülə, Qırmızıgöl, Xocasən və Çuxurdərə gölləri daha çox çirklənməyə məruz qalmışdır. Bu göllərdə zərərli maddələrin miqdarı normadan 8–12 dəfə artıqdır. Problemin aradan qaldırılması üçün nazirlik tərəfindən Abşeron yarımadasında

yerləşən göllərin və digər yerlərin ekoloji vəziyyətinin sağlamlaşdırılması layihəsi hazırlanmışdır. Nəzərə alsaq ki, bu göllər artıq böyüməkdə olan Bakı şəhərinin ərazisinin genişlənməsinə mane olur, istərdim bəzi ərazilər haqqında geniş məlumat verim.

Böyükşor Abşeron yarımadasının Binəqədi, Sabunçu və Nərimanov rayonları ərazisində yerləşən böyük göldür. İlk dövrlərdə göl, əsasən, yeraltı sulardan qidalanırdısa, hazırda buraya çoxsaylı çirkab axınları mövcuddur. Gölün su səthi 1300 hektar, uzunluğu 10 kilometr, eni 1,5–2 kilometrdir. Dərinliyi 4–8 metr olan bu böyük göl 45 milyon kubmetrə qədər su saxlayır. Bu günə qədər gölün torpaq tökülməklə tamamilə qurudulmuş ərazisi 15 hektardan çoxdur. Amma bir neçə yüz hektar ərazidə, demək olar ki, suyun səviyyəsi torpağadək enmiş, Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən oradakı cəzaçəkmə müəssisəsinin yanından qarşıdakı sahilə qədər bənd vurulmuşdur. Hazırda göldən gündə 7 min kubmetrə qədər su vurulur. Orada suyun azalmaması göstərir ki, gölün qida mənbələrinin qarşısı alınmamışdır.

**İ l h a m Ə l i y e v**: Bu, böyük problemdir. Amma mən hesab edirəm ki, bəlkə baxasınız, bu gölü qurutmaq o qədər də asan məsələ deyildir. Bəlkə onu təmizləmək olar ki, təmiz bir göl kimi qalsın. Bunu etmək mümkündür, müvafiq işlər görülməlidir. Əgər o təmizlənərsə, gölün ətrafında tamamilə yeni bir mühit yaranacaqdır. Sonra orada yaşayış massivləri tikmək, parklar salmaq olar. Çünki o sahə ekoloji cəhətdən çox bərbad vəziyyətdədir. Yəni siz bu varianta da baxın.

**H ü s e y n q u l u B a ğ ı r o v:** Əslində, bu problemin həlli ilə bağlı təkcə tədqiqat işləri yox, həm də, cənab Prezident, Sizin tapşırığınızla müəyyən hazırlıq işləri görülür. Sizin razılığınızla hazırda Dünya Bankı ilə danışıqlar aparılır. Artıq danışıqlar layihə hazırlamaq prosesinə keçmişdir. Sizin səsləndirdiyiniz bir fikir burada əsas götürülmüşdür ki,

çirklənmiş torpaqların və ərazilərin təmizlənməsi, bərpası, ola bilsin, hansısa xüsusi bir fonda, agentliyə tapşırıla bilər və onlar Dünya Bankından alınan kredit və yaxud dövlətin vəsaiti ilə işləyəcəkdir. Amma müəyyən ərazilərin sahibləri olduğu üçün iri müəssisələrə məxsus min hektarlarla torpaq sahələri istismardan çıxarılıb müəyyən müddətdən sonra dövlətə qaytarılmalıdır. Onlar imkanlı təşkilat kimi, torpaqları bərpa edib tədricən dövlətə qaytarar, yaxud dövlətin göstərdiyi istiqamətdə istifadəsini təmin edə bilər.

**İ l h a m   Ə l i y e v:** Əlbəttə, Dünya Bankının krediti ilə işləmək lazımdır. Biz uzun müddətdir Dünya Bankı ilə əməkdaşlıq edirik. Amma bəzi hallarda onların prosedura qaydaları çox vaxt aparır. Ona görə baxın, təxirəsalınmaz tədbirlər haqqında fikirləşmək lazımdır. Biz əlavə maliyyə resurslarını da bu işlərə cəlb edəcəyik. Amma əsas məsələ çirklənmənin səbəbini aşkar etmək, onu təhlil etmək və onun qarşısını almaqdır. Əgər onu etməsək, heç bir işin səmərəsi olmayacaqdır. Əlbəttə ki, ən çox çirkləndirən müəssisələr, təşkilatlar gərək bu işə məsuliyyətlə yanaşsınlar. Məndə olan arayışda hansı sahələrdə hansı təşkilatların ekoloji vəziyyətə daha çox mənfi təsir göstərdiyi bildirilir.

Misal üçün, göllərdən danışırsınız, bu göllərin çirklənməsində səbəbkarlar ilk növbədə neft-qazçıxarma müəssisələri, yerli icra hakimiyyətləri, bələdiyyələrdir, torpaq ayıranda bütün şəhərsalma normaları və ekoloji amillər nəzərə alınmır. «Azərsu» Səhmdar Cəmiyyətidir ki, kanalizasiya şəbəkəsi yaşayış məntəqələrini tam əhatə etmir və axıntı suları lazımi səviyyədə təmizlənmir. Bakı buxtasının çirklənməsində ən çox günahkar təşkilatlar yenə də neft-qazçıxarma və neft emalı müəssisələri, «Xəzərdənizneftdonanma», Xəzər Dəniz Gəmiçiliyi, Beynəlxalq Dəniz Ticarət Limanı, «Azərsu» Səhmdar Cəmiyyəti, Bakı Şəhər İcra Hakimiyyəti, bələdiyyələr və sairdir. Məndə başqa məlumatlar da var. Amma gərək əsas

bu təşkilatlar bütün bu qüsurları tezliklə aradan qaldırsınlar, tədbirlər planı hazırlasınlar və biz işə başlayaq.

**H ü s e y n q u l u   B a ğ ı r o v**: Cənab Prezident, tamamilə doğru buyurursunuz. İcazənizlə Böyükşorla bağlı məlumatı yekunlaşdıraraq deyim ki, Sizin sözünüzün təsdiqi kimi, hazırda «Azərsu»nun əvvəllər Bakı Şəhər İcra Hakimiyyətinin balansında olan nasos stansiyası işləyir. Sutkada 20 min kubmetr çirkab su Hövsan istiqamətinə vurulur. Ancaq araşdırmalar göstərir ki, eyni zamanda, qurudulan ərazidən təxminən 7 min kubmetrdən artıq həcmdə su kənara axıdılır. Ətraf ərazilərdə 49 axardan təxminən 16 min kubmetr çirkab suyu, məişət tullantıları gəlir ki, bu da müəyyən səviyyənin saxlanılması üçün yetərlidir.

**İ l h a m   Ə l i y e v:** Yəni, bir tərəfdən təmizlənir, su vurulur, göl qurudulur, digər tərəfdən isə oraya yenə də su axır. Bunun heç mənası yoxdur, onu əbədi qurudacaqlar? Ona görə deyirəm ki, yeni bir təklif üzərində işləyin, gölü təmizləyib onu çox gözəl, ekoloji cəhətdən təmiz bir göl edək və o ərazi tamamilə öz görkəmini dəyişəcəkdir.

**H ü s e y n q u l u   B a ğ ı r o v:** Cənab Prezident, baş üstə.

Cənab Prezident, Bakı buxtası məsələsinə tamamilə doğru toxundunuz. Bu, narahatlıq doğuran məsələlərdən biridir və buna dəfələrlə toxunmusunuz. 2000-ci ildə Hollandiya şirkəti tərəfindən Bakı buxtasının təmizlənməsi layihəsi hazırlanmışdır. Bizim apardığımız tədqiqatın nəticələri, demək olar, onların araşdırmaları ilə üst-üstə düşür. Əgər oraya gündəlik axıdılan 937 min kubmetr çirkab sularının qarşısı alınarsa, tədqiqatçıların göstərdiyi 60 milyon tondan 120 milyon tona qədər dib çöküntülərinə əl vurmadan, təbii çöküntülər hesabına oranın izolyasiyası və suyun təmizlənməsi hesabına 3-4 ilə Bakı buxtasını təmizləmək mümkün olacaqdır. Bu, böyük vəsaitlərin xərclənməsinin də qarşısını alır. Onsuz da

bu işlər görülməli, kanalizasiya və başqa axarların qarşısı alınmalıdır. Çirkli sular təmizləyici qurğulardan keçirilərək, lazım gələrsə, dənizə buraxılmalıdır. Bu işin görülməsi Bakı buxtasının qısa müddətdə təmizlənməsinə səbəb olacaqdır.

Bibiheybət zonasının yaşayış məntəqələrində ətraf əraziyə və 32-ci kanal vasitəsilə Xəzər dənizinə sutka ərzində axıdılan 13 min kubmetr təsərrüfat-məişət sularının təmizlənməsi zəruridir. Bura Bakının mərkəzinə yaxın perspektivli bir ərazidir. Hazırda orada kortəbii şəkildə kiçik və infrastrukturu olmayan yaşayış evləri tərəfindən ikinci ekoloji problemin yaranmasına aparan proses müşahidə olunur. İndi «Bakı buxtasının ekoloji vəziyyəti və onun yaxşılaşdırılması üçün zəruri Tədbirlər Proqramı» işlənib hazırlanmışdır və razılaşdırılmaq üçün ikinci dəfə Nazirlər Kabinetinə göndərilmişdir. Demək olar ki, bu iş sona çatmışdır.

Siz Abşeron çimərlikləri ilə bağlı da doğru qeyd etdiniz.

Çimərliklərin ekoloji vəziyyəti ilə bağlı problemlər də narahatlıq doğurur. Biz bu məsuliyyəti öz üzərimizə götürürük, nazir kimi, şəxsən mən öz üzərimə götürürəm. Əlbəttə, bu barədə vaxtında və mütəmadi məlumat verilməlidir ki, tədbirlər görülsün. Söz veririk ki, bundan sonra tədbirlər vaxtında görüləcəkdir. Bunun üçün xüsusi laboratoriya yaradılmışdır. Həmin laboratoriyada təkcə kimyəvi yox, həm də bioloji tədqiqat aparmaq mümkündür. Bununla bağlı məlumatın qərar qəbul edən şəxslərə hər üç gündən bir göndərilməsi təşkil olunmuşdur.

Amma dənizin səviyyəsinin qalxması ilə əlaqədar əksər çimərliklərin ərazisi azalmış, bir çox ərazilərdə bataqlıqlar əmələ gəlmişdir. Sizin göstərişinizdən sonra bəzi tədbirlər görülmüşdür. Buzovna–Zuğulba zonasında dənizin içindən keçən borular təmir olunmuşdur. Oraya, rəsmi sənədlərə görə, gündə 10 min kubmetr, əslində isə 14 min kubmetrə qədər çirkab suları axıdılır.

«Azərsu» tərəfindən inşa olunan bioloji qurğu artıq işə düşmüşdür. Düzdür, həmin qurğu 4 min kubmetrə qədər çirkab

su qəbul edir, o da mövcud kanalizasiya şəbəkəsinin imkanlarını göstərir. Eyni zamanda, Buzovnada kanalizasiya şəbəkəsi qurularsa, həmin qurğu suyun təmizlənməsinin öhdəsindən tamamilə gələcəkdir. Bütün proqnozlar göstərir ki, bu, bütün şimal zonasındakı çimərliklərin vəziyyətini əsaslı surətdə dəyişmiş olacaqdır.

**İ l h a m Ə l i y e v:** Çalışmalıyıq ki, bütün zonalarda çimərliklərdə vəziyyət yaxşı olsun. Ona görə indi fikirləşmək lazımdır, proqram tərtib etmək lazımdır ki, hansı tədbirlər görülməlidir, harada nə tikilməlidir – təmizləyici qurğular, kanalizasiya xətləri. Hamısı kompleks şəkildə olmalıdır, özü də təkcə Bakıda yox. Məndə olan məlumata görə, şimal istiqamətində də vəziyyət çox ağırdır. Nabran çimərliklərində vəziyyət dözülməz həddə gəlib çatıbdır. Orada tikilən yeni mehmanxanaların, istirahət zonalarının heç birinin kanalizasiyası yoxdur, bütün sular dənizə axıdılır və faktiki olaraq orada da çox böyük problemlər yaranır. Yəni Xəzərin sahili boyu bütün bu məsələlərə biz baxmalıyıq. Burada söhbət 800 kilometrlik ərazidən gedir. Yəni bütün bu sahəyə biz gərək kompleks şəkildə baxaq. Əlbəttə, o çox böyük maliyyə vəsaiti tələb edəcəkdir. Amma onu mərhələlərə bölərik. Ən ağrılı, ən çətin yerləri müəyyən etməliyik, oradan başlamalıyıq. Amma proqram gərək bütün ekoloji vəziyyəti əhatə etsin.

**H ü s e y n q u l u B a ğ ı r o v:** Cənab Prezident, bununla bağlı müəyyən təkliflər hazırlanıb ki, nəzərdə tutulan xərcləri də kəskin surətdə azaltsın. Birincisi, özəl şirkətlərin öz hesablarına kiçikhəcmli təmizləyici qurğuların quraşdırılması məsələsidir. İkincisi, iki min insana xidmət edə bilən, qiyməti aşağı olan, məhəllələrdə istifadə edilən qurğular çox faydalıdır.

**İ l h a m Ə l i y e v:** İndi Azərbaycanda biznes çox sürətlə inkişaf edir. Biz də lazımi şəraiti yaratmışıq. Azərbaycanda bu məsələyə çox liberal yanaşma var. Mənim də siyasətim bundan ibarətdir ki, özəl sektor, sahibkarlıq inkişaf etməlidir, həm

kreditlər ayrılır, həm də başqa yardımlar edilir. Mənim iş adamları ilə mütəmadi görüşlərim, onlara siyasi dəstəyin verilməsi, əlbəttə, onların işini yüngülləşdirir. Amma onlar da bu işlərə gərək məsuliyyətlə yanaşsınlar. Onları məcbur etmək lazımdır. Harada yeni bir tikinti aparılırsa, yeni turizm zonası tikilirsə, mütləq orada ən müasir təmizləyici qurğular olmalıdır. Harada ki yoxdur, onların lisenziyasını geri almaq lazımdır. Artur müəllim, Mədəniyyət və Turizm Nazirliyinə göstəriş verin ki, təhlil aparsın. Hansı istirahət zonaları bütün normalara riayət etmirsə, onlara çox ciddi sanksiya tətbiq olunmalıdır. Biz bunu mütləq edəcəyik. Çünki o şirkətlər özləri pul qazanırlar. Daha da çox qazansınlar, biz bunun tərəfdarıyıq. Eyni zamanda təbiətə ziyan vurmasınlar.

**Hüseynqulu Bağırov:** Abşeron yarımadasındakı mühüm obyektlərdən biri də Ceyranbatan su anbarıdır. Sahəsi 13,89 kvadratkilometr olan anbarın şərq yamacında inşa edilmiş yaşayış massivində 1500-dən artıq fərdi ev mövcuddur. Bundan əlavə, anbarın sanitar-mühafizə zonasının ətraf ərazisində 12 müəssisə fəaliyyət göstərir. Nəzərə alsaq ki, orada qrunt az gillidir, ənənəvi metodlardan istifadə edən əhali çirkab sularını həyətdəki quyularına buraxır. Orada da təcili surətdə müəyyən tədbirlərin görülməsi gündəlikdədir.

**İlham Əliyev:** Bizdə qanunvericilikdə bu məsələlər öz əksini necə tapır? Yəni ekologiyaya ziyan vuran təşkilatlar, firmalar, insanlar – onlara qarşı hər hansı bir tədbir görülə bilərmi? Yaxud da bununla bağlı cinayət məsuliyyəti bizim qanunvericilikdə var, yoxsa yox?

**Hüseynqulu Bağırov:** Cənab Prezident, cərimələr nəzərdə tutulubdur. Müqayisə üçün deyə bilərəm ki, 2001-ci ildə cərimələrin və vurulmuş ziyanın hesabına Ətraf Mühitin Mühafizəsi Fonduna 650 milyon manat daxil olmuşdur.

**İ l h a m Ə l i y e v:** 650 milyon manat, yəni köhnə pulla.

**H ü s e y n q u l u B a ğ ı r o v:** Bəli. 1,4 milyard manat da tətbiq olunmuş, amma ödənməmişdir. 2005-ci ildə bu rəqəmin ödənmiş hissəsi 4,9 milyard manata çatdı. 33 milyard manat cərimə tətbiq olunmuşdur.

**İ l h a m Ə l i y e v:** Bilirsiniz ki, başqa ölkələrdə, məsələn, inkişaf etmiş ölkələrdə ekologiya məsələlərinə çox böyük diqqət göstərilir. Orada bu, qanunvericilikdə necə təsdiq edilmişdir?

**H ü s e y n q u l u B a ğ ı r o v:** Müəyyən qərarlar daha da sərtləşdirilmişdir.

**İ l h a m Ə l i y e v:** Gərək biz də sərtləşdirək. Hətta burada cinayət məsuliyyətindən söhbət getməlidir. Hamı bilməlidir ki, ekologiyanı pozan, ətraf mühitə ziyan vuran təşkilatlar cəzalandırılacaqdır. Ona görə bunun üzərində işləyin, təklif verin, biz bunu sonra həll edəcəyik.

**H ü s e y n q u l u B a ğ ı r o v:** Cənab Prezident, ümumiyyətlə, bu gün aparılan tikinti işlərinin hamısı ekoloji cəhətdən razılaşdırılmalıdır. Amma deyə bilərik ki, irimiqyaslı sənaye və biznes xarakterli tikililərlə bağlı 30–35 faiz müraciətlər olur. Faktlar onu göstərir ki, özəl sektor ətraf mühitə təsir edir, ancaq onlar tərəfindən belə bir praktika yoxdur. Amma Sizin tapşırığınızla bu, tətbiq olunacaqdır.

**İ l h a m Ə l i y e v:** Mütləq tətbiq edin.

**H ü s e y n q u l u B a ğ ı r o v:** Mühüm dövlət əhəmiyyətli obyekt olan Heydər Əliyev adına Beynəlxalq Hava Limanının ətraf ərazisində antropogen fəaliyyət nəticəsində 1187 hektara yaxın sahənin təbii landşaftı tamamilə

pozulmuşdur. Belə ki, 130 hektar ərazi sənaye və məişət tullantıları altında qalmış, 750 hektar ərazi neft məhsulları ilə çirklənmiş, 307 hektar torpaq sahəsi isə tullantı sularının axıdılması nəticəsində bataqlıqlaşmışdır.

Heydər Əliyev adına Beynəlxalq Hava Limanının ətraf ərazisini əsas çirkləndirən «Binə» və «Sədərək» ticarət mərkəzlərinin tullantıları, Tağıyev adına və «Balaxanıneft» neftqazçıxarma idarələrinin lay suları, «İqlim» İstehsalat Birliyinin, ətraf qəsəbələrin tullantılarıdır. Nazirlik «Heydər Əliyev adına Beynəlxalq Hava Limanının ətraf ərazisində ekoloji vəziyyət və onun yaxşılaşdırılması üçün zəruri Tədbirlər Proqramı» işləyib hazırlamışdır. Proqram Dövlət Neft Şirkəti və «Azərbaycan Hava Yolları» Dövlət Konserni ilə razılaşdırılmışdır və hazırda hökumətdə baxılır.

Abşeron yarımadasının mühüm magistral yollarından biri olan aeroport yolunun ətrafında da gərgin ekoloji vəziyyət mövcuddur. Buna Siz özünüz müdaxilə etmisiniz və bir sıra yerlərdə operativ tədbirlər görülmüşdür. Metronun «Əzizbəyov» stansiyası və Sabunçu dairəsi arasında yolun təxminən 2 kilometrinin sağ və sol hissələrinin su altında qalmaq təhlükəsi, Sabunçu və Suraxanı dairələri arasındakı yolun nisbətən çökək hissələrinə bu ərazilərdə yeni inşa olunmuş yaşayış massivlərindən axan tullantı sularının sızması və üfunətli gölməçələrin formalaşması, Yeni Suraxanıdan Mərdəkan dairəsinə qədər yolun sağ və sol hissələrinə Balaxanı və Suraxanı mədənlərindən neft tərkibli tullantı suların axıdılması, «Sədərək» və «Binə» ticarət mərkəzlərindən bərk məişət tullantılarının qeyri-qanuni olaraq yaxın ərazilərə tökülməsi problemləri vardır.

Abşeron yarımadasının ən ciddi ekoloji problemlərindən biri bərk tullantıların idarə olunması ilə bağlıdır. Yarımadada olan 5 məişət tullantıları poliqonunun ümumi sahəsi 232,5 hektardır. Qeyri-qanuni zibilliklərin sayı 130-dək, sahəsi isə 448,6 hektardır. Onların təxminən 35 faizi Əzizbəyov, 25 faizi isə Sabunçu rayonlarının ərazisindədir.

Rəsmi fəaliyyət göstərən poliqonlar ekoloji norma və standartlara cavab vermir. Belə ki, poliqonların əraziləri hasara alınmamış və nəzarət təşkil olunmamışdır, tullantılar boşaldılandan sonra torpaq qatı ilə örtülərək basdırılmır. Çeşidlənmə aparılmadığından təhlükəli və bir sıra sənaye tullantıları məişət tullantıları ilə birlikdə poliqonda yerləşdirilir.

Hazırda tullantıların idarə olunması ilə özəl şirkətlər – «UP–Azərbaycan», «ADES» Almaniya–Azərbaycan, «Kasko–RJP», «Kasko–Waste Services» Finlandiya–Çexiya–Azərbaycan birgə müəssisələri və yerli icra hakimiyyətlərinin mənzil-kommunal təsərrüfatı qurumları və bələdiyyə orqanları məşğuldur. Bu təşkilatlar tərəfindən tullantıların düzgün idarə olunmaması səbəbindən həm müvəqqəti toplanma məntəqələrində, həm də poliqonlarda yanma halları baş verir ki, bu da öz növbəsində ətraf mühitin, xüsusən də küləkli günlərdə Bakı şəhərinin atmosfer havasının daha çox çirklənməsi ilə nəticələnir.

Qeyd etməliyəm ki, əvvəlki illərdə olduğu kimi, indi Bakı şəhəri sənaye tullantıları, zavodların tüstüsü ilə əhatə olunmur. Onların həcmi 90-cı ilə nisbətən 5 dəfə azalmışdır. Bunun da təbii səbəbləri var. Yeni yaradılan müəssisələr müasir standartlara cavab verir. Köhnə müəssisələrin bir çoxu isə fəaliyyət göstərmir. Ancaq avtomobillərin sayı kəskin şəkildə artmışdır və çirklənmədə 30–70 faiz rol oynayır. Amma bu, müəyyən saatlarda hiss edilir. Bakıda külək olmayanda səhər tezdən, yaxud cənub-şərq küləyi olanda müşahidə edilən, boğazı qıcıqlandıran boz rəngli hisin yeganə mənbəyi Balaxanı zibilxanasında mütəmadi baş verən qəsdən yandırılma, yəni yerin boşalması üçün məqsədli yandırılmadır. Yaxud özündən alışma prosesi gedir, çünki emal olunmuş tullantılar həddən artıq sıxlaşdırılmışdır. Bundan da ziyanlı nəticələr əmələ gəlir.

**İ l h a m Ə l i y e v:** Bu barədə də müvafiq göstərişlər verilibdir. İndi İqtisadi İnkişaf Nazirliyi yeni zibil emalı zavodunun tikintisi ilə bağlı müəyyən tədbirlər görür. Biz tezliklə bunu həll etməliyik. Çünki Balaxanı zibilxanası böyük bir ekoloji fəlakətdir. Mən bir dəfə vertolyotla rayondan qayıdarkən onun

üzərindən keçirdim. Çox böyük bir bəladır və onu aradan qaldırmaq, orada vəziyyəti yaxşılaşdırmaq çox çətin olacaqdır. Yeni zibil emalı zavodunun tikintisi, əlbəttə, bu məsələyə kömək göstərəcəkdir. Ancaq buna əgər indi başlasaq, haradasa iki il vaxt aparacaqdır. Fikirləşin, bu iki il ərzində nə etməliyik ki, orada vəziyyəti bir az sağlamlaşdıraq.

**H ü s e y n q u l u  B a ğ ı r o v:** Cənab Prezident, adi tullantılar üçün ayrılmış ərazidə, Sumqayıtın 11 kilometrliyində poliqon tikilir. Burada bütün proseslər ən yüksək standartlara cavab verəcəkdir. Bu da nümunə olmalıdır. Ayrı-ayrı iri müəssisələr özlərinin ərazisində belə poliqonlar tikməlidir ki, zavod tikilənədək tullantıları müvəqqəti orada saxlasınlar.

**İ l h a m  Ə l i y e v:** Bir problemi də qeyd etdiniz, buna daha da ciddi fikir vermək lazımdır. Torpaqların çoxu bataqlıqlaşır. Həm aeroport ərazisində, həm sahilboyu ərazilərdə. Mən vertolyotla uçanda görürəm, böyük ərazilər artıq bataqlığa çevrilir. Nə işlər görmək lazımdır?

**H ü s e y n q u l u  B a ğ ı r o v:** Cənab Prezident, bunlar əsas iki səbəbdəndir. Birincisi, neft tullantıları daşıyan kollektorlar, o cümlədən Hövsan kollektoru olduqca köhnədir və həddən artıq neft və məişət tullantılarını daşıyır. Xəzər dənizi də çirklənir və ətrafdakı çökək yerlərdə torpaq boşalır.

Fikir vermisinizsə, aeroportun uçuş-enmə zolağının ətrafında olan rəngbərəng gölməçələri də qidalandıran mənbə həmin ərazidə olan neft qurğularından az miqdarda axan, lakin yüksək konsentrasiyalı tullantılarla bərabər, həmin kollektordan olan sızmalardır. İkincisi isə həmin ətrafda yaradılan, infrastrukturu olmayan iri yaşayış məntəqələrinin tullantılarının axıdılmasıdır. Bunun bir çıxış yolu var ki, 5 min nəfər əhalisi olan məntəqələrdə 100–150 min manata başa gələn kiçik təmizləyici qurğular quraşdırılsın. Bunlar məhəllə-məhəllə də qoyula bilər ki, daxili şəbəkənin çəkilməsinə, ən bəsit üsulla

qazma işlərinə pul xərcləmədən torpaq təmizlənsin və yenidən əhalinin istifadəsinə verilsin, bataqlığın qarşısı alınsın. Cənab Prezident, göllərlə bağlı hazırladığımız layihədə, ümumiyyətlə, onların qurudulması, çökəkliklərin doldurulması və yaşıllıqların salınması nəzərdə tutulmuşdur. Birinci növbədə işə aeroport ərazisində başlanması təklif olunmuşdur. Civə üsulu ilə kaustik soda və xlor istehsalı zamanı əmələ gələn təhlükəli tullantıların basdırılması üçün Sumqayıtda müəyyən işlər aparılmışdır. Lakin 40–45 min ton civəli tullantının basdırılmasına baxmayaraq, indinin özündə orada 200–210 min ton ən təhlükəli tullantı hələ də qalmaqdadır. Bu işin görülməsi həmin ərazilərdə ətraf mühitin kəskin şəkildə sağlamlaşmasına səbəb olacaqdır. Suraxanı rayonu ərazisində yod-brom istehsalı zamanı tərkibində radioaktiv maddələr olan tullantılar (45 min ton kömür) yaranmışdır. Bu istehsal sahəsi bazasında səhmdar cəmiyyətin yaradılmasına baxmayaraq, hələ də tullantılar bu ərazidə qalmaqdadır. Bundan başqa, neft-qazçıxarma və neft emalı müəssisələrində formalaşmış 142 min 300 ton neft tərkibli şlam müəssisələrin ərazilərində saxlanılır. Təhlükəli tullantıların yerləşdirilməsi üçün 4 poliqondan 2-nin vəziyyəti qənaətbəxş deyildir.

Abşeronun daş və qum karxanaları barədə. Ölkədə dövlət balansında qeydiyyata alınmış 22 əhəngdaşı yatağının 15-i yarımada ərazisində yerləşir. Qum yataqlarının sayı isə 3 ədəddir. Yataqlar altında qalan torpaq sahəsi 4577 hektar təşkil edir ki, bunun da 4300 hektarı əhəngdaşı yataqları, 277 hektarı isə qum yataqlarıdır. Əhəngdaşı yataqlarının ərazisinin təxminən 1000 hektarı sıradan çıxaraq yararsız hala düşmüşdür.

Digər hallarda olduğu kimi, yerin təkindən istifadə üçün də torpaq ayrılarkən Ekologiya və Təbii Sərvətlər Nazirliyinin rəyinin nəzərə alınmaması nəticəsində yerin təkindən qanunsuz istifadəyə şəraitin yaradılması, yataqların istismarı zamanı köhnə texnologiyadan istifadənin böyük itkilərə səbəb olması, əvvəllər istismar olunmuş və istismarı başa çatmış karxanalarda rekultivasiya işlərinin aparılmaması, yerin təkindən istifadə

üçün torpaqayırma zamanı sanitar-mühafizə zonasına əməl olunmaması, dövlət balansında qeydiyyata alınmış yataqların sanitar-mühafizə zonalarında və bu zonalara yaxın ərazilərdə (məsələn, Türkan və Zirə ətrafında) yerli icra hakimiyyəti və bələdiyyə orqanları tərəfindən yaşayış evlərinin tikintisi üçün torpaq sahələrinin ayrılması və s. ekoloji problemləri dərinləşdirən amillərdəndir.

Mövcud problemin aradan qaldırılması üçün ilk növbədə, yerin təkindən istifadə hüququnun verilməsi sahəsində bu gün mövcud olan boşluğun təcili aradan qaldırılması çox vacibdir.

Cənab Prezident, atmosfer havasının çirklənməsi ilə bağlı məlumat verdim. Ümumiyyətlə, 90-cı ilə nisbətən kəskin surətdə yaxşılaşma gedir. Çünki müəssisələrdə atmosferə atılan karbon qazının həcmi 60 milyon tondan 37 milyon tona enmişdir.

**İ l h a m Ə l i y e v:** Norma nə qədərdir?

**H ü s e y n q u l u B a ğ ı r o v:** İqtisadiyyatın gücü qədər. Biz Kiota Protokoluna 60 milyon tonla daxil olmuşuq. Ona görə bu qədər karbon qazının atmosferə buraxmasına ixtiyarımız var. Amma hazırda bunun həcmi 37-38 milyon tondur. Burada iki variant var: dünyada qəbul olunmuş karbon alverinə qoşulmaq, yaxud da ehtiyatda saxlamaq ki, bir zaman lazım olacaqdır.

**İ l h a m Ə l i y e v:** Buna ehtiyacımız yoxdur.

**H ü s e y n q u l u B a ğ ı r o v:** Bəli. Bundan başqa, 2 milyon tona yaxın da zəhərli tullantı atılırdı ki, onların da həcmi 800 min tona enmişdir. Bunun tərkibində avtomobillərin tullantıları 170 min tondan 500 min tona çatmışdır.

Problemin aradan qaldırılması üçün istismar edilən nəqliyyat vasitələrinin texniki vəziyyətinə nəzarətin gücləndirilməsini, istismarda olmuş nəqliyyat vasitələrinin idxalında məhdudiyyətlərin qoyulmasını, tullantıların idarə olunmasının

təşkili və onların zibilxanalarda yandırılmasının qarşısının alınmasını və məşəllərdə yandırılan qazların zərərsizləşdirilməsini təklif edirik.

Çox sağ olun.

**O q t a y Ş i r ə l i y e v:** Möhtərəm cənab Prezident!

Hörmətli müşavirə iştirakçıları!

Respublikanın bütün regionlarında olduğu kimi, Bakı şəhərində də quruculuq, təmir və abadlıq işlərinin aparılması ilə yanaşı, yaşayış məntəqələrinin ekoloji vəziyyətində, o cümlədən su təchizatında, kanalizasiya sistemlərində, çimərliklərin sanitariya vəziyyətində bir sıra nöqsan və çatışmazlıqlar mövcuddur.

Hələ keçən əsrin 70–80-ci illərində ümummilli liderimiz Heydər Əliyevin gərgin səyi nəticəsində ümumi dəyəri 400 milyon manat təşkil edən Bakının böyük kanalizasiyasının tikintisi layihələndirilmiş və inşasına başlanılmışdı. Lakin sonrakı illərdə bu iş başa çatdırılmamışdır. Hazırda Bakı şəhərinin yalnız 78 faizi mərkəzləşdirilmiş kanalizasiya sisteminə qoşulmuşdur. Çirkab suların ümumi həcminin 27 faizi təmizlənmədən Xəzər dənizinə axıdılır.

Hazırda fəaliyyətdə olan Hövsan aerasiya stansiyasına daxil olan çirkab suların mexaniki və bioloji təmizlənməsi tam təmin edilmir. İndiyədək çirkab suları qəza xətti ilə dənizə axıdılır. Bununla yanaşı, şəhərin bir sıra yaşayış məntəqələrinin çirkab suları da təmizlənmədən birbaşa dənizə axıdılır. Belə ki, Badamdar, Bibiheybət qəsəbələrinin və 20-ci Sahə yaşayış məntəqəsinin təsərrüfat-məişət çirkab suları bilavasitə əhalinin kütləvi istirahət yeri olan Şıx çimərliyinin yaxınlığında dənizə buraxılır.

Qobustan qəsəbəsinin çoxmərtəbəli binalarının, Xətai rayonunda Zığ yolu boyunca Əbilov və Naximov qəsəbələri ərazilərində tikilən fərdi yaşayış evlərinin çirkab suları isə dənizkənarı sahəyə, oradan da dənizə axıdılır.

Əzizbəyov rayonunun Pirallahı qəsəbəsi üçün nəzərdə tutulmuş kanalizasiya təmizləyici qurğuları səmərəli işləmədiyindən çirkab suları təmizlənmədən bilavasitə dənizə buraxılır. «Zeytun» sovxozu adlanan ərazidə tikilən yaşayış evlərinin çirkab suları yaxınlıqdakı boş əraziyə axıdılaraq burada çirkab gölməçəsi yaratmışdır. Bəzi hallarda kanalizasiya sistemləri olmadığına görə çirkab suları ətraf göllərə axıdılır. Belə ki, Xocasən qəsəbəsinin şəxsi evlərindən xaric olan çirkab suları Xocasən gölünə, Binəqədi, Rəsulzadə qəsəbələrinin, «Baksol» yaşayış sahəsindən, o cümlədən 60-a qədər fərdi donuzçuluq təsərrüfatından çirkab suları Böyükşor gölünə, Suraxanı rayonunun Bülbülə və Əmircan qəsəbələrinin çirkab sularının əsas hissəsi Bülbülə gölünə buraxılır.

Yasamal rayonunun 1-ci Alatava massivində tikilmiş fərdi evlərin çirkab və lay suları köhnə daş karxanasının yerində yaranmış süni gölə axıdılır. Belə faktlar başqa yaşayış məntəqələrində də mövcuddur.

Respublikanın ikinci iri sənaye şəhəri olan Sumqayıtda da çirkab suların tam təmizlənib zərərsizləşdirilməsi təmin edilmir. Belə ki, «Üzvisintez» zavodunun nəzdində olan təmizləyici qurğuların layihə gücü sutkada 182 000 kubmetr olduğu halda, şəhər ərazisindən çıxan çirkab suların həcmi sutkada 252 000 kubmetr təşkil edir və nəticədə 70 000 kubmetr çirkab suları təmizlənmədən 9 nöqtədən Xəzər dənizinə axıdılır.

Hazırda fərdi evlərin tikintisi geniş vüsət almışdır. Lakin bunların tikintisi üçün müvafiq kommunikasiyaları olmayan ərazilər ayrılır. Məsələn, Saray qəsəbəsində fərdi tikintilər üçün nəzərdə tutulmuş ərazinin kanalizasiya sisteminin layihə-smeta sənədlərinin hələ 1999-cu ildə razılaşdırılmasına baxmayaraq, indiyədək onun tikintisi başlanmamışdır. Ceyranbatan su hövzəsinin yaxınlığında fərdi tikililərin yerləşməsini nəzərə alaraq yağış sularının kanalizasiya-drenaj sisteminin layihəsinin hazırlanması barədə Səhiyyə Nazirliyinin təklifi bu günə kimi həll olunmamışdır. Son illərdə Bakı şəhərində çoxmərtəbəli binaların inşası zamanı mövcud tikinti norma və qaydalarının,

eləcə də gigiyena normativlərinin tələblərinin kobud surətdə pozulması faktlarını da qeyd etmək vacibdir. Belə ki, yeni tikintilər çox hallarda şəhərin mərkəzi hissəsində, əhalinin daha sıx məskunlaşdığı yerlərdə aparılır və ərazinin kiçik olması səbəbindən əhalinin sıxlığı həddən artıq çoxalır. Bu da insan sağlamlığı üçün zəruri olan bir çox gigiyenik normativləri gözləməyə imkan vermir. Binaların bir-birinə, o cümlədən köhnə tikililərə yaxın tikilməsi, ilk növbədə, təbii hava axınının çətinləşməsinə və mikroiqlimin digər göstəricilərinin də pozulmasına gətirib çıxarır. Yeni layihələr üzrə tikilən evlərdə mənzillərin bir qismi dalan sistemi ilə yerləşdirildiyindən mənzillərə havanın təbii axını olmur. Belə şəraitdə qısa müddətdə otaqlarda havanın həm fiziki və həm də kimyəvi göstəriciləri pisləşir.

Bu, binalardakı mənzillərə təbii işığın düşməsində də ciddi çətinliklər yaradır və sakinləri düz düşən təbii günəş şüalarından məhrum edir.

Bununla yanaşı, binalara nəqliyyat vasitələrinin, xüsusilə təcili yardım, yanğınsöndürmə maşınlarının və digər xidmət nəqliyyatının yaxınlaşması məsələsi də çox problem yaradır.

Bütün bunları nəzərə alaraq respublika sanitariya-epidemioloji orqanları tərəfindən obyektlərin tikintisinin layihələşdirilməsi dövründə ətraf mühitin mühafizəsi tədbirlərinin yerinə yetirilməsi üzərində nəzarət gücləndirilmişdir. Belə ki, 2005-ci ilin axırlarında və 2006-cı ilin ötən dövrü ərzində ətraf mühitin mühafizəsi üzrə tədbirlərin lazımi səviyyədə nəzərə alınmaması səbəbindən bir sıra obyektlərin layihələrinə mənfi rəylər verilmişdir. O cümlədən, Balaxanı qəsəbəsində beton zavodunun tikintisinə, Qaradağ rayonunda gips istehsalı, Səngəçal qəsəbəsində modul tipli elektrik stansiyasının tikintisi və s. Sanitariya norma və qaydalarına cavab vermədiyi üçün Bakı şəhərində 17 yaşayış evinin tikintisinə icazə verilməmişdir.

Bundan əlavə, dövlət sanitariya nəzarəti orqanları ilə razılaşdırılmadan qəbiristanlıqdan 5–10 metr aralıda Şərifzadə

küçəsində aparılan tikintinin, Nizami rayonunda məktəbin sanitariya mühafizə zonası gözlənilmədiyinə görə tikintinin dayandırılması barədə qərar çıxarılmış və Bakı Şəhər İcra Hakimiyyətinə göndərilmişdir. Təkcə 2005-ci ilin axırlarında və 2006-cı ildə yaşayış məntəqələrinin sanitariya təmizliyinə görə, ərazidə torpağın mühafizəsi qaydalarının pozulmasına görə, su təchizatında, kanalizasiya sistemlərində nöqsanlara görə 147 nəfər vəzifəli şəxs cərimələnmişdir.

Digər problem Abşeron yarımadası və Xəzərsahili çimərliklərdir. Onların sanitariya-mühafizə zonalarına çirkab suların axıdılması, dəniz suyunun bakterioloji çirklənməsi müxtəlif xəstəliklərin əmələ gəlməsinə şərait yaradır. Şıx, Novxanı, Buzovna çimərliklərinin və Şüvəlan–Mərdəkan sahələrinin suyunun mikrobioloji göstəricilərinin normadan 20 dəfə yüksək olması səbəbindən həmin ərazilərdən çimərlik kimi istifadə olunması dövlət sanitariya-epidemioloji nəzarəti orqanları tərəfindən qadağan edilmişdir. Lakin qərarın çıxarılmasından bir aydan yuxarı vaxt keçməsinə baxmayaraq, indiyədək çimərlik rəhbərləri tərəfindən onun icrası təmin olunmur. Ona görə hazırda biz Azərbaycan Respublikası Ali Məhkəməsinə müraciət etmişik.

Möhtərəm cənab Prezident!

Yuxarıda sadalanan ekoloji problemlər və digərləri Sizin nəzərinizdədir. Belə ki, Bakı şəhəri qəsəbələrinin 2006-2007-ci illər üzrə sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair qəbul olunmuş proqramda su və kanalizasiya sistemlərinin təmiri, tikintisi üçün 30 milyon manat məbləğində vəsait ayrılmışdır ki, bunun da 23 milyon manatı kanalizasiya xətlərinin bərpasına sərf olunacaqdır. Daha bir vacib qərar Fövqəladə Hallar Nazirliyi nəzdində Tikintidə Təhlükəsizlik İşləri üzrə Agentliyin yaradılmasıdır. Bu da tikintidə baş verə biləcək, o cümlədən tikinti üçün torpaq sahələrinin ayrılması, tikintidə istifadə olunacaq inşaat materiallarının keyfiyyəti, sanitariya-mühafizə zonalarının gözlənilməsi, lazımi yolların

çəkilməsi sahəsində olan nöqsan və çatışmazlıqların qabaqcadan qarşısının alınmasına imkan verəcəkdir.

Əminik ki, görüləcək bütün bu tədbirlər Bakı şəhəri əhalisinin, xüsusən gələcək nəslin sağlam ekoloji mühitdə yaşamasını təmin edəcəkdir.

Diqqətinizə görə minnətdaram.

**İ l h a m   Ə l i y e v:** İndi ekoloji vəziyyətin insanların səhhətinə təsiri haqqında dünyada kifayət qədər məlumatlar var, kitablar var, dissertasiyalar müdafiə olunubdur. Azərbaycanda da gərək bu təhlil daha da dəqiq aparılsın. Ekoloji vəziyyətin insanların sağlamlığına olan təsiri və onun nəticələri haqqında geniş təhlil işləri aparılmalıdır. Biz bunu onsuz da bilirik. Bu həqiqətdir ki, ekoloji vəziyyət bərbad olanda, əlbəttə, insanların sağlamlığına mənfi təsir göstərir. Amma bunu da tam dəqiqliklə bilməliyik ki, hansı xəstəliklərə gətirib çıxarır. Azərbaycanda bu təsir nə dərəcədə yüksəkdir, insanların sağlamlığına nə dərəcədə təsir göstərir? Yəni biz buna kompleks şəkildə baxmalıyıq.

Bütövlükdə, ekoloji tədbirlərin görülməsinin də əsas məqsədi insanlarımızın sağlamlığını qorumaqdır. Əlbəttə ki, təmiz dəniz, təmiz torpaq, meşələr, təbiət – bu, dünyanın gələcəyinə lazımdır, bəşəriyyətin inkişafına lazımdır. Eyni zamanda, bizim üçün əsas məqsəd insanlarımızın sağlamlığıdır. Ekologiyanın bərbad vəziyyətdə olması, ilk növbədə, insanlarımızın sağlamlığına mənfi təsir göstərir, Azərbaycan millətinin genefonduna böyük zərbə vurur. Ona görə də mən istəyirəm ki, bu məsələlərə kompleks şəkildə yanaşaq.

Ekoloji vəziyyətin yaxşılaşması, insanların sağlamlığının təmin olunması, havanın təmizlənməsi, Bakının içməli su ilə təmin edilməsi, Şimal dağlarından çəkiləcək su kəməri – hamısının məqsədi məhz bundan ibarətdir. Eyni zamanda, bəlkə ekoloji məsələlərə bilavasitə bunun aidiyyəti yoxdur, ancaq mənə verilən məlumata görə, Azərbaycanda istehsal olunan məhsulların da bəzi hallarda tərkibi standartlara o qədər də

uyğun gəlmir. Harada ki, ekoloji normalar pozulur, standartlar pozulur, orada çox ciddi sanksiyalar tətbiq olunmalıdır. Mən hesab edirəm ki, cərimələr burada çox böyük təsir göstərməz. Çünki iri şirkətlər var, onların böyük gəlirləri var. İndi Hüseynqulu Bağırov dedi, o cərimələrdən cəmi nə qədər pul yığılıbdır, köhnə pulla 650 milyon manat.

**Hüseynqulu Bağırov:** 2001-ci ildə 650 milyon, 2005-ci ildə 5 milyard manata yaxın.

**İlham Əliyev:** 5 milyard, yəni yeni pulla 1 milyon manat. Ancaq bəzi şirkətlər üçün 1 milyon artıq o qədər də böyük cərimə deyildir. Ona görə ciddi sanksiyalar tətbiq olunmalıdır. O şirkətlər bağlanmalıdır, o istehsalatlar bağlanmalıdır. Buna həm Səhiyyə Nazirliyi, həm Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, bütün digər aidiyyəti qurumlar baxmalıdırlar. Çünki bizim üçün əsas vəzifə insanlarımızın sağlam olmasıdır, gənc nəslin, uşaqların sağlamlığıdır.

Mən yenə də deyirəm, bizim iqtisadi göstəricilərimiz çox yaxşıdır, iqtisadi imkanlarımız artır. Ancaq bu tərəfdən insanlarımızın sağlamlığı zərbə altındadır, ekoloji vəziyyət bərbad, sanitariya normalarına riayət olunmur, kanalizasiya suları təmizlənmədən dənizə axıdılır. Neft şirkəti bütün torpaqları çirkləndirir. Neft şirkətini biz son zamanlar tərifləmişik və böyük uğurları var. Amma bu gün tənqid etməliyik. Çünki uzun illərdir bu məsələyə heç bir əhəmiyyət verilmirdi, heç bir vəsait qoyulmurdu. Düzdür, vaxt var idi maddi imkanlarımız yox idi, indi bu imkanlar var. İndi neft şirkətinin özünün imkanları var, başqa şirkətlərin imkanları var, «Azərikimya»nın imkanları var. Bu sahəyə diqqət göstərilməlidir. Bu bizim gələcəyimizdir, millətimizin sağlamlığı bir nömrəli məqsəddir.

İndi Bibiheybət neft yatağından söhbət düşdü. Mən bu yaxınlarda dağa çıxmışdım, oradan aşağı baxırdım. Bu, demək

olar ki, ekoloji fəlakətdir. Özü də buradan, mərkəzdən beş dəqiqəlik yoldur. Təcili olaraq vəziyyətin aradan qaldırılması üçün işlər görülməlidir və mən neft şirkətinə artıq göstəriş verdim. Mənə deyirlər iki ilə, iki il çoxdur. Qısa müddət ərzində ora tamamilə təmizlənməlidir. Belə sahələr çoxdur və buna çox böyük diqqətlə yanaşmalıyıq.

Bir də demək istəyirəm, mən hesab edirəm, bugünkü müşavirənin nəticələri məhz bundan ibarət olacaq ki, bütün bu məsələlərə kompleks şəklində baxaq və lazımi qərarlarımızı verək.

**H a c ı b a l a   A b u t a l ı b o v:** Möhtərəm Prezident!

Sizin bu diqqətiniz xalqımızın ümummilli lideri, ulu öndər Heydər Əliyevin paytaxtımızın inkişafına, ekoloji durumuna, Xəzər dənizinin təmizliyinə, yaşıllıqlar zolağının salınmasına göstərdiyi böyük qayğının davamıdır. Xüsusilə vurğulamaq lazımdır ki, Sizin rəhbərliyiniz altında Bakı Şəhər İcra Hakimiyyətində keçirilən müşavirədə verdiyiniz göstəriş və tapşırıqlar, həmçinin Bakı qəsəbələrinin sosial-iqtisadi inkişafı ilə bağlı imzaladığınız çox mühüm sərəncam Bakının və onun qəsəbələrinin sosial-iqtisadi və ekoloji problemlərinin həllinə çox böyük təkan vermişdir.

Bununla belə, qeyd etmək lazımdır ki, son illərdə Bakı şəhərinin iqtisadi baxımdan sürətlə inkişafı, şəhərin və onun qəsəbələrinin əhalisinin xeyli artması, şəhərə normadan artıq minik və yük maşınlarının daxil olması, quruda neft hasilatı zamanı və kanalizasiya sisteminin lazımi səviyyədə olmaması nəticəsində yaranan zəhərli və çirkab suların təmizlənmədən ərazilərə və Xəzər dənizinə axıdılması şəhərin ekoloji vəziyyətində müəyyən problemlər yaratmışdır. İcazə verin Bakı şəhərinin ekoloji vəziyyətinin yaxşılaşdırılması üçün həlli vacib olan əsas problemləri Sizin diqqətinizə çatdırım.

Əsas problemlərdən biri Azərbaycan Dövlət Neft Şirkətinin, Xəzər Dəniz Gəmiçiliyinin və digər qurumların tabeliyində olan, Bakı şəhərinin Xəzər dənizi sahili boyunca yerləşən və

müasir standartlara cavab verməyən müəssisələri tərəfindən və quruda neft hasilatı zamanı yaranmış çirkab suların təmizlənmədən ətraf ərazilərə və ya Xəzər dənizinə axıdılmasıdır. Neft quyularından çıxan zəhərli və çirkab suların təmizlənmədən ərazilərdə uzun illər yaranmış süni gölməçələrə və Xəzər dənizinə axıdılması həmin ərazilərin və dənizin çirklənməsinə səbəb olur. Eyni zamanda, bu suların bioloji normalara cavab verməyən vəziyyətdə, mexaniki təmizlənmə aparılmadan böyük əraziləri əhatə edən kanallar vasitəsilə dənizə axıdılması həmin suların torpaqlara sızmasına və buxarlanma nəticəsində ətraf mühitin havasının zəhərlənməsinə gətirib çıxarır.

Möhtərəm Prezident, Bakı Şəhər İcra Hakimiyyəti şəhərin ekoloji vəziyyətinin yaxşılaşdırılması ilə əlaqədar yuxarıda sadalanan problemlərin həlli üçün aşağıdakı təklifləri diqqətinizə çatdırır.

Birincisi, quruda neft hasilatı zamanı yaranmış çirkab suların axıdıldığı ərazilərin neft tullantılarından təmizlənməsinə, bu ərazilərin rekultivasiya olunaraq yararlı hala gətirilməsinə, həmin ərazilərdə yaşıllıq zolaqlarının salınmasına nail olmaq və neft tullantılarının birbaşa dənizə axıdılmasının qarşısını almaq üçün Azərbaycan Dövlət Neft Şirkəti tərəfindən müasir texnoloji üsullarla işləyən bioloji təmizləyici qurğuların tikilib istifadəyə verilməsi.

İkincisi, Bakı şəhərinə verilən və əhali tərəfindən istifadə edilən suyun miqdarına uyğun olaraq çirkab suların təmizlənməsi üçün «Azərsu» Səhmdar Cəmiyyəti tərəfindən Bakının ayrı-ayrı qəsəbələrində müstəqil bioloji təmizləyici qurğuların tikilib istifadəyə verilməsi.

Üçüncüsü, Bakı şəhərində ekoloji tarazlığın qorunub saxlanılması üçün müasir tələblərə cavab verən bərk məişət tullantılarını emal edən zavodların tikilməsi, həmin tullantıların normativ əsaslarla daşınması üçün avtomaşınların və konteynerlərin alınması.

Dördüncüsü, nəqliyyat vasitələrindən atmosferə atılan zəhərli qazların qarşısını almaq üçün istismar müddəti ötmüş avtomobillərin şəhər ərazisində hərəkətini məhdudlaşdırmaq, əhalinin köhnə və ucuz avtomobillərə nisbətən yeni avtomobillərin alınmasında maraqlı olmasına şərait yaradılması üçün dünya dövlətlərinin təcrübəsindən istifadə etmək.

Beşincisi, rayonlardan və xaricdən ticarət məqsədi üçün Bakı şəhərinə daxil olan iri yük avtomobillərinin qarşısını almaq üçün terminalların, müasir tipli anbarların və iri ticarət mərkəzlərinin şəhərdən kənarda yerləşdirilməsi.

Möhtərəm Prezident, Sizi əmin edirik ki, şəhər icra hakimiyyəti çox mühüm əhəmiyyət kəsb edən məsələ – Bakı şəhərinin ekoloji vəziyyətinin yaxşılaşdırılması ilə bağlı Sizin qarşımızda qoyduğunuz tapşırıq və göstərişləri rəhbər tutaraq onların yerinə yetirilməsi üçün bütün səylərini və imkanlarını əsirgəməyəcəkdir. Diqqətinizə görə sağ olun.

**İlham Əliyev:** Siz köhnə avtomobillərin azaldılmasını təklif edirsiniz. Əlbəttə, burada dünya praktikasını biz gərək öyrənək. Məndə olan məlumata görə, inkişaf etmiş ölkələrdə məhdudiyyət var, köhnə avtomobillər ölkəyə idxal edilmir. Yəqin ki, biz də buna yaxınlaşmalıyıq, amma eyni zamanda, Azərbaycanın indiki durumunu biz gərək nəzərə alaq. İnsanlarımızın imkanlarını nəzərə almalıyıq. İnsanlarımızın hələ imkanı yoxdur ki, kütləvi şəkildə təzə avtomobillər alsınlar. Ona görə ucuz qiymətə köhnə avtomobillərin alınması baş verir. Biz bunun qarşısını belə inzibati yollarla ala bilmərik. Nə vaxt iqtisadi imkanlar artacaq, əlbəttə, biz bunu etməliyik və edəcəyik. Ancaq gərək biz buna yavaş-yavaş, tədricən yaxınlaşaq. Eyni zamanda, siz təklif edirsiniz, biz rayonlardan gələn maşınları saxlayaq, Bakıya buraxmayaq?

**Hacıbala Abutalıbov:** Yox, yox.

**İlham Əliyev:** Bəs necə?

**Hacıbala Abutalıbov**: Şəhərdə olan iri ticarət mərkəzlərinə, əsasən, rayonlardan 54 min 117 maşın gəlir. Onların qarşısını almaq üçün iri ticarət mərkəzlərini şəhərdən

kənarda yerləşdirmək, orada böyük anbarların və terminalların tikilməsinə və dairəvi yolun birbaşa istifadəsinə nail olmaq.

**İ l h a m  Ə l i y e v:** Bəli, buna baxmaq olar. Ancaq biz qadağa qoya bilmərik ki, rayonlardan Bakıya gəlməsinlər. Düzdür, biz indi Bakının nəqliyyat problemlərini həll edirik, yeni körpülər salınır, yeni yollar açılır. Sizə də mən göstəriş vermişəm ki, şəhərdə yeni yolların açılması üçün tədbirlər görülsün. Gərək biz buna kompleks şəkildə yanaşaq ki, insanların gündəlik həyatına müdaxilə etməyək. Ancaq bunu elə tənzimləyək ki, işlər yaxşı getsin, eyni zamanda, insanları biz incitməməliyik. Rayonlardan da Bakıya gəlirlər. Ona görə gəlirlər ki, burada imkanlar daha da genişdir. Ona görə gəlirlər ki, burada alış-veriş işləri ilə məşğuldurlar. Bununla yanaşı, siz şəhərin təmizlik məsələlərinə daha da böyük diqqət göstərin. İndi şəhərin mərkəzi təmizdir və bunu hamı da görür, etiraf edir. Bakıya gələn xarici qonaqlar da həmişə bunu vurğulayırlar ki, çox təmiz şəhərdir, təmizlik işləri burada yaxşıdır. Ancaq şəhərin kənarında vəziyyət belə deyildir.

**H a c ı b a l a  A b u t a l ı b o v:** Vəziyyət ağırdır.

**İ l h a m  Ə l i y e v:** Ağırdır. Mən özüm qəsəbələrdə, şəhərin müxtəlif yerlərində tez-tez oluram. Özüm gedirəm, vəziyyətlə tanış oluram və bəzi hallarda görürəm ki, ora zibilxana, bura zibilxana, magistral yolların sağında, solunda polietilen torbalar. Bu, dəhşətli bir mənzərədir. Mən dedim ki, aydınlaşdırın, baxın, bununla necə mübarizə aparmaq olar.

Misal üçün, Şamaxı yolunun sağı da, solu da, haraya baxırsan hər tərəf belə torbalardır. Biabırçılıqdır. Abşeron rayonu deyir ki, bu, Binəqədinin ərazisidir, siz deyirsiniz ki, bu, Abşeronun ərazisidir. O torbaları da külək gah oraya aparır, gah buraya aparır. Belə də qalır. Yolun bir tərəfi Binəqədi, o biri tərəfi Abşeron rayonu. Elədir?

**H a c ı b a l a  A b u t a l ı b o v:** Düzdür, elədir.

**İ l h a m  Ə l i y e v:** Yaxşı, buna bir çarə qılın. Yəni bu təmizlik işləri bütün şəhərlərdə, kəndlərdə getməlidir. Yenə də

deyirəm, şəhərin mərkəzində işləri yaxşı qurmusunuz, bütün ətraf yerlərdə də təşkil edin.

**H a c ı b a l a  A b u t a l ı b o v:** Baş üstə.

**İ l h a m  Ə l i y e v:** Yaxşı, əyləşin. Ramil Usubov cinayət məsuliyyəti ilə bağlı arayış vermək istəyirdi.

**R a m i l  U s u b o v** (*Daxili İşlər naziri*): Cənab Prezident, bildirmək istəyirəm ki, Cinayət Məcəlləsində belə maddə var. Əgər bu tullantılar faunanın, floranın kütləvi məhvinə gətirib çıxarırsa və insanın ölümü, şikəst olması ilə nəticələnən hallar olursa, bu hallarda cinayət işi qaldırmaq olar. Yəni cinayət məsuliyyətinə cəlb etmək olar. Cənab Prezident, ümumiyyətlə, cərimələr də çox kiçikdir və bu, fayda vermir. Məsələn, tutaq ki, nəqliyyat vasitələrində ekologiyanı pozan hallar müşahidə olunur. Yəni maşın hədsiz tüstü verir və xəttə buraxılır. Amma cəriməsi nədir? Keçmiş pulla cəmi 20 min manat, indiki pulla 4-5 manatdır. Biz ötən il 6 min belə maşın tutub cərimələmişik. Amma bu, səmərə vermir. Təklif edirəm, bu cərimələr yüksəldilsin. Həm cinayət məsuliyyətinin sanksiyaları daha yüksək olsun, həmçinin də cərimələr daha da yüksəldilsin.

**İ l h a m  Ə l i y e v:** Mən razıyam, bunu hazırlayın, biz qəbul edək. Ancaq belə maddə var, gərək baxaq. Bu maddə ilə nə qədər adam məsuliyyətə cəlb olunubdur? Yəqin ki, heç kim.

**R a m i l  U s u b o v:** Cənab Prezident, elədir.

**İ l h a m  Ə l i y e v:** Yaxşı, əyləşin.

**V a q i f  Ə l i y e v** (*Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı*): Möhtərəm cənab Prezident!

Hörmətli müşavirə iştirakçıları!

Sumqayıt nəhəng sənaye müəssisələrini özündə cəmləşdirdiyi üçün ekoloji vəziyyət baxımından keçmiş İttifaqın ən gərgin şəhərlərindən biri olmuşdur. Bu vəziyyətin yaranmasının əsas səbəbi şəhərin kiçik inzibati ərazisində onilliklərlə müxtəlif zəhərli texnologiyaların yerləşdirilməsi, təbiətə ziyan vuran obyektlərin ifrat sıxlığı idi. Sumqayıt şəhərində ekologiya məsələlərinə münasibət 70-ci illərdən başlayaraq müsbət mənada sürətlə dəyişmişdir. Ulu öndərimiz Heydər Əliyevin

ciddi səyləri nəticəsində ekoloji tədbirlərin mərkəzləşmiş qaydada maliyyələşdirilməsinin aparılmasına başlanılmış, şəhərin sənaye müəssisələrində 200-dən çox qaz-toz tutucu qurğular, sutkada 360 min kubmetr çirkab suları təmizləməyə imkan verən 23 lokal su qurğuları, gücü sutkada 182 min kubmetr olan ümumşəhər sutəmizləyici qurğusu tikilib istifadəyə verilmiş, ildə 170 min ton istehsalat tullantılarını utilizə və təkrar emal edən texnologiyalar mənimsənilmişdir.

Lakin həyata keçirilən bu işlərlə yanaşı, Sumqayıtda İttifaq qərarları ilə ekoloji ziyanlı sənaye obyektlərinin də intensiv qaydada tikilib istifadəyə verilməsi davam etdirilmiş, bu da öz növbəsində, görülən ekoloji tədbirlərin səmərəsini azaltmışdır.

Keçmiş İttifaqın dağılmasından və respublikamız müstəqillik əldə etdikdən sonra şəhərdə bir sıra iri çirklənmə mənbəyi olan sənaye obyektlərinin istismarı dayandırılmış, digər obyektlər isə böyük fasilələrlə layihə güclərinin 10–12 faizi səviyyəsində işləmişdir. Nəticədə Sumqayıt şəhərinin ekoloji fonunda əhəmiyyətli dərəcədə müsbət dəyişikliklər olmuş, su hövzəsinə çirkab suların axıdılmasının həcmi ildə 450–500 milyon kubmetrdən 76,3 milyon kubmetrə, atmosferə atılan tullantıların miqdarı ildə 200 min tondan 31,9 min tona qədər enmişdir. Sumqayıt şəhərində fəaliyyət göstərən iki istilik elektrik mərkəzinin, «Azərboru» Səhmdar Cəmiyyətində marten sobalarının istismardan dayanması, kimya sənayesi müəssisələrində bir sıra istehsal sexlərinin müxtəlif səbəblərdən istismar olunmaması hesabına atmosferə atılan tullantıların həcmi xeyli azalmışdır.

Şəhərdə uzun müddət həllini gözləyən mühüm problemlərdən biri elektroenergetika kompleksinin yeniləşdirilməsi idi.

Regionların sosial-iqtisadi inkişafı proqrami çərçivəsində nəzərdə tutulmuş və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2005-ci ilin avqust ayında təməlqoyma mərasimində iştirak etdiyi, ekoloji baxımdan daha üstün texnologiyaya malik 517 meqavat gücündə yeni elektrik stansiyasının tikintisi cədvəl üzrə davam etməkdədir.

Sumqayıtın Xəzərsahili zolağının uzunluğu 20 kilometrdən artıqdır. İl ərzində şəhərdə 43 milyon kubmetrə yaxın məişət çirkab suları əmələ gəlir. Şəhər üzrə 21 nöqtədən dənizə mütəşəkkil və qeyri-mütəşəkkil çıxışlar vardır. Sosial-ekoloji baxımdan ən əsas problemlərdən biri yaşayış zonasında əmələ gələn məişət çirkab suların təmizləyici qurğuya verilmədən birbaşa su hövzəsinə axıdılmasıdır.

Problemin həlli ilə əlaqədar 2005-ci ildə ölkə prezidenti cənab İlham Əliyevin tapşırığı ilə Sumqayıtda məişət çirkab sularının təmizlənməsi üçün sutkalıq gücü 200 min kubmetr olan ən müasir avadanlıqla təchiz ediləcək qurğunun inşasına başlanılmışdır. Mövcud təmizləyici qurğudan fərqli olaraq, bu qurğuya sənaye zonası deyil, yaşayış massivlərində yaranan məişət çirkab sularının nəqli nəzərdə tutulur. Qurğunun tikilib istismara verilməsi nəticəsində çirkab suların Xəzər dənizinə axıdılmasına son qoyulacaqdır.

Lakin bununla yanaşı, şəhərin 21-ci, 22-ci mikrorayonları, Hacı Zeynalabdin Tağıyev qəsəbəsi, Şirvan dəmir yolu stansiyası ərazilərində kanalizasiya xətlərinin çəkilməsi, kanalizasiya sistemlərində ötürücü qurğuların quraşdırılması, ərazilərdə yaranan məişət çirkab sularının mütəşəkkil qaydada təmizləyici qurğuya ötürülməsi probleminin həlli zərurəti yaranmışdır.

Sumqayıt şəhəri ərazisində antisanitariya vəziyyəti yaradan başlıca problemlərdən biri də uzun illər ərzində Abşeron rayonunun Saray qəsəbəsindən çirkab suların qeyri-mütəşəkkil şəkildə şəhərin 18-ci mikrorayonu ərazisinə və Ceyranbatan qəsəbəsindən şəhərin meşə-tinglik təsərrüfatının ərazisinə axıdılmasıdır. Şəhər ərazisində antisanitariya vəziyyəti yaradan mənbələrdən biri də yeraltı suların məişət çirkab sularının axdığı Hacı dərəsi kanalının boruya alınmamasıdır. Kanalın uzunluğu 8 kilometrdir. Təkcə Ceyranbatan qəsəbəsindən bu kanala sutkada 2 min kubmetrdən çox çirkab suları axıdılır. Eyni zamanda, Sumqayıt şəhəri ərazisində bataqlıq, gölməçə və

subasmaların ümumi sahəsi 129 hektardan çoxdur. Bu da şəhər ərazisinin 1,4 faizini təşkil edir.

Sumqayıt şəhərində ildə təqribən 450 min kubmetr məişət tullantısı əmələ gəlir və bu, ümumşəhər poliqonuna daşınır. Tullantıların poliqona qeyri-mütəşəkkil daşınması və yandırılmasının, eləcə də kanalizasiyaya tökülməsinin qarşısı əsasən alınmışdır. Hazırda şəhər ərazisindən məişət tullantılarının daşınması işləri Azərbaycan–Almaniya birgə müəssisəsi tərəfindən həyata keçirilir. Müəssisə şəhərin bütün ərazisində məişət tullantılarının toplanması məqsədi ilə müasir tələblərə cavab verən qutuların qoyulması, məişət tullantılarının daşınması və ümumşəhər poliqonunda mütəşəkkil qaydada yerləşdirilməsi tədbirlərinin həyata keçirilməsini tam təmin edir.

Lakin Sumqayıt şəhərində məişət tullantılarını emal edən qurğunun tikintisi məsələsi daha kəskin durur. Bununla bağlı Almaniya mütəxəssisləri ilə əməkdaşlıq edirik. Şəhərdə əmələ gələn sənaye-məişət tullantıları ilə çirkləndirilmiş ərazilərin kadastrı, tullantıların toplanılması, kənarlaşdırılması və utilizasiyası üzrə konsepsiya hazırlanmışdır.

Son illər ərzində Sumqayıt şəhərində bir sıra yeni istehsal müəssisələri istifadəyə verilmiş, bu müəssisələrdə ekoloji baxımdan yüksək texnologiyalar tətbiq edilmiş, atmosferin və ətraf mühitin digər sahələrinin çirkləndirilməsinin qarşısı nisbətən alınmışdır.

Diqqətinizə görə sağ olun.

**Xoşbəxt Yusifzadə:** Hörmətli Prezident, bir şeyi demək istərdim ki, Azərbaycan Dövlət Neft Şirkətinin özünü özü ilə müqayisə etsək, 10–20 il bundan qabaq, yaxud ondan da əvvəl, doğrudan da, çox dəyişikliklər olubdur. Axır vaxtlar görülən işlərin sırasında deyə bilərəm ki, indi «Azəri», «Çıraq» yatağında quyulardan çıxan suyu təzədən laylara vurmaq qərara alınmışdır. Biz bununla, necə deyərlər, bir güllə ilə iki dovşan vururuq. Həm lay sularından azad oluruq, həm də lay təzyiqi saxlanılır. Orada lay suyunun dəniz suyu ilə fərqi ondadır ki,

onun yuma imkanı daha çoxdur. Orada laylarda neftin artırılması daha çoxdur.

Biz bu yaxınlarda iki müştərək müəssisə düzəltmişik. Biri Binəqədidədir. Hörmətli Prezident, onu bilirsiniz, iki ildir Binəqədidə çox torpaqlar təmizləndi. İndi özümüz orada bir müəssisə yaratmışıq, 90 nəfər işləyir. Balaxanıda, başqa neft rayonlarında da çirklənmiş torpaqları təmizləyirlər. Bu ilin martında əsasən neftayırma zavodlarında suları təmizləməkdən ötrü yeni bir müştərək müəssisə yaratmışıq. Bu istiqamətdə işlər görülür.

Siz Bibiheybəti dediniz. Siz də getmişdiniz, «Azfen»in o sahəsini görəndən sonra, hesab edirəm ki, işləmək olar.

**İlham Əliyev:** Əlbəttə, görmüşəm ki, oranı necə abadlaşdırıblar.

**Xoşbəxt Yusifzadə:** Biz həmişə fikirləşirdik ki, o yerləri necə abadlaşdırmaq olar. «Azfen» elə abadlaşdırıb ki, fontan armaturları da rənglənibdir. Amerikada gördüyüm kimi, asfaltın içində rəngli-rəngli quyular qalır.

Hörmətli Prezident, mən çox sevinirəm, Sizə çox sağ olun deyirəm ki, bu məsələyə doğrudan da çox ciddi yanaşırsınız. Siz Balaxanı barədə dediniz, mən bir dəfə oradan keçib Pirşağıya getdim. Oraları görəndə, necə deyərlər, çiyrəndim. Mədənlərin içində o qədər çirkab gördüm ki. Orada olan tikililər də müsibətdir, kim necə istəyir tikir, necə istəyir düzəldir. Bütün bunlar, doğrudan da, kompleks həll olunmalı işlərdir. Mədənlərin özünə də baxmaq, bəlkə bəzi hissələri saxlamaq lazımdır. Digər məsələlərə də ayrıca baxmaq lazımdır.

Diqqətinizə görə çox sağ olun.

**İlham Əliyev:** Elə ona görə istədim ki, biz bunlara bu gün kompleks şəkildə baxaq, bütün düzgün qərarları qəbul edək. Bütün bu işlərə gərək, necə deyərlər, mütərəqqi nöqteyi-nəzərdən yanaşaq. Hansı məsələ həll olunmalıdır, bunun yolu nədir, hansı qərarlar verilməlidir.

İndi Neft Şirkətinin imkanları artır. Əlbəttə, bir neçə il bundan əvvəl, misal üçün, mən Neft Şirkətinə heç deməzdim ki,

gəlin pul qoyun, bu yerləri təmizləyin. Amma siz o sahəni dediniz, mən orada olmuşam. Xarici şirkətlər tərəfindən 30 milyon dollar xərclənibdir. Düzdür, təkcə təmizlənməyə yox, orada böyük tikinti aparılır. Eynilə həmin Bibiheybətin ərazisinin içində. Deməli, bunu etmək, hesab edirəm ki, mümkündür. Azərbaycan Dövlət Neft Şirkəti indi beynəlxalq şirkətlərin səviyyəsinə çıxmalıdır. Gələcəkdə ola bilsin ki, Azərbaycan Dövlət Neft Şirkəti başqa ölkələrdə işləyə, vəsait, sərmayə qoya bilər.

Bilirsiniz ki, beynəlxalq normalar da çox ciddidir. Ekoloji məsələlər birinci yerdə durur. Budur müasir yanaşma. Biz də buna getməliyik. İndi işlər belə gedir ki, imkanlarımız var, Neft Şirkətinin öz imkanları artır, dövlətin imkanları artır, Neft Fondunun imkanları artır. Biz diqqətimizi ilk növbədə gərək bu məsələlərə yönəldək.

Mədənlərdə olan bəzi xoşagəlməz vəziyyətə gəldikdə, mən də onları görmüşəm. Mədənin içində binalar, evlər tikilir. Axı orada yaşayanlar öz sağlamlıqlarını zərbə altında qoyurlar. Mədənin içində yaşayan, faktiki olaraq, zəhərlənir. Hər gün ciddi təftiş aparılmalıdır, orada onlara ev tikməyə kim icazə verib? O evləri orada necə tikiblər?

Mən bu yaxınlarda Goradil qəsəbəsinə getmişdim. Orada Müdafiə Nazirliyinin istirahət zonasının açılışında iştirak edirdim. Bütün bölgədən, mədənlərdən keçdim. Dəhşətli bir mənzərədir. Yaxud da biz Zabrat yolunu gedəndə, mədənlər düz yolun üstündədir, o tərəfdə insanlar yaşayır, bu tərəfdə neft hasil edilir. Siz qeyd etdiniz. Mən başa düşdüm nəyi nəzərdə tutursunuz. Baxın, bəlkə biz bəzi köhnə mədənləri artıq bağlayaq? Gəlin hesablayaq, onların səmərəliliyi nədir, gəliri nədir? Şəhərin ərazisində onları işlətməyə dəyərmi?

Biz indi gələcəyə gedirik. Yenə də deyirəm, ölkəmizin hər bir sahəsi yeniləşir, müasirləşir. Belə olan halda, təmizlik, abadlıq, quruculuq, ekologiya məsələlərinə böyük diqqət göstərməliyik.

Bəlkə daha kiminsə sözü, təklifi var.

**N a t i q   Ə l i y e v** (*Sənaye və Energetika naziri*): Cənab Prezident, yəqin Xoşbəxt müəllimin də yadındadır, o vaxt, hələ sovet dövründə böyük bir plan qoyulmuşdu, rentabelliyi olmayan quyuların hamısı silinsin, ləğv olunsun. Silinmə prosesinin özü də çox mürəkkəb idi, yəni biz silinməyə bir neçə yüz quyu verirdik. Onun da mürəkkəb prosesi var. Bunu bir az yüngülləşdirmək lazımdır. Oradan çoxlu kommunikasiyalar keçir, bu gün onlar lazımsızdır. Vaxtilə oradan bir neçə məqsəd üçün bir-birinin üstündən boru xətləri, elektrik xətləri çəkilmişdir. Hesab edirəm, bunları da aradan götürmək lazımdır. Bu, ikinci məsələdir.

Xoşbəxt müəllim dedi, üçüncü məsələ ondan ibarətdir ki, neftlə çirklənmiş torpaqları təmizləmək işinə başlanılıb və müəssisə yaradılıbdır. Təklif edərdim ki, Bakı Şəhər İcra Hakimiyyəti yanında xüsusi bir şirkət, yaxud fond yaradılsın və yığılan bütün cərimələr və ayrılacaq vəsait orada toplansın və bütün işlər mərkəzləşdirilmiş qaydada görülsün. Çünki pərakəndəlik olacaqsa, bu heç bir səmərə verməyəcəkdir.

Mən hesab edirəm, böyük təbliğat işi aparmaq lazımdır. Biz Bakıətrafı qəsəbələrə baxırıq, çox gözəl evlər tikilir. Ancaq zibilləri oraya atırlar. Bir tərəfdən gözəl hasardır, amma gördüyünüz, bildiyiniz kimi, ətraf zibillikdir. Məsuliyyəti artırmaq lazımdır. Əgər Bakı şəhərində mağaza, ofis, restoran varsa, onlara bir sahə verməliyik. Qoy onlar məsuliyyət daşısınlar. Xaricdə Siz çox olmusunuz, hamı olub, görmüşük, səhər saat 6-da hər kəs durub öz mağazalarını təmizləməyə başlayır. Təkcə öz mağazalarının şüşələrini deyil, ətraf sahəni də təmizləyirlər. Ona görə ki, onları məcbur edirlər. Bəlkə bizdə də bu cür məsuliyyəti artırmaq lazımdır.

İstərdik bizə vaxt verəsiniz, bu fikirlərin hamısını cəmləşdirək və Sizə təqdim edək.

Sağ olun.

## YEKUN NİTQİ

Bir də deyirəm, məsələlərə kompleks şəkildə yanaşmalıyıq. Əlbəttə, indi baxmalıyıq ki, hansı tədbirlər görüləcək, Neft Şirkəti özü hansı işləri görəcək, neftlə çirklənmiş torpaqları özü təmizləməlidir. Amma burada böyük əlaqələndirmə işləri də aparılmalıdır. Yəni pərakəndəlik olmamalıdır. Natiq Əliyev düz deyir. Hansısa bir qurum, yaxud da bir komissiya yaratmaq olar. Bütün aidiyyəti orqanlar orada təmsil olunsun və bütün bu məsələlər vahid proqram çərçivəsində həll edilməlidir. Torpaqların təmizlənməsi, Xəzər dənizinin təmizlənməsi, kanalizasiya sisteminin faktiki olaraq yenidən qurulması, təmizlik, abadlıq işlərinin görülməsi – bütün bunlar kompleks şəkildə aparılmalıdır. Ancaq bu təqdirdə biz istədiyimizə nail olacağıq.

Bir də demək istəyirəm ki, indi ölkənin maddi imkanları artır. İlk növbədə biz bundan istifadə edib onu insanlarımızın daha da yaxşı yaşamasına yönəltməliyik. İnsanın yaxşı həyatını təmin edən amillərdən biri də ekoloji vəziyyət, sağlamlıq və təbiətin, ətraf mühitin qorunmasıdır. Biz bütün inkişaf etmiş ölkələrin təcrübəsini bilirik və görürük ki, o ölkələrdə bu məsələyə böyük diqqət göstərilir.

Hesab edirəm ki, qısa müddət ərzində tədbirlər planı hazırlanmalıdır, orada bütün sahələr öz əksini tapmalıdır: ekoloji vəziyyət, Xəzər dənizi, ətraf mühitə zərbə vuran təşkilatlar, onların fəaliyyəti, şəhər təsərrüfatının təkmilləşməsi və rolu, eyni zamanda, şirkətlərin fəaliyyəti. Ekologiya və Təbii Sərvətlər Nazirliyi, əlbəttə, burada aparıcı rol oynamalıdır. Eyni zamanda, hökumətə də tapşırıq verirəm ki, əlaqələndirmə işlərini ciddi aparsın.

Çox geniş proqram qəbul olunmalıdır.

Qeyd etdiyim kimi, proqramda bütün aspektlər öz əksini tapmalıdır. Maksimum proqram bu məsələləri əhatə etməlidir.

Biz, əlbəttə, bunu tədricən, mərhələ-mərhələ həll edəcəyik. Ancaq istərdim ki, proqramda bütün məsələlər öz əksini tapsın. Maddi imkanlarımız bizə nəyə imkan verərsə, onu da biz edərik.

Hesab edirəm ki, biz artıq bu ildən başlamalıyıq. Gələn ili gözləməməliyik. Bu ilin sonuna hansı işlər görülə bilər? Buna da biz gərək maliyyə imkanlarını səfərbər edək. Bütün bu işləri qısa müddət ərzində görməliyik. Əminəm ki, bütün bu işlər görüləndən sonra gözəl şəhərimiz, Bakımız daha da gözəlləşəcək və insanlarımız daha da rahat, yaxşı yaşayacaqlar. Sağ olun.

**VENESUELA BOLİVAR RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HÜQO RAFAEL ÇAVEZ FRİASA**

Hörmətli cənab Prezident!

Venesuelanın milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və bütün xalqınızı ürəkdən təbrik edirəm.

Ümidvaram ki, ölkələrimiz arasındakı münasibətlər xalqlarımızın mənafeləri naminə daim inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *4 iyul 2006-cı il*

**İSPANİYANIN KRALI ƏLAHƏZRƏT**
**I XUAN KARLOSA**

Əlahəzrət!

Valensiya şəhərində metro qatarının qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatı barədə xəbər bizi son dərəcə kədərləndirdi.

Bu faciə ilə əlaqədar dərdinizə şərik çıxır, Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına dərin hüznlə başsağlığı verir, yaralananların və xəsarət alanların tezliklə sağalmasını arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *4 iyul 2006-cı il*

## TÜRKİYƏNİN «CÜMHURİYYƏT» QƏZETİNİN MÜXBİRİNƏ MÜSAHİBƏ

*Prezident sarayı*

*4 iyul 2006-cı il*

**S u a l: Hörmətli Cümhur başqanı, Bakı–Tbilisi–Ceyhan layihəsini illərdir gözlədik və nəhayət, son mərhələyə gəldik. Siz Qazaxıstanda olarkən prezident Nazarbayevlə görüşdünüz və Qazaxıstan neftinin də Bakı–Tbilisi–Ceyhan neft boru kəməri ilə daşınması üçün son nöqtəni qoydunuz. İndi Bakı–Tbilisi–Ceyhanın rəsmi açılışından öncə Siz bunu, yəni Qazaxıstan neftinin bu boru xətti ilə daşınmasını necə dəyərləndirirsiniz?**

**C a v a b:** Bu bir daha onu göstərir ki, Bakı–Tbilisi–Ceyhan neft kəməri həm iqtisadi cəhətdən, həm də bütün başqa cəhətlərdən çox əlverişli bir layihədir. Biz bunun üzərində artıq bir neçə ildir ki, çalışmışıq, işləmişik və bu nəhəng layihəni birlikdə həyata keçirmişik. Bu bizə imkan verəcək ki, Xəzər dənizinin neftini dünya bazarlarına çatdıraq. Bizdə böyük həcmdə neft hasilatı gözlənilir və əlbəttə ki, başqa ölkələr üçün, başqa şirkətlər üçün Bakı–Tbilisi–Ceyhan neft kəməri də çox böyük maraq kəsb edir. Qazaxıstanın bu layihəyə qoşulması onu bir daha əyani şəkildə sübut edir.

Bilirsiniz, keçmişdə bu layihə ilə bağlı müxtəlif fikirlər var idi. Müqavimət var idi, bunu istəməyən qüvvələr var idi. Hətta deyirdilər ki, bu layihənin heç bir iqtisadi əsası yoxdur, bu, iqtisadi cəhətdən səmərəsiz bir layihədir. Ancaq həyat onu göstərir ki, bütün bu fikirlər heç bir real faktlara əsaslanmırdı. Bizim isə fikirlərimiz, ideyalarımız, siyasətimiz həyatda öz əksini tapır. Artıq bu layihə və bütövlükdə, Azərbaycanın Xəzər

dənizindəki sektorunda fəaliyyəti və bunun nəticəsində bütün beynəlxalq layihələrin meydana gəlməsi bütün bu işləri qlobal müstəviyə gətirib çıxarıbdır. Artıq bu, regional çərçivədən çıxıb və qlobal müstəviyə addımlayır ki, bu da Azərbaycan üçün çox böyük əhəmiyyət kəsb edir.

**S u a l: Cənab Prezident, rəhmətlik atanız hörmətli Heydər Əliyev sağlığında bizim 9-cu cümhur başqanımızla mütəmadi olaraq görüşürdülər. Amma atanız rəhmətə getdikdən sonra, hörmətli Dəmirəl də cümhur başqanlığından getdikdən sonra bu əlaqələrdə sanki sərinləməmi var?**

**C a v a b:** Xeyr, belə bir şey yoxdur.

**J u r n a l i s t: O dövrlərdə sanki daha tez-tez görüşürdülər.**

**İ l h a m Ə l i y e v:** Bilirsiniz, indi müqayisə aparmaq bir az çətindir. Amma onu demək istəyirəm ki, Türkiyə–Azərbaycan əlaqələri çox sürətlə inkişaf edir və indi ən yüksək zirvədədir. Mənim hörmətli cümhur başqanı Əhməd Necdət Sezər və hörmətli Baş nazir Rəcəb Tayyib Ərdoğanla həm Bakıda, həm Ankarada, həm də başqa ölkələrdə çoxsaylı görüşlərim olubdur. Bizim təmaslarımız çox güclüdür. Ondan başqa, Azərbaycana Türkiyədən nümayəndə heyətlərinin, nazirlərin, millət vəkillərinin gəlməsi sistematik xarakter daşıyır. Eyni zamanda da, Azərbaycandan Türkiyəyə nümayəndə heyətlərinin getməsi. Bu, deməyə əsas verir ki, bizim əlaqələrimiz daha da möhkəmlənir və Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum neft və qaz kəmərlərinin, gələcəkdə Bakı–Tbilisi–Qars dəmir yolu layihəsinin həyata keçirilməsi ancaq bizim birgə fəaliyyətimiz nəticəsində mümkündür ki, bu da var.

**S u a l: Cənab Prezident, dəmir yolundan söz düşmüşkən, Qars–Axalkalaki–Tbilisi–Bakı dəmir yolu layihəsini əngəlləmək üçün erməni lobbisi əllərindən gələni edir. Sizcə, ermənilər burada istədiklərini edə bilərlərmi? Çünki Avropa İttifaqının və Amerika Birləşmiş Ştatlarının**

**da bu layihəyə dəstək verməsini çox ciddi şəkildə əngəlləməyə, yasaq qoymağa çalışırlar.**

**C a v a b:** Təbii ki, onlar çalışacaqlar. Çünki Ermənistan və erməni lobbisi Azərbaycana və Türkiyəyə qarşı düşmənçilik mövqeyindədir və bütün imkanlardan istifadə edib bizə zərbə vurmağa çalışırlar. Bu, davam edəcəkdir. Bu bir gerçəklik, həqiqətdir. Biz isə öz siyasətimizi inamla aparmalıyıq. Baxın, erməni lobbisi Bakı–Tbilisi–Ceyhan neft kəmərinin də əleyhinə çox fəal çıxmışdır. Hətta beynəlxalq maliyyə qurumlarına məktublar göndərilmişdir. Beynəlxalq Valyuta Fonduna, Dünya Bankına, bu layihəni maliyyələşdirən başqa banklara çox ciddi təzyiqlər edilmişdir. Ancaq heç bir şeyə nail ola bilmədilər. Çünki Azərbaycan dövlətinin iradəsi, Türkiyə dövlətinin iradəsi, Gürcüstanın bu işlərdə fəal olması imkan vermədi ki, onlar bu işi pozsunlar. O cümlədən Bakı–Tbilisi–Qars dəmir yolunun reallaşdırılmasına mane olmaq istiqamətində onların bütün səylərinə baxmayaraq, mən əminəm ki, biz bu layihəni həyata keçirəcəyik.

Doğrudur, dünyada fəaliyyət göstərən erməni lobbisi çalışır ki, müxtəlif təşkilatlar, beynəlxalq qurumlar bu layihəyə öz dəstəyini verməsin. Ancaq biz indi elə durumdayıq ki, başqa qurumların dəstəyinə də möhtac deyilik. Bizim imkanlarımız var, vəsaitimiz var. Mən bir neçə dəfə demişəm ki, Azərbaycan bu gün öz maliyyə öhdəliyini yerinə yetirməyə hazırdır və öz vəsaitimizlə biz bunu edə bilərik. Ona görə də Ermənistanın bu siyasətinin heç bir uğuru olmayacaq, Azərbaycan getdikcə daha da güclənəcək, bölgədə daha da güclü mövqelərə sahib olacaqdır. Ermənistan bütün beynəlxalq layihələrdən təcrid olunmuş vəziyyətdədir və onların durumu getdikcə daha da ağırlaşacaqdır.

**S u a l: Hörmətli cənab Əliyev, Siz Rusiya prezidenti Vladimir Putinlə də görüşmüsünüz. Putinlə Ermənistan barədə fikir mübadiləsi apardınızmı?**

**C a v a b:** Bilirsiniz ki, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində beynəlxalq vasitəçilər qrupu

fəaliyyət göstərir. Onların tərkibində Rusiya, Fransa və Amerika Birləşmiş Ştatları fəaliyyət göstərir. Yəni, bu üç ölkə çalışır bizə kömək etsin ki, hər hansı bir razılaşmaya nail olaq.

**S u a l: Dağlıq Qarabağda referendumun keçirilməsi ilə bağlı məsələ də ortaya çıxdı. Elədirmi?**

**C a v a b:** Bilirsiniz, bu yaxınlarda Minsk qrupunun bir bəyanatı verildi və onların təkliflərinin bəzi detalları açıqlandı. Yəni, açıqlanan məsələlər onların təklifi idi. Çünki biz heç bir razılaşmaya gəlməmişik. Ermənistan və Azərbaycan razılaşmadan çox uzaqdadırlar. Sadəcə olaraq, müəyyən təkliflər var. O təkliflər Minsk qrupu tərəfindən irəli sürülmüşdür. Son bəyanat, sadəcə olaraq, təkliflərin bəzilərini açdı. Biz buna etiraz etmədik. Çünki biz heç vaxt danışıqların məxfi aparılmasında maraqlı deyilik. Çünki bizim gizlədəcəyimiz heç bir şey yoxdur. Sadəcə, başqa tərəfin təklifini nəzərə alaraq, biz də danışıqların məxfi şəkildə aparılmasına razılığımızı vermişik. Bir halda ki, Minsk qrupu danışıqlar predmetinin bəzi məqamlarını açıqladı, biz də gərək bu məsələyə bir daha aydınlıq gətirək. Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır. Burada heç bir güzəşt ola bilməz. İşğal edilmiş torpaqlar işğalçı qüvvələrdən azad olunmalıdır və Azərbaycan qaçqınları və köçkünləri o torpaqlara qayıtmalıdırlar. Dağlıq Qarabağın gələcək statusuna gəldikdə isə, Qarabağdakı azərbaycanlı icmasının və erməni icmasının rəyi də nəzərə alına bilər. Çünki Dağlıq Qarabağda müharibədən əvvəl həm ermənilər, həm də azərbaycanlılar yaşamışlar. Azərbaycanlıların Dağlıq Qarabağa qayıtması şərtdir. Onlar oraya qayıtmalıdırlar, orada yerləşdirilməlidirlər və bundan sonra danışıqlar yolu ilə icmalar və Azərbaycan – çünki Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir – Qarabağın statusu ilə bağlı gələcəkdə danışıqlar apara bilər. Bu danışıqlar nə qədər aparılacaq, nə qədər vaxt tələb olunacaq, bunu gələcək göstərər.

Bu məsələ bundan ibarətdir.

Biz heç vaxt heç bir qərarın qəbul olunmasına imkan vermərik ki, orada Azərbaycanın ərazi bütövlüyü pozulur, ya-

xud da nə vaxtsa, bir ildən, on ildən, yüz ildən sonra Qarabağın Azərbaycandan ayrılması mümkün olsun. Biz buna heç vaxt izin verməyəcəyik. Bunu Minsk qrupunun həmsədrləri də bilirlər, bunu Ermənistanın rəhbərliyi də bilir. Sadəcə olaraq, Ermənistan tərəfi çalışır ki, bəzi hallarda dəqiq olmayan, yəni reallığı əks etdirməyən məqamları ortaya qoysun. Bəlkə də istəyir ki, Ermənistanda mövcud olan ictimai rəyi müsbət istiqamətə yönəltsin. Amma gerçəklik bundadır ki, Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu deyil və heç vaxt Dağlıq Qarabağa müstəqillik statusu verilməyəcəkdir.

**S u a l: Cənab Prezident, maraqlı bir məsələ var. Dağlıq Qarabağın qondarma «prezidenti» Arkadi Qukasyan deyir ki, biz nə Ermənistana birləşirik, nə də Azərbaycan bizə sahib ola bilər, biz müstəqil bir dövlət olacağıq. Siz onun səmimiliyinə nə dərəcədə inanırsınız?**

**C a v a b:** Mən, ümumiyyətlə, onun sözlərinə heç bir əhəmiyyət vermirəm. Çünki o, qanunsuz kriminal rejimin başçısıdır. Qeyri-legitim, özünü elan etmiş, heç bir beynəlxalq təşkilat tərəfindən tanınmamış bir kriminal dəstənin başçısıdır. Ona görə mən o adam haqqında, ümumiyyətlə, bir şey söyləmək istəmirəm və onun dedikləri heç bir əhəmiyyət kəsb etmir.

O ki qaldı, ümumiyyətlə, məsələnin həlli yollarına, Dağlıq Qarabağ beynəlxalq birlik tərəfindən Azərbaycanın tərkib hissəsi kimi tanınır. Birləşmiş Millətlər Təşkilatı, bütün başqa təşkilatlar, Dağlıq Qarabağ daxil olmaq şərtilə, Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Belə olan halda, heç bir müstəqillikdən söhbət gedə bilməz. Dünyada müəyyən təcrübə var, dünya praktikası var, azlıqların normal yaşaması praktikası var. O cümlədən Azərbaycanda da. Azərbaycanda milli azlıqlar var və onlar çox rahat yaşayırlar, sərbəst yaşayırlar, bütün hüquqlardan istifadə edirlər.

Avropada muxtariyyət forması mövcuddur. Avropanın bir neçə ölkəsində muxtariyyət forması var. Nə üçün burada hansısa başqa forma olmalıdır?! Nə üçün Azərbaycanda yaşayan milli

azlıq yaşadığı ərazini Azərbaycandan qoparıb hansısa bir müstəqil dövlət yaratmalıdır?! Biz buna imkan verməyəcəyik və heç kim, heç bir təşkilat, heç bir ölkə heç vaxt Dağlıq Qarabağın müstəqilliyini tanımayacaq. Nəzərə alsaq ki, bu gün Azərbaycan həm siyasi, həm iqtisadi, həm də hərbi cəhətdən güclənir, biz daha üstün mövqelərə malikik.

Ermənistan bizimlə rəqabət aparmaq iqtidarında deyil və vaxt keçdikcə bizim gücümüz daha da təsirli olacaqdır. Mən ona təəssüflənirəm ki, vaxt keçir, bizim qaçqınlarımız, köçkünlərimiz öz doğma torpaqlarına hələ qayıda bilmirlər. Amma mən inanıram ki, biz məsələni ədalətli və beynəlxalq hüquq normalarına uyğun olaraq həll edəcəyik. Azərbaycanın ərazi bütövlüyü təmin ediləcək və Azərbaycanın suverenliyi bütün ölkə miqyasında bərpa olunacaqdır.

**S u a l: Cənab Prezident, qarşıda Sizin Robert Köçəryanla görüşünüz barədə planlar var. Böyük səkkizlərin zirvə görüşündə Köçəryanla görüşünüz gözlənilirmi?**

**C a v a b:** Xeyr, belə bir şey yoxdur. Biz son bir neçə ay ərzində iki dəfə görüşmüşük. O görüşlərin heç bir nəticəsi olmadı.

**J u r n a l i s t: Olmadımı?**

**İ l h a m Ə l i y e v:** Xeyr. Bildiyiniz kimi, ilk görüş Fransada keçirildi və Ermənistan prezidenti o görüşü yarımçıq tərk etdi. Ondan sonra Rumıniyada bir görüş oldu. Orada da biz heç bir nəticəyə gəlmədik. Bizim aramızda heç bir anlaşma yoxdur, razılaşma yoxdur və bunun əsas səbəbi Ermənistanın qeyri-konstruktiv mövqeyidir, Ermənistanın işğalçı siyasətidir.

Biz heç kimin torpağına iddia etmirik, heç kimin malına, torpağına göz dikməmişik. Biz tələb edirik ki, bizə mənsub olan ərazi Azərbaycana qaytarılsın. Biz çalışırıq ki, bunu sülh yolu ilə edək. Biz Ermənistana şans veririk ki, işğal edilmiş torpaqlardan öz xoşu ilə çəkilsin və qan tökülmədən, müharibə başlamadan biz bu məsələni çözək. Əgər biz buna nail olsaq, o zaman bölgədə bütün mənzərə dəyişəcək, əlaqələr yaranacaq,

yollar açılacaq, əməkdaşlıq mümkün olacaqdır. Gələcəkdə Ermənistan – indi bütün beynəlxalq layihələrdən təcrid olunmuş vəziyyətdədir – onlara qoşula bilər. Yəni erməni xalqı da bundan faydalanacaqdır.

Erməni xalqı bu torpaqların işğalından nə qazandı? Heç nə qazanmadı! Daha yaxşı yaşamağamı başlayıb? Xeyr. Onların dünyada hörməti daha da artdı? Əksinə, onlar dünyada işğalçı, təcavüzkar dövlət kimi tanınırlar, azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti aparan ölkə kimi tanınırlar. Ermənistanın dünyada mövqeləri daha da möhkəmləndi? Xeyr. Onlar bu münaqişə uzandıqca, daha da çətin vəziyyətə düşürlər. Gələcəkdə də, təbii ki, Azərbaycanla heç cür rəqabət aparmaq iqtidarında olmayacaqlar. Ona görə, əgər bu məsələ öz həllini taparsa, erməni xalqı da yaxşı yaşayacaqdır. Amma məsələnin həlli yalnız beynəlxalq hüquq müstəvisində ola bilər. Dünyada mövcud olan prinsiplər var, qaydalar var, beynəlxalq təşkilatların qərarları var.

İndi Ermənistan istəyir ki, Dağlıq Qarabağ ona birləşsin. Biz də çox şey istəyə bilərik. Biz də istəyə bilərik ki, Azərbaycanın tarixi torpaqları, İrəvan xanlığı Azərbaycana birləşsin. Biz onu istəyə bilərik. Amma bu, indi reallıq deyil. Ona görə, bu məsələ kiminsə istəyi ilə həll oluna bilməz. Beynəlxalq hüquq var. Yenə də deyirəm, biz indi Ermənistana şans veririk ki, bu məsələ sülh yolu ilə həll olunsun. Olmasa, biz başqa variantları da nəzərdən keçirməliyik.

**S u a l: Yəni müharibənimi nəzərdə tutursunuz?**

**C a v a b:** Yəni o, istisna olunmur, heç vaxt istisna olunmur. Nəzərə alsaq ki, indi atəşkəs rejimi çox həssasdır. Yəni, təhlükəsizlik tədbirləri hələ bizə imkan vermir ki, təmas xəttində vəziyyət tam sakit olsun. Bizim aramızda heç bir başqa ölkələrin qüvvələri yoxdur, sülhməramlı qoşunlar yoxdur. Yəni istənilən anda xoşagəlməz hadisə baş verə bilər. Biz nə vaxta qədər dözməliyik? Biz nə vaxta qədər danışıqlarda iştirak etməliyik? Görürük ki, Ermənistan tərəfi danışıqlarda özünü qeyri-səmimi aparır. Ona görə biz bütün variantlara hazır

olmalıyıq. Azərbaycanın artan iqtisadi potensialı, hərbi gücü, bölgədəki vəziyyəti, bölgə üçün, dünya üçün artan önəmimiz, əlbəttə, bizi daha da üstün mövqelərə gətirib çıxarır. İllər keçdikcə bu özünü daha da qabarıq şəkildə göstərəcəkdir. Ermənistan özü fikirləşməlidir və bütün mümkün olan təhlükəli nəticələr üçün onlar məsuliyyət daçıyacaqlar.

**S u a l: Yəni, məsuliyyət onların üzərinə düşəcəkdir?**

**C a v a b:** Bəli.

**S u a l: Hörmətli cənab Əliyev, amma onlar əvvəlki kimi görünmürlər.**

**C a v a b:** Baxın, onlar Türkiyəyə qarşı nə qədər ədalətsiz iddialar irəli sürürlər. Nə qədər yalan, böhtan, uydurma, iftira əsasında iddialar irəli sürürlər, Avropada çalışırlar ki, uydurma «soyqırımı»nı qəbul etdirsinlər. Yəni bu nəyi göstərir? Bu onu göstərir ki, onlar düşmənçilik mövqeyindədirlər.

Birincisi, soyqırım olmayıbdır. Onlar bütün dövrlərdə türkləri, azərbaycanlıları öldürmüşlər, qırmışlar.

İkincisi, gəlin biz yenə tarixə baxaq. Ölkələr var idi ki, tarixdə on dəfə, iyirmi dəfə bir-biri ilə savaşmışlar. Avropa ölkələri. Gəlin İkinci dünya müharibəsinə baxaq. Almaniya, Sovetlər Birliyi, İngiltərə, Fransa və Amerikanın apardığı o müharibədə 30 milyon və bəlkə də, ondan da çox insan həlak oldu. Dünyada müharibələr olubdur, ondan əvvəl də Avropada olubdur. Ancaq 20 ildən sonra artıq Sovetlər Birliyi ilə Qərbi Almaniya arasında münasibətlər düzəldi. Bu gün onlar müttəfiqdirlər, Fransa ilə Almaniya Avropa İttifaqında aparıcı rol oynayırlar və onların müttəfiqliyini hamı görür. Bu millətlər, bu ölkələr o tarixi gələcək üçün, inkişaf üçün qapatdılar. Amma baxın Ermənistana, onlar öz gənc nəslini düşmənçilik ruhunda böyüdürlər.

**J u r n a l i s t: Amma onlar hələ də keçmişdə yaşayırlar.**

**İ l h a m Ə l i y e v:** Onlar keçmişdə yaşayırlar, ona görə inkişaf edə bilmirlər. Bu onların böyük problemidir. Bu onu göstərir ki, onlar bu siyasətdən əl çəkmək fikrində deyillər. İlk növbədə, onlar çalışırlar ki, «soyqırımı»nı qəbul etdirsinlər,

ondan sonra nə olacaq, onu bilirik. Ondan sonra təzminat istəyəcəklər. Ondan sonra Türkiyəyə qarşı torpaq iddiası irəli sürəcəklər. Bunları bilirik. Ona görə gərək hazır olaq. Türkiyə və Azərbaycan bu işdə daha da möhkəm mövqelərə malik olmalıdır. Biz müdafiə olunmalı yox, siyasi cəhətdən, təbliğat baxımından hücum etməliyik. Burada, Azərbaycanda bu işi çox yüksək səviyyədə qururuq. Erməni təbliğatını ifşa etmək lazımdır. Onların yalan təbliğatını darmadağın etmək və Dünya Birliyinə həqiqəti çatdırmaq lazımdır.

**S u a l: Cənab Prezident, Siz Amerikaya getdiniz, orada keçirdiyiniz görüşlərdə İran, Ermənistan, Türkiyə, bölgə və Azərbaycan ilə bağlı nə kimi müzakirələr apardınız?**

**C a v a b:** Amerikaya səfərim çox uğurlu keçdi. Prezident Buş, vitse-prezident Çeyni ilə, bütün başqa vəzifəli şəxslərlə – nazirlər, ictimai xadimlər, senatorlar, konqresmenlər və qeyri-hökumət təşkilatları ilə çox ətraflı danışıqlar oldu. Əlbəttə ki, ilk növbədə, ikitərəfli münasibətlər haqqında fikir mübadiləsi apardıq. Onu deyə bilərəm ki, bu gün Azərbaycan–Amerika münasibətləri çox yüksək səviyyədədir. Biz bütün sahələrdə çox uğurlu əməkdaşlıq edirik və mənim oraya rəsmi səfərim bunu bir daha möhkəmləndirdi. İkitərəfli münasibətlər bundan sonra daha da sürətlə inkişaf edəcəkdir.

Təbii ki, bölgədəki vəziyyət də müzakirə olunmuşdur. Çünki biz bu bölgədə yaşayırıq və bölgədə gedən proseslər istər-istəməz Azərbaycana təsir edir, Azərbaycanda gedən proseslər də bölgə işlərinə təsir edir. Əsas məsələ bundadır ki, burada sabitlik pozulmasın. Sülh bərqərar olunsun, möhkəmlənsin, təhlükəsizlik tədbirləri daha da güclənsin və bölgə təhlükəsizlik şəraitində normal əməkdaşlıq edə bilsin. Çünki bölgənin çox böyük potensialı var. Xəzər dənizinin neft və qaz yataqları, nəqliyyat yolları, yeni açılan imkanlar – bütün bunlardan istifadə üçün gərək bölgədə təhlükəsizlik tədbirləri daha da möhkəmlənsin və Azərbaycan da bu işdə öz rolunu oynayır.

**S u a l: Cənab Prezident, bölgədə zaman-zaman rəngli inqilablar oldu. Sonrakı prosesləri izlədiyimiz zaman sanki**

**bunlar iflasa uğramış kimi görünür. Sizcə bu rəngli inqilablar nədən baş verdi? Hətta burada da cəhd göstərdilər, amma həyata keçirə bilmədilər. Elə deyilmi?**

**C a v a b:** Burada da o cəhdlər, necə deyərlər, çox acınacaqlı təəssürat yaratdı. Çünki bunun səbəbi bilirsiniz, yəqin ki, insanların müəyyən məsələlərdə hökumətin xətti ilə birgə fikirdə olmamasından irəli gəlir. Yaxud da iqtidarla xalq arasında uçurumun böyüməsindən irəli gəlir. Həm də, əlbəttə ki, sosial-iqtisadi problemlər insanları bu işlərə sövq edir. Azərbaycana gəldikdə isə, burada mənzərə tam başqadır. Biz indi dünyanın iqtisadi artım baxımından ən birinci ölkəsiyik. Keçən il iqtisadi artım 26 faiz, bu ilin beş ayında 40 faiz olmuşdur. Dünyada iqtisadi artım sürətinə görə ən birinci yerdə bizik.

Sənaye istehsalı Azərbaycanda beş ayda təxminən 40 faiz artmışdır. Son iki il yarım ərzində Azərbaycanda 400 min yeni iş yeri açılmışdır. Yoxsulluq şəraitində yaşayanların sayı 20 faiz aşağı düşmüşdür. Əhalinin gəlirləri 25 faiz artmışdır. Yəni bütün bunlar onu göstərir ki, iqtisadi cəhətdən ölkə daha da möhkəmlənir və insanlar daha da yaxşı yaşayırlar. Bundan əlavə, bizim xarici siyasətimiz xalq tərəfindən bəyənilir. Yəni burada hər hansı bir çevriliş etmək üçün heç bir əsas yox idi. Düzdür, bəzi siyasi qüvvələr başqa ölkələrdəki çevrilişləri görərək, ondan ruhlanaraq çalışdılar ki, burada bir problem yaratsınlar, yaxud da istədiklərinə nail olsunlar. Amma xalq onları dəstəkləmədi.

**MONQOLUSTANIN PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB NAMBARİN ENXBAYARA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Xalq İnqilabı günü münasibətilə Sizə və dost xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Əminəm ki, Azərbaycan ilə Monqolustan arasında təşəkkül tapmış dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı daim xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Monqolustan xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *5 iyul 2006-cı il*

## GÜRCÜSTANIN BAŞ NAZİRİ ZURAB NOĞAİDELİN İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*5 iyul 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 5-də Prezident sarayında Gürcüstanın Baş naziri Zurab Noğaidelini qəbul etmişdir.*

*Gürcüstanın Baş naziri ölkələrimiz arasında münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini vurğuladı. O, iqtisadi əlaqələrimizin təkcə neft sektorunda deyil, digər sahələrdə də inkişafı üçün yaxşı potensialın olduğunu qeyd edərək Azərbaycanla Gürcüstan iqtisadi əməkdaşlığının bundan sonra da inkişaf edəcəyinə əminliyini bildirdi.*

*Dövlətimizin başçısı Azərbaycanla Gürcüstan arasında iqtisadi əlaqələrin inkişaf etdiyini vurğulayaraq Gürcüstanın Baş nazirinin ölkəmizə səfərinin müxtəlif iqtisadi layihələr barədə müzakirələrin aparılması üçün yaxşı imkan yaratdığını qeyd etdi. Prezident İlham Əliyev ölkələrimizin qlobal enerji layihələrinin həyata keçirilməsi işində əməkdaşlığının iqtisadi əlaqələrimizin daha da genişlənməsi işinə xidmət etdiyini bildirdi.*

**FRANSA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB JAK ŞİRAKA**

Hörmətli cənab Prezident!

Əziz dost!

Fransanın milli bayramı – Bastiliyanın alınması günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Bu gün Azərbaycan–Fransa münasibətləri hərtərəfli inkişaf etməkdədir. Çoxşaxəli təmaslarımız, qarşılıqlı maraq doğuran bir sıra sahələrdə faydalı əməkdaşlığımız bu münasibətlərin səciyyəvi təzahürüdür. Əminəm ki, bu yaxınlarda dost ölkənizə səfərim, Sizinlə görüşümüz, apardığımız fikir mübadiləsi əlaqələrimizin bütün səviyyələrdə daha da genişlənməsinə yeni təkan verəcəkdir.

Biz ən ağrılı problemimiz olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli sahəsində ATƏT-in Minsk qrupunun həmsədri kimi, Fransanın və şəxsən Sizin, cənab Prezident, fəaliyyətinizi yüksək qiymətləndiririk. Ümidvaram ki, ölkəmizə qarşı təcavüz nəticəsində yaranmış bu münaqişənin aradan qaldırılması üçün səylərinizi bundan sonra da əzmlə davam etdirəcəksiniz.

Bir daha Sizə öz təbriklərimizi yetirir, möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Fransa xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

Ən səmimi hisslərlə,

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *5 iyul 2006-cı il*

## BƏSTƏKAR, XALQ ARTİSTİ VASİF ADIGÖZƏLOVA «İSTİQLAL» ORDENİNİN TƏQDİM EDİLMƏSİ MƏRASİMİ

*Prezident sarayı*

*6 iyul 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 6-da Prezident sarayında Bəstəkarlar İttifaqı İdarə Heyətinin birinci katibi, görkəmli bəstəkar, Xalq artisti Vasif Adıgözəlova yüksək dövlət mükafatı – «İstiqlal» ordenini təqdim etmişdir.*

**İlham Əliyev:** Təxminən bir il ildir ki, mən sizi «İstiqlal» ordeni ilə təltif etmişəm. İndi isə istəyirəm bunu təqdim edim.

**Vasif Adıgözəlov:** Cənab Prezident, Sizə dərin minnətdarlığımı bildirirəm. Cənab Prezident, yaxın günlərdə 71 yaşım tamam olacaqdır. Mənim bütün nailiyyətlərim rəhmətlik ulu öndərimizin adı ilə bağlıdır. 1973-cü ildə mənə Azərbaycan Respublikasının «Əməkdar incəsənət xadimi» fəxri adı, sonra Dövlət mükafatı, daha sonra «Xalq artisti» kimi yüksək ad vermişdir. Bütün bunların hamısı onun adı ilə bağlıdır. Bu gün mən yeganə bəstəkaram ki, – təvazökarlıqdan bir az kənara çıxıram – həm «Şöhrət» ordenim, həm də «İstiqlal» ordenim var. Siz mənə respublikanın ən yüksək mükafatı olan «İstiqlal» ordenini verdiniz. Yəni, Heydər Əliyevin işləri davam edir, özü də Sizin fəaliyyətinizlə uğurla davam etdirilir. Bu bizim üçün, ziyalılar üçün ən vacib məsələdir.

Müstəqillik illərində bizim mədəniyyətimizə, musiqimizə qayğıkeş münasibət Heydər Əliyev 1993-cü ildə yenidən rəhbərliyə gəldikdən sonra başladı. Yoxsa, əmr etmişdilər, ittifaq-

ları bağlayırdılar. Gəldilər bizi oradan çıxartdılar. Amma Heydər Əliyevin qayıdışından sonra Bəstəkarlar İttifaqı fəaliyyətini davam etdirdi. İndi 24 bəstəkar Prezident təqaüdü alır. Xalq artistlərinin hamısının «Şöhrət» ordeni var. Hər nə lazımsa, edilir. Son illərdə mənzillərlə də təmin olunurlar. Sizə minnətdaram, mənə də mənzil vermisiniz. Bir daha Sizə minnətdarlığımı bildirirəm.

**İ l h a m Ə l i y e v :** Vasif müəllim, sağ olun. Mən də sizi bir daha təbrik edirəm.

Siz qeyd etdiyiniz kimi, mədəniyyət xadimlərinə diqqət həmişə yüksək səviyyədə olmuşdur. Bu, Heydər Əliyev siyasətidir və siz də bunu qeyd etdiniz. 1993-cü ildə o, Azərbaycanda hakimiyyətə qayıtdıqdan sonra bu ənənələr bərpa olundu. Çünki 70-ci illərdə də bu var idi. Bilirsiniz, o vaxt çox çalışırdı ki, bizim sənət adamlarımız, mədəniyyət xadimlərimiz SSRİ-nin ən yüksək mükafatlarını alsınlar. Onlar eyni zamanda Sovet İttifaqının ordenlərini və medallarını almışlar. Sonra bir ara münasibət dəyişdi. Biz də bunun hamısını bilirik, ittifaqları bağlamaq istədilər. Ümumiyyətlə, hesab edirdilər ki, bu sahə Azərbaycan üçün vacib deyildir. Baxmayaraq ki, Azərbaycanı dünyada tanıdan, ilk növbədə, bizim musiqiçilərimiz, yazıçılarımız, şairlərimiz olmuşdur.

Bu gözəl ənənə bu gün də davam edir. Mən də çalışıram ki, fəxri adların verilməsində, Prezident təqaüdlərinin verilməsində həmişə öz köməyimi göstərim. Ümumiyyətlə, bəzən belə fikir səslənir ki, fəxri adlar lazım deyil, xalq özü müəyyən edir. Doğrudur, ən böyük qiyməti xalq verir. Ancaq dövlət də öz tərəfindən münasibətini, hörmətini bildirməlidir. Bu sahədə böyük nailiyyətlərə çatmış insanlar gərək həmişə qiymətləndirilsinlər. Sizin də fəaliyyətinizi həm Azərbaycan xalqı, həm də Azərbaycan dövləti çox yüksək qiymətləndirir. Siz bu böyük mükafata layiqsiniz. Mən də çox şadam ki, bu ordeni sizə təqdim edirəm.

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB VLADİMİR PUTİNƏ**

Hörmətli Vladimir Vladimiroviç!

İrkutskda aviasiya qəzası nəticəsində çoxsaylı insan tələfatı barədə xəbər məni dərindən sarsıtdı.

Sizə, həlak olanların qohumlarına və yaxınlarına, bütün Rusiya xalqına Azərbaycan xalqı adından və şəxsən öz adımdan dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *9 iyul 2006-cı il*

**İTALİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB CORCİO NAPOLİTANOYA**

Hörmətli cənab Prezident!

İtaliya futbolçularının dünya çempionu adını qazanması münasibətilə Sizi və Sizin simanızda bütün İtaliya xalqını öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Dünya birinciliyinin gərgin mübarizəsindən qalib çıxaraq, öz azarkeşlərinə hədsiz sevinc payı bəxş etmiş İtaliya futbolçularına ən səmimi təbriklərimizi yetirməkdən məmnunluq duyur, onlara bu yüksək adı şərəflə daşımağı arzulayırıq.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *10 iyul 2006-cı il*

**İTALİYA RESPUBLİKASI NAZİRLƏR ŞURASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB ROMANO PRODİYƏ**

Hörmətli cənab Sədr!

İtaliya futbolçularının başa çatmış dünya birinciliyində möhtəşəm qələbəsi və dünya çempionu adını qazanması münasibətilə Sizə, dost İtaliya xalqına təbriklərimizi yetiririk.

Bu unudulmaz anlarda sevincinizə qoşulur, çempionatın bütün oyunlarında böyük əzmkarlıq və yenilməz iradə nümayiş etdirmiş İtaliya futbolçularını ürəkdən təbrik edir, onlara bundan sonra da uğurlar arzulayırıq.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *10 iyul 2006-cı il*

**PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB PƏRVİZ MÜŞƏRRƏFƏ**

Hörmətli cənab Prezident!

Multan şəhəri yaxınlığında baş vermiş təyyarə qəzası nəticəsində çoxsaylı insan tələfatı barədə xəbər məni son dərəcə kədərləndirdi.

Bu faciə ilə əlaqədar dərdinizə şərik çıxır, Sizə, həlak olanların ailələrinə, bütün Pakistan xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *10 iyul 2006-cı il*

**KOLUMBİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB ALVARO URİBE VELESƏ**

Hörmətli cənab Prezident!

Milli bayramınız – Müstəqillik günü münasibətilə Sizə və bütün xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Ümidvaram ki, Azərbaycan ilə Kolumbiya arasında yaranmış münasibətlər daim dostluq və əməkdaşlıq zəminində inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *10 iyul 2006-cı il*

**BELÇİKA KRALLIĞININ BAŞ NAZİRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB Gİ VERHOFSTADTA**

Hörmətli cənab Baş nazir!

Milli bayramınız – Kralın andiçmə günü münasibətilə Sizi və bütün xalqınızı ürəkdən təbrik edirəm.

Ümidvaram ki, ölkələrimiz arasındakı dostluq münasibətləri, istər ikitərəfli qaydada, istərsə də beynəlxalq qurumlar çərçivəsində əməkdaşlığımız bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Sizə ən xoş arzularımızı yetirir, dost Belçika xalqına sülh və tərəqqi diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *10 iyul 2006-cı il*

## BELÇİKANIN KRALI ƏLAHƏZRƏT II ALBERTƏ

Əlahəzrət!

Belçikanın milli bayramı – Kralın andiçmə günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından böyük məmnuniyyətlə təbrik edirəm.

Əmin olduğumu bildirirəm ki, Azərbaycan–Belçika münasibətlərinin, dostluq və əməkdaşlıq əlaqələrimizin inkişafı daim xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *10 iyul 2006-cı il*

**MİSİR ƏRƏB RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB MƏHƏMMƏD HÜSNÜ MÜBARƏKƏ**

Hörmətli cənab Prezident!

Misir Ərəb Respublikasının milli bayramı – İnqilab günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza ən səmimi təbriklərimizi və xoş arzularımızı yetirməkdən məmnunluq duyuram.

Biz Azərbaycan ilə Misir arasındakı ənənəvi dostluq və əməkdaşlıq münasibətlərinə böyük əhəmiyyət veririk. Əminəm ki, əlaqələrimizin daha da genişləndirilməsi, əməkdaşlığımızın inkişaf etdirilməsi yolunda birgə səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Misir xalqına əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *10 iyul 2006-cı il*

**MƏRAKEŞİN KRALI ƏLAHƏZRƏT VI MƏHƏMMƏDƏ**

Əlahəzrət!

Mərakeşin milli bayramı – Taxt-tac günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əmin olduğumu bildirirəm ki, xalqlarımızın qarşılıqlı rəğbətinə və istəyinə əsaslanan Azərbaycan–Mərakeş əlaqələrinin, dostluq və əməkdaşlıq münasibətlərimizin inkişafı bundan sonra da ümumi məqsədlərimizə və rifahımıza xidmət edəcəkdir.

Sizə ən xoş arzularımı bildirir, möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Mərakeş xalqına sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı*, 10 iyul 2006-cı il*

**MALDİV RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB MƏMUN ƏBDÜL QƏYYUMA**

Hörmətli cənab Prezident!

Maldiv Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və bütün xalqınızı ürəkdən təbrik edirəm.

Ümidvaram ki, ölkələrimiz arasındakı münasibətlər daim dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

Sizə ən xoş arzularımızı yetirir, dost Maldiv xalqına əmin-amanlıq və tərəqqi diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *10 iyul 2006-cı il*

## «AZƏRBAYCANDA ÖZƏLLƏŞDİRMƏNİN 10 İLİ: NAİLİYYƏTLƏR VƏ PERSPEKTİVLƏR» FORUMUNUN İŞTİRAKÇILARINA

Hörmətli forum iştirakçıları!

Sizi – «Azərbaycanda özəlləşdirmənin 10 ili: nailiyyətlər və perspektivlər» forumunun iştirakçılarını salamlayır, işinizdə uğurlar arzulayıram. Ölkəmizdə bazar iqtisadiyyatına keçid istiqamətində aparılan islahatlar arasında dövlət əmlakının özəlləşdirilməsi prosesi mühüm yer tutur. Azərbaycan Respublikasının Konstitusiyasında təsbit olunmuş müxtəlif mülkiyyət formalarına əsaslanaraq, qısa müddət ərzində ölkədə böyük potensiala malik xüsusi mülkiyyət formalaşmışdır.

Prioritet istiqamətləri xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən müəyyən edilən özəlləşdirmə siyasəti əsasında qəbul edilmiş iki Dövlət Özəlləşdirmə Proqramı Azərbaycanda işgüzar mühitin fəallaşmasına, iqtisadiyyatda struktur dəyişikliklərinin dərinləşməsinə, azad sahibkarlığın inkişafına, sağlam rəqabət mexanizminin formalaşmasına güclü təkan vermişdir. Eyni zamanda, bazar iqtisadiyyatı prinsiplərinə söykənən, biznesdə yeni münasibətləri tənzimləyən müasir normativ-hüquqi və təşkilati baza yaradılmışdır.

Yerli və xarici sahibkarlar üçün yaradılmış əlverişli investisiya mühiti iqtisadiyyatın bütün sahələrinə sərmayə qoyuluşunu artırıb, Azərbaycanın iqtisadi potensialının daha da güclənməsini təmin edir. Son 10 il ərzində ölkədə özəl bölmənin sürətli inkişafı onun ümumi daxili məhsulda xüsusi çəkisini 80 faizə yaxınlaşdırmışdır. Əminəm ki, özəl bölmənin inkişafı gələcəkdə də uğurla davam edəcək və Azərbaycan qısa bir müddət ərzində inkişaf etmiş ölkələrin sırasında öz layiqli yerini tutacaqdır.

Hörmətli forum iştirakçıları!

Sizi bu forumun keçirilməsi münasibətilə ürəkdən təbrik edir, müstəqil Azərbaycanın sosial-iqtisadi inkişafı naminə fəaliyyətinizdə yeni nailiyyətlər arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *11 iyul 2006-cı il*

## HİNDİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB AVUL PAKİR CAYNULABDİN ƏBDÜL KALAMA

Hörmətli cənab Prezident!

Mumbay şəhərində törədilmiş terror aktları nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni olduqca kədərləndirdi.

Biz bu dəhşətli hadisədən son dərəcə hiddətlənir, terrorizmin bütün təzahürlərini qətiyyətlə pisləyirik.

Baş vermiş bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına, bütün Hindistan xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananların və xəsarət alanların tezliklə sağalmasını arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı, 12 iyul 2006-cı il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN TÜRKİYƏYƏ SƏFƏRİ

*12 iyul 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 12-də Türkiyənin İstanbul şəhərinə gəlmişdir. Azərbaycan prezidentini Atatürk adına Beynəlxalq Hava Limanında Türkiyənin Dövlət naziri Mehmet Əli Şahin, İstanbul Böyük Şəhər Bələdiyyəsinin sədri Qədir Topbaş, İstanbul valisi Müəmmər Gülər və digər rəsmi şəxslər böyük hörmət və ehtiramla qarşıladılar.*

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN GÖRÜŞÜ

*İstanbul,*
*«Çırağan» sarayı*

*12 iyul 2006-cı il*

*İyulun 12-də İstanbulun «Çırağan» sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın görüşü olmuşdur.*

*Görüşdə iki ölkə arasında dostluq münasibətlərinin daha da dərinləşməsi istiqamətində görülən işlər, həyata keçirilən tədbirlər yüksək qiymətləndirildi və bildirildi ki, Bakı–Tbilisi–Ceyhan layihəsinin reallaşması bütün bölgədə iqtisadi inkişafa səbəb olacaqdır. Gələcəkdə digər qlobal layihələrin, o cümlədən Bakı–Tbilisi–Ərzurum qaz kəməri layihəsinin də uğurla həyata keçiriləcəyinə əminlik ifadə edildi.*

*Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlər barədə də müzakirələr aparıldı.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ABŞ-ın ENERGETİKA NAZİRİNİN MÜAVİNİ İLƏ GÖRÜŞÜ

*İstanbul,*
*«Çırağan» sarayı*

*12 iyul 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 12-də İstanbulun «Çırağan» sarayında Amerika Birləşmiş Ştatlarının Energetika nazirinin müavini Kley Sell ilə görüşmüşdür.*

*ABŞ prezidenti Corc Buşun və Energetika nazirinin səmimi salamlarını dövlətimizin başçısına çatdıran Kley Sell bildirdi ki, Bakı–Tbilisi–Ceyhan kəmərinin Azərbaycan üçün çox böyük əhəmiyyəti var, eyni zamanda, onun həm region üçün, həm də ABŞ üçün önəmi böyükdür. O, Azərbaycanın enerji təchizatı işində rolunun artması və bu böyük qlobal layihənin başa çatması münasibətilə prezident İlham Əliyevi təbrik edərək dedi ki, biz Sizin uğurlarınıza şadıq və əməkdaşlığımızın daha da genişlənəcəyinə əminik. Bundan sonra Bakı–Tbilisi–Ərzurum qaz kəməri də uğurla fəaliyyət göstərəcəkdir.*

*Azərbaycan prezidenti İlham Əliyev səmimi salamlara görə minnətdarlığını bildirdi və onun da salamlarını prezident Corc Buşa və Energetika nazirinə çatdırmağı xahiş etdi. Dövlətimizin başçısı Bakı–Tbilisi–Ceyhan layihəsinin həyata keçirilməsində ABŞ-ın böyük rolunu vurğuladı və Azərbaycanın bunu yüksək qiymətləndirdiyini söylədi. Prezident İlham Əliyev dedi ki, Bakı–Tbilisi–Ərzurum qaz kəməri enerji təchizatı sahəsində yeni bir mərhələ olacaqdır. Əminik ki, bu layihə də uğurla həyata keçiriləcək və ölkələrimiz arasında energetika sahəsində əməkdaşlıq daha da genişlənəcəkdir.*

*Görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər müzakirə olundu.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN, GÜRCÜSTAN PREZİDENTİ MİXEİL SAAKAŞVİLİNİN VƏ TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN GÖRÜŞÜ

*İstanbul,*
*«Çırağan» sarayı*

*12 iyul 2006-cı il*

*İyulun 12-də İstanbulun «Çırağan» sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Gürcüstan prezidenti Mixeil Saakaşvilinin və Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğanın üçtərəfli görüşü keçirilmişdir.*

*Görüşdə Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin istifadəyə verilməsi Azərbaycan, Gürcüstan və Türkiyə arasında uğurlu əməkdaşlığın yaxşı nümunəsi kimi dəyərləndirildi. Xüsusi vurğulandı ki, bu, hər üç ölkənin mənafeyinə xidmət edən beynəlxalq layihədir.*

*Söhbət zamanı Azərbaycan, Gürcüstan və Türkiyənin əməkdaşlığının regionda sülhün, sabitliyin, təhlükəsizliyin təmin olunmasında mühüm rol oynadığı da vurğulandı.*

*Görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər barədə fikir mübadiləsi edildi.*

## İSTANBULUN SARIYER RAYONUNDA ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİN AÇILIŞ MƏRASİMİ

*İstanbul,*
*Sarıyer bələdiyyəsi*

*12 iyul 2006-cı il*

*Azərbaycan prezidenti İlham Əliyev iyulun 12-də İstanbul şəhərinin Sarıyer bələdiyyəsindəki Heydər Əliyev parkında xalqımızın ümummilli liderinin abidəsinin açılışında iştirak etmək üçün Heydər Əliyev küçəsinə gəldi. Buraya toplaşan minlərlə sakin dövlətimizin başçısını böyük hörmət və hərarətlə qarşıladılar. Ətraf binada türk dünyasının dahi şəxsiyyətləri Atatürkün və Heydər Əliyevin portretləri, Azərbaycanın və Türkiyənin dövlət bayraqları asılmışdı. «Azərbaycan–Türkiyə dostluğu və qardaşlığı əbədidir!», «Dağlıq Qarabağ Azərbaycanındır və Azərbaycanın da olacaq!», «Türkiyəyə xoş gəlmisiniz, Türkiyə xalqı Sizinlə fəxr edir!» sözləri yazılmış transparantlar diqqəti cəlb edir, ulu öndərlər Atatürkün və Heydər Əliyevin «Azərbaycanın kədəri bizim kədərimiz, sevinci bizim sevincimizdir», «Biz bir millət, iki dövlətik» müdrik kəlamları səslənirdi.*

*Təntənəli açılış mərasimi ulu öndər Heydər Əliyevin tərcümeyi-halının oxunması ilə başlandı.*

*Mərasimi Sarıyer bələdiyyəsinin sədri Yusif Sülün açdı.*

### Sarıyer bələdiyyəsinin sədri Yusif Sülünün çıxışı

Azərbaycan Respublikasının dəyərli prezidenti cənab İlham Əliyev!

Azərbaycanın hörmətli parlament üzvləri və nazirləri!

Hörmətli Baş nazirimizin müavini və Dövlət naziri!

Hörmətli millət vəkillərimiz, dəyərli Böyük Şəhər Bələdiyyəsi sədri!

Hörmətli qonaqlar, sevgili istanbullular!

Hamınıza belə bir gözəl qardaşlıq mərkəzinə «Xoş gəldiniz!» deyirəm. İki dövlətin bir milləti kimi qiymətləndirilən bu qardaşlıq nümunəsinin bir təzahürü olaraq İstanbul Böyük Şəhər Bələdiyyəsinin təşəbbüsü, bələdiyyə sədri hörmətli Qədir Topbaşın himayəsi ilə Sarıyer bələdiyyəsi rəhbərliyinin və qardaş Azərbaycanın İstanbuldakı Baş konsulluğunun birgə yaratdığı bu gözəl park yeddi ay ərzində salındı və 2005-ci ilin avqustunda istifadəyə verilmək üçün hazır vəziyyətə gətirildi. Layihəmizin əsasında «bir millət, iki dövlət» fəlsəfəsinə xüsusilə fikir verildi. Parkın bir ucundakı bulaq üzərində Bakı–Tbilisi–Ceyhan neft kəmərinin əks etdirilməsinə çalışdıq. Əsas xətdə Mustafa Kamal Atatürk və Heydər Əliyevin obrazları görüşdürüldü.

Hörmətli qonaqlar, bu park 4736 kvadratmetrlik sahədə salınmışdır. Layihənin hazırlanmasında və parkın bugünkü vəziyyətə gətirilməsində bizi hər cür dəstəkləyən, heç bir çətinlikdən çəkinməyən, Azərbaycan–Türkiyə dostluğunun, qardaşlığının gözəl bir nümunəsini yaradan Baş konsulluğun bütün nümayəndələrinə təşəkkürlərimi bildirirəm. Eləcə də qardaş ölkə Azərbaycandan buraya qədər təşrif buyurduqları üçün hörmətli Prezidentimizə Sarıyer camaatı, istanbullular adından dərin təşəkkürümü bildirirəm.

Hörmətli Prezidentim, çox sağ olun.

## İstanbul Böyük Şəhər Bələdiyyəsinin sədri Qədir Topbaşın çıxışı

Dost, qardaş və ürəkdən sevdiyimiz Azərbaycanımızın çox dəyərli Prezidenti!

Xarici İşlər naziri və Baş nazirin müavini və Dövlət nazirimiz!

Millət vəkillərimiz, yerli administrasiya rəhbərlərimiz və bələdiyyə sədrlərimiz!

Mətbuatımızın dəyərli nümayəndələri, İstanbulun gözəl insanları, hörmətli qonaqlar!

Hamınızı bu mənalı gündə sevgi və hörmətlə salamlayıram. Napoleonun dediyi kimi, dünya tək bir dövlət olsaydı, paytaxt İstanbul olardı. Tarixin, mədəniyyətlərin, qitələrin qovuşduğu bir şəhərdə qardaşcasına bir araya gəldik. Bunun üçün şükür edirik. Hazırda biz Avropanın başlanğıc nöqtəsindəyik. Qarşı tərəf isə Asiyanın başlanğıc nöqtəsidir. İstanbul elə bir şəhərdir ki, burada hər gün günəş iki qitəyə birdən doğur. Bu şəhər belə bir gözəl gün yaşayır. 4500 illik tarixə malik, üç böyük mədəniyyətin, imperatorluğun idarəetmə mərkəzi olmuş bir şəhərdəyik. Belə gözəl bir şəhərdə dost və qardaş ölkənin mərhum cümhur başqanı, çox hörmətli Heydər Əliyevin adını daşıyan bu park böyük məna daşıyır. Bələdiyyə başqanları olaraq, biz şəhərimizin gözəlləşməsinə xüsusilə böyük önəm veririk. Burada vətəndaşlarımız, insanlarımız asudə vaxtlarını səmərəli keçirəcəklər. Bu məqsədlə Sarıyer bələdiyyə başqanının köməyi ilə bu məkan yaradıldı. 2004-cü ilin oktyabr ayında bələdiyyə məclisimiz çox hörmətli Heydər Əliyevin adına bu parkın yaradılması və İstanbulun mərkəzində bir küçəyə Heydər Əliyevin adının verilməsi barədə qərar qəbul etdi. İnsanlar var ki, gəlib gedərlər, insanlar da var ki, tarixə düşürlər, xeyirxah əməlləri ilə yaddaşlarda yaşayırlar və başqaları üçün örnək olurlar. Heydər Əliyev də belə bir şəxsiyyətdir. Azərbaycan müstəqillik qazandıqdan sonra mən həmişə televiziyanı izləyərdim və xüsusilə Heydər Əliyevin çıxışlarına, mətbuat konfranslarına diqqətlə baxardım. Milli sərvətlərdən ölkənin inkişafı üçün necə istifadə etdiyini, bunu vətəndaşlara necə anlatdığını görürdüm. O, əvəzolunmaz bir şəxsiyyət, dünyada yetişmiş nadir şəxsiyyətlərdən biridir. Belə bir millətə mənsub olmağımızdan qürur duyduğumuzu bir daha ifadə edirəm.

Bu gün hamımız üçün çox önəmlidir. Yeni bir tarixi hadisəyə şahidlik edirik, birlikdə imza atırıq. Gələcək nəsillərimiz bu tarixi anları heç vaxt unutmadan, bir millət, iki dövlət ruhunun burada daim yaşayacağını görəcəklər. Bütün bu işlərdə əməyi olan hər kəsə təşəkkür edirəm. Bu gözəllik, bu qardaşlıq dünya durduqca davam edəcəkdir. Hamınıza çox sağ olun deyirəm

**Türkiyənin Dövlət naziri və Baş nazirin müavini Mehmet Əli Şahinin çıxışı**

Hörmətli Prezident!

Hörmətli nazirlər, İstanbulumuzun dəyərli bələdiyyə sədri, dəyərli millət vəkilləri, hörmətli həmkarlar!

Azərbaycanın yetişdirdiyi böyük dövlət adamı, sabiq prezident, əvəzedilməz bir şəxsiyyət olan Heydər Əliyevin əziz xatirəsini yaşadacaq Sarıyerdəki parkda Heydər Əliyevin abidəsinin açılışı münasibətilə bu gün bir araya gəlmişik. Bu münasibətlə mərhum Heydər Əliyevin xatirəsi qarşısında bir daha baş əyirik, ruhunun şad, məkanının cənnət olmasını arzu edirik.

Əziz könül dostları, Heydər Əliyev parkı, sadəcə, onun xatirəsini yaşatmaqla məhdudlaşmayacaqdır. Bu park Türkiyə və Azərbaycan xalqları arasında əzəldən gələn və əbədiyyətə qədər davam edəcək dostluq və qardaşlığın ölkəmizdə və Azərbaycandakı saysız-hesabsız nişanələrinə daha bir əlavə olacaqdır. Böyük dövlət adamı Heydər Əliyevin bir zamanlar çox dəqiq söylədiyi kimi, Türkiyə və Azərbaycan arasındakı dostluq iki suveren və müstəqil dövlət arasında qurula biləcək əlaqələrdən çox üstündür. Həmin münasibətlər dünyada analoquna az rast gəlinən səviyyədədir. Bir az əvvəl qeyd edildiyi kimi, «bir millət, iki dövlət» kəlamında öz dəqiq ifadəsini tapan bu əlaqələri daha da inkişaf etdirmək öhdəliyi hər iki ölkəyə rəhbərlik etmək məsuliyyətini daşıyan bizlər üçün böyük şərəfdir.

Bu hadisə münasibətilə bir araya gəldiyimiz gün ölkəmizi şərəfləndirən Azərbaycan prezidenti hörmətli İlham Əliyevə və onu müşayiət edən hörmətli qonaqlara bir daha «Xoş gəldiniz!» demək istəyirəm. Bilin ki, mərhum Heydər Əliyevin adını daşıyacaq və xatirəsini yaşadacaq bu park sizin üçün də vətən torpağıdır, gələcək nəsillərə qoyub gedəcəyiniz çox dəyərli bir xatirədir.

Çox hörmətli Prezident, dəyərli qonaqlar!

Azərbaycan prezidenti hörmətli İlham Əliyevin və onu müşayiət edən nümayəndə heyətinin ölkəmizə bu dəfəki səfəri son dərəcə mənalı və mənalı olduğu qədər də əhəmiyyətli bir hadisə ilə bağlıdır. Sabah Ceyhanda keçiriləcək mərasimdə Türkiyə və Azərbaycanın başqa bir yaxın dostumuz və qonşumuz olan Gürcüstanla birlikdə əl-ələ verərək gerçəkləşdirdikləri Bakı–Tbilisi–Ceyhan neft kəmərinin açılışı olacaqdır. Bu neft kəməri mərhum Heydər Əliyevin səyləri və birbaşa xidmətləri nəticəsində Türkiyə və Azərbaycan əməkdaşlığının çatdığı səviyyəni göstərən müştərək bir əsərdir. Bu duyğu və düşüncələrlə dəyərli qonaqlarımıza yenidən Türkiyəyə «Xoş gəldiniz!» deyirəm. Mərhum Heydər Əliyevin əziz xatirəsi qarşısında yenidən hörmət və ehtiramla baş əyirik. Hamınızı bir daha hörmətlə salamlayıram.

## Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Əziz dostlar!

Əziz bacılar və qardaşlar, mən sizin hamınızı ürəkdən salamlayıram. Yenidən qardaş Türkiyədə olmağımdan çox böyük məmnunluq hissi keçirirəm. Türkiyə–Azərbaycan qardaş ölkələrdir, bizim xalqlarımız da qardaş xalqlardır. Bu gün bu gözəl tədbirdə iştirak etmək həm böyük məsuliyyətdir, həm də böyük xoşbəxtlikdir. Ulu öndər Heydər Əliyevin bütün həyatı və fəaliyyəti doğma xalqına xidmət etməkdən ibarət olmuşdur. O, həyatının bütün dövrlərində Azərbaycana sədaqətlə, ləyaqətlə xidmət etmişdir. 1993-cü ildə isə Azərbaycana

qayıdandan, prezident seçiləndən sonra Azərbaycanın uzunmüddətli inkişaf strategiyası başlandı. Azərbaycan uzun illər, əsrlər boyu müstəqillikdən məhrum olmuşdur, biz başqa ölkələrin tərkibində yaşayırdıq. 1991-ci ildən isə müstəqil dövlət kimi yaşamağa başladıq. O illər Azərbaycanda çox ağır keçirdi, ölkəmiz çox böyük çətinliklərlə üzləşmişdi. Həm iqtisadi, həm siyasi böhran hökm sürürdü və faktiki olaraq ölkənin müstəqil həyatı təhlükə qarşısında idi. Ölkə parçalanma ərəfəsində idi. Azərbaycan xalqının müdrikliyi Heydər Əliyevin Azərbaycana dəvət edilməsi ilə bir daha özünü göstərdi və 1993-cü ildən bu günə qədər Azərbaycan öz inkişaf dövrünü yaşayır, bütün sahələrdə ölkəmiz güclənir, möhkəmlənir. Azərbaycanın müstəqilliyi artıq əbədi, dönməz xarakter almışdır və ölkəmiz Dünya Birliyində də özünə layiq yerini tuta bilmişdir. Azərbaycanda gedən müsbət proseslər ölkəmizin inkişafı ilə yanaşı, bölgədəki proseslərə müsbət təsir göstərir. Bu gün siyasi-iqtisadi cəhətdən Azərbaycan çox uğurla inkişaf edən bir ölkədir. Məhz Heydər Əliyevin fəaliyyəti nəticəsində 90-cı illərin ortalarında başlanmış uğurlu siyasi və iqtisadi islahatlar bu gün Azərbaycanı çox böyük potensiala malik olan ölkəyə çevirmişdir. İqtisadi sabitlik, siyasi sabitlik, ictimai-siyasi vəziyyətin normallaşması, Azərbaycanda vətəndaş qarşıdurmasına son qoyulması – bütün bunlar ulu öndər Heydər Əliyevin əməyidir. Əgər bu gün Azərbaycan iqtisadi artımın sürəti baxımından dünyada birinci yeri tutursa, bunun təməli, əsası məhz 90-cı illərin ortalarında qoyulmuşdur. Bu gün ölkəmiz çox sürətlə inkişaf edir, keçən il Azərbaycanda iqtisadi artım 26 faiz olmuşdur. Siyasi cəhətdən ölkə bölgədə öz mövqelərini möhkəmləndirir və Azərbaycan xalqı gələcəyə inamla baxır.

Heydər Əliyevin Türkiyə–Azərbaycan münasibətlərinin inkişafında da böyük rolu olmuşdur. O, Türkiyəni ürəkdən sevirdi. Hər zaman Türkiyəyə gələndə özünü çox rahat, çox xoşbəxt hiss edirdi və Türkiyə–Azərbaycan əlaqələrinin yüksək zirvəyə qalxmasında Heydər Əliyevin danılmaz rolu vardır.

Onun məşhur Türkiyə və Azərbaycan «Bir millət, iki dövlət» kəlamı bizim hamımız üçün əzizdir, hamımız üçün doğmadır. Bu ifadə, bu kəlam ürəkdən gələn bir söz idi. Ancaq bununla bərabər, bu sözün çox böyük mənası var, tarixi əhəmiyyəti var. Türkiyə–Azərbaycan birliyinin möhkəmlənməsi üçün, inkişafı üçün böyük önəmi var və bu gün həm Türkiyədə, həm də Azərbaycanda bu söz artıq insanların qəlbində yaşayır. Biz bu gün çalışırıq və bundan sonra da çalışacağıq ki, aramızda olan bu gözəl qardaşlıq münasibətlərini daha da irəliyə aparaq, daha da möhkəmləndirək, yeni formalarla zənginləşdirək. Bizim birliyimizdən çox şey asılıdır. Bizim xalqlarımızın xoşbəxtliyi bölgədə gedən proseslər, təhlükəsizliyin, bölgədə işbirliyinin möhkəmlənməsi – bütün bunlar çox böyük dərəcədə Türkiyə–Azərbaycan işbirliyindən asılıdır. Bu işbirliyi indi ən yüksək zirvəyə qalxıbdır. Bizim aramızda siyasi, iqtisadi, mədəni, bütün başqa əlaqələr ən yüksək zirvədədir. Biz bundan çox məmnunuq.

Sabah biz böyük bir tarixi hadisəni yaşayacağıq. Heydər Əliyevin təşəbbüsü ilə başlanmış Azərbaycanın müasir neft strategiyasının ən önəmli hadisəsi, uzun illər ərzində üzərində işlədiyimiz Bakı–Tbilisi–Ceyhan neft boru kəmərinin açılışını birlikdə qeyd edəcəyik. Bakı–Tbilisi–Ceyhan boru xətti Heydər Əliyevin adını daşıyır. Bu da təsadüfi deyildir. Çünki məhz onun təşəbbüsü ilə 90-cı illərin ortalarında Bakı–Tbilisi–Ceyhan neft kəmərinin tikintisi haqqında qərar verilmişdir. Türk qardaşlarımız Ceyhan terminalına da Heydər Əliyevin adını vermişlər. Bu bir daha onu göstərir ki, həmin layihələrin gerçəkləşməsində Heydər Əliyevin böyük xidmətləri olmuşdur. Bakı–Tbilisi–Ceyhan neft kəməri iki ölkəni daha da sıx birləşdirəcək, bizim önəmimizi artıracaq və Türkiyə–Azərbaycan müttəfiqliyini, qardaşlığını, işbirliyini daha da möhkəmləndirəcəkdir. Bu, dünya əhəmiyyətli bir layihədir. Dünyanın ən böyük enerji layihəsidir. Ancaq bunun ardınca yeni bir layihə gəlir. Bakı–Tbilisi–Ərzurum qaz xəttinin çəkilişi artıq başlanmışdır və bu ilin sonuna qədər onun istismara

verilməsi nəzərdə tutulur. Bu bir daha onu göstərir ki, düşünülmüş, məqsədyönlü neft strategiyası öz bəhrəsini verməkdədir. Bu layihə həyata keçirildikdən sonra Azərbaycan qazı həm Gürcüstana, həm Türkiyəyə veriləcək, eyni zamanda, Türkiyə üzərindən digər ölkələrə də nəql ediləcəkdir. Bu o deməkdir ki, artıq bu layihələr regional müstəvidən çıxıb beynəlxalq, dünya müstəvisinə keçir. Dünyada enerji təhlükəsizliyinin möhkəmlənməsində öz rolunu oynayacaqlar. Bu hadisə bir də onu göstərir ki, işbirliyi olan yerdə, qarşılıqlı anlaşma olan yerdə bütün məsələlər öz həllini tapa bilər. Bakı–Tbilisi–Ceyhan layihəsi bir neçə il bundan əvvəl əfsanə kimi qələmə verilirdi. Bəziləri inanmırdı ki, biz onu həyata keçirəcəyik. Amma xalqlarımızın birliyi, rəhbərlərimizin birgə fəaliyyəti bunu əfsanədən gerçəkliyə çevirdi. Bütün başqa sahələrdə də bizim əlaqələrimiz möhkəmlənir və mən də öz tərəfimdən bu siyasəti davam etdirirəm və gələcəkdə də davam etdirəcəyəm.

Heydər Əliyevin siyasəti Azərbaycanda bütün sahələrdə yaşayır, o cümlədən Türkiyə–Azərbaycan münasibətlərinin möhkəmləndirilməsi işində. Bu münasibətlər daha da möhkəmlənməlidir, bizim birliyimiz daha da sıx olmalıdır. Biz bütün məsələlərə vahid mövqedən yanaşırıq. Həm ikitərəfli münasibətlərdə, həm regionda gedən proseslərdə, həm də bütövlükdə dünya üçün əhəmiyyətli olan məsələlərdə Türkiyə və Azərbaycan vahid mövqedən çıxış edir. Bu həm bizim üçün, ölkələrimiz, xalqlarımız üçün, eyni zamanda, bölgə üçün, dünya üçün çox önəmlidir. Artıq bizim işbirliyimiz, birgə həyata keçirdiyimiz nəhəng layihələr önəmimizi artırır, dünyadakı mövqelərimizi möhkəmləndirir. Bir sözlə, Türkiyə, Azərbaycan dünya miqyasında daha da böyük imkanlara malik olur.

Bu gün mənim üçün çox həyəcanlı bir gündür. Mən bu tədbirdə Azərbaycanın prezidenti kimi iştirak edirəm. Eyni zamanda, Heydər Əliyev mənim atamdır və bir oğul kimi, bu gün bu tədbirdə iştirak etmək mənim üçün çox önəmlidir. Ona görə mən bu gün ikiqat xoşbəxtəm. Dünyanın ən gözəl

şəhərlərindən birində – gözəl İstanbulda, onun ən gözəl guşələrindən birində – Sarıyerdə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin abidəsi açılır. Bu çox böyük tarixi hadisədir və bir daha onu göstərir ki, bizim aramızda, ölkələrimiz arasında olan münasibətlər ən yüksək zirvədədir. Bir daha onu göstərir ki, Türkiyə və türk xalqı Heydər Əliyevin əziz xatirəsini öz qəlbində yaşadır. Onun fəaliyyəti, iş prinsipləri və onun bizim münasibətlərimizə verdiyi töhfə həm Azərbaycanda, həm də Türkiyədə böyük təqdirlə anılır. Bu bizim aramızda olan səmimi münasibətlərin, dostluğun, qardaşlığın əlamətidir, bizim aramızda olan birliyin əlamətidir. Biz bunun tərəfdarıyıq, hamımız çalışmalıyıq ki, bunu daha da möhkəmləndirək. Mən həmişə demişəm və bu gün də deyirəm ki, bizim gücümüz birliyimizdədir. Nə qədər sıx əməkdaşlıq etsək, bizim mövqelərimiz bir o qədər möhkəm olacaqdır. Bizim əleyhimizə fəaliyyət göstərən, uğurlarımızı istəməyən qüvvələr də var. Ancaq onların bütün cəhdlərinə rəğmən, biz istəyimizə nail olduq. Bu gün bu vətənpərvər gənclər çox böyük coşqu ilə öz istəklərini deyirlər və mən də onların istəklərinə qatılıram. Qarabağ məsələsini biz birlikdə həll edəcəyik. Qarabağ məsələsi Azərbaycanın ərazi bütövlüyü prinsipləri əsasında öz həllini tapacaqdır. Azərbaycana qarşı edilən ədalətsiz hərəkətlər, təcavüz, torpaqlarımızın işğalı, bu işğal və ermənilərin azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan artıq soydaşımız qaçqın-köçkün həyatı yaşayır. Biz uzun illərdir çalışırıq ki, bu məsələni sülh yolu ilə, danışıqlar yolu ilə çözək, ancaq bütün bu cəhdlər heç bir səmərə vermir. Biz torpaqlarımızın itirilməsi ilə heç vaxt barışmayacağıq. Biz öz siyasi, iqtisadi, hərbi gücümüzü artırırıq. Azərbaycanın uğurlu inkişafı, bizim güclənmə meyllərimiz bir daha onu göstərir ki, məsələni ədalətli həll edəcəyik. Biz Ermənistan tərəfə imkan veririk, şans yaradırıq ki, işğal etdiyi torpaqlardan öz xoşu ilə, öz istəyi ilə geri çəkilsin və Azərbaycanın ərazi bütövlüyü bərpa olunsun. Ancaq bununla yanaşı, biz bütün başqa variantlara da hazır olmalıyıq.

Azərbaycanın artan gücü, artan önəmi, iqtisadi-hərbi potensialı, bölgədə gedən proseslər, əlbəttə ki, bizim mövqelərimizi daha da möhkəmləndirir. Mən əminəm və heç şübhə etmirəm ki, biz Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ məsələsini ədalətli, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edəcəyik və ölkəmizin ərazi bütövlüyü bərpa olunacaqdır.

Türkiyə–Azərbaycan münasibətlərinin bu işdə önəmi, əlbəttə ki, çox böyükdür. Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra daim Türkiyənin dəstəyini, köməyini hiss etmişdir. 1991-ci ildən indiyə qədər bu, davam edir və bütün bunlara, bütün bu dostluğa, qardaşlığa görə bütün türk xalqına Azərbaycan xalqı adından bir daha öz dərin minnətdarlığımı bildirirəm.

Əziz dostlar, bu parkın, abidənin açılışında iştirak etmək böyük xoşbəxtlikdir və fürsətdən bir daha istifadə edərək bütün türk xalqına, türk bacı-qardaşlarıma öz dərin hörmət-məhəbbətimi ifadə edirəm, türk xalqına, Türkiyəyə yeni-yeni uğurlar, səadət, xoşbəxtlik arzulayıram. Sağ olun.

* * *

*Sonra Azərbaycan prezidenti İlham Əliyev Türkiyənin Dövlət naziri Mehmet Əli Şahin, İstanbul Böyük Şəhər Bələdiyyəsinin və Sarıyer bələdiyyəsinin sədrləri ilə birlikdə Heydər Əliyevin abidəsinin üzərindən ağ örtüyü götürdülər. Azərbaycan prezidenti ulu öndərin abidəsinin önünə gül dəstəsi qoydu. Dövlət naziri Mehmet Əli Şahin və bələdiyyə sədrləri də abidənin önünə gül dəstələri qoydular.*

*Azərbaycan prezidenti İlham Əliyev, dövlət naziri Mehmet Əli Şahin və bələdiyyə sədrləri Heydər Əliyev parkında Atatürkün büstü önünə əklil və gül dəstələri qoydular.*

*Sonra Azərbaycan prezidenti İlham Əliyev ulu öndərin adını daşıyan küçədə üzərində «Heydər Əliyev caddesi» yazılmış lövhənin üzərindən ağ örtüyü götürdü. İstanbulun dəniz sahilində səfalı bir guşədə salınmış Heydər Əliyev parkında şəhər sakinlərinin dincəlməsi üçün hər cür müasir şərait yara-*

*dılmışdır. Azərbaycan və Türkiyə xalqlarının əbədi dostluq və qardaşlığının daha bir nümunəsi olan bu park istanbulluların ən sevimli istirahət yerlərindən birinə çevriləcəkdir.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVƏ TÜRKİYƏNİN NÜFUZLU «EKOVİTRİN» JURNALININ «AVRASİYADA İLİN SİYASƏT ADAMI» MÜKAFATININ TƏQDİM EDİLMƏSİ MƏRASİMİ

*İstanbul,*
*«Qrand cəvahir» mehmanxanası*

*12 iyul 2006-cı il*

*Türkiyənin ən nüfuzlu media qruplarından biri olan «Ekovitrin» 14 ildir ki, iqtisadiyyat sahəsində müxtəlif proqramlar hazırlayaraq Türkiyənin televiziya kanallarında nümayiş etdirir, ölkənin iqtisadi uğurlarını həm türk, həm də dünya ictimaiyyətinə çatdırır. Bu media qrupunun 2000-ci ildən buraxılan «Ekovitrin» aylıq jurnalı nüfuzlu əməkdaşları, ətraflı materialları sayəsində Türkiyənin ən sanballı nəşrlərindən birinə çevrilmişdir. Türkiyə ilə yanaşı, Asiya regionunda da geniş yayılan «Ekovitrin» jurnalı ənənəvi olaraq iqtisadiyyat, biznes, sənaye, ixracat, maliyyə, investisiya, siyasət və yerli idarəçilik sahələrində ilin adamlarını seçir. 2005-ci ildə Türkiyədə və xaricdə yaşayan 9 minə yaxın oxucunun iştirakı ilə keçirilən sorğunun nəticələrinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev «Avrasiyada ilin siyasət adamı» elan olunmuşdur. Azərbaycan prezidenti bu mükafata bir sıra sahələrdə səmərəli fəaliyyətinə və qazandığı uğurlara görə layiq görülmüşdür.*

*İyulun 12-də İstanbulun «Qrand cəvahir» mehmanxanasında Azərbaycan prezidenti İlham Əliyevə «Avrasiyada ilin siyasət adamı» mükafatının təqdim edilməsinə həsr olunmuş mərasim keçirilmişdir. Mərasimi «Ekovitrin» media qrupunun rəhbəri Kamuran Abacıoğlu açdı.*

## «Ekovitrin» media qrupunun rəhbəri Kamuran Abacıoğlunun çıxışı

Hörmətli Prezidentim!

Hörmətli Baş nazir müavinləri, hörmətli İslam Konfransı Təşkilatının Baş katibi!

Dəyərli qonaqlar və hörmətli mətbuat nümayəndələri!

Mən qısa çıxış edəcəyəm. Bir ingilis yazıçısı demişdir ki, xoşbəxt olmağın ən yaxşı yolu bir insanı xoşbəxt etməkdir. Mən inanıram ki, hazırda bu salonda olanların hamısı çox xoşbəxtdirlər. Xoşbəxtliyi birlikdə bölüşdüyümüz üçün qürur hissi keçiririk. 14 ildir ki, müstəqil qəzetçilik anlayışı ilə öncə Anadolu aslanlarını, daha sonra avropalı türkləri, sonra Orta Asiyada uğur qazanan türkləri, Amerikadakı, Uzaq Şərqdəki türkləri, dünyanın harasında türk varsa, onların uğurlarını Türkiyədəki, demək olar ki, bütün televiziyaların ekranlarından türk və dünya insanlarına çatdırmağa çalışdıq. Öz yolumuzdan heç vaxt sapmadan, müsbət düşüncələri əsas götürərək tənqidləri ancaq konstruktiv şəkildə səsləndirmək şərti ilə proqramlarımızı və «Ekovitrin» jurnalımızın fəaliyyətini davam etdiririk. Bu il «Ekovitrin»in ilin ulduzları mükafatı 5-ci dəfə təqdim edilir. Qarşıdakı illərdə mühüm bir hədəfimiz var. Bu mərasimi beynəlxalq qlobal problemlərin müzakirə ediləcəyi, Türkiyənin gələcəyinə nəzər salan bir foruma çevirməyi ürəkdən arzulayırıq və bunu həyata keçirəcəyimizə inanırıq. Mən bu hisslərlə hamınıza «Xoş gəldiniz!» deyir, hörmət və ehtiramlarımı çatdırıram.

## «Ekovitrin»in Baş redaktoru Şərəf Özatanın çıxışı

Hörmətli Prezident!

Hörmətli Baş nazir müavinləri, hörmətli nazirlər, səfirlər, İslam Konfransı Təşkilatının dəyərli Baş katibi!

Hörmətli mətbuat nümayəndələri və qonaqlar!

«Ekovitrin»in ənənəvi ilin ulduzları mərasiminə hamınız xoş gəlmisiniz.

«Ekovitrin» jurnalı işıq üzü gördüyü 2000-ci ildən bu yana toxunduğu iqtisadi mövzular və xüsusi materiallar ilə mətbuatda özünəməxsus bir yer tutdu. Jurnal qısa bir müddət ərzində Türkiyənin sərhədlərini aşaraq Avropadan Orta Asiya türk cümhuriyyətlərinə qədər uzanan geniş bir coğrafiyada iqtisadi əlaqələrin inkişafına mühüm töhfələr vermişdir. Prodüsserlərimizin hazırladıqları və müxtəlif yerli kanallarda nümayiş etdirilən proqramlarımız ən mühüm yerli və xarici film və seriallarla rəqabət apardı, ən çox baxılan 100 proqram arasına daxil oldu. İndi daha geniş kütlələrə öz sözümüzü demək üçün peyk vasitəsilə yayımlanacaq tematik bir televiziya layihəmiz üçün mühüm addımlar atmağa başlamışıq. «Ekovitrin»in məzmununu zənginləşdirməklə yanaşı, qarşıdakı aylarda Türkiyənin ilk beynəlxalq jurnalını türk və ingilis dillərində dərc etməyə başlayacağıq. Eyni zamanda, xarici bir yayım qrupu ilə apardığımız danışıqlar nəticəsində güclü xarici sərmayə dəstəyi əldə edirik. «Ekovitrin»ə dəstək verən bütün dostlarımıza, əməkdaşlarımıza minnətdarlığımı bildirirəm. Hamınız xoş gəlmisiniz.

## Türkiyə Baş nazirinin müavini, Xarici İşlər naziri Abdullah Gülün çıxışı

Hörmətli prezident İlham Əliyev!

Hörmətli qonaqlar!

Bu gün, həqiqətən, mühüm bir görüşdür. Bu görüşün Bakı–Tbilisi–Ceyhan neft kəmərinin açılış mərasimi ərəfəsinə təsadüf etməsi böyük bir məna daşıyır. Bu baxımdan Kamuran bəy başda olmaqla, «Ekovitrin»in bütün əməkdaşlarını təbrik edirəm. Bu təşəbbüslərin, toplantıların daimi olacağını gördük. Gözəl bir platformadır. Bu platformada Türkiyənin və dünyadakı bütün türklərin uğurları təbliğ edilir. Bunun üçün də

daim təşviqedici, uğurları daim ön plana çıxarılan platformalardan biridir. Bu münasibətlə sizi təbrik edirik.

Hörmətli prezidentin bu toplantını şərəfləndirməsi, şübhəsiz, buna ayrı bir dəyər əlavə etmişdir. Buradakı bütün qonaqlar adından hörmətli prezidentə təşəkkür edirəm. Cənab prezident bu axşam və sabah bir çox mühüm toplantılarda iştirak edəcəkdir. Bakı–Tbilisi–Ceyhan neft kəməri, həqiqətən, əsrin ən mühüm layihələrindən biridir. Sadəcə, Qafqaz neftinin Aralıq dənizi vasitəsilə ixrac edilməsi ilə kifayətlənilməyəcəkdir. Bir müddət əvvəl hörmətli prezident İlham Əliyevin Qazaxıstan prezidenti Nursultan Nazarbayevlə imzaladıqları müqaviləyə əsasən, Qazaxıstan nefti bu kəmərlə bütün dünyaya ixrac ediləcəkdir. Bu çox böyük bir uğurdur. Bildiyiniz kimi, Bakı–Tbilisi–Ərzurum qaz kəməri də inşa edilir. İnşallah, bu ilin axırına qədər başa çatdırılacaqdır. Bu da xüsusi strateji əhəmiyyət daşıyan bir layihədir. Əminəm ki, bu kəmər vasitəsilə «Şahdəniz» qazı ilə yanaşı, Orta Asiyanın qaz ehtiyatları da ixrac ediləcək və bütün bu uğurları birlikdə görəcəyik.

Bu mərasimi təşkil edənlərə təşəkkür edirəm. Burada iştirak etdiyi üçün hörmətli prezidentə ehtiramlarımı bildirirəm. Sağ olun.

* * *

*Sonra Türkiyə Baş nazirinin müavini, Xarici İşlər naziri Abdullah Gül Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə «Avrasiyada ilin siyasət adamı» mükafatını təqdim edərək dedi:*

Doğrusu, bu mükafatı təqdim etmək mənim üçün böyük bir şərəfdir. Hörmətli prezident Azərbaycana çox böyük məharətlə rəhbərlik edir. Seçkilərdən sonra Azərbaycan çox böyük sıçrayışlar edir. Bir tərəfdən, iqtisadi uğurlar qazanır, digər tərəfdən isə, Avropa Şurasının bir üzvü olan Azərbaycan demokratiya sahəsində də sürətlə inkişaf edir. Bunları prioritet sahələr kimi gördüyünüz üçün Sizi türk milləti adından, bütün

türklər adından təbrik edirik. Türkiyənin bütün gücü, bütün dəstəyi Azərbaycanın arxasındadır. Bu ölkənin uğurları bizim üçün böyük bir qürur mənbəyidir. Bütün türk milləti bundan böyük sevinc hissi keçirir. İnanırıq ki, qarşıdakı illərdə Azərbaycanın bir çox uğurlarına birlikdə şahid olacağıq. Bütün türk milləti adından Sizi bir daha təbrik edirəm.

## Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Hörmətli xanımlar və cənablar!

Əziz dostlar, əziz bacı-qardaşlarım!

Bu gün mənim üçün çox gözəl bir gündür, çox həyəcanlı bir gündür. Mən yüksək mükafata layiq görüldüm və bu gün əziz dostum, hörmətli Abdullah Gül bu gözəl mükafatı mənə təqdim etdi. Bu, bir tərəfdən, mənim xidmətlərimin tanınması deməkdir, digər tərəfdən və bəlkə də, ən önəmlisi isə, Azərbaycanın son illər ərzində uğurlu inkişafından irəli gəlir. Həqiqətən, bizim ölkəmiz çox qısa müddət ərzində çox böyük inkişaf yolunu keçmişdir. Əgər nəzərə alsaq ki, yalnız 15 il bundan əvvəl Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdi və müstəqil ölkə kimi fəaliyyətə başladı, onda görərik ki, bu qısa müddət ərzində ölkəmiz çox böyük sınaqlardan şərəflə çıxdı. 1991-ci ildə Sovet İttifaqı dağılanda Azərbaycan başqa sovet respublikaları ilə müqayisədə, bəlkə də ən ağır durumda, ən çətin vəziyyətdə idi. Çünki ölkədə hökm sürən böhran, demək olar ki, bütün sahələri iflic vəziyyətinə salmışdı. Azərbaycanda iqtisadiyyat böyük sürətlə tənəzzülə uğrayırdı, siyasi proseslər böyük gərginliklər yaratmışdı, vətəndaş qarşıdurması artıq reallığa çevrilmişdi, insanların həyat səviyyəsi günü-gündən pisləşirdi. Beləliklə, ölkənin müqəddəratı sual altında idi. Əgər Ermənistanın Azərbaycana təcavüzünü də əlavə etsək, görərik ki, vəziyyət çox acınacaqlı idi.

Azərbaycanın uğurlu inkişafı məhz 1993-cü ildən sonra başlanmışdır. 1993-cü ildə Azərbaycan xalqı öz liderinə üz tutdu, Heydər Əliyevi hakimiyyətə dəvət etdi və ondan sonra

Azərbaycanda vəziyyət normallaşdı, sabitləşdi. Siyasi proseslər normal məcraya düşdü, iqtisadi tənəzzülün qarşısı alındı və tədricən inkişaf başlandı. Bu inkişaf bütün sahələri əhatə etməyə başladı, Azərbaycan Dünya Birliyində özünə layiq yerini tutdu. Azərbaycanda aparılan cəsarətli iqtisadi islahatlar qısa müddət ərzində ölkə iqtisadiyyatına böyük təkan verdi. 1996-cı ildən 2003-cü ilə qədər Azərbaycanın iqtisadiyyatı ildə təxminən 10 faiz artırdı. 2004-cü ildən sonra isə bu artım daha da yüksək olmuşdur.

Azərbaycanda siyasi proseslər normallaşdı, demokratikləşmə prosesləri daha da geniş vüsət aldı. Söz azadlığı, fikir azadlığı, azad cəmiyyətin yaranması, qanunun aliliyinin bərpa olunması – bütün bunlar hər bir ölkənin inkişafı üçün başlıca şərtdir. Bu gün Azərbaycanın uğurlu inkişafı onu göstərir ki, seçdiyimiz yol düzgün yol olmuşdur.

Keçən iki il ərzində Azərbaycan iqtisadiyyatı daha da sürətlə inkişaf etdi. 2005-ci ildə iqtisadi artım 26 faiz, 2006-cı ilin 5 ayı ərzində təxminən 40 faiz olmuş, sənaye istehsalı 43 faiz artmışdır. Azərbaycanda son iki il yarım ərzində 400 mindən çox yeni iş yeri açılmışdır. Yoxsulluq şəraitində yaşayanların sayı 20 faiz azalmışdır. Əhalinin gəlirləri 25 faiz artmışdır. Bu iqtisadi göstəricilər özlüyündə sübut edir ki, Azərbaycanın iqtisadi cəhətdən möhkəmlənməsi artıq reallıqdır. Nəzərə alsaq ki, bizim əsas iqtisadi nailiyyətlərimiz hələ irəlidədir, görərik ki, qısa müddət ərzində Azərbaycan iqtisadi cəhətdən çox inkişaf etmiş zəngin dövlətə çevriləcəkdir. Bu da bizim məqsədimiz, amalımızdır. Biz istəyirik ki, ölkəmiz daha da möhkəmlənsin, müasirləşsin, yeniləşsin, iqtisadi cəhətdən qüdrətlənsin və insanlarımız daha da yaxşı yaşasınlar.

Sabah biz tarixi mərasimi birlikdə keçirəcəyik. Bakı–Tbilisi–Ceyhan neft kəmərinin açılış mərasimi sabah Ceyhanda nəzərdə tutulubdur. Bu, böyük bir tarixi hadisədir. Dünyanın ən böyük enerji layihəsidir. Bu layihə təkcə bizə iqtisadi gəlirlər deyil, eyni zamanda, bölgəyə sülh, sabitlik gətirəcək, təhlükəsizlik tədbirləri daha da möhkəmlənəcək və bu layihədə iştirak edən

bütün ölkələrdə yaşayan insanlar bu işdən çox böyük fayda götürəcəklər. Türkiyə, Gürcüstan, Azərbaycan artıq beynəlxalq müstəvidə bu böyük enerji layihəsini və siyasi layihəni həyata keçirməklə bütün dünyaya sübut etmişlər ki, əgər birlik olsa, qarşılıqlı inam olsa və münasibətlər düzgün qurularsa, istənilən məsələ öz həllini tapa bilər. Bəziləri Bakı–Tbilisi–Ceyhan layihəsini bir əfsanə kimi qəbul edirdilər. İnanmırdılar ki, bu, reallaşa bilər, gerçəkləşə bilər. Amma həm siyasi, həm iqtisadi baxımdan çox çətin, ağır şəraitdə olsa da, bu reallaşdı, gerçəkləşdi. Əgər kəmərin keçdiyi əraziyə nəzər salsaq görərik ki, orada çox böyük texniki çətinliklər də mövcud idi. Dağlar, çaylar – bu, böyük bir səfərbərlik tələb edirdi və biz bunu etdik. Biz bu əfsanəni gerçəyə çevirdik. Nəyin hesabına? Ortaya güclü iradə, iqtisadi imkanlar qoyuldu, beynəlxalq maliyyə qurumları bu işə maraq göstərdilər və öz üzərinə maliyyə öhdəlikləri götürdülər. Bir də ki, üç ölkənin cəsarətli siyasəti. Sabah qeyd edəcəyimiz mərasim, əminəm ki, bu bölgənin uzunmüddətli inkişaf yollarını müəyyən edəcəkdir. Xalqlarımız bundan fayda götürəcək, bizim dövlətlərimizin bölgədə və dünyada önəmi artacaq, bir sözlə, Türkiyə və Azərbaycan daha da böyük imkanlara malik olacaqdır.

Bunun ardınca gələn «Şahdəniz» layihəsi də çox böyük strateji əhəmiyyət daşıyır. Bəlkə də, bir neçə il bundan əvvəl onun strateji əhəmiyyəti o qədər də dərk olunmurdu. Amma son müddət ərzində hamı üçün aydın oldu ki, bu layihə böyük əhəmiyyət daşıyır. Biz bu ilin sonuna qədər onu gerçəkləşdirəcəyik və Azərbaycan qazı Türkiyəyə və ondan sonra başqa ölkələrə nəql ediləcəkdir.

Bu bir daha onu göstərir ki, bizim işlərimiz düzgün qurulur. Bizim bütün siyasətimiz, atdığımız bütün addımlar bir məqsədi güdür – ölkəmizi gücləndirmək, zənginləşdirmək, Azərbaycanın mövqelərini möhkəmləndirmək və bölgədə sülh, barış içində yaşamaq. Bu məsələdə Türkiyə–Azərbaycan birliyi ən böyük əhəmiyyət daşıyan bir amildir. Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra Türkiyə dərhal onu müstəqil dövlət kimi

tanıdı və ondan sonra Azərbaycandan öz yardımını əsirgəmədi, ona öz əlini uzatdı. Biz bu yardımı hiss edirik. Həmişə hiss etmişik, xüsusilə, müstəqilliyimizin ilk illərində, Azərbaycan çox çətin vəziyyətdə olarkən. Bu gün də bu dəstək bizim üçün çox önəmlidir. İndi Türkiyə və Azərbaycan bir-birinə dəstək verərək bölgədə, dünyada öz mövqelərini möhkəmləndirir. Bizi birləşdirən enerji layihələri, müştərək tariximiz, milli köklərimiz, eyni baxışlarımız, birliyimizdir. Budur ölkələrimizin inkişafını, gələcəyini müəyyənləşdirən amillər.

Bu gün İstanbulun gözəl yerlərindən biri olan Sarıyer rayonunda ulu öndər Heydər Əliyevin abidəsinin açılışı olmuşdur. Bu, böyük hadisədir və mən orada çıxış edərkən bir daha Heydər Əliyevin o məşhur kəlamını xatırlatdım: «Türkiyə və Azərbaycan bir millət, iki dövlətdir!». Bu həm həqiqətdir, çünki doğrudan da belədir, eyni zamanda, bu bizim siyasətimizdir. Bu siyasət yaşayır və yaşayacaqdır. Bizim xoşbəxtliyimiz, normal yaşamağımız bundan asılıdır. Biz bu gün bir-birimizə çox yaxınıq. Demək olar ki, Türkiyə–Azərbaycan münasibətləri indi ən yüksək zirvədədir. Biz gərək bunu qoruyaq, bunu yeni formalarla daha da zənginləşdirək, yeni işbirliyi layihələri üzərində işləyək ki, bu meyllər davam etsin.

Türkiyə–Azərbaycan birliyindən artıq bölgədə çox şeylər asılıdır. Əlbəttə ki, Avropada müəyyən işlər bizdən asılı olacaqdır və getdikcə bizim önəmimiz artacaqdır. Azərbaycan nefti artıq Türkiyə limanına çatdırılıbdır. İki ildən, üç ildən sonra Azərbaycan ildə 65 milyon ton neft hasil edəcəkdir. Bu çox böyük rəqəmdir. Bu gün hörmətli nazir Abdullah Gül qeyd elədi ki, artıq Qazaxıstanla Azərbaycan arasında müqavilə imzalanıb və Qazaxıstan neftinin də bu yolla nəql edilməsi, təbii ki, kəmərin işinə daha da böyük dəstək verəcəkdir. Biz gələcəkdə əlavə neftin daşınması haqqında düşünürük və bu, gerçəklik ola bilər. Biz indi bu işlər üzərində çalışırıq. Bakı–Tbilisi–Qars dəmir yolunun yaranması işində biz Türkiyə ilə çox fəal çalışırıq və əminəm ki, bu layihəni də biz həyata

keçirəcəyik. Əgər bu olarsa, onda Türkiyə Azərbaycanla dəmir yolu ilə birləşəcək, Türkiyə Orta Asiya ilə dəmir yolu ilə birləşəcək, Orta Asiya Avropa ilə birləşəcəkdir. Bu dəmir yolu həm Azərbaycanı Türkiyə ilə birləşdirəcək, eyni zamanda, Avropanı Asiya ilə birləşdirəcəkdir. Yəni bu layihənin çox böyük əhəmiyyəti var. Bütün bu işlərin mərkəzində Türkiyə və Azərbaycan dayanır. Bizim iştirakımız olmadan bölgədə heç bir layihə həyata keçirilə bilməz.

Biz bütün layihələrin fəal iştirakçıları, onların təşəbbüs-karıyıq və belə olan halda, əlbəttə ki, dünyada bizim çəkimiz artacaqdır. Türkiyənin uğurları bizi çox sevindirir, bizi daha da ruhlandırır. Eyni zamanda, bilirəm ki, Azərbaycanın uğurlu inkişafı türk qardaşlarımıza da böyük sevinc gətirir. Bizim birliyimiz bizim gələcəyimizdir.

Azərbaycanın uğurlu inkişafı artıq reallıqdır və mən şübhə etmirəm ki, gələcəkdə bu meyllər ancaq və ancaq güc-lənəcəkdir. Amma bununla yanaşı, problemlər də az deyildir. İlk növbədə, bu, Azərbaycanın torpaqlarının işğal altında qalmasıdır. Bilirsiniz ki, uzun illərdir Azərbaycan xalqı bu işğaldan, Ermənistanın Azərbaycana qarşı etnik təmizləmə siyasətindən əziyyət çəkir. Bir milyondan artıq qaçqın-köçkünümüz var, torpaqlarımızın 20 faizi işğal altındadır. Ermənistanın qeyri-konstruktiv mövqeyi imkan vermir ki, bu məsələ sülh yolu ilə həll olunsun. Azərbaycan öz hərəkətləri ilə, öz siyasəti ilə artıq sübut edib ki, biz sülh prosesinə sadiqik. Baxmayaraq ki, 12 ildir atəşkəs rejimi elan olunub, danışıqlar aparılır, ancaq bunun heç bir nəticəsi yoxdur. Yəni bu 12 il ərzində Azərbaycan özünü kifayət qədər konstruktiv göstərib, öz sülh məramını ifadə edib və artıq bu reallıqdır. Amma biz nə vaxta qədər gözləməliyik? Bizim səbrimiz əbədi deyil, tükənməz deyildir. Biz bütün imkanlardan istifadə etməliyik. Siyasi, diplomatik, iqtisadi, hərbi – bütün imkanlardan. Bu gün Azərbaycanın artan imkanları deməyə əsas verir ki, biz Qarabağ məsələsini də öz xeyrimizə həll edəcəyik, ədalətli həll edəcəyik və Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaqdır.

Əziz dostlar, əziz bacılar və qardaşlar, bu yüksək mükafatı mənə verdiyiniz üçün sizə bir daha təşəkkürümü bildirirəm, bir daha qardaş Türkiyədə olmağımdan öz məmnunluğumu bildirmək istəyirəm və bütün türk xalqına dərin hörmət və məhəbbətimi ifadə edirəm. Çox sağ olun!

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏ PREZİDENTİ ƏHMƏD NECDƏT SEZƏRİN GÖRÜŞÜ

*İstanbul,*
*«Çırağan» sarayı*

*12 iyul 2006-cı il*

*İyulun 12-də İstanbulun «Çırağan» sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Əhməd Necdət Sezərin görüşü olmuşdur.*

*Dövlət başçıları Azərbaycan ilə Türkiyə arasında heç bir problemin olmadığını vurğuladılar.*

*Prezident Əhməd Necdət Sezər Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft boru kəmərinin qarşıdakı açılışı münasibətilə prezident İlham Əliyevi təbrik etdi, bu beynəlxalq layihəni əfsanədən gerçəkliyə çevirən ulu öndər Heydər Əliyevin tarixi xidmətlərini xatırlatdı. O bildirdi ki, İstanbulun gözəl bir yerində Heydər Əliyevin heykəlinin və adını daşıyan parkın və küçənin açılması çox sevindirici haldır və onun tarixi xidmətlərinə bir töhfədir.*

*Azərbaycan prezidenti İlham Əliyev xalqımızın ümummilli lideri Heydər Əliyevin xidmətlərinə verdikləri yüksək qiymətə görə Türkiyə dövlətinin başçısına təşəkkürünü bildirdi və dedi ki, ulu öndər Heydər Əliyevin siyasəti, eləcə də uğurlu neft strategiyası bu gün də davam etdirilir. Vaxtilə bəziləri Bakı–Tbilisi–Ceyhan layihəsinə inanmasa da, artıq bu gerçəklikdir, reallıqdır. İnanıram ki, gələcəkdə Bakı–Tbilisi–Ərzurum qaz kəməri və Qars–Axalkalaki–Bakı dəmir yolu layihələri də həyata keçiriləcəkdir.*

**AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ GÜRCÜSTAN PREZİDENTİ MİXEİL SAAKAŞVİLİNİN GÖRÜŞÜ**

*İstanbul,*
*«Çırağan» sarayı*

*12 iyul 2006-cı il*

*İyulun 12-də İstanbulun «Çırağan» sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Gürcüstan prezidenti Mixeil Saakaşvilinin görüşü olmuşdur.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli əlaqələrin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulandı. Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft boru kəmərinin işə düşməsinin regional əməkdaşlığın daha da inkişafına xidmət etdiyini bildirən dövlət başçıları qarşılıqlı maraq doğuran məsələlər barədə müzakirə apardılar.*

## HEYDƏR ƏLİYEV ADINA BAKI–TBİLİSİ–CEYHAN ƏSAS İXRAC BORU KƏMƏRİNİN İSTİFADƏYƏ VERİLMƏSİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ* NİTQ

*Türkiyə,*
*Ceyhan şəhəri*

*13 iyul 2006-cı il*

*İyulun 13-də Azərbaycan prezidenti İlham Əliyev, Türkiyə prezidenti Əhməd Necdət Sezər, Gürcüstan prezidenti Mixeil Saakaşvili Bakı–Tbilisi–Ceyhan boru kəmərinin rəsmi açılış mərasimində iştirak etmək üçün İstanbuldan təyyarə ilə Adana şəhərinə gəldilər.*

*Hava limanında dövlət başçılarının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Sonra prezidentlər İlham Əliyev, Əhməd Necdət Sezər və Mixeil Saakaşvili avtomobillərlə Heydər Əliyev adına Ceyhan terminalına gəldilər.*

*Ceyhan terminalında mərasimə toplaşanlar dövlət başçılarını, eləcə də, Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanı, bp şirkətinin prezidenti Con Braunu, habelə 30-dək ölkənin dövlət və hökumət nümayəndələrini, beynəlxalq və regional təşkilatların təmsilçilərini ehtiramla qarşıladılar.*

---

* Mərasimdə *bp* şirkətinin prezidenti Con Braun, «*bp*– Azərbaycan» şirkətinin prezidenti Devid Vudvord, ABŞ-ın Energetika nazirinin müavini Kley Selin, Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan, Gürcüstan prezidenti Mixeil Saakaşvili və Türkiyə prezidenti Əhməd Necdət Sezər çıxış etdilər.

*Açılış mərasimini işıqlandırmaq üçün 300-dək jurnalist gəlmişdi. Mərasimin əvvəlində Azərbaycan, Gürcüstan və Türkiyənin dövlət himnləri ifa olundu.Sonra BTC-nin tarixi və tikintisinə dair sənədli filmdən kadrlar göstərildi.*

**İlham Əliyev:** Hörmətli prezident Əhməd Necdət Sezər!
Hörmətli prezident Mixeil Saakaşvili!
Hörmətli Baş nazir Rəcəb Tayyib Ərdoğan!
Xanımlar və cənablar, əziz dostlar!

Bu gün tarixi bir gündür. Bakı–Tbilisi–Ceyhan neft boru kəməri istismara verilir və bu tarixi günü biz birlikdə Ceyhan terminalında qeyd edirik. Bu gün mərasimin əvvəlində nümayiş etdirilən qısa filmdə tarixi anlar bir daha xatırlandı. 1994-cü ildə «Əsrin müqaviləsi»nin imzalanmasının görüntülərini bu gün bir daha gördük. Həqiqətən, bütün bu işlər, nəhəng layihələr məhz 1994-cü ildə başlanmışdır. «Əsrin müqaviləsi»nin imzalanması ilə Azərbaycanda böyük neft siyasəti başlanmışdır. Azərbaycan prezidenti Heydər Əliyevin təşəbbüsü ilə başlanmış Azərbaycanın yeni neft strategiyası öz imkanlarından istifadə edib bizi qarşıda duran bütün məqsədlərə çatdırdı. «Azəri», «Çıraq», «Günəşli» neft yataqlarının işlənilməsi nəticəsində hasil olunan Azərbaycan nefti bu gün dünya bazarlarına müxtəlif yollarla ixrac edilir.

Onu da qeyd etmək istəyirəm ki, Azərbaycan tarixdə ilk dəfə olaraq, Xəzər dənizinin özünəməxsus olan sektoruna xarici investorları dəvət etdi. Ondan əvvəl Xəzər dənizində xarici şirkətlər heç vaxt fəaliyyət göstərməmişdir. Bütövlükdə Azərbaycan neft ölkəsi kimi tanınır. Dünyada ilk dəfə sənaye üsulu ilə neft Azərbaycanda çıxarılmışdır. O cümlədən dünyada dəniz yataqlarından ilk dəfə neft Azərbaycanda, Xəzər dənizində hasil edilmişdir. 1994-cü ildə başlanmış yeni layihələr Azərbaycana onun neft şöhrətini təzədən qaytardı. Bu gün Azərbaycan bu imkanlardan səmərəli istifadə edərək, öz iqtisadi potensialını gücləndirir. Azərbaycanda gedən iqtisadi inkişaf artıq hamımız tərəfindən görünür. Keçən il iqtisadiyyat

26 faiz, bu ilin 5 ayında təxminən 40 faiz artmışdır. Bütün bu nəticələrin təməli məhz 1994-cü ildə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə imzalanmış «Əsrin müqaviləsi» ilə qoyulmuşdur.

O vaxt Azərbaycan çox çətin, ağır durumda idi. Müstəqilliyi yenicə əldə etmiş ölkə iqtisadi böhran içərisində yaşayırdı. O cümlədən siyasi vəziyyət o qədər də ürəkaçan deyildi. Ölkədə sabitlik hələ tam bərqərar olunmamışdı. Azərbaycan çox riskli bir ölkə kimi tanınırdı və o şəraitdə xarici sərmayəni Azərbaycana cəlb etmək, investorları inandırmaq ki, Azərbaycanda onların sərmayəsi batmayacaq, əksinə, əlavə sərmayə, əlavə gəlirlər gətirəcək – bu, əlbəttə ki, çox böyük siyasi bacarıq, müdriklik, uzaqgörənlik tələb edirdi. Azərbaycanın ümummilli lideri Heydər Əliyevin fəaliyyəti nəticəsində bu gün biz bu gözəl anları yaşayırıq. Nəzərə alsaq ki, həm ölkə daxilində, həm də bölgədə və bütövlükdə, müəyyən mənada dünyada Bakı–Tbilisi–Ceyhan neft kəmərinə inam o qədər böyük deyildi, onda görərik ki, bu işin həyata keçirilməsi nə qədər böyük çətinliklərlə müşayiət olunurdu. İnanmayan var idi, eyni zamanda Bakı–Tbilisi–Ceyhan neft kəmərinin inşasının qarşısının alınmasına çalışanlar var idi, problemlər, maneə törədənlər var idi. Ancaq xalqımızın iradəsi, Azərbaycan, Türkiyə, Gürcüstan rəhbərliyinin iradəsi, bizim birgə fəaliyyətimiz bu əfsanəni gerçəkliyə çevirdi.

Azərbaycanda son 12 il ərzində təkcə neft-qaz sənayesinə 20 milyard dollardan çox vəsait qoyulmuşdur. Bu gün Azərbaycan neftini dünya bazarlarına çıxaran 3 ixrac neft kəməri var. Onların ən böyüyü Heydər Əliyevin adını daşıyan Bakı-Tbilisi-Ceyhan neft kəməridir. Bu illər ərzində Azərbaycanın neft infrastrukturu yeniləşdi, müasirləşdi. Azərbaycanda yeni, peşəkar mütəxəssislər yetişdi, fəhlələr yetişdi. Bizim birgə fəaliyyətimiz nəticəsində, xarici şirkətlərlə birlikdə gördüyümüz işlər nəticəsində bu sahəyə də böyük diqqət verildi. Bu imkandan, bugünkü fürsətdən istifadə edib, xüsusilə xarici şirkətlərin fəaliyyətini vurğulamaq istəyirəm. *bp* şirkətinin

rəhbərliyi ilə Azərbaycanda 1994-cü ildən fəaliyyət göstərən beynəlxalq konsorsiumun işini yüksək qiymətləndirirəm. *bp* şirkəti eyni zamanda, Bakı–Tbilisi–Ceyhan layihəsində aparıcı rol oynayır və bu şirkətin Azərbaycana verdiyi töhfələri biz çox yüksək qiymətləndirir və bunları təqdir edirik. Bu bizə imkan verdi ki, Azərbaycan iqtisadi cəhətdən inkişaf etsin, neft amilindən məharətlə istifadə etsin.

Biz neft tarixini yaxşı bilirik. Müxtəlif ölkələrin təcrübəsini də öyrənmişik. Əfsuslar olsun ki, bəzi hallarda neft ölkəyə, xalqlara rifah deyil, çətinliklər gətirir, sosial ədalətsizlik, problemlər, gərginlik gətirir. Biz isə istəyirik ki, neft Azərbaycana sülh, inkişaf gətirsin, əməkdaşlıq gətirsin, xalqımızın rifah halı yaxşılaşsın. Əlbəttə ki, bütün görülən işlər bu məqsədi güdür və Azərbaycanda uzun illər ərzində fəaliyyət göstərən Dövlət Neft Fondunun işi bunun bariz nümunəsidir.

Bu gün mən xüsusilə Amerika Birləşmiş Ştatlarının bu məsələ ilə bağlı olan fəaliyyətini vurğulamaq istəyirəm. Biz Amerikanın dəstəyini bütün dövrlərdə hiss etmişik, ona arxalanmışıq və o dəstək bəzi məqamlarda həlledici rol oynamışdır. Həm «Azəri», «Çıraq», «Günəşli» neft yataqlarının işlənilməsində və həm də Bakı–Tbilisi–Ceyhan neft kəmərinin inşasında Amerika hökumətinin dəstəyi çox önəmli olmuşdur. Biz bunu çox yüksək qiymətləndiririk və buna görə Amerika hökumətinə minnətdarıq.

Bu işin ərsəyə gəlməsində beynəlxalq əməkdaşlıq yarandı: üç ölkə – Türkiyə, Gürcüstan, Azərbaycan, xarici neft şirkətləri, xarici maliyyə qurumları, yerli mütəxəssislər, neftçilər, fəhlələr, hüquqşünaslar. Bu işlərdə əməyi olan bütün insanlara mən Azərbaycan dövləti adından öz dərin minnətdarlığımı bildirirəm.

Bu kəmərin fəaliyyətə başlaması ilə Azərbaycanın qarşısında yeni üfüqlər açılır, yeni imkanlar açılır. Azərbaycan iqtisadi cəhətdən çox zəngin ölkəyə çevriləcəkdir. Ölkədə bütün sosial problemlər öz həllini tapacaqdır. Azərbaycan çox önəmli neft ixrac edən ölkəyə çevrilir. Əminəm ki, neftdən əldə olunan

gəlirlərdən istifadə edilməklə Azərbaycanda bütün sosial məsələlər qısa müddət ərzində öz həllini tapacaq və Azərbaycan dünya iqtisadiyyatına daha da inamla inteqrasiya edəcəkdir.

Baxın, Bakı–Tbilisi–Ceyhan neft kəmərinin fəaliyyətə başlaması bölgədə gedən proseslərə nə qədər böyük təkan verdi. Bunun ardınca biz Bakı–Tbilisi–Ərzurum qaz kəmərinin istismarına çox yaxınıq. Bu layihə bir növ, Bakı–Tbilisi–Ceyhanın kölgəsində idi. Ancaq bu gün hamı görür ki, onun nə qədər böyük strateji əhəmiyyəti var. Nəzərə alsaq ki, xüsusilə indi dünyada və Avropada enerji təhlükəsizliyi məsələləri çox önəm daşıyır, onda görərik ki, Azərbaycan qazının Gürcüstana və Türkiyəyə gətirilməsinin çox böyük strateji əhəmiyyəti var.

Artıq biz yeni dövrə qədəm qoyuruq. Bəlkə də bir neçə il bundan əvvəl zənn edirdik ki, Bakı–Tbilisi–Ceyhan neft kəmərinin tamamlanması ilə bizim əsas işlərimiz bitmiş olacaqdır. Amma həyat yerində durmur. Bakı–Tbilisi–Ceyhan kəmərinin tamamlanması, sadəcə olaraq, bizim işimizin yeni mərhələsinin başlanması deməkdir. Bundan sonra Qazaxıstan nefti bu kəmər vasitəsilə dünya bazarlarına çıxarılacaqdır. Qaz ehtiyatları ilə zəngin olan Azərbaycan «Şahdəniz» qaz yatağından çıxarılan qazı Avropaya göndərəcəkdir. Digər önəmli layihələr, Bakı–Tbilisi–Ceyhanın ardınca gələn layihələr məhz Bakı–Tbilisi–Ceyhanın fəaliyyətə başlaması nəticəsində yaranır.

Bu, iqtisadi layihə deyil, sadəcə olaraq, texniki layihə deyil, halbuki texniki cəhətdən, iqtisadi cəhətdən və siyasi cəhətdən bunun meydana gəlməsi çox böyük çətinliklərlə müşahidə olunurdu. Bakı–Tbilisi–Ceyhanın daha geniş mənası var. Artıq bu layihə regional çərçivədən çıxıb qlobal müstəviyə keçmişdir. Layihənin bu gün də dünya üçün böyük əhəmiyyəti var və gələcəkdə daha da artacaqdır. Belə olan halda, Azərbaycanın, Gürcüstanın, Türkiyənin də önəmi artacaqdır. Bu dəhlizdən istifadə edib başqa ölkələr də faydalana bilərlər. Azərbaycan həm neft-qaz hasil edən ölkə kimi, eyni zamanda tranzit ölkə kimi, bizim dostlarımızla bərabər fəaliyyətə başlayacaqdır. Yəni

inanılmaz dərəcədə gözəl imkanlar açılır. Bütün bu imkanları möhkəmləndirmək, onlardan istifadə etmək üçün bölgədə təhlükəsizlik tədbirləri güclənməlidir. Mən əminəm ki, bu işdə Bakı–Tbilisi–Ceyhanın əhəmiyyəti daha da artacaqdır. Təhlükəsizlik tədbirləri, regional əməkdaşlıq, sülhün bərqərar olunması – bütün bunlar bölgə üçün lazımdır. Bölgənin inkişafı bundan sonra tam başqa formalarla zənginləşəcəkdir. Bu gün Azərbaycan, Türkiyə və Gürcüstan regional müstəvidə müttəfiq ölkələrdir. Bizim müttəfiqliyimiz artıq həyatda öz əksini tapıbdır. Bizim müttəfiqliyimiz bölgəyə təhlükəsizlik, sabitlik gətirir. Biz bunu istəyirik, sülh, əmin-amanlıq şəraitində yaşamaq istəyirik. İstəyirik ki, xalqlarımız rifah içərisində yaşasınlar, problemlər öz həllini tapsın və ölkələrimiz möhkəmlənsin. Hər üç ölkə bu layihənin həyata keçirilməsindən böyük faydalar götürəcəkdir. Bəlkə də bu gün onların hamısını təsəvvür etmək mümkün deyildir. Amma vaxt keçdikcə, həyat keçdikcə biz bunların bariz nümunələrini açıq görəcəyik.

Qarşıda yeni məsələlər var, yeni layihələr var. Qars–Tbilisi–Bakı dəmir yolunun yaranması məsələsi artıq gündəlikdədir və biz bunun üzərində çox ciddi işləyirik. Bütövlükdə, qədim İpək Yolunun bərpası işində Bakı–Tbilisi–Ceyhan neft kəmərinin çox böyük əhəmiyyəti var. Bir sözlə, bu layihə artıq qlobal xarakter daşıyır və üç ölkənin səmərəli işbirliyi, əməkdaşlığı bunu mümkün etmişdir.

Mən bu fürsətdən istifadə edib bir daha demək istəyirəm ki, bizim həm Türkiyə, həm də Gürcüstanla ikitərəfli münasibətlərimiz ən yüksək zirvədədir. Bu münasibətlər qardaşlıq xarakteri daşıyır, xalqlarımızı bir-birinə daha da yaxınlaşdırır, belə nəhəng layihələrin həyata keçirilməsinə imkan yaradır. Çünki bu gün Azərbaycanda icra olunan layihələr dünyanın ən böyük enerji layihələridir. Dünyanın gələcəyi isə enerji mənbələri ilə bağlı olacaqdır. Artıq bunu hamı bilir və hamı görür ki, enerji təhlükəsizliyi ölkənin ümumi təhlükəsizliyinə çox böyük töhfə verir. Enerji müstəqilliyi ölkənin müstəqilliyini möhkəmləndirir.

Gürcüstan və Azərbaycan gənc müstəqil dövlətlərdir. Biz yalnız 15 il bundan əvvəl müstəqilliyimizi bərpa etmişik və bizim üçün müstəqillik ən yüksək, ən böyük nemətdir, ən böyük sərvətdir. Bakı–Tbilisi–Ceyhan bizim müstəqilliyimizi möhkəmləndirəcək, enerji müstəqilliyimizi təmin edəcəkdir. Belə olan halda biz müstəqil siyasət apararaq xalqlarımızın rifah halını yaxşılaşdıracağıq, milli maraqlarımızı daha da inamla müdafiə edəcəyik. Ona görə Bakı–Tbilisi–Ceyhan layihəsinin çox geniş aspektləri var. Bu gün bunların hamısını sadalamaq çox vaxt aparar. Bir sözlə, bu, strateji əhəmiyyət daşıyan, ölkələrimizin müqəddəratını təmin edən, xoşbəxt gələcəyini təmin edən layihədir.

Bu gün mən çox xoşbəxtəm ki, buradayam. Ceyhan terminalına da Azərbaycanın ümummilli lideri Heydər Əliyevin adı verilmişdir. Bu, təsadüfi deyildir. Heydər Əliyevin adını həm Bakı–Tbilisi–Ceyhan, həm də Ceyhan terminalı daşıyır. Heydər Əliyev bu layihələrin təşəbbüskarı, onların memarı olmuşdur. Mən bu gün çox təəssüf edirəm ki, o bu günləri görmədi. Allah ona bunu nəsib etmədi. Amma inanıram ki, onun ruhu bu gün bizimlədir. Bizimlə bərabər onun ruhu bu gün şaddır. Azərbaycan, Gürcüstan və Türkiyənin işbirliyi, qardaşlığı, əməkdaşlığı bundan sonra da möhkəmlənəcək və bizim bölgəyə sülh, sabitlik gətirəcəkdir.

Əziz dostlar, bu gözəl, tarixi hadisə münasibətilə sizin hamınızı bir daha ürəkdən təbrik edirəm, qardaş türk, gürcü və doğma Azərbaycan xalqlarına sülh, əmin-amanlıq, xoşbəxtlik arzulayıram. Sağ olun.

* * *

*İyulun 12-də İstanbulun «Çırağan» sarayında Türkiyə Respublikasının Prezidenti Əhməd Necdət Sezərin adından Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft boru kəmərinin açılışı mərasimində iştirak etmək üçün Türkiyəyə gəlmiş dövlət və hökumət başçılarının şərəfinə rəsmi ziyafət verilmişdir.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN GÖRÜŞÜ

*Türkiyə,*
*Ceyhan şəhəri*

*13 iyul 2006-cı il*

*Heydər Əliyev adına Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin təntənəli açılış mərasimi başa çatdıqdan sonra Azərbaycan prezidenti İlham Əliyevin və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın görüşü olmuşdur.*

*Görüşdə ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin durmadan inkişaf etdiyi, Bakı–Tbilisi–Ceyhan neft kəmərinin açılış mərasiminin yüksək səviyyədə təşkil olunduğu və keçirildiyi bildirildi, gələcəkdə bir sıra mühüm iqtisadi layihələrin uğurla reallaşacağı əminliklə vurğulandı.*

*Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlər barədə fikir mübadiləsi aparıldı.*

* * *

*Sonra Azərbaycan prezidenti İlham Əliyev Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanla birlikdə üzərində ulu öndər Heydər Əliyevin iri portreti olan və «Heydər Əliyev adına Ceyhan terminalı» sözləri yazılmış lövhənin önündə xatirə şəkli çəkdirdilər.*

## «TÜRKİYƏ–AZƏRBAYCAN QARDAŞLIĞI PARKI»NIN TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİ

*Türkiyə,*
*Ceyhan şəhəri*

*13 iyul 2006-cı il*

*İyulun 13-də Azərbaycan prezidenti İlham Əliyev və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan Ceyhan şəhərində ulu öndər Heydər Əliyevin adını daşıyan «Türkiyə–Azərbaycan qardaşlığı parkı»nın təntənəli açılışında iştirak etmişlər.*

*Dövlətimizin başçısını və dost ölkənin Baş nazirini buraya toplaşan minlərlə sakin böyük hörmət və hərarətlə, gül-çiçəklə qarşıladı. Ətraf binada türk dünyasının dahi şəxsiyyətləri Atatürkün və Heydər Əliyevin portretləri, Azərbaycanın və Türkiyənin dövlət bayraqları asılmışdı. Azərbaycan prezidentini salamlayan, hər iki qardaş ölkənin birliyini vurğulayan şüarlar diqqəti cəlb edirdi.*

*Ceyhan şəhərinin mərkəzi küçəsində yerləşən bu istirahət guşəsi müasirliyi, gözəlliyi və sakinlərin asudə vaxtlarını səmərəli keçirməsi üçün yaradılan şəraiti ilə göz oxşayır. Parkda ulu öndərlər Atatürkün və Heydər Əliyevin abidələri ucaldılmış, heykəllərin arxasındakı lövhədə isə Türkiyənin və Azərbaycanın xəritələrinin üzərində iki dost, qardaş ölkənin qədimliyini əks etdirən tarix-mədəniyyət abidələrinin şəkilləri, Atatürkün və Heydər Əliyevin «Azərbaycanın kədəri bizim kədərimiz, sevinci bizim sevincimizdir», «Biz bir millət, iki dövlətik» müdrik kəlamları yazılmışdır. Abidə kompleksi Azərbaycan və Türkiyə memarları və mütəxəssisləri tərəfindən hazırlanmışdır.*

*Prezident İlham Əliyev və Baş nazir Rəcəb Tayyib Ərdoğan türk dünyasının dahi şəxsiyyətləri Mustafa Kamal Atatürkün və Heydər Əliyevin abidələri önünə gül dəstələri qoydular, kompleksi seyr etdilər.*

**H ü s e y n   S ö z l ü** (*Ceyhan bələdiyyəsinin başçısı*): Qardaş Azərbaycanın çox hörmətli prezidenti İlham Əliyev!

Türkiyə Cümhuriyyətinin hörmətli Baş naziri!

Hörmətli nazirlər, millət vəkilləri, valilər!

Hörmətli qonaqlar, sevimli ceyhanlılar!

Bu gün Bakı–Tbilisi–Ceyhan boru xəttinin açılışı münasibətilə tarixi bir günü yaşayırıq. Biz dəyərli həmvətənlərimizin arzusu ilə gerçəkləşdirdiyimiz «Türkiyə–Azərbaycan qardaşlığı parkı»nda türk millətinin iki dəyərli övladının – ulu öndərimiz, qurucumuz Atatürkün və Azərbaycanın ulu öndəri, qurucusu Heydər Əliyevin abidələrini də ziyarət edərək, çox şərəfli bir günü qeyd edirik. Mən bütün qonaqlarımıza bir daha «Xoş gəlmisiniz!» deyir, dərin sevgi və hörmətimi bildirirəm.

Bu tarixi günü yaşayarkən, həqiqətən də çox böyük həyəcan içindəyik. Eyni dili danışdığımız, eyni kökdən gəldiyimiz, eyni mədəniyyətin övladları olduğumuz Azərbaycanın möhtərəm prezidentini bir daha salamlayır və böyük məmnuniyyətlə sözü ona verirəm.

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Əziz dostum, qardaşım Rəcəb Tayyib Ərdoğan!

Əziz bacılar və qardaşlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram və bütün türk xalqına öz dərin hörmət və məhəbbətimi ifadə edirəm. «Türkiyə–Azərbaycan qardaşlığı parkı» iki ölkə, iki xalq arasında olan münasibətləri əks etdirir. Bizim tariximiz, müştərək köklərimiz və bizim bu günümüz – bütün bunlar bir-biri ilə sıx bağlıdır. Türk və Azərbaycan xalqları əsrlər boyu bir-birinə çox

sıx bağlı olmuşlar. Ancaq tarixin hökmünə görə, illər ərzində bir-birindən uzaq düşmüşlər. Yalnız Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra biz yenidən bir-birimizə qovuşduq, bir-birimizlə yenidən təmasda oluruq. Bu gün bizim birliyimiz, bir-birimizə bağlılığımız həm xalqlarımız, dövlətlərimiz üçün və həm də bütün bölgə üçün çox böyük əhəmiyyət kəsb edir.

Bu gün açılışında iştirak etdiyimiz Bakı–Tbilisi–Ceyhan boru xəttinin ərsəyə gəlməsi də iki xalqın, iki ölkənin birgə fəaliyyəti nəticəsində mümkün olmuşdur. Bizim gücümüz birliyimizdədir. Bu gün biz çox tarixi gün yaşadıq. Əsrlər boyu Azərbaycan xalqı və türk xalqı birlikdə yaşamağa meyl göstərmişdir. Bu gün biz bunu yaşayırıq. Bu gün bizim birgə fəaliyyətimizdən dünyada gedən proseslərə də təsir payı düşür. Bu gün bu gözəl gündə sizinlə bərabər olmağımdan çox böyük xoşbəxtlik hissi duyuram.

Bu parkda iki ulu insanın, türk dünyasının öndərlərinin heykəlləri qoyulmuşdur. Mustafa Kamal Atatürk, ulu öndərimiz müasir Türkiyənin qurucusudur, Türkiyənin xilaskarıdır və bu gün müasir Türkiyənin çox möhkəm inkişafı məhz Mustafa Kamal Atatürkün fəaliyyəti nəticəsində mümkün olmuşdur.

Ulu öndər Heydər Əliyev 1993-cü ildə Azərbaycana hakimiyyətə gələndə Azərbaycan faktiki olaraq parçalanma ərəfəsində idi. Azərbaycan çox pis duruma düşmüşdü və ölkənin müqəddəratı çox qeyri-müəyyən idi. Onun fəaliyyəti nəticəsində Azərbaycan qüvvətləndi, öz müstəqilliyini qoruyub saxlaya bildi və bu gün uğurla inkişaf edən ölkədir.

Bu gün Türkiyə və Azərbaycan dünyada öz mövqelərini möhkəmləndirirlər. Türkiyə və Azərbaycan iqtisadi baxımdan öz imkanlarını artırırlar. Bizim birgə fəaliyyətimiz bizə fayda gətirir, xalqlarımıza fayda gətirir, bölgəyə sülh, sabitlik gətirir və bu gün bu gözəl gündə sizinlə bərabər olmaq mənim üçün çox böyük şərəf və xoşbəxtlikdir.

Əziz, doğma bacı-qardaşlarım, bu əziz gündə sizi bir daha ürəkdən salamlayıram. Hər bir Türkiyə vətəndaşına xoşbəxtlik, səadət, cansağlığı, yeni-yeni uğurlar arzulayıram.

Yaşasın Türkiyə, yaşasın Azərbaycan!

## Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın çıxışı

Dəyərli qardaşım, Azərbaycan prezidenti hörmətli Əliyev!

Dəyərli ceyhanlı qardaşlarım!

Hörmətli xanımlar və cənablar!

Sizi belə gözəl bir açılış mərasimində ən xoş duyğularla salamlayıram.

Bu gün iki mühüm mərasimi gerçəkləşdirdik. Bunlardan biri Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft boru xəttinin açılışı idi ki, bunun da memarı mərhum Heydər Əliyev olmuşdur. Məhz Ceyhandakı terminal Heydər Əliyev adına terminal kimi tarixə düşdü və bununla bu bölgə sülhə, qardaşlığa, dostluğa bir mesaj verdi. 1994-cü ildən bu günə qədər atılan addımlar, şükürlər olsun ki, son nöqtəsinə çatdı. İyunun 4-dən etibarən neft daşınmağa başladı və bu gün Ceyhanda rəsmi mərasimi gerçəkləşdirdik.

Hazırda ikinci mərasimi keçirir, «Türkiyə–Azərbaycan qardaşlığı parkı»nın açılışını edirik. Xüsusilə Ceyhanın bələdiyyə başçısına və bu işdə əməyi olan bütün insanlara təşəkkür edirəm.

Biz mərhum Heydər Əliyevin ifadə etdiyi kimi, «Bir millət, iki dövlət» olaraq gələcəyə baxırıq. Eyni şəkildə tərəqqi edirik və hər ötən gündə bu inkişaf daha da irəliyə gedir və gedəcəkdir. İnanıram ki, hazırda bütün türkdilli cümhuriyyətlərdə olan inkişafın önəmli olması sentyabr və oktyabr aylarında Türkiyədə keçirəcəyimiz tədbirlərdə, çıxışlarda bir daha nümayiş etdiriləcəkdir. Mən xüsusilə bu sahədə atasının yolunu uğurla davam etdirməsinə görə burada dəyərli

qardaşıma ölkəm, millətim adından və öz adımdan çox təşəkkür edirəm.

Mən cümhuriyyətimizin banisi Mustafa Kamal Atatürkü, eyni zamanda, müstəqil Azərbaycanın banisi Heydər Əliyevi bir daha rəhmətlə anır, bu parkın açılışında əməyi olanlara təşəkkür edir, qardaşım İlham Əliyevə də ölkəmizə bir daha «Xoş gəlmisiniz!» deyirəm.

* * *

*Sonra Azərbaycan prezidenti və Türkiyənin Baş naziri parkı gəzərək, bu istirahət guşəsi ilə tanış oldular.*

*Azərbaycan və Türkiyə qardaşlığına, eləcə də ulu öndərlər Atatürkə və Heydər Əliyevə həsr olunmuş mahnıları, milli musiqi nömrələrini böyük maraqla dinləyən ceyhanlılar bu parkın xalqlarımızın əbədi dostluğunun nümunəsi olduğunu xüsusi vurğuladılar.*

**İNDONEZİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SUSİLO BAMBANQ YUDHOYONOYA**

Hörmətli cənab Prezident!

Yava adasında baş vermiş təbii fəlakət nəticəsində çoxsaylı insan tələfatı və dağıntılar barədə xəbər məni son dərəcə kədərləndirdi.

Baş vermiş faciə ilə əlaqədar dərdinizə şərik çıxır, Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına, bütün İndoneziya xalqına dərin hüznlə başsağlığı verir, yaralananların və xəsarət alanların tezliklə sağalmasını arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*18 iyul 2006-cı il*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN RUSİYA FEDERASİYASINA SƏFƏRİ

*21 iyul 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Müstəqil Dövlətlər Birliyinin üzvü olan ölkələrin dövlət başçılarının qeyri-rəsmi görüşündə iştirak etmək üçün iyulun 21-də Moskvaya gəlmişdir.*

*Dövlətimizin başçısını «Vnukovo-2» hava limanında MDB-nin icraçı katibi Vladimir Ruşaylo, Rusiya Xarici İşlər nazirinin birinci müavini Andrey Denisov və digər rəsmi şəxslər hörmət və ehtiramla qarşıladılar.*

* * *

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 21-də Moskvada onun üçün ayrılmış iqamətgahda Moldova prezidenti Vladimir Voronin ilə görüşmüşdür.*

*Görüşdə ölkələrimiz arasında müxtəlif sahələrdə ikitərəfli əlaqələrin möhkəmləndirilməsi və inkişaf etdirilməsi, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın genişləndirilməsi və qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər müzakirə olunmuşdur.*

# RUSİYANIN RTR TELEVİZİYA KANALINA MÜSAHİBƏ

*Moskva*

*21 iyul 2006-cı il*

**S u a l: Cənab Prezident, əvvəla, demək istəyirəm ki, biz buraya «Böyük səkkizliyin» sammitinin keçirildiyi Sankt-Peterburqdan gəlmişik. Sammitin başlıca mövzusu enerji təhlükəsizliyi ilə bağlı idi. Ona görə də birinci sual energetika sahəsinə aiddir. Bakı–Ceyhan neft kəməri artıq işləyir, fəaliyyət göstərir, lakin hələlik tam gücü ilə işləmir. Digər ölkələri, məsələn, çox böyük neft yataqları olan Qazaxıstanı əməkdaşlığa cəlb etmək barədə düşünürsünüzmü?**

**C a v a b:** Gözlənildiyinə görə, Bakı–Tbilisi–Ceyhan boru kəməri cədvələ əsasən 2008-ciilədək tam gücü ilə işləyəcəkdir. O vaxt Azərbaycanın yataqlarında hasilat ildə 50 milyon tondan artıq olacaqdır. Bu boru kəməri də elə onda tamamilə doldurulacaqdır. Ona görə də təbiidir ki, indiki mərhələdə BTC hələlik tam doldurulmayıb. Çünki boru kəmərinin tikintisi və yataqlarımızın işlənilməsi, əslinə qalsa paralel rejimdə gedirdi. Gələn il boru kəməri ilə təxminən 30 milyon ton neft nəql etmək planlaşdırılır, 2008-ci ilədək isə biz onun tam gücü ilə işləməsinə nail olacağıq. Beləliklə, boru kəmərini kifayət qədər uzun müddət tam yüklənmiş vəziyyətdə işlətmək üçün Azərbaycanın öz ehtiyatları kifayət qədərdir.

Digər ölkə və şirkətlərin bu layihədə iştirakı imkanlarına gəldikdə, bu imkanlar açıqdır və bunu arzu edəcək bütün şirkətlərə biz öz infrastrukturumuzu, əlbəttə, kommersiya şərtlərinə uyğun olaraq istifadəyə verməyə hazırıq. Bizim artıq

Qazaxıstanla bu məsələ haqqında dövlətlərarası sazişimiz var. Beləliklə, gələcəkdə Qazaxıstan nefti də bu marşrutla mütləq nəql ediləcəkdir.

**S u a l: Qazaxıstanın iştirak etmək və öz neftini bu boru kəmərinin köməyi ilə göndərmək imkanı varmı?**

**C a v a b:** Bəli, var.

**S u a l : Bəs Azərbaycanın, yaxud məsələn, GUAM təşkilatının bu cür qaz kəməri çəkmək planları varmı?**

**C a v a b:** Azərbaycan artıq neçə illərdir qaz kəməri çəkir. Məsələ, sadəcə olaraq ondadır ki, bütün diqqət Bakı–Tbilisi–Ceyhan neft kəmərinə yönəldilmişdi. Ona görə də Bakı–Tbilisi–Ərzurum marşrutu üzrə qaz kəməri, bir növ kölgədə qalmışdı. Hərçənd ki, bu layihə heç də az əhəmiyyətli və heç də kiçikmiqyaslı deyildir. Ona çox böyük vəsait sərf edilmişdir: təxminən 1 trilyon kubmetr qaz ehtiyatı olan iri «Şahdəniz» qaz-kondensat yatağının işlənilməsinə də, qaz kəmərinin tikintisinə də. Onu bu ilin sonunadək istismara vermək planlaşdırılır. Bir sözlə, Azərbaycan bu layihəni kifayət qədər uzun müddətdir həyata keçirir. O, tezliklə istifadəyə veriləcəkdir.

**S u a l: Bu, hər halda, Azərbaycanın layihəsi, yoxsa müştərək layihə olacaq, yəni pul, maliyyə vəsaiti haradan gələcəkdir?**

**C a v a b:** «Şahdəniz» yatağının işlənilməsi üzrə konsorsium var. Buraya müxtəlif xarici neft şirkətləri və Azərbaycan Dövlət Neft Şirkəti daxildir. Bakı–Tbilisi–Ceyhan boru kəməri üzrə olduğu kimi, qaz kəməri üzrə də konsorsium mövcuddur – bu, beynəlxalq layihədir və burada müxtəlif şirkətlərin öz payı var. Maliyyələşdirmə öz ehtiyatlarımız, habelə borc alınmış vəsait hesabına, indiki halda müxtəlif beynəlxalq maliyyə təsisatlarının vəsaiti hesabına həyata keçirilir. Onlar bu layihəni maliyyələşdirmək üçün vəsait ayırmışlar.

Deməliyəm ki, bu iki layihə – neft kəməri və qaz kəməri layihələri hazırda dünyamiqyaslı ən iri enerji layihələridir. Məsrəflərə görə də – artıq bir neçə milyard dollar xərclənmişdir

– məsələnin texniki cəhətinə görə də, əlbəttə, iqtisadi səmərəlilik və yeni marşrutların açılması baxımından da Azərbaycandan ilk dəfə olaraq neft Aralıq dənizindən dünya bazarlarına çatdırılacaqdır. Həmçinin Azərbaycandan ilk dəfə olaraq qaz digər ölkələrə ixrac ediləcəkdir ki, bu da, əlbəttə, son vaxtlar ölkəmizin tarixində çox böyük hadisədir.

**S u a l: Hər halda, qaz kəmərinin tikintisini hansı islədək başa çatdırmağı planlaşdırırsınız və bu neçəyə başa gələcəkdir?**

**C a v a b:** Tikintini bu ilin sonunadək başa çatdırmaq planlaşdırılır. Bizdə birinci mərhələdə qaz hasilatı hələlik ildə təxminən 4-5 milyard kubmetr olacaqdır. Bu öz tələbatımızı ancaq ödəyəcəkdir. Ona görə də ilk vaxtlar hasil olunan bu qazdan Azərbaycanın daxili tələbatını ödəmək üçün istifadə etməyi planlaşdırırıq. Hazırda Azərbaycan qaz idxalçısıdır. Yeri gəlmişkən, biz Rusiyadan ildə təxminin 4,5 milyard kubmetr qaz alırıq və bu, ölkələrimiz arasında kifayət qədər səmərəli əməkdaşlıqdır.

Bu layihəyə ümumən bir neçə milyard dollar sərf edilmişdir. Çünki qaz kəmərini öz yataqlarımızdan ayrılıqda nəzərdən keçirmək olmaz. Çünki qazma işlərinə də, kəşfiyyata da, təbii ki, platformanın tikintisinə də çox böyük məbləğdə sərmayə qoyulmuşdur – «Şahdəniz» yatağından qaz hasilatı üçün nadir platforma yaradılmışdır. Əlbəttə, qaz kəməri kifayət qədər çoxməsrəfli işdir. Bütün bunlar bir neçə milyard dollara başa gəlir və təbii ki, bütün bunlar öz xərcini çıxaracaqdır. Bu da əminliyi artırır ki, iri beynəlxalq maliyyə təsisatları ona maraq göstərmiş və əslində, maliyyə məsələsində bizə kömək etmişlər.

**S u a l: Bəs, konsorsiuma GUAM-ın hansı ölkələri daxildirlər?**

**C a v a b:** GUAM ölkələri konsorsiumda iştirak etmirlər.

**S u a l: Yəni, bu ancaq Azərbaycan üçün maraqlıdır?**

**C a v a b:** Bəli. Şübhəsiz belədir. Bilirsinizmi, GUAM-ın üzvü olan ölkələrin Azərbaycandan başqa heç birində layihədə iştirak edə biləcək şirkətləri yoxdur. İndiki halda, *bp,* «Eni»,

«Total», «LUKoyl», «Şevron», «İNPEX», «İtoçu», «Statoyl» kimi dünyanın aparıcı şirkətləri tərəfdaşlarımızdır. Yəni, dünyanın neft hasilatı elitası Azərbaycanda həm neft, həm də qaz layihələri üzrə işləyir.

**S u a l: Buna baxmayaraq, hazırda Rusiya ilə Azərbaycan arasında qaz sahəsində əməkdaşlıq bazar şərtləri əsasında həyata keçirilir? Biz bazara tamamilə keçmişik?**

**C a v a b:** Bilirsinizmi, nəyin tamamilə bazar olduğu çətin sualdır. Bir çox illər ərzində Rusiyadan MDB ölkələrinə qaz təsbit edilmiş qiymətə göndərilirdi. Təbii ki, bu, bazar qiymətindən uzaq idi. Hesab edirəm ki, şirkətlər və təşkilatlar arasında iqtisadi münasibətlərdə hər şey bazar konyunkturasını nəzərə alaraq ölçülməlidir. Ona görə də indi Azərbaycan Rusiyadan min kubmetr qazı 110 dollara alır. Bu, keçən ildəkindən iki dəfə çoxdur. Əgər belə artımın dinamikasını nəzərə alsaq bu, bazar dinamikasıdır. Demək olar, hətta bazar dinamikasından da artıqdır. Çünki, adətən, bazar münasibətlərində 100 faiz bahalaşma nadir hadisədir.

**S u a l: Lakin münasibətlər, hər halda, bazar münasibətləri şəffaf, yoxsa kifayət qədər subyektiv olmalıdır?**

**C a v a b:** Hesab edirəm ki, münasibətlər qarşılıqlı faydaya, qarşılıqlı mənafeyə və qarşılıqlı hörmətə, sözsüz, razılaşmalara riayət edilməsinə əsaslanmalıdır. Bu, etimadı möhkəmlətməyin də, uzunmüddətli əməkdaşlığın da mühüm elementlərindən biridir. Əgər müqavilə varsa, razılaşma varsa – hətta razılaşma tərəflərdən birini müəyyən vaxtda razı salmadıqda da – onu yerinə yetirmək lazımdır. Müqavilənin qabaqcadan razılaşdırılmadan pozulması biznesdə də, bazar münasibətlərində də, əlbəttə, yolverilməzdir. O ki qaldı məsələnin mahiyyətinə, şübhəsiz, münasibətlər bazar prinsiplərinə əsaslanmalıdır. Bu tamamilə təbii və normal prosesdir. Prinsipcə, tezliklə postsovet məkanında bazar qiyməti anlayışı yəqin daha olmayacaqdır. Biz artıq 15 ildir müstəqil dövlətik və yəqin ki, qiymətqoymada da, təbii olaraq digər bütün

məsələlərdə də bazar prinsiplərinə tamamilə keçmək vaxtı çatmışdır. Bu, kifayət qədər ağrılı prosesdir, çünki əslində bütün əhaliyə aiddir, enerji daşıyıcılarının qiymətlərinin bahalaşması digər məhsulun avtomatik surətdə bahalaşmasına səbəb olur. Lakin bu, qaçılmaz haldır. Gec-tez hamı buna gəlib çıxacaqdır.

**S u a l: Söhbətin axarı ilə başqa mövzuya keçim. Yəqin ki, neft, qaz, enerji daşıyıcıları problemləri MDB-nin qarşıdakı qeyri-rəsmi görüşündə müzakirə ediləcəkdir. Görüş hər halda, qeyri-rəsmi olsa da, bu yaxınlarda belə bir xəbər səsləndi ki, liderlərdən dördü görüşə müxtəlif səbəblərə görə gəlməyəcək – səbəblər həqiqətən müxtəlifdir, subyektiv və obyektivdir. Necə bilirsiniz, MDB təsisatının səmərəliliyi necədir, bu səmərəlilik indiki məqamda itirilməyib ki?**

**C a v a b:** O ki qaldı ölkəmizə, biz hesab edirik ki, bu təsisat kifayət qədər faydalıdır. Azərbaycan da MDB iclaslarında dövlət başçıları səviyyəsində və digər səviyyələrdə iştirak edərək, təşkilatımızın daha da inkişaf etməsi işinə, əlbəttə, öz tərəfindən töhfə verməyə çalışır.

Əlbəttə, MDB tamam başqa bir vəziyyətdə yaradılmışdı. O hansısa bir məqsədlə və ya vahid iqtisadi mənafelərlə birləşmiş dövlətlərin qurumu deyildi. Onlar kifayət qədər müxtəlif dövlətlər idi. Yəni, bu bir növ postsovet prosesi idi. Lakin MDB-nin mövcud olması faktının özü, zənnimcə, iştirakçı ölkələrə öz məsələlərini həll etməyə, fəal əməkdaşlıq aparmağa, əlaqələri itirməməyə kömək göstərmişdir. Ona görə də hesab edirəm ki, bu, faydalı təsisatdır və onu daha səmərəli etmək üzərində işləmək lazımdır. Əgər bu təşkilatın real surətdə təşkilat olmasını istəyiriksə, onda, əlbəttə, çox dəqiq meyarlar da, öhdəliklər də olmalıdır və onlar yerinə yetirilməlidir. Bizim üçün kifayət qədər dəqiq idarəetmə strukturu olan və qəbul edilən qərarların mütləq yerinə yetirildiyi Avropa və beynəlxalq təşkilatların nümunəsi var. MDB bu funksiyaları hələlik yerinə yetirmir. O daha çox ünsiyyət üçün, necə deyərlər, format funksiyasını həyata keçirir. Ölkələrimizi çoxdankı tarixin birləşdirdiyini nəzərə alsaq, ünsiyyət də çox faydalıdır. Bunu

itirmək düzgün olmazdı. Əksinə, əməkdaşlığı artırmaq, mümkün olan yerdə möhkəmlətmək və normal mehriban qonşuluq münasibətlərini inkişaf etdirmək lazımdır.

**S u a l: Yəni, belə çıxır ki, MDB «Böyük səkkizliyin» bir növ yerli analoqudur, o da diskussiya klubudur?**

**C a v a b:** Əlbəttə, belə müqayisə aparmaq çətindir. Mən MDB dövlətləri başçılarının iclaslarında bu yaxınlardan iştirak edirəm. Başa düşdüyünüz kimi, ona görə də təcrübəm məhduddur. Lakin iştirak etdiyim tədbirlər daha çox müzakirə, ünsiyyət xarakteri daşımışdır. Ölkələrin rəhbərləri onları narahat edən məsələləri qaldırırlar.

**S u a l: Prezident Putin ünsiyyət mövzularından birini artıq açıqlamışdır. Bu, təşkilat kimi, MDB-nin yenidən qurulması məsələsidir. Siz ən əvvəl nə təklif edərdiniz: MDB-nin qalması və səmərəli bir təşkilat kimi qalması üçün nə etmək lazımdır?**

**C a v a b:** Əlbəttə, bu məsələ sabah da, sonra da müzakirə olunacaqdır. MDB zirvə toplantılarında bu məsələ dəfələrlə qaldırılıbdır. Nəyi yenidən qurmaq gərəkdir? Ona məqsədəuyğunluq baxımından yanaşmaq lazımdır. Yəni, müəyyən etmək gərəkdir: biz nə istəyirik, bu təşkilatı necə görmək istəyirik. Əgər biz onu öz funksiyalarını, qəbul edilən qərarları mütləq yerinə yetirmək, bu qərarların icrasına nəzarət mexanizmi olan tam dəyərli təşkilat kimi görmək istəyiriksə, onda bu bir məsələdir. Əgər biz MDB-ni məsələlərin, yaxud bu və ya digər dövləti bəzən narahat edən hansısa təcili məsələlərin hərdən müzakirəsi üçün əlverişli forma olan təşkilat kimi və ya dövlət başçıları arasında ünsiyyət üçün format kimi sadəcə saxlamaq istəyiriksə, onda bu, başqa işdir. Burada bütün ölkələrin konsensusu olmalıdır. Prinsipcə postsovet məkanının bütün ölkələrində dövlətçiliyin təşəkkülü prosesi artıq başa çatmışdır. Birinci mərhələ ümumən sona yetmişdir, hərçənd onu, əlbəttə, hansısa daha qısa mərhələlərə bölmək olar. Ölkələr təşəkkül tapmışlar, bu kimdəsə daha yaxşı, kimdəsə pis alınmışdır. Buna baxmayaraq bu proses artıq başa çatmışdır. Hələ tez-tez

deyildiyi kimi, indi ölkələrimizi gənc və ya yeni müstəqil ölkələr adlandırmaq zənnimcə, artıq gecdir.

Ona görə də hər bir ölkə bu və ya digər təşkilata üzvlüyünü təbii olaraq öz mənafeləri mövqeyindən nəzərdən keçirir. Təşkilatda olmaq öhdəlikləri olmaq, hüquqları olmaq və bundan faydalanmaq deməkdir. Maraqlı olmayan təşkilatda olmaq mənasızdır. Eləcə də, kiminsə daim təzyiqə məruz qaldığı təşkilatda olmaq mənasızdır. Biz isə bütün təşkilatlara könüllü surətdə daxil oluruq. Kim daim təzyiqə məruz qaldığı yerə könüllü surətdə daxil olar?! Odur ki, təşəkkül prosesi başa çatdığına görə manevr üçün daha da geniş sərbəstlik açılır.

Mən indiki halda Azərbaycandan danışaraq, hesab edirəm ki, müxtəlif beynəlxalq təşkilatlarda iştirak etmək ölkəmizin xeyrinədir. Biz dünya siyasi proseslərinin əslində bütün spektrində iştirak edirik. Biz Avropa Şurasının da üzvüyük, MDB-nin də üzvüyük, İslam Konfransı Təşkilatının, İqtisadi Əməkdaşlıq Təşkilatının da üzvüyük, Asiyada etimad tədbirlərinin möhkəmləndirilməsi prosesində, GUAM-da da fəal iştirak edirik. Yəni, biri digərini istisna etmir, əksinə, bu, Azərbaycana öz mənafelərini irəlilətmək üçün əlavə imkanlar verir. Hər bir ölkə bunda maraqlıdır.

**S u a l: Nəhayət, sabah atçapma yarışları olacaq. Siz cıdırla maraqlanırsınız, ya yox?**

**C a v a b:** Xeyr, maraqlanmıram. Əlbəttə, cıdır çox yaxşı idman növüdür. Lakin zənnimcə, indiki halda cıdır görüşmək üçün daha çox səbəbdir. Mən sadəcə olaraq hansısa cıdıra baxmaq üçün heç yerə getməzdim.

**M ü x b i r: Sağ olun.**

# MDB ÖLKƏLƏRİ DÖVLƏT BAŞÇILARININ QEYRİ-RƏSMİ GÖRÜŞÜ

*Moskva,*
*Kreml sarayı*

*22 iyul 2006-cı il*

*Görüşdə Azərbaycan prezidenti İlham Əliyev, Rusiya prezidenti Vladimir Putin, Qazaxıstan prezidenti Nursultan Nazarbayev, Özbəkistan prezidenti İslam Kərimov, Qırğızıstan prezidenti Kurmanbek Bakiyev, Tacikistan prezidenti İmaməli Rəhmon, Belarus prezidenti Aleksandr Lukaşenko, Moldova prezidenti Vladimir Voronin iştirak edirdilər.*

*Rusiya Federasiyasının prezidenti Vladimir Putin qeyri-rəsmi görüşü açaraq iştirakçıları salamladı və sammitin işində iştirak etdiklərinə görə prezidentlərə öz dərin təşəkkürünü bildirdi. O dedi ki, bugünkü müzakirələr tamamilə sərbəst şəraitdə aparılacaq, biz həm ikitərəfli, həm də çoxtərəfli əlaqələrdən danışacağıq. MDB-nin inkişafı məsələləri də diqqət mərkəzində olacaqdır.*

*Sonra söz MDB Dövlət Başçıları Şurasının sədri, Qazaxıstan prezidenti Nursultan Nazarbayevə verildi. O, qeyri-rəsmi sammitin yüksək səviyyədə təşkilinə və müzakirələr üçün yaradılan şəraitə görə minnətdarlığını bildirərək dedi ki, həmişə belə görüşlərdə yüksək səviyyədə keçən diskussiyalar əhəmiyyətli rol oynayır. Nursultan Nazarbayev daha sonra qeyd etdi ki, mən müzakirə üçün təklif olunan layihələri səfirliyimiz vasitəsilə sammit iştirakçılarına göndərmişəm. Məqsədimiz budur ki, müzakirə edilən məsələlər dövlət başçıları üçün qaneedici olsun. Sonra sammitdə Azərbaycan prezidenti İlham Əliyev və digər dövlət başçıları çıxış etdilər. Çıxışlarda bir sıra*

*mühüm təkliflər irəli sürüldü, MDB-də struktur islahatların aparılmasının əhəmiyyəti xüsusi vurğulandı. Görüşdə həmçinin enerji təhlükəsizliyi, MDB-nin yeniləşməsi istiqamətində islahatların aparılması məsələləri ilə bağlı fikir mübadiləsi edildi.*

*Sonra iclas qapalı şəraitdə davam etdirildi.*

*Qeyri-rəsmi görüş başa çatdıqdan sonra sammitin yekununu şərh edən Qazaxıstan prezidenti Nursultan Nazarbayev jurnalistlərə bildirdi ki, MDB-də islahatlar aparmağın vaxtı çatmışdır. Artıq yeni təkliflər, layihələr və proqramlar üzərində iş aparılır. Vaxtilə, 1991-ci ildə MDB yaradılarkən Britaniya modelinə üstünlük verilmişdir. Düşünürük ki, MDB ərazisində islahatlar əsasən 5 istiqamətdə aparılmalıdır. Bunlardan birincisi miqrasiya siyasətidir. Bu, MDB ərazisində sadə insanların gediş-gəlişinin asanlaşdırılmasını nəzərdə tutur və hamını narahat edən məsələdir. İkincisi, mövcud nəqliyyat dəhlizlərindən səmərəli istifadə olunması, üçüncüsü, MDB-nin ayrı-ayrı ölkələrində təhsil alan tələbələrin diplomlarının tanınması, dördüncüsü, terrorizmə, ekstremizmə və narkotik vasitələrin alverinə qarşı birgə mübarizə aparılması, beşincisi isə humanitar problemlərlə bağlıdır.*

*Nursultan Nazarbayev bildirdi ki, sammitdə, həmçinin müdafiə və sərhəd siyasəti ilə bağlı ədalətli ümumi qərarların qəbul edilməsinin vacibliyi xüsusi vurğulanmışdır.*

*Gələcəkdə MDB tərkibində 70 komissiyanın fəaliyyət göstərəcəyini nəzərə çatdıran Qazaxıstan prezidenti dedi ki, əlaqələndirici qruplar yeni təklifləri bir daha nəzərdən keçirib araşdıracaq və həmin təkliflər dövlət başçılarının zirvə görüşündə konsensus əsasında qəbul ediləcəkdir.*

*MDB-nin üzvü olan ölkələrin dövlət başçılarının növbəti görüşü bu ilin noyabr ayında Minsk şəhərində keçiriləcəkdir.*

* * *

*İyulun 22-də MDB-nin üzvü olan ölkələrin dövlət başçılarının qeyri-rəsmi görüşü başa çatdıqdan sonra Moskvanın*

*mərkəzi cıdır meydanında Rusiya prezidentinin mükafatı uğrunda növbəti atçapma yarışları keçirilmişdir. Prezident Vladimir Putin bu yarışların keçirilməsi barədə 2003-cü ilin dekabrında müvafiq qərar imzalamışdır.*

*Azərbaycan prezidenti İlham Əliyev, Rusiya prezidenti Vladimir Putin, Qazaxıstan prezidenti Nursultan Nazarbayev, Qırğızıstan prezidenti Kurmanbek Bakiyev, Özbəkistan prezidenti İslam Kərimov, Moldova prezidenti Vladimir Voronin, Tacikistan prezidenti İmaməli Rəhmon və Belarus prezidenti Aleksandr Lukaşenko yarışları izləmək üçün Moskvanın mərkəzi cıdır meydanına gəldilər.*

*Qeyd edək ki, Moskvada atçapma yarışları ilk dəfə 2004-cü il iyulun 3-də keçirilmişdir. Həmin vaxt Türkmənistan və Belarus prezidentləri istisna olmaqla, MDB ölkələrinin liderlərinin hamısı Moskvaya gəlmişdi. Builki yarışları isə səkkiz prezident izləmişdir.*

*Rusiya prezidentinin mükafatı uğrunda atçapma yarışları haqqında əsasnaməyə uyğun olaraq, cıdırda üç və daha çox yaşı olan at iştirak edə bilər. Yarışların mükafat fondu 6 milyon rubldur. Bu il jakeylər 1800 və 2000 metr məsafələrdə beş mükafat uğrunda mübarizə aparırdılar.*

*Azərbaycanın «Eşqiyyə» adlı zil qara atı və Rusiyanın «Satellit» köhləni mənzil başına bərabər çatmışdır. Fotofiniş göstərmişdir ki, bu atlar finiş xəttini, necə deyərlər, başabaş keçmişdir. Beləliklə, qaliblərin hər biri 3 milyon rubl mükafat almışlar. Xatırladaq ki, «Eşqiyyə» 60 dəfə beynəlxalq yarışlarda iştirak etmiş və onun 14-ündə yüksək nəticə göstərərək medallara layiq görülmüşdür. Azərbaycan prezidenti İlham Əliyev və digər dövlət başçıları yarışları böyük maraqla izlədilər.*

*Sonda qalib çaparlara mükafatlar təqdim edildi.*

*Bununla da Rusiya prezidentinin mükafatı uğrunda II atçapma yarışları başa çatdı.*

* * *

*Müstəqil Dövlətlər* Birliyinin *üzvü* olan *ölkələrin dövlət başçılarının* Moskvada *keçirilən qeyri-rəsmi görüşündə iştirak edən Azərbaycan Respublikasının* Prezidenti *İlham Əliyev* iyulun 23-*də Bakıya qayıtmışdır.*

**İSVEÇRƏ KONFEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MORİTS LOYENBERGERƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı - Konfederasiyanın yaranması günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından təbrik edirəm. Azərbaycan–İsveçrə münasibətlərinin bugünkü səviyyəsi məmnunluq doğurur. Əminəm ki, dostluq və əməkdaşlığımız, qarşılıqlı əlaqələrimiz xalqlarımızın mənafeləri naminə bundan sonra da inkişaf edəcək və möhkəmlənəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost İsveçrə xalqına sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *24 iyul 2006-cı il*

## «VİNCİ» QRUPUNUN PREZİDENTI İV-TİBO DE SİLQİNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*24 iyul 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 24-də Prezident sarayında «VİNCİ» qrupunun prezidenti İv-Tibo de Silqinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı bu yaxınlarda Parisə etdiyi səfər zamanı «VİNCİ» qrupunun nümayəndələri ilə faydalı müzakirələr apardığını bildirdi. Prezident İlham Əliyev Azərbaycan iqtisadiyyatının uğurla inkişaf etdiyini və iqtisadiyyatın müxtəlif sahələri, o cümlədən infrastrukturun təkmilləşdirilməsi üçün böyük planların mövcud olduğunu vurğuladı.*

*İv-Tibo de Silqi şirkətinin ölkəmizdə fəaliyyət imkanlarını öyrənmək baxımından bu səfərinin əhəmiyyətli olduğunu bildirdi. Ölkəmizin iqtisadiyyatının sürətlə inkişaf etdiyini vurğulayan qonaq «VİNCİ» qrupunun Azərbaycanın, xüsusilə infrastrukturunun müasirləşdirilməsi prosesində iştirak etməkdə maraqlı olduğunu qeyd etdi.*

## XXIX YAY OLİMPİYA OYUNLARINA HAZIRLIQ HAQQINDA

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

XXIX Yay Olimpiya Oyunları 2008-ci ildə Çin Xalq Respublikasının paytaxtı Pekin şəhərində keçiriləcəkdir. Olimpiya Oyunları dünyanın bütün dövlətlərinin diqqət mərkəzində olan ən möhtəşəm və mühüm idman tədbiridir. Müasir dövrdə hər bir dövlətin Olimpiya hərəkatındakı iştirakı, onu təmsil edən idmançıların Olimpiya Oyunlarında göstərdikləri nəticələr ölkənin təkcə idman sahəsindəki potensialını deyil, həm də ümumi inkişaf səviyyəsini nümayiş etdirir, beynəlxalq nüfuzuna təsir göstərir. Milyonlarla insanı bir araya gətirən Olimpiya Oyunları xalqlar arasında dostluğu, qarşılıqlı anlaşmanı, sülhü möhkəmləndirən güclü vasitədir. Olimpiya hərəkatının böyük əhəmiyyətini qəbul edən dünya ölkələri ildən-ilə bu hərəkata daha fəal qoşulurlar. Əgər 1896-cı ildə I Olimpiya Oyunlarında cəmi 14 ölkə iştirak edirdisə, 2004-cü il oyunlarına 202 ölkə qatılmışdır. Növbəti Pekin olimpiadasında isə iştirakçı ölkələrin sayının daha da artacağı gözlənilir.

Azərbaycan idmançıları Olimpiya Oyunlarında 1952-ci ildən 1992-ci ilədək SSRİ-nin, 1992-ci ildə isə Müstəqil Dövlətlər Birliyinin yığma komandasının tərkibində çıxış etməli olmuşlar. Bu dövr ərzində idmançılarımız on olimpiadada iştirak etmiş, 14 qızıl, 11 gümüş və 8 bürünc medala layiq görülmüşlər.

Azərbaycanın dövlət müstəqilliyini bərpa etməsi ilə ölkənin Olimpiya hərəkatında iştirakının yeni dövrü başlanmışdır. 1992-ci ildə yaradılmış Azərbaycan Milli Olimpiya Komitəsi 1993-cü ildə Beynəlxalq Olimpiya Komitəsi tərəfindən tanınmış və Azərbaycan müstəqil dövlət kimi, ilk dəfə 1996-cı ildə Atlanta Olimpiya Oyunlarında təmsil olunmuşdur. Həmin dövrdən

idmançılarımız Azərbaycan bayrağı altında üç Qış və üç Yay Olimpiya Oyunlarında iştirak etmişlər.

Ümummilli liderimiz Heydər Əliyev Azərbaycanda idmanın tərəqqisinə və ölkəmizin Olimpiya hərəkatında iştirakına həmişə xüsusi əhəmiyyət vermişdir. Onun böyük diqqət və qayğısı, tövsiyə və göstərişləri sayəsində Azərbaycan Beynəlxalq Olimpiya Hərəkatına fəal qoşulmuş, ölkədə idman ahəngdar inkişaf etmişdir. Azərbaycan Respublikası Prezidentinin «Sidney Olimpiya Oyunlarına hazırlıq haqqında» 20 fevral 1998-ci il və «Afina Olimpiya Oyunlarına hazırlıq haqqında» 5 iyun 2003-cü il tarixli sərəncamları Milli Olimpiya Komitəsinin daha məqsədyönlü iş aparması üçün möhkəm zəmin yaratmışdır. Azərbaycan Respublikası Prezidentinin 26 avqust 2000-ci il tarixli sərəncamı ilə idmançılarımızı və onların məşqçilərini Olimpiya Oyunlarında yüksək nəticələrə həvəsləndirmək məqsədi ilə mükafatların təyin edilməsi isə atletlərimizin yarışlara daha yaxşı hazırlaşmasına yeni stimul vermiş, nəticələrin olimpiadadan olimpiadaya yaxşılaşmasına gətirib çıxarmışdır. Əgər 1996-cı ildə 197 ölkənin iştirak etdiyi Atlanta Oyunlarında Azərbaycan bir gümüş medalla 61-ci yeri tutmuşdusa, 2000-ci ildə XXVII Yay Olimpiya Oyunlarında idmançılarımız iki qızıl və bir bürünc medal qazanaraq, 199 ölkənin qatıldığı bu oyunlarda ölkəmiz üçün 34-cü yeri, Avropa ölkələri arasında isə 23-cü yeri təmin etmişlər. 2004-cü ildə Afinada idmançılarımız 1 qızıl, 4 bürünc medalla təltif edilmişlər ki, bu da Azərbaycan idmanının sürətlə irəli getdiyini bir daha nümayiş etdirir.

Ölkədə Olimpiya hərəkatı və idmanın inkişafı gündən-günə geniş vüsət alır. Son onillik beynəlxalq idman qurumları ilə əlaqələrin qurulması, Milli Olimpiya Komitəsinin dünya miqyasında nüfuzunun artması, beynəlxalq yarışların respublikamızda keçirilməsi, idmanın maddi-texniki bazasının yaradılması sahəsində görülən böyük işlərlə əlamətdardır. 2000-ci ildən başlayaraq Bakıda, paytaxtın Maştağa qəsəbəsində, Naxçıvanda, Gəncədə, Şəkidə, Bərdədə, Lənkəranda, Qubada,

Şamaxıda, Zaqatalada müasir tipli idman kompleksləri tikilib istifadəyə verilmişdir. İndi respublikamızın, demək olar ki, bütün rayonlarında belə komplekslərin tikintisi davam edir. Ötən dövrdə bir sıra idman növləri üzrə ixtisaslaşdırılmış idman qurğuları inşa olunmuşdur. Stend Atıcılığı Mərkəzi, Taekvondo Sarayı, Yaxt-klub, Otüstü Xokkey Mərkəzi, ABU-Arena Həndbol kompleksi, Naxçıvan Üzgüçülük Mərkəzi belə idman obyektlərindəndir.

Yeni müasir idman qurğularının tikilib istifadəyə verilməsi, eləcə də həyata keçirilmiş irimiqyaslı işlər nəticəsində Azərbaycan dünyanın idman mərkəzlərindən birinə çevrilmişdir. Hazırda Azərbaycan təkcə müəyyən kateqoriyalı beynəlxalq yarışların deyil, eyni zamanda qitə və dünya çempionatlarının keçirildiyi dövlətdir. Beynəlxalq yarışların regionlarda təşkili sahəsində də böyük nailiyyətlər qazanılmışdır.

2008-ci il Pekin olimpiadasının daha gərgin mübarizə şəraitində keçəcəyi gözlənilir. Azərbaycan idmaçıları Sidney və Afinada əldə edilmiş nəticələri təkrar etmək, tutduqları mövqeyi qoruyub saxlamaq və yaxşılaşdırmaq uğrunda mübarizə aparmalıdırlar. Bu məqsəd naminə Milli Olimpiya Komitəsi, Gənclər və İdman Nazirliyi, həmçinin bütün bu milli idman federasiyaları öz səylərini birləşdirməlidir. Son iki ildə idmançılarımızın qazandıqları uğurlar olimpiya yarışlarına hazırlığın lazımi səviyyədə getdiyini göstərir. Bununla yanaşı, aparılan işlər və qalan müddət ərzində həyata keçirilməsi nəzərdə tutulan tədbirlər Azərbaycanın Pekin olimpiadasına daha yüksək səviyyədə hazırlığını təmin etməli, qarşıda qoyulmuş məqsədlərə çatmaq imkanı yaratmalıdır.

Azərbaycanın milli olimpiya komandasının 2008-ci ildə Pekin şəhərində keçiriləcək XXIX Yay Olimpiya Oyunlarına daha yüksək səviyyədə hazırlanmasını, bu mərhələdə onların rəsmi beynəlxalq yarışlarda iştirak etməsini, Olimpiya Oyunlarına lisenziyaların qazanılması və idmançıların oyunlara tam

hazırlığını təmin etmək məqsədi ilə **qərara alıram:** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

– Gənclər və İdman Nazirliyinin və Milli Olimpiya Komitəsinin təqdim etdiyi xüsusi proqramlara əsasən milli yığma komandaların XXIX Yay Olimpiya Oyunlarına hazırlığı mərhələsində təlim-məşq toplanışlarının keçirilməsini, idmançıların rəsmi beynəlxalq yarışlarda iştirakını, ölkədə lisenziya yarışlarının təşkilini və nəzərdə tutulan digər tədbirlərin həyata keçirilməsini təmin etmək üçün maliyyə məsələlərini həll etsin;

– bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *24 iyul 2006-cı il*

## BMT-nin ÜMUMDÜNYA ƏRZAQ PROQRAMININ İCRAÇI DİREKTORU CEYMS MORRİSİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*27 iyul 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 27-də Prezident sarayında BMT-nin Ümumdünya Ərzaq Proqramının icraçı direktoru Ceyms Morrisin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı ölkəmizin siyasi, iqtisadi cəhətdən sürətlə inkişaf etdiyini vurğulayaraq Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi və bunun nəticəsində bir milyon insanın qaçqın və məcburi köçkün vəziyyətinə düşməsinin başlıca problem olduğunu bildirdi. Prezident İlham Əliyev qaçqın və məcburi köçkünlərin vəziyyətinin yaxşılaşdırılması üçün Azərbaycan hökuməti tərəfindən ardıcıl tədbirlərin görüldüyünü və bütün çadır düşərgələrinin tezliklə ləğv olunacağını vurğuladı. Dövlətimizin başçısı Azərbaycanın qaçqın və məcburi köçkünlərinə göstərilən yardımın davam etdirilməsinə görə BMT-nin Ümumdünya Ərzaq Proqramına öz təşəkkürünü çatdırdı və təşkilat ilə əməkdaşlığın daha da inkişaf etdiriləcəyinə ümidvar olduğunu bildirdi.*

*Ceyms Morris BMT-nin Ümumdünya Ərzaq Proqramı ilə Azərbaycan arasında əməkdaşlığın yüksək səviyyədə olduğunu vurğuladı. O, səfəri müddətində qaçqın və məcburi köçkünlərlə görüşdüyünü qeyd etdi və Azərbaycan hökumətinin, şəxsən prezident İlham Əliyevin qaçqın və məcburi köçkünlərin*

*vəziyyətinin yaxşılaşdırılması üçün gördüyü işlərin onda böyük təəssürat yaratdığını bildirdi. Qonaq rəhbərlik etdiyi təşkilat ilə Azərbaycan arasındakı əlaqələrin bundan sonra da genişləndiriləcəyinə əminliyini ifadə etdi.*

## TÜRKİYƏNİN DÖVLƏT NAZİRİ MEHMET AYDIN İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*27 iyul 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 27-də Prezident sarayında Türkiyənin Dövlət naziri Mehmet Aydını qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Türkiyə arasındakı münasibətlərin müxtəlif sahələrdə çox uğurla inkişaf etdiyini vurğuladı. Prezident İlham Əliyev bu yaxınlarda Heydər Əliyev adına Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft boru kəmərinin açılışı mərasimində iştirak etmək üçün Türkiyədə səfərdə olduğunu, səfər zamanı Türkiyənin prezidenti və Baş naziri ilə səmərəli görüşlər keçirdiyini məmnunluqla xatırlatdı.*

*Mehmet Aydın Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın salamlarını prezident İlham Əliyevə çatdırdı. Türkiyə–Azərbaycan iqtisadi komissiyasının növbəti iclasında iştirak etmək üçün Azərbaycana səfər etdiyini bildirən qonaq komissiyanın fəaliyyətinin ikitərəfli münasibətlərin, o cümlədən iqtisadi əlaqələrin daha da genişləndirilməsi işinə töhfə verdiyini qeyd etdi.*

*Prezident İlham Əliyev Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi və onun da salamlarını Türkiyənin Baş nazirinə çatdırmağı xahiş etdi.*

## NƏRİMANOV RAYONU ƏRAZİSİNDƏ TƏŞKİL EDİLMİŞ KƏND TƏSƏRRÜFATI MƏHSULLARININ SATIŞ-YARMARKASI İLƏ TANIŞLIQ

*29 iyul 2006-cı il*

*Azərbaycan prezidenti İlham Əliyev iyulun 29-da Nərimanov rayonu ərazisindəki «Bakı Taxıl» Açıq Tipli Səhmdar Cəmiyyətinin topdansatış bazasında təşkil edilən kənd təsərrüfatı məhsullarının satış-yarmarkası ilə tanış olmuş və verdiyi tapşırığın icrası ilə maraqlanmışdır.*

*Dövlətimizin başçısı alıcılara təklif edilən müxtəlif məhsulların çeşidi, keyfiyyəti və qiymətləri ilə maraqlandı, alıcılarla görüşüb söhbət etdi.*

**Paytaxt sakinləri:** Cənab Prezident, Sizi səmimiqəlbdən salamlayırıq. Belə yarmarkaların təşkilinə görə Sizə minnətdarlığımızı bildiririk. Sizə və Sizin ailənizə cansağlığı, xoşbəxtlik arzulayırıq. Allah-taala Sizi bizim üstümüzdən əskik etməsin. Biz Sizdən çox razıyıq, daim xalqımızın, millətimizin, vətəndaşlarımızın qayğısına qalırsınız.

Cənab Prezident, Sizin tapşırığınızla belə yarmarkalar təşkil olunduqdan sonra qiymətlər xeyli aşağı düşmüşdür. Hər şey var, bolluqdur. Bu hamımızın ürəyincədir. Çox razıyıq.

Cənab Prezident, xalq Sizi çox istəyir. Allah Sizdən razı olsun. O gün olsun baba olasınız. Balalarınız xoşbəxt olsunlar. Biz hamımız Sizinləyik, çünki bizi xoşbəxt gələcəyə aparırsınız.

**İlham Əliyev:** Xoş sözlərə görə təşəkkür edirəm.

Mən gəlmişəm ki, görüm vəziyyət necədir. Bilirsiniz ki, qiymətlərin artımı məni də çox narahat edir. Düzdür, deyirlər ki, bazarda hər şey satılır, ancaq onu hamı ala bilmir. Yəni pensiyaçılar ala bilmirlər, imkansız adamlar ala bilmirlər. Belə yarmarkalar bundan sonra daimi olmalıdır. Əsas odur ki, indi biz

gedəndən sonra burada qiymətlər qalxmasın. Daim nəzarət olmalıdır, baxmalısınız ki, qiymətlər artmasın.

İndi imkanlar artır, maaşlar, pensiyalar artır, alıcılıq qabiliyyəti artır. Amma bundan daha çox kim faydalanır? Bu malları satanlar. Maaş artırılır, qiyməti də artırırlar. Deməli, belə çıxır, biz bu maaşları ona görə artırırıq ki, onlar daha da çox qazansınlar? Belə şey olar? Ona görə ciddi nəzarət olmalıdır.

**Paytaxt sakini:** Cənab Prezident, ciddi tapşırın ki, imkan daxilində nəzarət gücləndirilsin və buraya bazara gətirmək xatirinə mal gətirməsinlər.

**İlham Əliyev:** Bu ilkin təcrübədir, təzə başlamışıq. Ciddi nəzarət və keyfiyyət də yüksək olmalıdır ki, hamı ala bilsin.

**Sakinlər:** Cənab Prezident, Allah köməyiniz olsun, bizim qayğımıza qalırsınız. Sizə uzun ömür arzulayırıq. Yarmarkalarda qiymətlər aşağı olduğuna görə bazarlarda da qiymətlər aşağı düşmüşdür. Sizin verdiyiniz tapşırığa əsasən görülən hər bir iş əhalinin sosial həyat şəraitinin yaxşılaşdırılmasına xidmət edir.

*Sonra prezident İlham Əliyev yarmarkanın ayrı-ayrı satış yerlərini gəzdi, meyvələrin bəzilərinin dadına baxdı, kənd təsərrüfatı məhsullarının haradan gətirilməsi, balıq məmulatlarının çeşidi ilə maraqlandı, isti hava olduğu üçün tez xarab olan məhsulların soyuducularda saxlanılmasının zəruriliyini bildirdi.*

*Dövlətimizin başçısı yarmarkaya məhsul gətirən sahibkarlarla da söhbət etdi. Ağcabədi, Balakən, Qobustan, Salyan və Xaçmaz rayonlarının ayrı-ayrı kəndlərindən gəlmiş sahibkarlar göstərilən diqqətə, qayğıya, yaradılan şəraitə görə təşəkkür etdilər, ticarətin yaxşı getdiyini vurğuladılar.*

*Azərbaycan prezidenti İlham Əliyev əhaliyə keyfiyyətli kənd təsərrüfatı məhsullarının səmərəli qiymətə satışının mütəmadi təşkili ilə bağlı müvafiq strukturların rəhbərlərinə ciddi tapşırıqlar verdi.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN SƏDRLİYİ İLƏ KEÇƏN NAZİRLƏR KABİNETİNİN 2006-cı İLİN BİRİNCİ YARISININ SOSİAL-İQTİSADİ YEKUNLARINA HƏSR OLUNMUŞ İCLASDA GİRİŞ NİTQİ

*Prezident sarayı*

*31 iyul 2006-cı il*

Nazirlər Kabinetinin bugünkü iclasında biz altı ayın yekunlarını müzakirə edəcəyik, vəziyyəti təhlil edəcəyik və əlbəttə ki, gələcək planlar haqqında fikir mübadiləsi aparacağıq. Bütövlükdə, Azərbaycan iqtisadiyyatı bu il də çox uğurla və sürətlə inkişaf edir. İqtisadi artım sürəti ən yüksək səviyyədədir və bu, deməyə əsas verir ki, Azərbaycanda aparılan iqtisadi siyasət çox uğurludur və bizim bütün planlarımız həyata keçirilir.

Azərbaycan keçən il də iqtisadi inkişaf baxımından dünyada lider dövlət idi. Bu liderlik bu il də saxlanılır və ilk altı ayda ümumi daxili məhsulun 36 faizə qalxması, əlbəttə ki, bunun əyani göstəricisidir. İqtisadiyyatın bütün sahələrində inkişaf müşahidə olunur və çox sevindirici hal ondan ibarətdir ki, sənaye istehsalı da çox yüksək sürətlə artır. İlk altı ayda Azərbaycanda sənaye istehsalı 41 faiz artmışdır. Bununla bərabər, Azərbaycana qoyulan sərmayə də artır. İlk altı ayda Azərbaycan iqtisadiyyatına təxminən 3 milyard dollar sərmayə qoyulmuşdur və bu da öz növbəsində onu göstərir ki, Azərbaycan investorlar tərəfindən çox cəlbedici ölkə kimi tanınır və bu gözəl ənənələr davam edir. Bildiyiniz kimi, adambaşına düşən xarici sərmayəyə görə Azərbaycan bölgədə aparıcı yerlərdədir.

Eyni zamanda, bildiyiniz kimi, iqtisadi siyasətimizin əsas istiqamətlərindən biri də ondan ibarətdir ki, bazar iqtisadiyyatı

prinsiplərini tam şəkildə tətbiq etməklə yanaşı, sosial məsələlərin həlli də yaddan çıxmasın. Bu istiqamətdə də böyük işlər görülür. Əhalinin pul gəlirləri ilk altı ayda 18 faiz artmışdır. İnflyasiya isə cəmi 6 faiz artmışdır. Beləliklə, əhalinin real gəlirləri 12 faiz təşkil edir. Orta əmək haqqı 20 faiz artmışdır və bu da çox gözəl göstəricidir.

Bütövlükdə 2006-cı ilin büdcəsi dürüstləşmədən sonra 4,5 milyard dollara bərabərdir. Bu da keçən illə müqayisədə 2 milyard dollar çoxdur. Bütün bunlar bir daha onu göstərir ki, iqtisadi siyasətimiz Azərbaycanda mövcud olan problemlərin həlli işində öz rolunu oynayır və Azərbaycanda bütün problemlər tezliklə həll olunmalıdır.

Bildiyiniz kimi, ölkəmizdə görülən işlər nəticəsində bizim valyuta ehtiyatlarımız da formalaşır və bu gün Azərbaycanın valyuta ehtiyatları 3 milyard dollara bərabərdir. Buraya həm Dövlət Neft Fondunun, eyni zamanda Milli Bankın valyuta ehtiyatları daxildir. Nəzərə alsaq ki, Azərbaycanda Heydər Əliyev neft strategiyasının uğurlu icrası nəticəsində gələcəkdə böyük həcmdə valyuta axını gözlənilir, təbii ki, bizim valyuta ehtiyatlarımız kəskin surətdə artacaqdır və bu da öz növbəsində, bütün problemlərin həlli üçün gözəl zəmindir.

Bu il və keçən il ölkəmizdə müxtəlif sahələrə aid proqramlar – həm regionların sosial-iqtisadi inkişafı proqramı, eyni zamanda digər proqramlar həyata keçirilir. Proqramların əsas əlaməti ondan ibarətdir ki, onlar çox konkret xarakter daşıyır və orada icra mexanizmləri çox açıq-aydın təsbit edilmişdir. Eyni zamanda, maliyyə mənbələri də müəyyən olunmuşdur. Bu proqramlar arasında Bakının kənd və qəsəbələrinin inkişafına dair proqram xüsusi əhəmiyyət kəsb edir və çox sevindirici haldır ki, proqram qəbul ediləndən dərhal sonra icra olunmağa başlamışdır və bu gün Bakıətrafı kənd və qəsəbələrdə işlər çox sürətlə aparılır. Müxtəlif sahələrdə işlər daha da mütəşəkkil qaydada təmin edilibdir.

Bilirsiniz ki, Azərbaycanda nəqliyyat infrastrukturuna böyük diqqət göstərilir. İndi yolların – həm magistral, həm

şəhərlərarası, həm də kənd yollarının tikintisi çox geniş vüsət alıbdır. Yol infrastrukturunun müasir səviyyəyə çatdırılması bizim çox vacib vəzifəmizdir və növbəti illər ərzində Azərbaycanda bu məsələ tamamilə öz həllini tapacaqdır.

Məktəb, xəstəxana tikintisi artıq bütün bölgələrdə aparılır və bu işlər ən müasir səviyyədə görülür. İdman komplekslərinin tikintisi davam edir və bu bizim sosial sahəyə aid çox vacib məsələlərimizdən biridir. Müxtəlif bölgələrdə yeni idman kompleksləri tikilir və istismara verilir.

Ətraf mühitin qorunmasına dair bu yaxınlarda geniş müşavirə keçirilmişdir. Çünki buna böyük ehtiyac vardır. Bizim iqtisadi imkanlarımız artır, ölkədə işlər çox yaxşı gedir və belə olan halda ekoloji məsələlərə də böyük diqqət göstərilməlidir. Çünki bu hər bir vətəndaşa təsir edən amildir. Göstəriş verilibdir ki, bu məsələyə dair geniş proqram, sərəncam hazırlansın. İndi bu işlər görülür və yaxın zamanlarda geniş proqram tərtib olunacaqdır ki, Azərbaycanda və xüsusilə Bakıda, Abşeron yarımadasında ekoloji durum kəskin şəkildə yaxşılaşsın. Bütün aidiyyəti orqanlara müvafiq göstərişlər veriləcəkdir. Mədəniyyət obyektlərinin təmiri və bərpasına başlanmışdır. Müvafiq göstərişlər verilmişdir ki, Azərbaycanda bütün mədəniyyət ocaqları – teatrlar, muzeylər, digər mədəniyyət abidələri bərpa olunmalıdır. Azərbaycanın çox zəngin tarixi, mədəniyyəti vardır. Biz bütün mədəniyyət abidələrini qorumalıyıq, təmir etməliyik ki, onlar öz təbii gözəlliyini bərpa etsinlər. Bu istiqamətdə də müvafiq tapşırıqlar verilibdir. Bu il Azərbaycanda həm Muğam Mərkəzinin, eyni zamanda Xalça Muzeyinin yeni binasının tikintisinə başlanmalıdır.

Bildiyiniz kimi, bizi narahat edən problemlərdən biri bazarlarda bəzi hallarda qiymətlərin qalxmasıdır. Bunun da müəyyən səbəbləri var. Əlbəttə ki, büdcənin bir il ərzində iki dəfə qalxması, əmək haqlarının, pensiyaların qaldırılması, eyni zamanda, dünyada gedən proseslər, neftin bir barrelinin 70 dolları keçməsi – bütün bu məsələlər istər-istəməz istehlak

bazarına da mənfi təsir göstərir. Çünki Azərbaycanın istehlak bazarı hələ ki, böyük həcmdə idxal hesabına formalaşıbdır. Belə olan halda, bütövlükdə, dünyada gedən bahalaşma istər-istəməz Azərbaycan bazarına da mənfi təsir göstərir. Digər obyektiv amillər var və yəni bunlar təbii amillərdir. Amma bununla bərabər, subyektiv amillər də kifayət qədərdir. Subyektiv amillərin aradan qaldırılması işində biz gərək daha da fəal olaq.

Son vaxtlar kənd təsərrüfatı yarmarkalarının keçirilməsi çox müsbət bir hadisədir. Mən iki gün bundan əvvəl şəxsən özüm bu yarmarkaların biri ilə tanış oldum və gördüm ki, həqiqətən orada qiymətlər fərqlənir. Mən bir neçə dəfə demişəm, Azərbaycanda aparılan uğurlu iqtisadi siyasət insanların rifah halının yaxşılaşmasına gətirib çıxarıbdır. Bu gün biz öz işimizi bazar iqtisadiyyatı prinsipi əsasında qururuq. Ancaq bununla bərabər, sosial ədalət prinsipləri də tam şəkildə təmin olunmalıdır.

Mənə bəzən deyirlər ki, bazarda hər şey satılır. Bu təbiidir. Çünki imkanlı adamların sayı artır və qiymətlər baha olsa da bazarda mal qalmır. Ancaq hər kəs onu ala bilmir. İmkansız insanlar – pensiyaçılar, kasıbçılıq, yoxsulluq şəraitində yaşayanlar hələ ki, Azərbaycanda kifayət qədərdir. Düzdür, yoxsulluq şəraitində yaşayanların sayı kəskin şəkildə aşağı – 49 faizdən 29 faizə düşübdür. Ancaq 29 faiz də böyük rəqəmdir. Bu insanlar öz imkanlarından istifadə edib ucuz məhsulları almaq qabiliyyətinə malik olmalıdırlar. Bu məqsədlə yarmarkaların keçirilməsi çox gözəl tədbirdir. Bu məhz sosial ədalət prinsipinin təmin olunmasında öz funksiyasını daşıyır.

Bu il Azərbaycan üçün, bütövlükdə bölgə üçün və dünya üçün çox böyük bir tarixi hadisə baş vermişdir. Heydər Əliyevin adını daşıyan, onun təşəbbüsü ilə başlanmış Bakı–Tbilisi–Ceyhan əsas neft ixrac kəmərinin tikintisi başa çatmışdır. Bu, böyük tarixi hadisədir və Azərbaycanın neft strategiyasının təntənəsidir. Bütövlükdə, Azərbaycanın son illər ərzində apardığı siyasətin təntənəsidir. Çünki Bakı–Tbilisi–Ceyhan neft kəməri həm iqtisadi, həm də coğrafi-siyasi nöqteyi-nəzərdən

çox əhəmiyyətli və Azərbaycan dövləti üçün həlledici əhəmiyyətə malik bir layihədir. Bakı–Tbilisi–Ceyhan neft kəmərinin tikintisi bizim uzunmüddətli inkişaf perspektivlərimizi müəyyən edir, Azərbaycanın dayanıqlı inkişaf imkanlarını təmin edəcəkdir.

Azərbaycanın təbii sərvətləri, zəngin neft-qaz ehtiyatları artıq dünya bazarlarına çox əhəmiyyətli yollarla çıxarılır və Azərbaycan xalqı bu layihədən artıq böyük mənfəət əldə edibdir. Gələcəkdə bu, ölkəmizin iqtisadiyyatının inkişafında çox mühüm rol oynayacaqdır. Təkcə iqtisadi məsələlərin həlli deyil, təbii ki, Azərbaycanın bölgədə, dünyada rolu, nüfuzu artacaqdır və biz artıq bunu hiss edirik.

Bakı–Tbilisi–Ərzurum qaz kəmərinin tikintisi də uğurla aparılır və Azərbaycan dünyanın enerji təhlükəsizliyi məsələlərində öz rolunu oynayacaqdır. Bununla bərabər, dəmir yolunun tikintisi ilə əlaqədar müvafiq işlər aparılır. Bakı–Tbilisi–Qars dəmir yolunun tikintisi məsələsi Azərbaycan üçün çox böyük əhəmiyyət daşıyır. O həm iqtisadi cəhətdən, eyni zamanda, Avropanı Asiya ilə dəmir yolu ilə birləşdirən layihədir. Ümid edirəm ki, bu layihəni də Azərbaycan və onun tərəfdaşları uğurla icra edəcəklər. Bütövlükdə, Azərbaycanda vəziyyət çox müsbətdir. İctimai-siyasi vəziyyət çox sabitdir. Xalqla iqtidar arasında birlik daha da möhkəmlənir. Bizim siyasətimiz bəyənilir və çox sevindirici haldır ki, Azərbaycanın uğurlu inkişafı artıq insanların gündəlik həyatında da özünü büruzə verir. Makroiqtisadi məsələlər, əlbəttə ki, iqtisadiyyatımızın, ümumiyyətlə, inkişafını təmin edir. Ancaq hər bir vətəndaş, hər bir ailə öz gündəlik həyatında bu gözəl dəyişiklikləri hiss etməlidir. Bunu etmək üçün ilk növbədə, yoxsulluq aradan qaldırılmalıdır, işsizlik aradan qaldırılmalıdır, bu işdə biz artıq böyük nəticələr əldə etmişik.

Deyə bilərəm ki, bu altı ay ərzində Azərbaycanda 90 min yeni iş yeri açılmışdır. Bütövlükdə isə 2003-cü ilin oktyabr ayından bu günə qədər Azərbaycanda 435 min yeni iş yeri açılmışdır ki, bunların 221 mini daimi iş yerləridir. Bu, əlbəttə

ki, Azərbaycanda yerli istehsalın inkişafına kömək göstərir, insanların sosial vəziyyətini yaxşılaşdırır və bütövlükdə, Azərbaycanda inkişafı müəyyən edən amillərdən biridir. Bununla bərabər, regionların sosial-iqtisadi inkişafı proqramı icra olunur, rayonlarda böyük abadlıq, quruculuq işləri aparılır. Mən bölgələrdə tez-tez oluram və görürəm ki, bizim rayonlarımız çox gözəlləşir, çox böyük abadlıq işləri aparılır və mənim tələbim ondan ibarətdir ki, görülən hər bir iş dünya səviyyəsində, ən yüksək səviyyədə təşkil olunmalıdır. Belə olan halda, əlbəttə ki, ictimai-siyasi vəziyyət də müsbət olacaqdır. Çünki insanlar daimi diqqəti, qayğını görməlidirlər.

Mən həmişə demişəm, biz xalq üçün yaşayırıq, xalq üçün çalışırıq, xalq qarşısında məsuliyyət daşıyırıq. İctimai-siyasi vəziyyətin müsbət olması, əlbəttə, həm siyasi, həm də iqtisadi islahatların daha da inamla aparılmasına gözəl şərait yaradır ki, bu da Azərbaycanda var. Həm siyasi, həm də iqtisadi islahatlar Azərbaycanda paralel şəkildə aparılır və bizim uğurlu siyasətimiz onu göstərir ki, bu, yeganə, düzgün yanaşmadır. Bu barədə artıq kifayət qədər danışılıbdır və Azərbaycanın numunəsi onu göstərir ki, düşünülmüş strategiya və taktika olan yerdə uğurlar da olacaqdır.

Sabitlik, ictimai-siyasi asayiş hər bir inkişafın başlıca şərtidir və müxtəlif ölkələrin təcrübəsində biz bunu görürük. Harada ki bu var, inkişaf da var, harada ki bu yoxdur, insanlar və bütövlükdə ölkələr böyük çətinliklər çəkirlər, böhran içində yaşayırlar, uzunmüddətli böhrandan çıxa bilmirlər və beləliklə, ölkələr zəifləyir. Biz isə istəyirik ki, Azərbaycan zəngin, qüdrətli ölkəyə çevrilsin, vətəndaşlarımız yaxşı yaşasınlar, sülh, əmin-amanlıq, rifah şəraitində yaşasınlar.

Azərbaycanda yaşayan bütün insanlar buna layiqdirlər və biz ən çətin, ən ağır vəziyyətdə yaşayan soydaşlarımızın da problemlərini həll edirik. Qaçqın, köçkün soydaşlarımızın problemləri bizim üçün həmişə gündəlikdə bir nömrəli problemlərdir. Yeni şəhərciklər, qəsəbələr salınır. Siz bütün bunları yaxşı bilirsiniz. Bu barədə çox danışmaq istəmirəm. Çox şadam

ki, iki il bundan əvvəl qəbul edilmiş proqram artıq uğurla icra edilir və dediyim kimi, Azərbaycanda bir dənə də olsun çadır şəhərciyi qalmayacaqdır. Çadır şəhərciyində yaşayan bütün soydaşlarımız müasir evlərdə yaşayacaqlar.

Ordu quruculuğu işində uğurlar var. Ordumuz həm peşəkarlıq baxımından daha da möhkəmlənir, eyni zamanda, ordunun maddi-texniki bazası möhkəmlənir. Ordu xərclərinin artması, əlbəttə ki, çox gözəl göstəricidir. Azərbaycan hər cəhətdən möhkəmlənir, büdcəmiz artır. Belə olan halda ordu büdcəsinin təxminən 700 milyon dollara çatması təbii haldır. Yəqin ki, bu, son hədd deyil. Bundan sonra da orduya ayrılan xərclər artacaqdır.

Bütövlükdə, 2007-ci ilin büdcəsi daha da böyük olmalıdır. Növbəti rübdə 2007-ci ilin büdcəsi üzərində işlər aparılmalıdır ki, biz büdcəni formalaşdıraq. Əminəm ki, 2007-ci ilin büdcəsi daha da böyük olacaq və beləliklə, Azərbaycanda mövcud olan problemlər daha da tezliklə öz həllini tapacaqdır. Büdcə hesabına biz çoxlu proqramlar həyata keçiririk. Büdcə hesabına insanların maaşları, pensiyaları qaldırılır.

Büdcə hesabına böyük infrastruktur layihələri həyata keçirilir, elektrik stansiyaları, yollar, aeroportlar tikilir. Yəni Azərbaycanda elə bir sahə yoxdur ki, orada inkişaf olmasın. İstər iqtisadi, istər infrastruktur, istərsə də sosial-mədəni sahələrdə – bütün sahələrdə inkişaf var. Haradasa daha da sürətlə gedir, haradasa bir az ləng gedir, amma biz hər yerdə bu inkişafı görürük. Əminəm ki, görülən bu işlərin bütün nəticələrini biz tezliklə görəcəyik.

Bildiyiniz kimi, son zamanlar Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində Minsk qrupu tərəfindən yeni açıqlamalar verilmişdir, danışıqların bəzi məqamları aşkar edilmişdir. Biz buna etiraz etmədik. Baxmayaraq ki, danışıqlar konfidensial xarakter daşıyırdı. Biz həmişə hesab edirdik ki, Azərbaycan ictimaiyyəti və bütövlükdə ictimaiyyət bu barədə məlumatlandırılmalıdır. Sadəcə olaraq, danışıqların konfidensial xarakter daşımasına görə biz də bu

konfidensiallığı qoruyurduq. Amma bir halda ki Minsk qrupu belə bir qərara gəldi, əlbəttə, ictimaiyyət də bunu bilməlidir. Bir daha demək istəyirəm ki, son iki il ərzində danışıqlar Praqa prosesi çərçivəsində aparılırdı. Bildiyiniz kimi, Praqa prosesi məsələnin mərhələli həlli deməkdir. Şübhəsiz ki, Azərbaycanın ərazi bütövlüyü danışıqlar predmeti olmamışdır, deyil və heç vaxt olmayacaqdır. Bu barədə artıq mənim tərəfimdən kifayət qədər bəyanatlar verilmişdir. Bunu ictimaiyyət də, həmsədrlər də bilir və danışıqlarda iştirak edən qarşı tərəf də bilir. Azərbaycanın işğal olunmuş torpaqları işğalçı qüvvələrdən azad olunmalıdır. Azərbaycan qaçqınları öz doğma torpaqlarına qayıtmalıdırlar, o cümlədən Dağlıq Qarabağa qayıtmalıdırlar. Dağlıq Qarabağın gələcək statusu isə növbəti danışıqlar raundunun müzakirəsinə səbəb ola bilər və biz heç vaxt statusun müzakirəsindən imtina etməmişik. Sadəcə olaraq, ilk növbədə, işğal olunmuş bütün torpaqlar azad olunmalıdır. Ondan sonra isə status haqqında danışıqlar aparıla bilər.

Statusa gəldikdə, bunu gələcək göstərəcək ki, bu status nə olacaq. Hər halda, bu məsələdə biz mütləq və mütləq həm beynəlxalq hüquq normalarını, eyni zamanda dünyada mövcud olan praktikanı, əlbəttə ki, gərək rəhbər tutaq. Beynəlxalq hüquq normaları onu göstərir ki, Azərbaycanın ərazi bütövlüyü bütün dünya tərəfindən, Birləşmiş Millətlər Təşkilatı tərəfindən, Minsk qrupunun həmsədr ölkələri tərəfindən və bütövlükdə bütün ölkələr tərəfindən tanınır və Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir, onun tərkib hissəsidir. Belə olan halda münaqişə yalnız bu əsasların üzərində öz həllini tapa bilər.

O ki qaldı bəzən səslənən güzəştlər məsələsinə, Azərbaycan da kifayət qədər güzəştlərə getməyə hazırdır. Ancaq bizim güzəştlərin son həddi var. Elə məsələlər var ki, orada güzəştdən söhbət gedə bilməz. Azərbaycanın ərazi bütövlüyü güzəşt predmeti ola bilməz. Dağlıq Qarabağın Azərbaycandan ayrılması məsələsinə Azərbaycan heç vaxt öz razılığını verməyəcəkdir. Nə bu gün, nə də sabah və heç vaxt Dağlıq

Qarabağın gələcəkdə Azərbaycandan ayrılmasına şərait yaradan şərtlərə Azərbaycan razılıq verməyəcəkdir. Bunu hamı bilir. Ona görə danışıqlar prosesi və Praqa formatı bütövlükdə müsbət yanaşmadır. Hesab edirəm, Azərbaycan diplomatiyasının uğurudur ki, danışıqlar Praqa prosesi çərçivəsində aparılır.

Yenə də deyirəm, bizim mövqeyimiz çox açıqdır, aydındır. Bu mövqe beynəlxalq hüquq normalarına əsaslanır. Ermənistanın mövqeyi isə sadəcə olaraq, onların istəyinə, arzularına, xülyalarına əsaslanır ki, bunun da heç vaxt heç bir səmərəsi olmayacaqdır. Dünyada mövcud olan davranış qaydaları var. Qəbul edilmiş hüquqi çərçivələr var. Bu çərçivələrdə hər bir məsələ öz həllini tapa bilər, o cümlədən Dağlıq Qarabağ münaqişəsi. Ona görə Azərbaycan danışıqlarda kifayət qədər konstruktiv mövqe nümayiş etdirir və ümid edirəm ki, Ermənistan da konstruktiv mövqe nümayiş etdirəcəkdir. Əfsuslar olsun ki, bu günə qədər məhz Ermənistanın qeyri-konstruktiv mövqeyinə görə danışıqlar prosesi uğurla nəticələnmir. Biz bütün diplomatik, siyasi imkanlarımızı bu işdə səfərbər edəcəyik və edirik. Eyni zamanda, əlbəttə ki, yenə də qayıtmaq istəyirəm ordu quruculuğuna, ordu potensialımızı da gücləndiririk və gücləndirəcəyik. Bu bizim suveren hüququmuzdur.

Biz müharibə şəraitində yaşayırıq və görürsünüz ki, atəşkəs rejimi möhkəm deyil, vaxtaşırı atışmalar baş verir, təmas xəttindəki vəziyyət vaxtaşırı gərginləşir. Biz hər bir təxribata hazır olmalıyıq və hazırıq. Gələcəkdə ordu potensialımızın güclənməsi əminəm ki, Dağlıq Qarabağ məsələsinin ədalətli həllinə kömək göstərəcəkdir.

Beləliklə, bir daha demək istəyirəm ki, həyatımızın bütün sahələrində Azərbaycanın çox düşünülmüş siyasəti var. Biz öz fəaliyyətimizi proqram çərçivəsində qururuq. İstər iqtisadi, istər siyasi, istərsə də hərbi sahədə. Xarici siyasət haqqında artıq çox danışmaq istəməzdim. Bütün bunlar göz qabağındadır. Azərbaycanın uğurlu xarici siyasəti bizə imkan verir ki, bütün beynəlxalq təşkilatlarda qonşularımızla səmərəli, ikitərəfli,

faydalı münasibətlərimizi qura bilək. Bu həm bölgə üçün, həm də bütövlükdə Azərbaycanda gedən proseslər üçün çox böyük əhəmiyyət kəsb edir.

*İclasda Maliyyə naziri Samir Şərifov, İqtisadi İnkişaf naziri Heydər Babayev, Vergilər naziri Fazil Məmmədov, Milli Bankın idarə heyətinin sədri Elman Rüstəmov, Kənd Təsərrüfatı naziri İsmət Abasov, Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayev, Rabitə və İnformasiya Texnologiyaları naziri Əli Abbasov çıxış etdilər.*

## YEKUN NİTQİ

İndi altı ayın yekunları haqqında geniş məlumatlar səsləndi və bu məlumatlar bir daha onu göstərir ki, altı ay ərzində Azərbaycan iqtisadiyyatı və demək olar ki, həyatımızın bütün sahələri çox sürətlə inkişaf edir. Bütün bunları bilmək, əlbəttə ki, təhlil etmək lazımdır. Həm əldə edilmiş nailiyyətlər, eyni zamanda, gələcək planlar haqqında biz gərək bu gün öz fikirlərimizi formalaşdıraq. İlk növbədə, təhlil bizə imkan verəcək ki, həm müsbət, həm də mənfi tərəfləri biz daha da geniş şəkildə üzə çıxaraq, eyni zamanda, gələcək fəaliyyətimizdə bütün bunları gərək nəzərdə saxlayaq.

O ki qaldı gələcək fəaliyyətimizə, mən istərdim ki, bəzi fikirlərimi söyləyim. Nazirlərin çıxışlarında da bəzi təkliflər, yeni ideyalar, yeni fikirlər artıq səsləndi.

Ölkəmizin hərtərəfli və davamlı inkişafı üçün, əlbəttə ki, birinci ən vacib məsələ makroiqtisadi vəziyyətin sabit qalmasıdır. Azərbaycan uzun illərdir ki, bu baxımdan çox uğurla inkişaf edən ölkədir. 1995-ci ildən bu günə qədər ümumi daxili məhsul Azərbaycanda hər il yüksək sürətlə artır. Təxminən 2004-cü ilə qədər haradasa, ildə 10 faiz artırdı, bu da dünya

praktikasında çox böyük nailiyyətdir. Ancaq son iki il ərzində bu artım daha da güclü olmuşdur. Keçən il 26 faiz, bu ilin altı ayında 40 faizə yaxın və yəqin ki, bu sürət bu il, gələn il və 2008-ci ildə də saxlanılacaqdır. Bu, əlbəttə, bizim üçün böyük bir nailiyyətdir. Bizim işimizi daha da yüngülləşdirir, imkanlarımızı artırır, eyni zamanda, ümumi iqtisadiyyata böyük yükdür. Bunu iqtisadçılar yaxşı bilir və gərək bu məsələ ilə əlaqədar biz siyasətimizi çox dəqiq aparaq. Nəzərə alsaq ki, gələn ildən Bakı–Tbilisi–Ceyhan neft kəmərinin fəaliyyəti nəticəsində Azərbaycana külli miqdarda valyuta axını daxil olacaq, əlbəttə ki, makroiqtisadi vəziyyətin sabit qalması ümumi iqtisadi inkişafımız üçün əsas prioritet məsələdir.

Təbii ki, büdcə xərcləri artmalıdır. Azərbaycan inkişaf edir, ölkənin çoxlu problemləri var, iqtisadi-sosial infrastruktur layihələri var və biz xərcləri artıracağıq. Gələn ilin büdcəsində, əlbəttə, daha da böyük xərclər nəzərdə tutulacaqdır. Eyni zamanda, bu xərclərin artımı və bütövlükdə, iqtisadi inkişafın bütün uğurları makroiqtisadi vəziyyətə mənfi təsir göstərə bilər. Biz bu mənfi təsirin bəzi əlamətlərini keçən il və bu ilin əvvəlində yaşamışıq. İlk dəfə olaraq, demək olar ki, son on il ərzində Azərbaycanda inflyasiya 2 faizdən yuxarı qalxmışdır. Bizim üçün bu, keçən il bir növ gözlənilməz olmuşdu, ancaq görülən tədbirlər nəticəsində inflyasiyanın qarşısı alındı və aşağı salındı.

Bu il inflyasiya 6 faizdir, ancaq ərzaq məhsullarının qiymətlərinin artımı, əlbəttə ki, çox böyük bir ciddi siqnaldır. Ona görə bizim iqtisadi siyasətimiz bundan sonra çox dəqiq olmalıdır. Burada səhvə yol vermək qətiyyən olmaz. Hər bir yanlış addım bizim ümumi iqtisadi vəziyyətimizə mənfi təsir göstərə bilər. Hesab edirəm ki, makroiqtisadi vəziyyətin sabit qalması bütün başqa vacib amillərlə yanaşı, birinci əsas məsələdir. Biz elə etməliyik ki, iqtisadiyyatımızın uğurlu inkişafı əlavə təhlükələr yaratmasın. Bu baxımdan, əlbəttə ki, buna aid olan bütün digər məsələlər də öz həllini tapmalıdır. Bu barədə mən bir qədər sonra danışacağam.

Qeyri-neft sektorunun inkişafı artıq hamı tərəfindən qəbul olunur ki, bu, indi bizim üçün prioritet məsələdir. Azərbaycanın uğurlu neft strategiyası icra olunur və əgər fikir vermisinizsə, mən bu gün çıxışımda neft sektoruna o qədər də toxunmadım. Çünki bu sahədə işlər yaxşı gedir. Həm xarici tərəfdaşlarla bizim əməkdaşlığımız möhkəmlənir, dünyamiqyaslı layihələr artıq reallıqdır. Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum və digər layihələr, eyni zamanda Dövlət Neft Şirkəti tərəfindən işlənilən yataqlar və gələn il bu yataqlardan əlavə neft və qazın hasil edilməsi gözlənilir. Bir sözlə, bu sahədə vəziyyət yaxşıdır. Ona görə ilk növbədə, biz gərək qeyri-neft sektorunun inkişafına çalışaq.

Bir də ki, neft gəlirləri, neft pulları, əlbəttə, ölkənin iqtisadi imkanlarını artırır, valyuta ehtiyatlarımızı artırır, amma bütövlükdə, iqtisadi siyasət üçün onların bəzi hallarda mənfi təsiri də ola bilər. Çünki əgər qeyri-neft sektorundan vəsait yığılmırsa, əgər qeyri-neft sektoru inkişaf etmirsə, bu, böyük təhlükələrə gətirib çıxara bilər. Ona görə, iqtisadiyyatımızın şaxələndirilməsi məsələləri gündəlikdə durur və bu istiqamətdə işlər görülür.

Regionların sosial-iqtisadi inkişafı proqramı məhz bu geniş siyasətin tərkib hissəsidir və digər sahələrdə də qeyri-neft sektorunun inkişafına biz daha da böyük diqqət göstərməliyik. Hökumət, dövlət öz tərəfindən üzərinə düşən vəzifələri yerinə yetirir. Misal üçün, bilirsiniz ki, sahibkarlığın inkişafına biz əlavə vəsaitin ayrılmasını nəzərdə tuturuq, bu il bu məqsədlərə 100 milyon dollara qədər vəsait nəzərdə tutulub, gələn il yəqin ki, bu artırılacaqdır. Bu yaxınlarda Azərbaycan İnvestisiya Şirkətinin yaradılması da bu məqsədi güdür, təbii ki, bi investisiya şirkəti qeyri-neft sektoru ilə məşğul olacaqdır. İlk növbədə, Azərbaycanın iqtisadiyyatı üçün önəmli olan sahələri yaratmaq və investisiyaları, o cümlədən xarici investisiyaları cəlb etmək üçün 100 milyon dollar kapitalı olan Dövlət İnvestisiya Şirkətinin fəaliyyəti həlledici rol oynayacaqdır. Bir tərəfdən, Azərbaycan dövləti bu şirkətin yaradılması ilə öz ciddi

niyyətlərini ortaya qoymuş olur, digər tərəfdən, potensial xarici investor da Azərbaycanda qeyri-neft sektorunun inkişafına öz sərmayələrini daha da ürəklə qoyacaqdır.

Antiinflyasiya tədbirləri daim aparılmalıdır. Bu barədə artıq müəyyən işlər görülübdür və Azərbaycanın indiki durumunu və gələcək imkanlarını nəzərə alsaq, antiinflyasiya tədbirləri daim aparılmalıdır. Nəzərə almaq lazımdır ki, 20 il ərzində Azərbaycanın xəzinəsinə ancaq neft-qaz müqavilələrindən 140 milyard dollar daxil olacaqdır. Belə olan halda, bizim iqtisadi siyasətimizin əsas prioritetlərindən biri də antiinflyasiya tədbirlərinin möhkəmlənməsidir. Daim monitorinq aparılmalıdır, bütün imkanlar səfərbər olunmalıdır ki, biz inflyasiyanın artımına yol verməyək.

Bu gün çıxışlarda səsləndi ki, neft-qaz hasil edən ölkələrdə son müddət ərzində inflyasiya çox kəskin şəkildə, bizimkindən bəlkə 2 dəfə çox artmışdır. Bu bir təfərdən, onu göstərir ki, Azərbaycanda bu sahədə işlər yaxşı qurulur və aidiyyəti orqanlar burada səmərəli işləyirlər. Ancaq digər tərəfdən, 6 faiz inflyasiya bizi bu gün qane edirsə, gərək inflyasiya birrəqəmli olsun. Xüsusilə gələcək illər üçün bu daha da önəmlidir, bizim neft gəlirlərimizi nəzərə almalıyıq. Bu istiqamətdə müxtəlif tədbirlər görülməlidir. Həm iqtisadi, həm inzibati tədbirlər də görülməlidir.

Misal üçün, kənd təsərrüfatı məhsulları yarmarkalarının təşkili bunu çox gözəl nümayiş etdirdi ki, inzibati tədbirlər burada çox böyük rol oynaya bilər. Yarmarkaların keçirilməsi bir tərəfdən, bu məqsədi güdür, digər tərəfdən, mən bunu bu gün qeyd elədim, sosial ədalət prinsiplərini də Azərbaycanda möhkəmləndirir. Çünki bizim iqtisadi imkanlarımız, insanların həyat səviyyəsinin yaxşılaşması ona gətirib çıxarır ki, alıcılıq qabiliyyəti artır və bazarda təklif olunan mallar hətta yüksək qiymətə satılır. Yəni bu, bazar iqtisadiyyatı prinsiplərinin xüsusiyyətidir. Yəni bazar hər şeyi özü tənzimləyir və istisna deyil ki, sabah bazarda qiymətlər yenə qalxsa, yenə də hər şey alınacaq, hər şey satılacaqdır. Bu bir növ onu göstərir ki, alıcılıq

qabiliyyəti artır, deməli, insanlar daha da yaxşı yaşamağa başlayırlar. Ancaq imkansız təbəqə isə, deməli, bu imkanlardan tamamilə məhrum olur. Ona görə, aztəminatlı ailələrin vəziyyətinin yaxşılaşdırılması üçün bu yarmarkalar daim keçirilməlidir və güclü nəzarət olmalıdır ki, orada qiymətlər daim belə sabit, aşağı olaraq qalsın.

2007-ci ilin büdcəsi haqqında artıq işlər başlayıbdır. Büdcə təbii ki, kəmiyyət baxımından daha da böyük olmalıdır, eyni zamanda, iki əsas istiqaməti özündə ehtiva etməlidir. Həm investisiyayönümlü, həm də sosialyönümlü olmalıdır. Azərbaycanın siyasəti, ölkəmizin siyasəti məhz bundan ibarətdir. Biz bazar iqtisadiyyatı prinsiplərinə sadiqik və Azərbaycanda bu prinsipləri geniş tətbiq edirik. Ancaq eyni zamanda çox güclü sosial siyasət də aparılmalıdır. Çünki biz elə etməliyik ki, insanlar daha da yaxşı yaşasınlar. Ona görə, 2007-ci ilin büdcəsində həm böyük, bizim üçün lazım olan iqtisadi infrastruktur layihələr olmalıdır, eyni zamanda, orada əmək haqlarının, pensiyaların artımı da nəzərdə tutulmalıdır. Minimum əmək haqqının artımı artıq Azərbaycanda ənənəvi xarakter daşıyır, haradasa, ildə 1-2 dəfə qaldırılır. Yəqin ki, 2007-ci ildə də bu, nəzərdə tutulmalıdır.

Büdcəmiz artdıqca nəzarət də artmalıdır və maliyyə nizam-intizamı da möhkəmlənməlidir. Bizim büdcəmiz 1 milyard dollar səviyyəsində olanda və xüsusilə sosialyönümlü olanda, əlbəttə ki, nəzarət etmək daha da asan idi. İndi büdcəmiz təxminən 4 milyard 500 milyon dollardır. İcmal büdcə isə 5 milyarddan çoxdur. Gələn ilin büdcəsi daha da böyük olacaq, əlbəttə ki, burada nəzarət də güclənməlidir. Şəffaflıq tam şəkildə təmin olunmalıdır, böyük infrastruktur layihələr büdcə hesabına həyata keçirilir və burada çox ciddi nəzarət olmalıdır.

Biz neft gəlirlərinin saxlanması işində çox böyük işlər görmüşük, çox şəffaf şəkildə Neft Fondu yaranıbdır. Bu işlərə beynəlxalq audit tərəfindən baxılır. Fond şəffaf şəkildə saxlanılır. Elə etməliyik ki, büdcə xərcləri də eyni dərəcədə

şəffaf olsun, burada heç bir pozuntulara yol verilməsin və eyni zamanda, ictimai nəzarət güclənməlidir.

2006-cı ildən başlayaraq Azərbaycanda yeni pensiya sistemi fəaliyyətdədir və orta pensiyanın həcmi 21 faiz artmışdır. Bu gün orta pensiya 36 yeni Azərbaycan manatı səviyyəsindədir. MDB ölkələri ilə müqayisədə bu çox yüksək göstəricidir və Azərbaycan burada öndə gedən ölkələrin sırasındadır. Ancaq bu rəqəm bizi qane edə bilməz. 36 manata yaşamaq mümkün deyil. Bunu biz hamımız bilməliyik. Bu reallıqdır. Əlbəttə, imkanlarımız hələ imkan vermir ki, biz istənilən səviyyədə həm pensiya, həm də əmək haqqı verək. Baxmayaraq ki, bu, ildən-ilə artır və indi Azərbaycanda orta əmək haqqı 150 dollardır. Bu dinamika çox müsbətdir. Ancaq biz eyni zamanda, imkansız, əlbəttə ki, yoxsulluq şəraitində yaşayan insanların problemlərini həll etməliyik. Ona görə də orta pensiya, minimum pensiya, minimum əmək haqqı ildən-ilə artmalıdır və çalışmalıyıq ki, bu artım daha da sürətli olsun.

İndi Azərbaycanda ünvanlı sosial yardım göstərilir. Bir müddət bundan əvvəl biz buna başladıq və haradasa, 40 manat məbləğində yardım göstərilir. Mənə verilən məlumata görə, indi 12 min ailə və 50 mindən artıq əhali bu məbləği alır. Burada da, çox ciddi həm nəzarət olmalıdır, həm də uçot olmalıdır, meyarlar gərək daha dəqiq olsun. Biz bilirik ki, ünvanlı sosial yardım almaq üçün müraciət edənlər alanlardan qat-qat çoxdur. Bu bir tərəfdən onu göstərir ki, yardıma ehtiyacı olan insanların sayı çoxdur, digər tərəfdən, onu göstərir ki, normal şəraitdə yaşayanlar da istəyirlər ondan faydalansınlar.

Mən televiziya vasitəsilə baxıram bəzi o təbliğat roliklərinə, çox təsirlidir. İmkanı olan ailələr də sıraya düzülürlər ki, o yardımı alsınlar. Dözülməz haldır, amma bu olacaq. Biz gərək bunu çox dəqiq meyarlarla və əlbəttə ki bu işlə məşğul olan insanların peşəkarlığı və təmizliyi ilə yoluna qoyaq. Biz bu işə təzə başlamışıq. İlkin təcrübə müsbətdir, gərək bu işi daha da təkmilləşdirək.

Eyni zamanda, bizim üçün növbəti yenilik bu il İpoteka Fondunun yaradılması olmuşdur. Bu da çox müsbət addım olub, çox müsbət praktikadır. Hələ ki bu fondun fəaliyyətini təhlil etmək bir qədər tezdir. Çünki fəaliyyətə təzə başlayıbdır. Ancaq indidən demək olar ki, İpoteka şərtlərinin bəzilərini sadələşdirmək lazımdır. Çünki İpoteka prosesi kütləvi xarakter almalıdır. Biz bu sistemi oradakı faizdən gəlir əldə etmək üçün yaratmamışıq. Biz bunu gənc ailələrin sosial vəziyyətinin yaxşılaşdırılması üçün yaratmışıq. Məndə olan məlumata görə, bəzi gənclər, bəzi insanlar şərtlərin o qədər də məqbul olmadığı üçün bu işdən bəhrələnə bilmirlər. Yenidən baxmaq lazımdır. Yenə də deyirəm, mən bu barədə hələ ki bir söz demək istəmirəm. Biz hələ ki təhlil aparmamalıyıq. Bir müddət keçsin, baxaq görək bu iş necə gedir. Amma prinsip etibarilə bu layihə, mənim fikrimcə, sadəcə olaraq, sosial xarakter daşımalıdır. Ona görə burada faizlər də aşağı olmalıdır. Elə etməliyik ki, gənc ailələr, imkansız ailələr özlərini mənzil şəraiti ilə təmin edə bilsinlər.

Mən teatr və muzeylərin təmiri ilə bağlı fikrimi burada dedim. Mənim giriş çıxışımdan sonra Mədəniyyət və Turizm naziri də qeyd etdi. Göstəriş vermişəm ki, Bakının bütün teatr və muzeyləri ən yüksək səviyyədə təmir olunsun. Bilirsiniz ki, vaxtilə rayonlarda 70-ci illərdə diyarşünaslıq muzeyləri yaradılmışdır. Bəzi yerlərdə artıq onlar bərpa olunub, bəzi yerlərdə hələ ki, olmayıbdır. Bu sahəyə də çox böyük diqqət göstərməliyik. Teatr və muzeylər həm memarlıq baxımından çox əhəmiyyətli binalardır, ona görə gərək biz onları yaxşı vəziyyətdə saxlayaq, eyni zamanda orada ən yüksək xidmət və şərait olmalıdır.

Rabitə və Informasiya Texnologiyaları naziri texnoloji zonalar haqqında təklif verdi.

Mən bunu dəstəkləyirəm. Mən hesab edirəm ki, bunun Azərbaycanda böyük perspektivləri var. Bir də demək istəyirəm ki, neft sahəsindən sonra rabitə və informasiya texnologiyaları sahəsi Azərbaycanda çox sürətlə inkişaf edə bilər.

Ümumiyyətlə, dünyada bu sahə indi ən inkişaf edən sahədir. Çünki inkişaf etmiş ölkələrdə bütün sahələrdə artıq maksimum səmərə səviyyəsinə gəlib çatıblar. Bu sahədə isə böyük perspektivlər var, kəşf olunmamış məqamlar var. Azərbaycan da burada ilk ölkələrdən biri olmalıdır. Xüsusilə nəzərə alsaq ki, dünyanın ən böyük kommunikasiya şirkətləri Azərbaycana böyük diqqət göstərirlər və buraya edilən səfərlər, böyük şirkətlərin rəhbərlərinin səfərləri onu göstərir ki, bu imkanlardan gərək çox səmərəli istifadə edək.

Bütövlükdə, indi Azərbaycanda iqtisadi vəziyyət belədir ki, müxtəlif sahələri inkişaf etdirmək mümkündür. Çünki hamı bilir ki, Azərbaycan iqtisadi baxımdan dünyada ən sürətlə inkişaf edən ölkədir. Hamı bilir ki, Azərbaycanın gözəl gələcəyi var, iqtisadi imkanları var, zəngin neft-qaz yataqları var və dünya bazarlarına çıxışı var. Əlbəttə ki, bu, bütün başqa sahələrdə investisiyaların cəlb edilməsi üçün gözəl şərait yaradıbdır. Sadəcə olaraq, biz gərək səmərəli istifadə edək. Harada lazımdır, orada güzəştlər də yaradılmalıdır.

1994-cü ildə «Əsrin müqaviləsi» imzalananda da orada müəyyən güzəştlər nəzərdə tutulmuşdur. Mənim yadımdadır, o vaxt bəziləri deyirdilər ki, bu güzəştləri etmək lazım deyil. Güzəştləri etməsəydik, heç kim buraya sərmayə qoymazdı. Bu gün nə Bakı–Ceyhan layihəsi, nə də başqası olacaqdı. O güzəştlər ilkin mərhələdə mütləq olmalıdır. Harada ki bizə investisiyalar lazımdır, mütləq olmalıdır. Bəzi sahələr var ki, indi orada bizə investisiya lazım deyildir. Məsələn, neft-qaz sahəsi. Vaxtilə biz investorlardan xahiş edirdik ki, gəlin vəsait qoyun. İndi bizdən xahiş edirlər. Ona görə bu sahədə artıq heç bir güzəştdən söhbət gedə bilməz. Əksinə, şərtlər daha da sərt olmalıdır. Biz indi bunu edirik. Amma hansı sahələrə investisiya cəlb etmək bizə lazımdır, orada mütləq güzəştlər olmalıdır. Burada heç bir qəbahət yoxdur. Bu iqtisadi amildir və biz gərək bundan səmərəli istifadə edək.

Kommunal sektorda da islahatların aparılması vaxtı çox-dan gəlib çatıbdır. Bu təkcə bizim ölkəmiz üçün deyil, bütün

MDB ölkələrində ən ağrılı, çətin sahədir. Ancaq deyə bilərəm ki, MDB-nin başqa ölkələri ilə müqayisədə, Azərbaycan burada ən axırıncı yerlərdədir. Çünki MDB zirvə görüşləri çərçivəsində və digər görüşlərdə dövlət başçıları ilə mənim söhbətlərimdə bu məsələyə də toxunulur. Heç bir ölkədə, heç bir yerdə Azərbaycanda olan vəziyyət yoxdur. Bütün ölkələrdə kommunal ödəmələr haradasa 90–100 faiz səviyyəsində yığılır. Neft-qaz hasil edən ölkələrdə də həm enerjinin, həm də qazın qiyməti Azərbaycandakından 3-4 dəfə yüksəkdir. Bəzən deyirlər ki, Azərbaycanda neft-qaz hasil olunur, ona görə bu qiymətlər aşağı olmalıdır. Bizdən daha da çox neft-qaz hasil edən ölkələrdə, başqa ölkələrdə də bu tariflər daha yüksəkdir. Ona görə biz bu barədə çox danışırıq. Mən də vəzifələr qoymuşam. Düzdür, müəyyən irəliləyiş var, amma bu bizi tamamilə qane edə bilməz.

Mən bəzi rəqəmləri bir də xatırlatmaq istəyirəm. Rusiyadan 4,5 milyard kubmetr təbii qaz alınır, 500 milyon dollar pul ödənilir. Bununla bərabər, Azərbaycan özü də bir o qədər hasil edir. Əgər onu Rusiyadan aldığımız indiki qiymətlə hesablasaq – baxmayaraq ki, bu da hələ bazar qiyməti deyil – bu da təxminən 500 milyon dollardır. Bu, 1 milyard dollar etdi. Əgər biz bu il «Azərenerji»yə verilən 1 milyon ton mazutu satsaq – halbuki bunu satmaq problem deyil, bu, satılan məhsuldur –300 milyon dollar təşkil edər. Beləliklə, Azərbaycan dövləti tərəfindən il ərzində veriləcək dotasiya 1 milyard 300 milyon dollar təşkil edir. Bunun müqabilində kommunal tariflər üzrə yığılan vəsait ondan bəlkə 10, 20 dəfə azdır. Bu dözülməz bir haldır. Heç bir iqtisadiyyat buna dözə bilməz. Ona görə buna son qoyulmalıdır. Özü də ciddi şəkildə.

İndi deyirlər ki, yığılmır, insanlar ödəmirlər. Bəli, belə hallar var, ödəmirlər. Amma bəzi hallarda ödəyirlər. Ancaq ödənilən vəsait yığanın cibinə gedir. Belə hallar da var. Ona görə bu məsələni çox ciddi təftiş etməliyik. Nəzərə alaq ki, bizdə elektrik enerjisinin və qazın qiyməti çox aşağıdır. Mən başqa ölkələrlə müqayisə etmək istəmirəm. Elə bizim qonşularımızla

müqayisə edək. Azərbaycanda 1000 kubmetr qazın qiyməti 50 manatdır, qonşu ölkələrdə 200 manatdır. Azərbaycanda bunun 30 faizi yığılır, orada 100 faiz yığılır. Ona görə mən axırıncı dəfə deyirəm və bundan sonra deməyəcəyəm. Bundan sonra tədbir görəcəyəm, ölçü götürəcəyəm. Buna son qoyulmalıdır. Qısa müddət ərzində yığımı təşkil etməlisiniz. Əlbəttə, müddət ərzində və burada tam şəffaflıq təmin olunmalıdır.

İndi sayğaclar quraşdırılır. Uzun illər idi ki, sayğaclar yox idi. Müxtəlif normativlər var idi. Bir dəfə mən xahiş etdim, dedim ki, gətirin bu normativlərə baxım. O normativləri təhlil etmək üçün bir kompüter və bəlkə də bir ştat, 3-4 nəfər iqtisadçı lazımdır desin ki, kim nə qədər ödəməlidir. Nə üçün bu normativlər belə tərtib olunur? Yəni o izləri itirmək üçün, yaxud manipulyasiyalar etmək üçün? Sadə olmalıdır. Hamı bilməlidir ki, nəyin pulunu verir. Pul tələb olunmalıdır, amma məhsul da verilməlidir. Ona görə həm qaz, həm işıq, həm də su sayğacları ilin sonuna qədər quraşdırılmalıdır. Vəsait də ayrılıbdır. Əgər bu şirkətlərin öz imkanları yoxdursa, biz onlara ya kredit şəklində, ya da başqa formada nə lazımdırsa kömək göstərərik. Bütün obyektlər, evlər sayğacla təmin olunmalıdır.

Bilirsiniz, bu vəziyyət bir tərəfdən, dözülməzdir, ona görə ki, buna dözmək mümkün deyildir. Digər tərəfdən, bu, necə deyərlər, inflyasiyanın qalxmasına təkan verir. İndi maaşlar, pensiyalar artırılır, pul kütləsi bazara daxil olunur. Bu sonra qayıtmalıdır. Kommunal ödəmələr hesabına o qayıtmalıdır ki, iqtisadiyyatda balans saxlanılsın. Əgər o yığılmırsa, istər-istəməz inflyasiya qalxır. Yəni biz burada hər tərəfdən zərbə alırıq. Həm inflyasiya qalxır, eyni zamanda, vəsait yığılmır.

İndi Neft Şirkəti qazı xaricdən alır, onu «Azərenerji»yə və «Azəriqaz»a pulsuz verir. Özünün hasil etdiyi nefti pulsuz verir. İndi biz istəyirik ki, Neft Şirkəti beynəlxalq güclü şirkət olsun. Belə olan halda o, necə şirkət ola bilər? Əgər onun «Azəriqaz»dan və «Azərenerji»dən indiki qiymətlə alacağı, yenə də deyirəm, 1 milyardı ötürsə, bu necə güclü şirkət ola bilər?! Buna son qoyulmalıdır, hamı bilməlidir ki, onun

məsuliyyəti var. Onsuz da dövlət kömək edir. Mən yenə də deyirəm, əgər biz sırf bazar iqtisadiyyatı prinsiplərini rəhbər götürsəydik, tam başqa vəziyyət olardı, başqa cür olardı. Biz bunu başa düşürük. İnsanların vəziyyətini başa düşürük. Başa düşürük ki, ölkədə yoxsullar var, imkansız adamlar var. Bilirsiniz ki, demişəm, mənim tərəfimdən müəyyən güzəştlər də olunubdur. Amma mən görəndə ki, yığılan pul da xəzinəyə gəlmir, biz buna dözə bilmərik.

Mən bir dəfə Baş Prokurorluğa tapşırıq vermişdim, bu məsələ ilə məşğul olmuşdular və müəyyən nöqsanları üzə çıxarmışdılar. Yenə də deyirəm, ciddi nəzarət edin və qısa müddət ərzində biz burada vəziyyəti sağlamlaşdırmalıyıq.

Bundan başqa, mənə deyirlər ki, bizim kommunal sahə ilə əlaqəli olan səhmdar cəmiyyətləri dövlət vergisini də ödəmirlər. İndi mənə deyirlər ki, «Azərenerji» cəmi 12 faiz, «Azəriqaz» 27 faiz, «Azərsu» 14 faiz ödəyir. Düzdür?

**F a z i l   M ə m m ə d o v** (*Vergilər naziri*): Bəli, cənab Prezident.

**İ l h a m   Ə l i y e v:** Əyləşin. Yəni bu nə deməkdir? Mənə bu məlumatı iki gün bundan əvvəl verdilər. Bu dözülməz bir haldır. Biz indi özəl sektordan tələb edirik ki, vergini 100 faiz ödəsin. Haqlı olaraq tələb edirik. İri tədiyəçi olan bir sıra səhmdar cəmiyyətləri vergiləri ödəmir. Belə şey olar? Ümumiyyətlə, siz nə fikirləşirsiniz? Siz hesab edirsiniz ki, ayrı planetdə yaşayırsınız? Qanunlar sizə aid deyil? Bu, dövlət vergisidir. Hər bir vətəndaş, hər bir şirkət onu ödəməlidir. Azərbaycanın bir sıra səhmdar cəmiyyətləri bunu ödəmir. Ciddi nəzarət olmalıdır. Mən bütün aidiyyəti orqanlara tapşırıram ki, daha mən bununla barışmaq fikrində deyiləm və bir aydan sonra mənə rəsmi məlumat verəcəksiniz ki, kim nə qədər ödəyir.

Bütövlükdə vergilərlə bağlı bu gün Vergilər nazirinin dedikləri ilə mən də razıyam. Biz gərək vergitutma bazasını genişləndirək. Biz hamımız bilirik ki, vergidən yayınanlar çoxdur. Ticarət obyektləri, şadlıq evləri və digər obyektlərin heç biri vergi ödəmir. Orada işləyənlər yüksək maaş alırlar, bu

maaşlar heç bir yerdə qeydiyyatdan keçmir. Belə olan halda konvertdə maaş alırlar. Biz bir müddət buna baxıb deyirdik ki, məşğulluq olsun, insanlar işlə təmin olunsunlar, biznes davam etsin, genişlənsin. Bu da təbiidir. Bütün ölkələrdə bu var. Yəni hansısa bir sahəni inkişaf etdirmək üçün müəyyən güzəştlər olur. Ancaq bütün bu sahələr artıq çox böyük gəlirlərlə işləyirlər. Onların böyük əksəriyyətində uçot yoxdur, kassa aparatları yoxdur. Belə olan halda, vergidən yayınma kütləvi xarakter alır. Ona görə mən sizə tapşırıq verirəm ki, məsələni ciddi araşdırın, tədbirlər görün və vergidən yayınanları ciddi cəzanlandırmaq lazımdır.

Vergilərə gəldikdə, mən istəyirəm bir məsələni də deyim. Bizdə, əlbəttə ki, bu sahədə işlər son zamanlar daha da mütəşəkkil formada aparılır, vergi daxilolmaları artır. Ancaq hesab edirəm ki, indi vaxt gəlib ki, burada da müəyyən bir diversifikasiya aparaq. Misal üçün, bahalı əşyalara tətbiq olunan vergilərə yenidən baxmaq lazımdır. Bahalı əşyaları alan daha da çox vergi verməlidir. 50 min dollar, 100 min dollar dəyərində xarici avtomaşınları alırlar. O maşını alan alsın.

Zəngin adam nə qədər çox olsa, ölkə o qədər də zəngin olacaqdır. Ancaq o, vergini daha da çox ödəməlidir. Bu həm iqtisadi amildir, eyni zamanda, sosial ədalət prinsipidir. Ona görə bu məsələyə də baxın, bunu etmək lazımdır. Oradan əldə olunacaq gəlirlər yoxsulluq şəraitində yaşayanların müavinətinə yönəldilməlidir.

Kommunal sahədən yığılan, əgər o yığılarsa, həmin 1 milyard dolları maaşlara, pensiyalara, müavinətlərə, sosial məsələlərin həllinə yönəldərik. Ona görə yenə də deyirəm, gərək biz bu məsələyə yenidən baxaq. Bu bir tərəfdən, yoxsulluğun aradan qaldırılmasına kömək göstərəcək, digər tərəfdən, sosial ədalət prinsipi tətbiq olunacaqdır.

Tütün məmulatlarının və spirtli içkilərin uçotu daha da ciddi olmalıdır. Onların vergiləri də yığılmalıdır. Məndə olan məlumata görə, bu sahədə də pozuntular kifayət qədərdir. Məni narahat edən məsələ ondan ibarətdir ki, bizim yerli şərab

zavodlarımız tam gücü ilə işləmir. Çünki o, idxalla rəqabət apara bilmir. Baxmaq, idxalı tənzimləmək, bəzi hallarda məhdudlaşdırmaq lazımdır. Azərbaycanda o qədər şərab zavodları var. Biz indi üzümçülüyü bərpa etmək istəyirik və edirik də. Çox sevindirici haldır ki, kəndlilər artıq üzümçülüyə böyük maraq göstərirlər. Yaxşı, əgər şərab zavodları işləməsə, əgər o məhsulu almasalar, biz hansı üzümçülüyü inkişaf etdirəcəyik?!

Biz xarici istehsalçını dəstəkləməliyik, yoxsa yerli istehsalçını?! İndi Azərbaycana gətirilən spirtli içkilərin keyfiyyətinə baxmaq lazımdır. Çünki zəhərlənmə halları çoxdur. Mən artıq müvafiq orqanlara bu barədə göstəriş vermişəm. Eyni zamanda, bütövlükdə biz gərək öz bazarımızı qoruyaq.

Azərbaycanda minik avtomobili istehsal olunmur. Ona görə biz burada heç bir əlavə məhdudiyyət qoymamalıyıq. Azərbaycanda şərab və digər spirtli içkilər istehsal olunur. Hər bir ölkə öz daxili bazarını qorumalıdır, öz istehlakçısını müdafiə etməlidir. Həm uçot, nəzarət dəqiq olmalıdır, eyni zamanda, yerli istehlakçılara şərait yaradılmalıdır. Ona görə bu sahəyə ciddi diqqət göstərilməlidir.

Özəlləşdirmə prosesi sürətləndirilməlidir. Burada bir qədər ara verilibdir. Əlbəttə, görülən işlər təhlil olunmalı idi, bu sahədə müsbət məqamlarla yanaşı, mənfi məqamlar da kifayət qədər idi. Ona görə gərək o vəziyyət, bütün nöqsanlar təhlil olunaydı. Ancaq indi vaxt gəlib ki, biz özəlləşdirmə prosesinin yeni mərhələsinə başlayaq, beləliklə, iqtisadiyyatımız daha da sürətlə inkişaf etsin.

Bütövlükdə, özəl sektorun inkişafı hər bir ölkənin, o cümlədən Azərbaycanın ümumi inkişafının təməlində duran amildir. İndi bizdə özəl sektorun ümumi daxili məhsulda həcmi təxminən 75 faizdir, bu, yüksək göstəricidir, daha da çox ola bilər. Bir də özəlləşdirmə, özəl sektorun fəaliyyəti, sahibkarlıq olan yerdə digər xoşagəlməz hadisələr də faktiki olaraq azalır. Nə rüşvətxorluq olur, nə korrupsiya olur. Özəl şirkətdə nə oğurluq var, nə də ki, başqa xoşagəlməz hallar. Ona görə bu

həm iqtisadi, eyni zamanda sosial məsələlərin həlli deməkdir. Biz korrupsiya halları ilə ancaq inzibati üsullarla mübarizə aparsaq, bunun heç bir səmərəsi olmayacaq. Bunu dünya praktikası göstərir. İnzibati üsullar olmalıdır, ciddi nəzarət olmalıdır və mühafizə orqanları burada ciddi iş aparmalıdır. Eyni zamanda iqtisadi amillər də elə olmalıdır ki, korrupsiyaya imkan yaradan amillər aradan qaldırılsın. Onlardan başlıcası isə özəlləşdirmə proqramıdır.

İndi bizim mal dövriyyəmiz artır və belə olan halda, əlbəttə, nağdsız ödəmə sisteminin daha da geniş tətbiq olunması çox böyük əhəmiyyət kəsb edir. O post-terminalların quraşdırılması məsələləri gedir, daha da sürətlə getməlidir. Artıq bu sahədə gözəl praktika da var.

İndi bizim pensiyaçılarımız pensiyalarını bu yolla alırlar. İndi gələcəkdə yəqin ki, hamısı alacaq. Bu hələ ki, texniki çətinliklə bağlıdır. Çünki bütün kəndlərdə o aparatları quraşdırmaq hələ mümkün deyil, amma o da olacaqdır. Ona görə bu nağdsız ödəmə sisteminin tətbiq olunması da, əlbəttə, bizim işimizi daha da yüngülləşdirəcəkdir. Bir sözlə, demək istəyirəm ki, indi Azərbaycan iqtisadi cəhətdən çox sürətlə inkişaf edən ölkədir. Bunu həm beynəlxalq maliyyə qurumları etiraf edir və bu reallıqdır, bizim gerçəyimizdir. Əlbəttə, onu da bilirik ki, biz gələcəkdə iqtisadi cəhətdən daha da güclü olacağıq. 2008-ci ildə Azərbaycandan 50 milyon ton neft ixrac olunacaq, ondan sonra qaz ixracı başlanacaq. İndi görülən işlər nəticəsində yeni yaradılacaq sənaye müəssisələri işə başlayacaq. Yəni çox böyük iqtisadi imkanlar olacaq. Amma bütün bu imkanlar bizi arxayınlaşdırmamalıdır. Bilirəm, bəzi hallarda, hərdənbir belə fikirlər səslənir ki, neftimiz, qazımız var, pulumuz olacaq. Elə işləmək olmaz. Mən bir daha deyirəm ki, neft-qaz sektorunu kənara qoyuruq. Bu, iqtisadiyyatımız üçün çox böyük dəstəkdir, bizi əmin edir, gücləndirir. Bütün diqqəti qeyri-neft sektorunun inkişafına, bir də ki, iqtisadiyyatda səmərəliliyin artmasına yönəltməliyik. Harada ki, çatışmayan cəhət var, o, aradan qaldırılmalıdır. Harada ki, bizi qane etməyən məsələ var, aradan

qaldırılmalıdır. Elə məsələ var ki, bir gündə həll oluna bilər, elə məsələ var ki, bunun həlli üçün bir müddət lazımdır. Hər halda, bütün bu istiqamətlərdə hökumət çox fəal işləməlidir. Yenə də deyirəm, arxayınçılığa yol vermək olmaz. Uğurlarla, ancaq öyünməklə bizim işimiz getməyəcək. Biz hər şeyi deməliyik, uğurları da, nöqsanları da, çatışmayan cəhətləri də – hər şeyi. Belə olan halda, işimiz daha da səmərəli olacaqdır.

Sağ olun.

# DÜNYA BANKININ AVROPA VƏ MƏRKƏZİ ASİYA REGİONU ÜZRƏ İNFRASTRUKTUR SEKTORUNUN DİREKTORU PETER TOMSONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*31 iyul 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 31-də Prezident sarayında Dünya Bankının Avropa və Mərkəzi Asiya regionu üzrə infrastruktur sektorunun direktoru Peter Tomsonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Böyük uğurla həyata keçirilən neft-qaz layihələrinin ölkəmizdə qeyri-neft sektorunun, özəl sektorun və infrastrukturun güclənməsinə imkan yaratdığını, Azərbaycanda əhalinin ehtiyaclarını təmin edə biləcək möhkəm iqtisadi siyasət aparıldığını nəzərə çatdıran prezident İlham Əliyev bu siyasətin makroiqtisadi sabitliyi qoruyub saxlamaq gücünə malik olduğunu bildirdi.*

*Dünya Bankı ilə aparılan müzakirələrin faydalı olduğunu vurğulayan dövlətimizin başçısı Azərbaycanın bu bankla əməkdaşlığa böyük əhəmiyyət verdiyini vurğuladı.*

*Azərbaycanda iqtisadi sahədə əldə edilən uğurların Dünya Bankı tərəfindən böyük maraqla qarşılandığını bildirən qonaq keçən il ölkəmizin iqtisadi inkişaf baxımından dünyada lider-lik etdiyini xüsusi vurğuladı. O, əmin olduğunu bildirdi ki, Azərbaycanda həyata keçirilən düzgün iqtisadi siyasət nəticəsində bu liderlik bundan sonra da qorunub saxlanılacaqdır.*

**SİNQAPUR RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SELLAPAN RAMA NATANA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Milli gün münasibətilə Sizi və bütün xalqınızı ürəkdən təbrik edirəm. Ümidvaram ki, Azərbaycan–Sinqapur münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq daim dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Sinqapur xalqına sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *31 iyul 2006-cı il*

## ATƏT-in MİNSK QRUPUNUN AMERİKALI HƏMSƏDRİ MƏTYU BRAYZƏ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*1 avqust 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 1-də Prezident sarayında ATƏT-in Minsk qrupunun amerikalı həmsədri Mətyu Brayzəni qəbul etmişdir.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı aparılan danışıqlar prosesinin hazırkı vəziyyəti, perspektivləri, bir sıra digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.*

## TATARISTANIN BAŞ NAZİRİ RÜSTƏM MİNNİXANOVUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*1 avqust 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 1-də Prezident sarayında Tatarıstanın Baş naziri Rüstəm Minnixanovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Ötən il Kazan şəhərinin 1000 illiyi ilə əlaqədar yubiley tədbirlərində iştirak etdiyini məmnunluqla xatırlayan dövlətimizin başçısı Tatarıstan paytaxtının inkişafının və müasirliyinin onda sevinc hissi oyatdığını nəzərə çatdırdı, prezident Mintimer Şaymiyevə onun salamlarını, xoş arzularını çatdırmağı xahiş etdi.*

*Səmimi qəbula görə təşəkkür edən Baş nazir prezident Mintimer Şaymiyevin salamlarını dövlətimizin başçısına çatdırdı.*

*Bakıda keçirdiyi görüşlərdən bəhs edən qonaq «KamAZ» müəssisəsinə burada böyük maraq göstərilməsindən məmnun qaldığını söylədi. Baş nazir Rüstəm Minnixanov bildirdi ki, neft-kimya sənayesi sahəsində əməkdaşlıq həm Azərbaycan, həm də Tatarıstan üçün çox əhəmiyyətlidir, digər sahələrdə də geniş əlaqələr qurulması üçün yaxşı imkanlar vardır.*

## «EXCELSİOR» MEHMANXANASI DAİRƏSİNDƏ TİKİLƏCƏK YENİ KÖRPÜ VƏ TUNELLƏRİN TƏMƏLQOYMA MƏRASİMİ

*Bakı, Xətai rayonu*

*4 avqust 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 4-də Bakının Xətai rayonunda yerləşən «Excelsior» mehmanxanası dairəsində – Heydər Əliyev prospekti, Babək və Şah İsmayıl Xətai prospektlərinin kəsişdiyi yerdə tikiləcək yeni körpü və tunellərin təməlqoyma mərasimində iştirak etmişdir.*

*Dövlətimizin başçısını buraya toplaşan paytaxt sakinləri, inşaatçılar hərarətlə qarşıladılar.*

*Prezident İlham Əliyev əvvəlcə «Excelsior» mehmanxanası dairəsində yaradılacaq yol qovşağının layihəsi ilə tanış oldu.*

*Nəqliyyat naziri Ziya Məmmədov tikiləcək körpü və tunellərin təsnifatı barədə Azərbaycan prezidenti İlham Əliyevə məlumat verərək dedi ki, Bakı şəhərində nəqliyyatın infrastrukturunun təkmilləşdirilməsi layihəsinə uyğun olaraq burada ümumi uzunluğu 460 metr, hər birinin eni 10 metr olan ikizolaqlı 2 tunel, uzunluğu 260 metr və 220 metr, eni 23 metr və 10 metr olan iki dördzolaqlı yolötürücüsü (körpü), hər birinin uzunluğu 252, eni 76 metr olan iki dəmir yol körpüsü tikiləcəkdir. Bütün bu işlərə 25 milyon AZN vəsait xərclənəcəkdir.*

*Nazir dedi ki, cənab Prezident, bu qovşaq istifadəyə verildikdən sonra şəhərin nəqliyyat infrastrukturu tamamilə yeniləşəcəkdir. İlk növbədə, dəmir yolu körpüsü təxminən 40 santimetr hündürləşdiriləcək, təqribən 9 metr genişləndiriləcəkdir. Heydər Əliyev prospektindən Babək prospektinə dönmək üçün nəqliyyat vasitələri dəmir yolu körpüsünün altından keçdikdən*

*sonra ayparaşəkilli körpü ilə hərəkət edəcəkdir. Bu körpü Heydər Əliyev prospektindən gələn nəqliyyat vasitələrini birbaşa Babək prospektinə maneəsiz ötürməyə şərait yaradacaqdır. Eyni zamanda, Heydər Əliyev prospektindən gələn nəqliyyat vasitələri ikinci dərəcəli yoldan yararlanaraq şəhər istiqamətində maneəsiz hərəkət edəcəkdir.*

*Həmçinin mövcud yollar da genişləndiriləcək, yol zolaqlarının sayı artırılacaqdır. Babək prospektindən şəhərə maneəsiz hərəkət üçün ikizolaqlı tunel tikiləcəkdir. Bu tunelin sağından və solundan yeni yollar salınacaqdır. Beləliklə, qovşaqda bütün istiqamətlərdə nəqliyyatın maneəsiz hərəkəti təmin ediləcəkdir.*

*Babək prospektindən Heydər Əliyev prospektinə çıxmaq üçün mövcud yoldan istifadə olunacaqdır. Ən önəmlisi odur ki, Babək prospektindən gələn nəqliyyat vasitələri «Şərq» bazarına və Nərimanov küçəsinə dönmək üçün burada yarımaçıq tunel salınacaqdır. Yəni burada ikizolaqlı tuneldən çıxan kimi, yolun biri «Şərq» bazarı, digəri isə Nərimanov küçəsinə aparacaqdır. «Şərq» bazarı istiqamətində hərəkət ikitərəfli, Nərimanov küçəsində isə birtərəfli olacaqdır.*

*Nazir bildirdi ki, Heydər Əliyev prospektindən gələn nəqliyyat vasitələrinin Babək prospekti və Ramstor Ticarət Mərkəzi tərəfdən Bakı Əyləncə Mərkəzi istiqamətlərinə də sərbəst hərəkəti üçün gələcəkdə Şah İsmayıl Xətainin heykəlinin önündə dairə yaradılacaqdır.*

*Məlumat verildi ki, tikintini Azərbaycanın 800 nəfər işçisi olan «Akkord» Şirkətlər Qrupu yerinə yetirəcəkdir. Tikinti işləri 2007-ci ilin dekabrında başa çatdırılacaqdır.*

*Bildirildi ki, bu ərazidə sürüşmələr olduğu nəzərə alınaraq, tikintidə xüsusi texnologiya tətbiq ediləcəkdir.*

*Prezident İlham Əliyev layihənin əhəmiyyətini vurğuladı və bunun çox böyük iş olduğunu söylədi, proqramda nəzərdə tutulmayan yol qurğularının da bu layihə çərçivəsində həyata keçirilməsinin zəruriliyini bildirdi və dedi ki, yeni qovşaq tıxacların tamamilə aradan qaldırılmasına şərait yaradacaqdır.*

*Şəhərdə nəqliyyatın hərəkətinin ən gərgin yerlərindən biri də məhz buradır. Burada işlər sürətlə və keyfiyyətlə görülməlidir.*

*Nəqliyyat naziri dedi ki, bu gün ölkəmizdə aparılan uğurlu iqtisadi siyasət nəticəsində paytaxtımızda nəqliyyat infrastrukturunun da inkişafı üçün zəruri tədbirlər görülür. Cənab Prezident, Bakı şəhərində nəqliyyatın hərəkətinin daha sıx olduğu yerlərdə vəziyyətlə şəxsən tanış olduqdan sonra paytaxtın müxtəlif nəqliyyat qovşaqlarında yolötürücülərinin və piyada keçidlərin layihələndirilməsi və tikilməsi barədə Nəqliyyat Nazirliyinə verdiyiniz tapşırıqlar vaxtında və yüksək keyfiyyətlə yerinə yetiriləcəkdir. Dövlətimizin başçısı görülən işləri yüksək qiymətləndirdi, bu gün sonuncu, yəni proqrama əsasən 9-cu yol qovşağının təməlinin qoyulduğunu bildirdi.*

*Aidiyyəti orqanlara zəruri tapşırıqlar verən prezident dedi ki, yeni qovşağın xarici görünüşü gözəl olmalıdır, müasir olmalıdır. Dəmir yolu körpüsü də köhnədir, yenidən qurulmalıdır, müasir tələblərə cavab verməlidir. Mən buradakı yardımçı elektrik stansiyasının köçürülməsi barədə göstəriş vermişəm. Onun üçün xüsusi yer təyin olunmuşdur. Bu layihənin icrasına mane olan və ətrafda yerləşən obyektlər, köhnəlmiş binalar da sökülməli, yaxud köçürülməlidir. Burada gözəl bir mərkəz olmalıdır, nəqliyyat vasitələri rahat hərəkət etməlidir, qovşağın xarici görünüşü müasir olmalıdır.*

*Prezident İlham Əliyev piyadalar üçün yeraltı və yerüstü keçidlərin də layihəyə salınmasının zəruriliyini bildirdi və dedi ki, indi həm mövcud yollar təmir edilir, həm də yeni yollar salınır. Lazımi layihələr üzərində işləyin. Beləliklə, Bakının nəqliyyat infrastrukturu tamamilə yeniləşəcək, tıxaclar aradan qaldırılacaq və insanlar rahat hərəkət edəcəklər. Gərək biz bütün işlərdə gələcəyi fikirləşək.*

*İndi böyük şəhərlərdə nəqliyyat problemi bir nömrəli problemdir. Misal üçün, Tokio, Moskva, London, İstanbul kimi şəhərlərdə bu çox ciddi problemdir. İndi Bakı sürətlə inkişaf edir, 4-5 ildən sonra bu körpülər böyük kömək göstərəcək, eyni zamanda, gələcək üçün faydalıdır. Ona görə biz indidən ha-*

*zırlıq işləri görməliyik. İşlər qısa müddət ərzində və keyfiyyətlə yerinə yetirilməlidir.*

*Sonra prezident İlham Əliyev içərisindəki kağıza:* «Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində Heydər Əliyev prospekti, Babək və Şah İsmayıl Xətai prospektlərinin kəsişməsində tikilən körpü və tunellərin təməl daşı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən qoyulur.

Bakı şəhəri, 4 avqust 2006-cı il» – *sözləri yazılmış gilizi təmələ qoydu və beton qatışığı tökdü.*

## HÖKUMƏT EVİNİN TƏMİR-BƏRPA İŞLƏRİNƏ HAZIRLIQLA TANIŞLIQ

*4 avqust 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 4-də Bakının tarixi memarlıq nümunələrindən olan Hökumət evinə gələrək binanın təmir və bərpasına hazırlıq işləri ilə maraqlanmışdır.*

*Baş nazirin müavini Abid Şərifov dövlətimizin başçısına burada görüləcək təmir-bərpa işləri barədə məlumat verdi.*

*Azərbaycan prezidenti İlham Əliyev binanın birinci mərtəbəsinə baxdı, buradakı şəraitlə tanış oldu və bu mərtəbənin əsaslı bərpası ilə bağlı lazımi göstərişlərini verdi. Təmir-bərpa işləri ilə əlaqədar lazımi texniki təhlükəsizlik tədbirlərinin görüldüyünü bildirən Abid Şərifov bərpa işlərinə yüksək səviyyəli mütəxəssislərin cəlb olunduğunu dedi.*

*Azərbaycan prezidenti İlham Əliyev binanın dəniz tərəfdən işıqlandırılması layihəsi ilə də tanış oldu. Layihə reallaşdıqdan sonra Hökumət evi binasının dəniz tərəfdən işıqlandırılması tam təmin ediləcəkdir.*

*Hazırlıq işləri ilə tanışlıqdan sonra prezident İlham Əliyev binanın yüksək səviyyədə bərpa olunmasına dair göstərişlərini verdi.*

## TÜRKİYƏ BAŞ NAZİRİNİN MÜAVİNİ, DÖVLƏT NAZİRİ MEHMET ALİ ŞAHİNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*7 avqust 2006-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 7-də Prezident sarayında Türkiyə Baş nazirinin müavini və Dövlət naziri Mehmet Ali Şahinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Mehmet Ali Şahinlə bu yaxınlarda İstanbulda Heydər Əliyev adına parkın açılışı mərasimində görüşdüyünü məmnunluqla xatırlatdı. Azərbaycan–Türkiyə münasibətlərinin çox yüksək səviyyədə olduğunu vurğulayan prezident İlham Əliyev iki ölkənin müxtəlif qurumları arasında əməkdaşlığın daha da genişləndirilməsinin vacib olduğunu bildirdi.*

*Mehmet Ali Şahin Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın salamlarını prezident İlham Əliyevə çatdırdı. Ölkəmizə ilk dəfə səfər etdiyini bildirən qonaq Azərbaycan Respublikasının Fövqəladə Hallar, Gənclər və İdman nazirlikləri ilə Türkiyənin müvafiq qurumları arasında əməkdaşlığın inkişaf etdirilməsi məqsədi ilə protokolların imzalanacağını qeyd etdi.*

*Prezident İlham Əliyev Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi və onun da salamlarını Türkiyənin Baş nazirinə çatdırmağı xahiş etdi.*

## BUXAREST ŞƏHƏRİNİN II SEKTORUNUN MERİ NEKUALİ ONTSANUNUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*7 avqust 2006-ci il*

**N e k u a l i  O n t s a n u:** Zati-aliləri, böyük şərəf və məmnunluqla diqqətinizə çatdırmaq istəyirəm ki, 2006-cı il iyunun 27-də Buxarest şəhərinin II sektorunun meriyası Azərbaycan xalqının ümummilli liderinin büstü ucaldılmış «Tei» parkındakı xiyabana Heydər Əliyevin adının verilməsi barədə qərar qəbul etmişdir.

Bu qərar ondan irəli gəlimişdir ki, Azərbaycan xalqının ən çətin tarixi dövründə ölkəni böhrandan xilas edən, möhkəm özüllər əsasında demokratik Azərbaycan cəmiyyətinin təməlini qoyan böyük siyasi xadimin, əvəzolunmaz şəxsiyyətin, Azərbaycan xalqının ümummilli liderinin unudulmaz xatirəsi Rumıniyanın paytaxtı Buxarest şəhərində əbədiləşdirilmişdir və bu fakt bizlərdən ötrü böyük əhəmiyyətə malikdir.

Əminəm ki, Azərbaycan ilə Rumıniya arasında çox yüksək səviyyədə yaranmış dostluq və əməkdaşlıq münasibətləri ölkələrimizin xalqlarının rifahı və çiçəklənməsi naminə bundan sonra da bütün sahələrdə ardıcıl və dinamik surətdə genişlənəcək və inkişaf edəcəkdir.

Fürsətdən istifadə edib zati-alilərinizə həm öz adımdan, həm də Buxarest şəhərinin II sektorunun sakinləri adından dərin hörmət və ehtiramımı çatdırmaq istərdim.

Hörmətli cənab Prezident, əgər icazə versəniz, mən bu rəsmi sənədi tərcüməsi ilə bir yerdə Sizə təqdim edərdim. Bu nəinki bizim II sektorun qərarı, həmçinin Buxarest vətəndaşlarının qərarıdır.

*Buxarest şəhərinin II sektorunun meri Nekuali Ontsanu sənədi prezident İlham Əliyevə təqdim etdi.*

**İ l h a m Ə l i y e v:** Ulu öndər Heydər Əliyevin adının Rumıniyanın paytaxtı Buxarest şəhərinin II sektorunda yerləşən parka verilməsi çox böyük əlamətdar hadisədir. Hörmətli cənab mer, bu qərarın qəbul olunmasında Sizin böyük rolunuz olubdur. Mən bu münasibətlə sizə öz dərin minnətdarlığımı bildirmək istəyirəm.

O gözəl parka Heydər Əliyevin adının verilməsi bir tərəfdən Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevə olan böyük hörmətin əlamətidir, digər tərəfdən Rumıniya–Azərbaycan münasibətlərinin nə qədər yüksək səviyyədə olmasından xəbər verir. Heydər Əliyev öz fəaliyyətində Rumıniya–Azərbaycan münasibətlərinin inkişafı üçün böyük xidmətlər göstərmişdir.

Bu yaxınlarda mən Rumıniyaya rəsmi səfər etdiyimi xatırlayaraq bildirmək istəyirəm ki, dövlətlərimiz arasındakı münasibətlər sürətlə inkişaf edir. Tezliklə Bakıda Rumıniya xalqının böyük oğlu, görkəmli mədəniyyət xadimi Corce Eneskunun abidəsi ucaldılacaqdır. Belə hadisələr xalqlarımızı daha da yaxınlaşdıracaq və ölkələrimiz arasındakı əlaqələrin inkişafına töhfə verəcəkdir.

**ƏFQANISTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HƏMİD KƏRZAİYƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Əfqanıstan arasında tarixən mövcud olmuş dostluq münasibətləri xalqlarımızın rifahı naminə əməkdaşlığımız üçün bundan sonra da möhkəm zəmin olaraq qalacaqdır.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Əfqanıstan xalqına sülh və sabitlik diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *7 avqust 2006-cı il*

**KOREYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ROH MU HYUNA**

Hörmətli cənab Prezident!

Koreya Respublikasının milli bayramı – Dirçəliş günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan–Koreya münasibətləri bu gün hərtərəfli inkişaf etməkdədir.

Əminəm ki, bu yaxınlarda ölkəmizə səfəriniz, Bakıda Sizinlə apardığımız danışıqlar, qarşıdakı illər üçün əməkdaşlığın dərinləşdirilməsinə dair imzalanan sənədlər münasibətlərimizin perspektivinə mühüm təsir göstərəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *7 avqust 2006-cı il*

**HİNDİSTAN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB AVUL PAKİR CEYNULABDİN
ƏBDÜL KALAMA**

Hörmətli cənab Prezident!

Hindistan Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından təbrik edirəm.

Azərbaycan ilə Hindistan arasında uzun illərdən bəri əsl dostluq münasibətləri mövcuddur. Əminəm ki, belə bir təməl üzərində inkişaf edən əməkdaşlığımız daim xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Hindistan xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *7 avqust 2006-cı il*

**HİNDİSTAN RESPUBLİKASININ BAŞ NAZİRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB MANMOHAN SİNQHƏ**

Hörmətli cənab Baş nazir!

Milli bayramınız – Müstəqillik günü münasibətilə Sizi və dost Hindistan xalqını ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan–Hindistan münasibətləri ənənəvi olaraq qarşılıqlı rəğbət, dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, dost ölkənizə sülh və tərəqqi diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *7 avqust 2006-cı il*

**İNDONEZİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SUSİLO BAMBANQ YUDHOYONOYA**

Hörmətli cənab Prezident!

İndoneziyanın milli bayramı – Müstəqillik elan edilməsi günü münasibətilə Sizə və dost İndoneziya xalqına ən səmimi təbriklərimizi yetirməkdən məmnunluq duyuram.

Ümidvaram ki, ölkələrimiz arasında yaranmış münasibətlər, dostluq və əməkdaşlığımız, xalqlarımızın mənafelərinə uyğun olaraq daim inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *7 avqust 2006-cı il*

## ALİ MƏHKƏMƏNİN YENİ İNZİBATİ BİNASININ TƏMƏL QOYULMA MƏRASİMİNDƏ NİTQ

*8 avqust 2006-cı il*

*Avqustun 8-də Bakının Xətai rayonu ərazisində, Y.Səfərov küçəsində Respublika Ali Məhkəməsinin yeni inzibati binasının təməli qoyulmuşdur. Azərbaycan prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.*

*Dövlətimizin başçısını buraya toplaşan paytaxt sakinləri, inşaatçılar hərarətlə qarşıladılar.*

*Prezident İlham Əliyev əvvəlcə binanın layihəsi və maketi ilə tanış oldu. Ali Məhkəmənin sədri Ramiz Rzayev dövlətimizin başçısına məlumat verərək bildirdi ki, 26 min kvadratmetrlik beşmərtəbəli bina ən müasir üslubda inşa olunacaq, burada iş üçün hər cür şərait yaradılacaqdır. Zirzəmidə qaraj, texniki xidmət və arxiv otaqları, birinci mərtəbədə hər biri 100 kvadratmetrlik 10 məhkəmə iclası salonu, üst mərtəbələrdə hakimlər və rəhbərlik üçün otaqlar, kitabxana, 400 kvadratmetrlik konfrans salonu, elektron kitabxana, video-audio konfrans və treninq salonları, muzey yerləşəcəkdir. Beşinci mərtəbə isə binanın texnoloji cəhətdən idarə olunması üçün nəzərdə tutulmuşdur. Tikinti işlərini Azərbaycanın «Xəzər» Gənclərin Elmi-Texniki Yaradıcılıq Mərkəzi yerinə yetirəcəkdir. İki il yarım ərzində başa çatdırılacaq inşaat işlərində ən müasir texnologiya tətbiq olunacaqdır. Bütün işlərə 21 milyon manat vəsait xərclənəcəkdir.*

*Prezident İlham Əliyev layihənin əhəmiyyətini vurğuladı, işlərin sürətlə və keyfiyyətlə görülməsinin, ətraf ərazilərdə yerləşən binaların da xarici görünüşünə diqqət yetirməyin zəruriliyini bildirdi.*

*Sonra dövlətimizin başçısı:* «Azərbaycan Respublikası Ali Məhkəməsinin yeni inzibati binasının təməl daşı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən 8 avqust 2006-cı il tarixdə qoyulmuşdur» – *sözləri yazılmış gilizi bünövrəyə qoydu və ilk beton qatışığını tökdü.*

**R a m i z R z a y e v** (*Ali Məhkəmənin sədri*): Möhtərəm cənab Prezident!

Hörmətli həmkarlar!

Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra, ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə ölkəmizdə demokratik, hüquqi, dünyəvi dövlətin möhkəm təməli qoyulmuş, həyatımızın bütün sahələrində olduğu kimi, məhkəmə-hüquq sahəsində də köklü dəyişikliklər və islahatlar aparılmışdır.

Uğurla aparılan islahatlar nəticəsində ölkəmizdə yeni məhkəmə sistemi yaradılmış, qısa müddət ərzində demokratik, beynəlxalq standartlara cavab verən qanunlar qəbul edilmişdir. Ölkəmizin sosial-iqtisadi həyatının sürətli inkişafı ilə əlaqədar məhkəmə sisteminin də fəaliyyəti daim diqqət mərkəzində olmuşdur.

Cənab Prezident, bu gün də biz məhkəmənin fəaliyyətinin müasirləşdirilməsi, məhkəmənin səmərəliliyinin artırılması, məhkəmələrdə icra və əmək intizamının möhkəmləndirilməsi, məhkəmələrin maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsində daim Sizin qayğınızı hiss edirik və bu istiqamətdə kompleks tədbirlər görülür. Əlamətdar hadisədir ki, Sizin «Məhkəmə sisteminin müasirləşdirilməsi barədə» 2006-cı il 19 yanvar tarixli fərmanınız ölkəmizin məhkəmə sisteminin təkmilləşdirilməsində və inkişafında müstəsna rol oynayır. Bu fərmanda regionların sosial-iqtisadi inkişafına uyğun olaraq vətəndaşların məhkəmələrə müraciətinin asanlaşdırılması məqsədi ilə regionlarda apelyasiya məhkəmələrinin yaradılması və digər tədbirlər nəzərdə tutulmuşdur.

Fərmanda nəzərdə tutulan məsələlərin həyata keçirilməsi ümumilikdə ədalət mühakiməsinə inamın artırılmasına,

cəmiyyətimizdə demokratik inkişafın daha da yüksək pilləyə qalxmasına böyük təkan verəcəkdir. Bu fərmandan irəli gələn vəzifələrin yerinə yetirilməsi bütövlükdə məhkəmə sisteminin müasirləşməsində yeni mərhələdir.

Cənab Prezident, Ali Məhkəmənin yüksək statusuna uyğun olaraq inzibati binanın tikintisi üçün Sizin tapşırığınızla şəhərimizin görkəmli yerində müvafiq ərazi, maliyyə vəsaiti ayrılmış, layihə-smeta sənədləri hazırlanmışdır. Bu gün inzibati binanın təməli qoyulur. Mərasimdə Sizin iştirakınız Ali Məhkəmənin, ümumiyyətlə, məhkəmə sisteminin həyatında əlamətdar bir hadisə olmaqla yanaşı, ədalət mühakiməsinə dövlət qayğısının bariz nümunəsidir.

Cənab Prezident, Ali Məhkəmənin bütün kollektivi Sizin bu böyük qayğınızı ədalət mühakiməsinin səmərəliliyinin artırılmasını, qanunun aliliyini təmin etməklə doğrultmağa çalışacaqlar. Sizə dərin ehtiramımızı və minnətdarlığımızı bildirir, bir daha çox sağ olun deyirik.

Cənab Prezident, hamımız arzu edərdik ki, Siz bu gün bizə öz tövsiyələrinizi verəsiniz.

**İ l h a m  Ə l i y e v:** Bu gün çox gözəl bir gündür. Bu gün biz Bakı şəhərinin çox gözəl yerlərindən birində Ali Məhkəmə binasının təməl daşını qoyduq. Mən əminəm ki, qısa müddət ərzində gözəl bina tikiləcək və beləliklə, Bakıda çox gözəl, əzəmətli ədalət sarayı ucalacaqdır. Bu çox gözəl haldır və Azərbaycanın ümumi inkişafını göstərir. Ölkəmizdə gedən çox geniş quruculuq, abadlıq işləri, eyni zamanda, inzibati binaların tikintisinə də imkan yaradır. Biz çalışırıq ki, Azərbaycanda, Bakıda bütün binalar zövqlə tikilsin, ən yüksək standartlara cavab versin və gözəl iş şəraiti olsun.

Əlbəttə, Ali Məhkəmənin binasının tikintisi xüsusi əhəmiyyət kəsb edir. Çünki inkişaf etmiş bütün ölkələrdə ali məhkəmələrin binaları çox əzəmətli görkəmdədir. Biz çox istəyirdik ki, Bakıda da belə bir çox gözəl bina tikilsin. Bu binanın layihəsi hazırlananda biz ona birlikdə baxmışıq. Bu gün də burada nümayiş etdirilən görüntülər göstərir ki, bina ən

yüksək standartlara cavab verəcəkdir. Burada çox gözəl iş şəraiti yaradılacaq və əlbəttə, binanın tikilməsi məhkəmə işçilərinə çox böyük hədiyyə olacaqdır. Şübhəsiz ki, burada işləmək çox rahat olacaq və eyni zamanda, bu bina şəhərimizə də əlavə gözəllik verəcəkdir. Bina tikilən zaman ətraf binalara da əl gəzdirmək lazım gələcəkdir. Mən artıq müvafiq göstərişlər verdim. Bütövlükdə bu ərazi ən yüksək müasir standartlara cavab verəcəkdir.

Azərbaycanda məhkəmə sisteminin təkmilləşdirilməsi işi sürətlə gedir. Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra ölkədə məhkəmə-hüquq islahatları aparılmağa başlanmışdır. Bu işlər ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə başlanmışdır və bu gün uğurla davam etdirilir. Çünki məhkəmə-hüquq sisteminin təkmilləşməsi hər bir ölkənin inkişafında çox böyük əhəmiyyət kəsb edir. Hətta inkişaf etmiş ölkələrdə də bu proses daim gedir. Yəni bu prosesin əvvəli var, amma sonu yoxdur.

Ölkəmizdə demokratik, hüquqi dövlət quruculuğu prosesi, təbii ki, məhkəmə-hüquq sisteminin islahatları ilə bərabər aparılmalıdır. Çünki bu amillər bir-birindən çox asılıdır. İndi Azərbaycanda həm siyasi, həm də iqtisadi islahatlar çox uğurla gedir. Ölkəmiz müasirləşir, yeniləşir, Dünya Birliyinin çox fəal və dəyərli üzvünə çevrilir. Əlbəttə ki, məhkəmə-hüquq islahatları da ölkəmizin ümumi inkişafına öz töhfəsini verməlidir.

Bildiyiniz kimi, Azərbaycanda iqtisadi islahatlar çox sürətlə aparılır, xarici sərmayə qoyulur və bu göstəriciyə görə Azərbaycan bölgədə birinci dövlətdir. Adambaşına düşən xarici sərmayələrin həcmi Azərbaycanda ən yüksək həddədir. Əlbəttə ki, məhkəmə sisteminin müasir olması xarici investorlara daha da böyük inam verir. Adətən, bütün investorlar, ilk növbədə, ölkədə mövcud olan qanunvericilik bazasını öyrənirlər, vergilər sistemini, oradakı vəziyyəti öyrənirlər, eyni zamanda məhkəmə-hüquq sisteminin vəziyyətini öyrənirlər. Bu sahədə hələ böyük islahatlar aparılmalıdır. Çünki hələlik nöqsanlar da kifayət

qədərdir. Bölgələrdən gələn müraciətlərdə də, demək olar ki, məhkəmə sistemindəki vəziyyət narahatlıq doğurur. Düzdür, bunun təbii səbəbləri də var. Çünki qəbul edilən məhkəmə qərarları, cəza tədbirləri, təbii ki, bəzi hallarda insanları müraciətlə çıxış etməyə vadar edir. Çünki cəza çəkən insanlar, yaxud da məhkəmədə zərər çəkən insanlar, təbii, istəyirlər ki, öz hüquqlarını bərpa etsinlər. Ancaq eyni zamanda, biz gərək bütün müraciətlərə böyük diqqətlə yanaşaq, onları araşdıraq və məhkəmə sistemində olan bütün nöqsanları aradan qaldıraq. Hələ ki bu nöqsanlar var. Siz də bunları yaxşı bilirsiniz və ictimaiyyət də bunu bilir. Mən ümid edirəm ki, Ali Məhkəmənin yeni rəhbərləri və onlar tərəfindən başlanmış işlər, tədbirlər bu sistemdə ciddi dönüşün yaranmasına imkan yaradacaqdır.

Bildiyiniz kimi, Məhkəmə-Hüquq Şurasının yaradılması da bu istiqamətdə çox mühüm bir addımdır. Ölkəmizin hərtərəfli inkişafı üçün, demokratik, hüquqi dövlətin əsaslarının möhkəmlənməsi üçün məhkəmə-hüquq sisteminin təkmilləşməsi başlıca şərtdir. Bu sahədə, əlbəttə ki, çox böyük işlər görülməlidir. Bir tərəfdən, məhkəmələrin maddi-texniki bazası möhkəmlənməlidir. Bu istiqamətdə işlər aparılır, Azərbaycanın müxtəlif bölgələrində yeni binaların tikintisi nəzərdə tutulubdur.

Eyni zamanda, hakim korpusunun peşəkarlığı da artırılmalıdır. Artıq bu işdə şəffaflıq təmin olunur. Hakimlərin seçilməsi prosesi şəffaf keçirilir, hakimlərin sayı artırılır və beləliklə, bütövlükdə məhkəmə sisteminin möhkəmlənməsi prosesi uğurla gedir. Əlbəttə, bu gözəl binanın tikintisi də bu istiqamətdə atılan çox gözəl addımdır. Ümid edirəm ki, bina tezliklə tikilib istifadəyə veriləcəkdir. Bir daha demək istəyirəm ki, bina həm şəhərə gözəllik verəcək, həm də burada iş şəraiti çox yüksək səviyyədə olacaqdır. Hamı qanun qarşısında bərabər olmalıdır. Bütün qərarlar ədalətli olmalıdır. Ədalətsiz qərar insanların taleyinə təsir edir. Əgər qəbul edilmiş qərar ədalətsizdirsə, insanlar çox böyük əziyyət çəkirlər. Ona görə məhkəmə səhvləri, əlbəttə, hər bir insanın taleyində çox böyük

rol oynayır. Biz buna yol verməməliyik. Eyni zamanda, cinayət törətmiş insanlar da məsuliyyətdən yayınmamalıdırlar. Hər bir cinayətin öz cəzası olmalıdır. Bununla bərabər, günahsız insanlar heç vaxt ədalətsiz qərarların qurbanları olmamalıdırlar. Bu, məhkəmə sisteminin əsas prinsipləridir və əminəm ki, Azərbaycanda bu sahədə aparılan işlər və görülən tədbirlər qısa müddət ərzində öz nəticələrini verəcəkdir.

Mən bu gözəl binanın tikintisi ilə əlaqədar sizin hamınızı bir daha ürəkdən təbrik edirəm. Sizə fəaliyyətinizdə uğurlar arzulayıram. Sağ olun.

# QEYDLƏR

**1. İpək Yolu**, B ö y ü k İ p ə k Y o l u – beynəlxalq tarixi tranzit-ticarət yolu; eramızdan əvvəl II əsrin sonlarından eramızın XVI əsrinədək fəaliyyət göstərmiş, Çindən Şimali Afrika və İspaniyaya qədər uzanaraq, ayrı-ayrı qolları ilə o zaman dünyanın məlum olan, demək olar ki, bütün ölkələrini birləşdirmişdir.

Əlverişli coğrafi mövqedə yerləşməsi və zəngin maddi sərvətlərə malik olması sayəsində Azərbaycan qədim zamanlardan dünya ölkələri arasında iqtisadi və mədəni əlaqələrdə mühüm yer tutmuşdur.

XX əsrin sonunda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Böyük İpək Yolunun yenidən dirçəldilməsi ideyasını irəli sürməsi bütün dünyada, xüsusilə də Böyük İpək Yolu üstündə yerləşən ölkələrdə ciddi maraqla qarşılandı. Bu məqsədlə 1998-ci ilin sentyabrında Bakıda 33 dövlətin və Avropa Birliyinin iştirakı ilə beynəlxalq konfrans keçirildi; TRASEKA proqramı çərçivəsində nəzərdə tutulan Asiya–Qafqaz–Avropa ticarət dəhlizinin – Böyük İpək Yolunun bərpasının və onun imkanlarından hamılıqla bəhrələnməyin vacibliyi qeyd olundu. – 5,33,264.

**2. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Ərazisi 9,14 milyon km$^2$, əhalisi 280 milyon nəfərə yaxındır. İnzibati cəhətdən 50 ştata bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr Palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 7,10,111–112,113, 205, 207,211,234,248,262.

**3. Corc Buş** (d.1946) – ABŞ-ın 43-cü prezidenti (2000–2008-ci illər). ABŞ-ın 41-ci prezidenti Corc Herbert Buşun oğludur. 1968-ci ildə Yel universitetini (incəsənət, tarix bakalavrı), 1975-ci ildə isə Harvard universitetini (incəsənət magistri) bitirmişdir. «Speaktrum-7 Enerci Korporeyşn» firmasının yaradıcısıdır. 1994-cü ildən Texas ştatının qubernatoru olmuşdur. – 7,111–112,234.

**4. Nyu-Hempşir** – ABŞ-ın şimal–şərqində ştat. Sahəsi 24,2 min km$^2$, əhalisi 1201 min nəfərdir. İnzibati mərkəzi Konkord şəhəridir. –7.

**5. Con Sununu** (d.1939) – Nyu-Hempşir ştatının (1983–89) 75-ci qubernatoru. Con Sununu Nyu-Hempşir ştatında Respublikaçılar Partiyasının (2009–2011) sədri olmuşdur. Ata Corc Buş zamanında Ağ ev administrasiyasının rəhbəri olmuşdur. – 7.

**6. Devid Vudvord** (d.1946) – neftçi-mühəndis, 1999–2007-ci illər «*bp*–Azərbaycan» şirkətinin prezidenti. Bir çox ölkələrdə – Birləşmiş Ərəb Əmirliklərində, Norveç, Rusiya və ABŞ-da *bp* şirkətinin nümayəndəsi vəzifələrində işləmişdir. İngiltərənin «Müqəddəs Mixail» və «Müqəddəs Çeorgi», Gürcüstanın «Şərəf», Azərbaycan Respublikasının «Şöhrət» ordenləri ilə təltif olunmuşdur. – 8–9.

**7. «*bp*–Azərbaycan»** – neft şirkəti. 1994-cü ildə yaradılmışdır. Hazırda ABƏŞ-in əsas operatorudur. – 8–9.

**8. «BTC Co» –** neft kəmərinin tikintisi və istismara verilməsi üçün yaradılan şirkət. Bunlar *bp* (30,1%), SOKAR (25%), Şevron (8,9%), Statoyl (8,71%), TPAO (6,53%), Eni (5%), Total (5%), İtoçu (3,4%), İNPEX (2,5%), Conoco Phillips (2,5%) və Amerada Hess (2,36%) –dir. – 8–9.

**9. Bakı–Tbilisi–Ceyhan** – 1998-ci il oktyabrın 29-da Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan prezidentləri və

ABŞ-ın Energetika naziri Bakı–Tbilisi–Ceyhan marşrutunu müdafiə edən «Ankara bəyannaməsini» imzalamışlar. Uzunluğu 1695 km olan Bakı–Tbilisi–Ceyhan neft kəməri 2006-cı ildə istifadəyə verilmişdir. – 8–9,10,17,28,30,86,88,130, 146,158,162,165,204,205,206,233,234,235,237,240,242,243,249, 250,252,253,257,259–266,267,275,276,294,301,307,308,314.

**10. Hallibörtn** – neft və qazçıxarma sahəsində xidmət göstərən Amerika şirkəti. Şirkət buruqların qazılması üçün avadanlıq, boru kəmərlərinin istehsalında, rezervuar parkların salınmasında iştirak edir. Şirkətin dunyanın 70-dən çox ölkəsində 60 minə yaxın işçisi var. Mənzil–qərargahı Dubayda, bank və maliyyə direktorları isə Hyüstonda fəaliyyət göstərirlər. Şirkətin əsası Erl Hallibörtn tərəfindən qoyulmuşdur. – 10.

**11. Devid Lezar** (d.1954) – 2000-ci ildən Hallibörtn şirkətinin sədri, prezidenti və Baş icraçı direktorudur. – 10.

**12. Ceyhan –** Aralıq dənizi sahilində liman. 1998-ci il oktyabrın 29-da Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan prezidentləri və ABŞ-ın Energetika naziri Bakı–Tbilisi–Ceyhan marşrutunu müdafiə edən «Ankara bəyannaməsi»ni imzalamışlar. Uzunluğu 1695 km olan Bakı–Tbilisi–Ceyhan neft kəməri 2006-cı ildə istifadəyə verilmişdir. – 10,162, 240,242,259–266,271.

**13. Bakı–Supsa neft kəməri** – 1994-cü ilin sentyabrında Azərbaycan hökumətinin xarici neft şirkətləri ilə imzaladığı «Əsrin müqaviləsi»nin həyata keçirilməsinin mühüm bir vəsiləsi Bakı–Supsa neft kəməridir. Kəmərin uzunluğu 830 km, gündəlik maksimum ötürmə gücü 115 min barreldir. Supsada hər birinin tutumu 250 min barrel olan dörd terminal tikilmişdir.

1999-cu il aprelin 17-də Supsada ilkin Xəzər neftinin qərb istiqamətində nəqli üçün Bakı–Supsa ixrac boru kəmərinin və Supsa yerüstü terminalının təntənəli rəsmi açılış mərasimi olmuşdur. – 10.

**14. Bakı–Novorossiysk neft kəməri –** 1994-cü ilin sentyabrında Azərbaycan Respublikası hökumətinin xarici neft şirkətləri ilə imzaladığı «Əsrin müqaviləsi»nin həyata keçirilməsinin mühüm bir hissəsi Bakı–Novorossiysk neft kəməridir. Bu kəmər 1997-ci ilin noyabrında istifadəyə verilmişdir. – 10.

**15. Avpora Şurasının Nazirlər Komitəsi** – bu təşkilatın rəhbər və direktiv orqanıdır. Komitəni bütün üzv ölkələrin xarici işlər nazirləri və daimi diplomatik nümayəndələri təşkil edir. Onlar–Nazirlər Komitəsi hüquq bərabərliyində Avropa cəmiyyətinin problemlərinin milli dəyərlərə əsaslanaraq həll edilməsinə çalışır. Parlament Assambleyası ilə birlikdə Nazirlər Komitəsi üzv ölkələrin götürdükləri öhdəliklərə nəzarət edir və fundamental dəyərlərin keşiyində durur. İldə bir dəfə keçirilən sessiyada nazirlər siyasi dialoq aparır, Avropa əməkdaşılğı məsələlərini həll edirlər. – 11.

**16. «AQO» –** seçki monitorinq qrupu. Qrupa cəmi 13 dövlət daxildir. Avropa Şurası Nazirlər Komitəsi tərəfindən 2001-ci ildə yaradılan «AQO» qrupunun vəzifəsi Cənubi Qafqaz ölkələrinin AŞ qarşısında götürdükləri öhdəliklərin yerinə yetirilməsinə nəzarət etməkdir. – 11.

**17. Venesiya Komissiyası –** 1990-cı ildə Avropa Şurasında Konstitusiya qaydalarına uyğun – hüquqi demokratiya uğrunda rəsmi Avropa Komissiyası – konsultativ orqan yaradıldı. 2002-ci ildən Avropa Şurasına daxil olmayan ölkələr də bu komissiyada iştirak edə bilərlər.

Hər bir iştirakçı ölkə komissiyaya 4 il müddətinə bir ekspert təyin edir. Ekspertlər dövlət nümayəndəsi kimi yox, müstəqil mütəxəssis kimi işləməlidir. Qaydaya görə tam halda ildə dörd sessiya keçirilir. Sessiyalar Venesiyada olur. 2010-cu ildə komissiyada AŞ-nın 47 üzv-ölkəsi var idi. Komissiyanın sədri Canni Bukikkiodur (İtaliya). –

Komissiyanın əsas işi – iştirakçı ölkələrin Konstitusiya hüquqlarına aid qanunlarının və qanun layihələrinin analizi, həmçinin standart seçkilər və azlıqların hüquqlarının müdafiəsidir. – 11.

**18. Üzeyir bəy Hacıbəyov,** Ü z e y i r Ə b d ü l h ü s e y n o ğ l u (1885–1948) – dahi Azərbaycan bəstəkarı, musiqişünas alim, publisist, dramaturq, pedaqoq və ictimai xadim. Müasir Azərbaycan professional musiqi sənətinin və milli operasının banisi, SSRİ Xalq artisti, SSRİ Dövlət mükafatı laureatı. – 12–14.

**19. Mehriban Əliyeva,** M e h r i b a n A r i f q ı z ı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə doktoru, prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–93-cü illərdə Krassnov adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə Mehriban Əliyeva «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün üç dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan–İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Mehriban Əliyeva Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi və həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaranmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talassemiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahi xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə Mehriban Əliyeva YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005-ci ildən Milli Məclisin deputatıdır. Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişafına, milli-mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliginə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. – 12–14,15–23,126,137–138,139–140,144,153,154–155,156.

**20. Heydər Əliyev Fondu** – qeyri-hökumət, qeyri-kommersiya təşkilatı. Rəsmi açılışı 10 may 2004-cü ildə olmuşdur. Heydər Əliyev Fondunun prezidenti YUNESKO-nun və İSESKO-nun Xoşməramlı səfiri, Milli Məclisin deputatı, Azərbaycanın birinci xanımı Mehriban Əliyevadır.

Fondun yaradılmasında məqsəd ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiramı ifadə etmək, Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək, Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daima aşılamaq olmuşdur.

Fondun prezidenti onun səlahiyyətli qanuni numayəndəsidir. Fondun işinə bilavasitə rəhbərlik icraçı direktora aiddir. Fondun nəzdində Ekspert Şurası, fondun strukturunda bir sıra qurumlar fəaliyyət göstərir. – 12,18,19,20,21,22,137, 154–155,163.

**21. «Azərbaycan Mədəniyyətinin Dostları»** – xeyriyyə fondu. 1995-ci ildə xeyriyyəçi, ictimai və siyasi xadim Mehriban xanım Əliyeva tərəfindən yaradılmışdır. Fəaliyyətə başladığı ilk günlərdən fond milli mədəniyyətimizin təbliği, inkişafı, tanınması üçün çox böyük işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə təbliğ etmək üçün Azərbaycan, rus, ingilis dillərində «Azərbaycan–İrs» jurnalını təsis etmişdir. – 12.

**22. Arif Babayev,** Arif İmran oğlu (d.1938) – Xanəndə, Xalq artisti, professor. Milli konservatoriyanın müğam kafedrasının müdiri. O, Seyid Şuşinski, Xan Şuşinçki, Zülfü Adıgözəlov kimi sənətkarların ənənələrinə əsaslanaraq, özünəməxsus ifaçılıq üslubu yaratmışdır. Azərbaycan Respublikasının «Şöhrət» və «İstiqlal» ordenləri ilə təltif olunmuşdur. – 12–14.

**23. Ağaxan Abdullayev,** Ağaxan Minaxan oğlu (d.1950) – xanəndə, muğam ustası. Muğam sənətinin istedadlı nümayəndələrindən biri. Azərbaycan Respublikasının Xalq artisti. «Humay» Milli mükafatı laureatıdır. – 12–14.

**24. Səkinə İsmayılova,** Səkinə Qulu qızı (d.1956) – müğənni. Azərbaycan Respublikasının Xalq artisti. Səkinə İsmayılova muğamı qavalla ifa edən ilk qadın xanəndədir. Opera və Balet Teatrının səhnəsində əksər muğam operalarında aparıcı partiyaları – Leyli («Leyli və Məcnun»), Əsli («Əsli və Kərəm»), Gülbahar («Gəlin qayası») və s. ifa edir. – 12–14.

**25. Aygün Bayramova,** Aygün Əliqulu qızı (1967) – Azərbaycan xanəndəsi və opera müğənnisi. Azərbaycan Respublikasının Xalq artisti. – 12–14.

**26. Mənsum İbrahimov,** Mənsum İsrafil oğlu (d.1960) – muğam xanəndəsi, professor. Azərbaycan Respublikasının Xalq artisti. Azərbaycan Dövlət Opera və Balet Teatrının solistidir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 12–14.

**27. Alim Qasımov,** Alim Həmzə oğlu (d.1957) – xanəndə. Azərbaycan Respublikasının Xalq artisti. Muğam sənətinin, xüsusilə də «tarab» janrının bilicilərindəndir. Alim Qasımov 1999-cu ildə Beynəlxalq İMC YUNESKO musiqi

mükafatını almışdır. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. Respublika Dövlət mükafatı laureatıdır. – 12–14.

**28. YUNESKO –** BMT-nin maarif, elm və mədəniyyət işlərinə baxan hökumətlərarası təşkilatı. 1945-ci ilin noyabrında yaradılmış, 1946-cı ildən fəaliyyətə başlamışdır. Ali orqanı iki ildən bir çağırılan konfransdır. Katibliyi Parisdədir. Azərbaycan 1992-ci ildən YUNESKO-nun üzvüdür. – 13.

**29. Heydər Əliyev,** H e y d ə r  Ə l i r z a  o ğ l u (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti (1993–2003), iki dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi

Büro üzvü seçilmiş və eyni zamanda SSRİ Nazirlər Soveti sədrinin Birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Sovetinin sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may–iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın o zamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçildi, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş oldu, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı.

Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H. Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanları Azərbaycanın dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. – 16,17,19,20,21,23,25,30,58,70,73,77,83–92, 94,95,106,109,110,125,126,127,128,130,133,134,137,138,139, 144,146,149,151,152,156,168,189,217,218,236–246,252,254, 257,260,261,268,269,270,271,272,289,331,332,339.

**30. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti** (ARDNŞ) – respublikada neft və qazın kəşfiyyatına, çıxarılmasına və emal edilməsinə rəhbərlik edən qurum. 1991-ci ildə təşkil edilmişdir. Şirkət neft və qaz quyularının qazılması və istifadəyə verilməsi, nəql edilməsi və s. məqsədilə dünyanın bir sıra

ölkələrinin iri neft şirkətləri ilə sazişlər, müqavilələr bağlamışdır. – 19,100,170,189,190,196,198,276,308,315.

**31. Misir Mərdanov,** M i s i r  C u m a y ı l  o ğ l u (d.1946) – fizika-riyaziyyat elmləri doktoru, professor. Tədqiqatları əsasən riyaziyyatın müasir sahələrindən biri olan optimal idarəetmə nəzəriyyəsinin aktual problemlərinə həsr edilmişdir.

Azərbaycan Respublikası Təhsil Nazirliyi ali təhsil və elm idarəsinin rəisi, Təhsil nazirinin müavini, BDU-nun tədris işləri üzrə prorektoru, BDU-nun rektoru kimi müxtəlif vəzifələrdə çalışmışdır. 1998–2013-cü illərdə Azərbaycan Respublikasının Təhsil naziri olmuşdur. Hal-hazırda AMEA-nin Riyaziyyat İnstitutunun direktorudur. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 20.

**32. «Azərenerji»** – Dövlət şirkəti. Elektrik sistemləri avadanlıqlarının texniki istismarı, elektrik enerjisi ötürülməsi, bölüşdürülməsi, generasiya güclərinin və şəbəkələrinin planlaşdırılması və inkişaf məsələlərini həll edir. – 20,315,316,317.

**33. Qurani–Kərim,** ə l - Q u r a n – müsəlmanların müqəddəs kitabı. Quranı Allah Cəbrayıl vasitəsilə Məhəmməd əleyhüssəlama göndərib. Quran qafiyəli nəsrlə yazılmış 114 surə və 6200-dən çox ayədən ibarətdir. «Məkkə surələrinə» (610–622, Məkkə, 90 surə) və «Mədinə surələrinə» (622–632, Mədinə, 24 surə) bölünür. – 22,37.

**34. Qazaxıstan,** Q a z a x ı s t a n  R e s p u b l i k a s ı – Avrasiyanın mərkəzi hissəsində dövlət. Sahəsi 2724,9 min km$^2$, əhalisi 16 679 min nəfərdir. Paytaxtı Astana şəhəridir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Ali Sovetdir. – 24–36,60,61,204,250,254,255,263,275,276,282–284.

**35. Almatı** (keçmiş Alma-Ata) – 1929–99-cu illərdə Qazaxıstan Respublikasının paytaxtı olmuşdur. – 24–36.

**36. Ramiz Mehdiyev,** R a m i z  Ə n v ə r  o ğ l u (d.1938) – Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, fəlsəfə elmləri doktoru, professor. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü. 1978–80-ci illərdə Rayon Partiya Komitəsinin 1-ci katibi, 1980–81-ci illərdə Azərbaycan KP MK-da elm və təhsil şöbəsinin müdiri, 1981–83-cü illərdə Azərbaycan KP MK-da partiya təşkilat işi şöbəsinin müdiri, 1983–88-ci illərdə Azərbaycan KP MK-da katib, 1988–94-cü illərdə Azərbaycan EA-nın İctimai-Siyasi Tədqiqatlar və İnformasiya İnstitutunda şöbə müdiri, 1994-cü ildə Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının şöbə müdiri, 1995-ci ildən Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəridir. 1995–2000-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. Müasir siyasi problemlərə, dövlət quruculuğuna aid bir çox kitab və monoqrafiyaların müəllifidir. Azərbaycan Respublikasının «İstiqlal», «Şöhrət», «Şərəf» Rusiya Federasiyasının «Dostluq» ordenləri ilə təltif edilmişdir. Beynəlxalq Nyu-York Akademiyasının və Türk Dünyası Araşdırmalar Uluslararası Elmlər Akademiyasının üzvüdür. – 24.

**37. Artur Rasizadə,** A r t u r  T a h i r  o ğ l u (d.1935) – Azərbaycanın dövlət xadimi. SSRİ Dövlət mükafatı laureatı. 1986–92-ci illərdə Azərbaycan Respublikası Baş nazirinin birinci müavini vəzifəsində işləyib. 1996-cı ildən Azərbaycan Respublikasının Baş naziridir. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 24,109–110.

**38. Hacıbala Abutalıbov,** H a c ı b a l a  İ b r a h i m  o ğ- l u (d.1944) – Bakı Şəhər İcra Hakimiyyətinin başçısı. Fizika–riyaziyyat elmləri doktorudur. – 24,165–201.

**39. Qasımcomərd Tokayev** (d.1953) – Qazaxıstan dövlət xadimi, diplomat. 2002–2003-cü illərdə Qazaxıstan Respublikasının Xarici İşlər naziri və Dövlət katibi olmuşdur.

2007-ci ildə Parlament Senatının sədri, 2011-ci ilin martından BMT Baş katibinin müavini və BMT-nin Cenevrə şöbəsinin direktorudur. – 24.

**40. Nursultan Nazarbayev,** Nursultan Abiş oğlu (d.1940) – Qazaxıstanın dövlət və siyasi xadimi. 1979-cu ildə Qazaxıstan KP MK-nın katibi, 1984-cü ildə Qazaxıstan Ali Sovetinin sədri, Nazirlər Sovetinin sədri, 1989–91-ci illərdə Qazaxıstan KP MK-nın Birinci katibi. 1990-cı ildə həm də Ali Sovetin sədri, 1991-ci ildə Qazaxıstan SSR-nin prezidenti və 1991-ci ilin dekabrından Qazaxıstan Respublikasının prezidentidir. – 25–26,28–36,204,250,282,284.

**41. Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Ərazisi 4 min $km^2$-dir. Mərkəzi Xankəndidir.

1988–92-ci illərdə muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq Dağlıq Qarabağı işğal etdilər. BMT-nin 822, 853, 874, 884 saylı qətnamələrinə görə, erməni işğalçıları Azərbaycan torpaqlarını qeyd-şərtsiz tərk etməlidirlər. Ancaq Azərbaycan torpaqları hələ də erməni tapdağı altındadır. – 26,41,42,89,90,91,92,109, 111,122,123,132,133,134,135, 206,207,208,209,210,216,244, 245,256,304,305,323.

**42. Rusiya,** Rusiya Federasiyası – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Ərazisi 17075,4 min $km^2$, əhalisi 146,3 milyon nəfərdir. Rusiya Federasiyasına 21 respublika, 6 diyar, 49 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 10 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 27,29,61,74,108,206,207,219,274–285,315.

**43. Vladimir Putin** (d.1952) – 2000–2008-ci illərdə Rusiya Federasiyasının prezidenti. 1975–97-ci illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1998-ci ildə Rusiya Federasiyası Prezidenti Administrasiyasının rəhbəri, 1998–99-cu illərdə FTX-nın direktoru, 1999-cu ilin avqustundan Rusiya hökumətinin başçısı, 2008-ci ilin mayında Rusiya Federasiyasının Baş naziri təyin edilmişdir. 2012-ci ilin mart ayında yenidən Rusiya Federasiyasının prezidenti seçilmişdir. – 27,108,206,219,282,284.

**44. TRASEKA,** T r a n s x ə z ə r n ə q l i y y a t d ə h l i -z i – Avropanı Asiya ilə birləşdirən yol. Bu nəqliyyat dəhlizini Şərqlə Qərbi birləşdirən orta materik xətti də adlandırmaq olar. Transxəzər nəqliyyat dəhlizi Azərbaycanı, bütünlükdə Qafqazı Avropa ilə birləşdirir. – 33.

**45. Birləşmiş Millətlər Təşkilatı** (BMT) – müasir dünyanın ən nüfuzlu beynəlxalq təşkilatı. Qərargahı Nyu-York şəhərindədir. Əsas vəzifəsi beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq və möhkəmlətmək, dövlətlər arasında əməkdaşlığı inkişaf etdirməkdir. BMT-nin Nizamnaməsi 1945-ci il iyulun 26-da San-Fransisko konfransında 50 dövlətin nümayəndəsi tərəfindən imzalanmış, 1945-ci il oktyabrın 24-də qüvvəyə minmişdir. Hazırda BMT-yə 198 dövlət daxildir.

BMT-nin əsas orqanları Baş Məclis, Təhlükəsizlik Şurası, İqtisadi və İctimai Şura, Qəyyumluq Şurası, Beynəlxalq Məhkəmə və Katiblikdir.

Azərbaycan Respublikası 1992-ci ildən BMT-nin üzvüdür.

Dövlətimizin apardığı uğurlu xarici siyasət nəticəsində Azərbaycan 2011-ci ilin oktyabr ayında BMT-nin Təhlükəsizlik Surasına qeyri-daimi üzv qəbul olunmuşdur. – 34,40,41,42,77, 89,90,101,103,122,132,208,304.

**46. İsrail –** Yaxın Şərqdə dövlət. Sahəsi 20,8 min km$^2$, əhalisi 5,5 milyon nəfərdir (1948–49-cu illərdə işğal edilmiş ərazi daxil olmaqla). İsrail dövləti BMT-nin Baş Məclisinin 1947-ci il 29 noyabr tarixli qərarına əsasən yaradılmışdır. İsrail inzibati cəhətdən 6 mahala bölünür. Dövlət başçısı prezidentdir, onu birpalatalı parlament (Knesset) seçir. Hökumətə geniş səlahiyyəti olan Baş nazir başçılıq edir. – 35.

**47. Şimon Peres** (d.1923) – İsrail siyasətçisi və dövlət xadimi. 70 ildən çoxdur ki, siyasətdədir. «Avoda» Partiyasının yaradıcısı və lideri. – 35.

**48. Fələstin Azadlıq Təşkilatı (FAT) –** Fələstin ərəb xalqının qanuni hüquqları ugrunda mübarizə aparan Fələstin Müqavimət Hərəkatının bütün təşkilatlarını birləşdirir. 1964-cü ilin yanvarında yaradılmış, mayın 28-də Qüds şəhərində 1-ci Fələstin milli konqresində Nizamnaməsi qəbul olunmuşdur. 1973-cü ilin noyabrında Əlcəzairdə Ərəb dövlətləri başçılarının müşavirəsində Fələstin ərəb xalqının yeganə qanuni nümayəndəsi kimi tanınmışdır. FAT-ı 115 ölkə tanıyır; 82 ölkədə nümayəndəliyi var. Ərəb Dövlətləri Cəmiyyətinin işində iştirak edir və BMT-də müşahidəçi statusuna malikdir. – 35.

**49. İslam Konfransı Təşkilatı (İKT)** – 1969-cu ildə yaradılmışdır. Müsəlman ölkələrinin çoxunu birləşdirir. Nizamnaməsinə görə İslam Konfransı Təşkilatının fəaliyyəti müsəlmanların həmrəyliyinin möhkəmlənməsinə, üzv dövlətlər arasında əməkdaşlığa yönəldilmişdir. İqamətgahı Ciddədədir (Səudiyyə Ərəbistanı). Azərbaycan 1991-ci ildən İKT-nın üzvüdür. – 37–43,48,49,50,51,52,53,54,57,59,90,281.

**50. Yəmən,** Y ə m ə n R e s p u b l i k a s ı – Ərəbistan yarımadasının cənub hissəsində dövlət. Sahəsi 532 min km$^2$, əhalisi 16,6 milyon nəfərdir. İnzibati ərazisi 17 əyalətə (qubernatorluğa) bölünür. Dövlət başçısı Prezident Şurasıdır.

Paytaxtı 1990-cı ildən Sənadır. Ədən iqtisadi şəhər statusuna malikdir. – 37.

**51. Avropa Şurası** (AŞ) – Avropada hökumətlərarası təşkilat. 1949-cu ildə yaradılmışdır. Qərargahı Fransanın Strasburq şəhərində yerləşir. AŞ-nın əsas məqsədi Avropada sülhü və təhlükəsizliyi qorumaq, seçki sistemində çoxpartiyalılığa riayət etmək, demokratiyanı və insan hüquqlarını müdafiə etmək, möhkəmləndirmək, Avropa ölkələrinin mədəniyyətlərinin yaxınlaşmasına çalışmaq və s. ibarətdir. AŞ-nın ali orqanları Nazirlər Komitəsi, Məsləhət Assambleyası, Sahə Nazirliklərinin Müşavirəsi və Katiblikdir. Azərbaycan 2001-ci ildən Avropa Şurasının üzvüdür. – 41,90,105,250,281.

**52. GUAM** – Avropada adi silahların azaldılması haqqında müqavilənin cinah sənədi müzakirə olunduqdan sonra həmin sənədi bəyənən ölkələrdən – Gürcüstan, Ukrayna, Azərbaycan və Moldovadan ibarət qeyri-rəsmi «dördlər qrupu» yaradıldı. Sonralar bu quruma Özbəkistan da qatıldı (10 oktyabr 1997). 2005-ci ildə isə Özbəkistan bu qurumu tərk etdi. – 41,90,276, 277,281.

**53. Sloveniya,** Sloveniya Respublikası – Mərkəzi Cənubi Avropada dövlət. Sahəsi 20,3 min km$^2$, əhalisi 1,96 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı (Dövlət Şurası və Dövlət Məclisi) parlamentdir. Paytaxtı Lyublyandır. – 44.

**54. Yanez Drnovşek** (1950–2008) – Yuqoslaviya və Sloveniya siyasətçisi. 1992–2000,2000–2002-ci illərdə Baş nazir, 1989–1990-cı illərdə Yuqoslaviya Ali Məclisinin sədri, 2002–2007-ci illərdə Sloveniya prezidenti olmuşdur. – 44.

**55. Xorvatiya Respublikası** – Cənubi Avropada dövlət. Sahəsi 56,6 min km$^2$, əhalisi 4,8 milyon nəfərdir. İnzibati ərazisi

20 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Zaqrebdir. – 45.

**56. Mesiç Stipe** (d.1934) – hüquqşünas. 2000–2008-ci illərdə Xorvatiya Respublikasının prezidenti olmuşdur. – 45.

**57. Mozambik,** M o z a m b i k R e s p u b l i k a s ı – Cənub–Şərqi Afrikada dövlət. Sahəsi 802 min km$^2$, əhalisi 17,9 milyon nəfərdir. İnzibati ərazisi 10 əyalətə bölünür. Dövlət və hökumət başçısı prezident, qanunverici orqanı birpalatalı Respublika Assambleyasıdır. Paytaxtı Marutidir. – 46.

**58. Gebuza Armandu** (d.1943) – 2005-ci ildən Mozambik prezidenti. 2002-ci ildən FRELİMO Partiyasının Baş katibi. – 46.

**59. Cibuti,** C i b u t i R e s p u b l i k a s ı – Şimal–Şərqi Afrikada dövlət. Sahəsi 22 min km$^2$, əhalisi 603,6 min nəfərdir. İnzibati ərazisi 5 vilayətə bölünür. Dövlət və hökumət başçısı prezident, qanunverici orqanı birpalatalı Milli Məclisdir. Paytaxtı Cibutidir. – 47.

**60. İsmayil Qülleh** (d.1947) – 1999-cu ildən Cibuti prezidenti. – 47.

**61. İordaniya,** İ o r d a n i y a H a ş i m i l ə r K r a l -l ı ğ ı – Qərbi Asiyada dövlət. Sahəsi 89,4 min km$^2$, əhalisi 4,3 milyon nəfərdir. İnzibati ərazisi 8 əyalətə bölünür. Dövlət başçısı kral, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Ammandır. – 48.

**62. ATƏT –** Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. Əsası 1975-ci il iyulun 3–9-da Helsinkidə qoyulmuşdur. Burada Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət rəhbərləri iştirak edirdi. ATƏT «soyuq müharibə»nin

qurtarmasından sonra ümumavropa təhlükəsizlik sistemini formalaşdıran, yeni Avropanın siyasi və iqtisadi həyatının sivil birgəyaşayış qaydalarını müəyyən edən, dövlətlərarası münasibətləri rəqiblik və münaqişə yolundan əməkdaşlıq və qarşılıqlı mənafe istiqamətlərinə yönəldən bir təşkilat funksiyasını icra edir.

Azərbaycan 1992-ci ildən ATƏT-in üzvüdür və 1993-cü ilin ikinci yarısından ATƏT-in zirvə görüşlərində Azərbaycan nümayəndə heyəti fəal iştirak edir. – 49.

**63. Mark de Brişambo** (d.1948) – fransız diplomatı və hakimi. 2005–2011-ci illərdə ATƏT-in Baş katibi olmuşdur. – 49.

**64. Türkiyə Cümhuriyyəti** – Qərbi Asiyada və Avropanın cənub–şərq kənarında dövlət. Sahəsi 780,6 min km$^2$, əhalisi 76 milyon nəfərdir. İnzibati cəhətdən 67 ilə (vilayətə) bölünür. Paytaxtı Ankara şəhəridir. Dövlət başçısı prezident, Ali qanunvericilik orqanı Türkiyə Böyük Millət Məclisidir. – 50,59,73, 74,113,141–142,204–213,232–272,294,330.

**65. Abdullah Gül** (d.1950) – Türkiyə dövlət və siyasi xadimi, iqtisad elmləri doktoru, professor. 1991-ci ildə TBMM-nin üzvü seçilmişdir. Abdullah Gül Rəcəb Ərdoğanla Ədalət və İnkişaf Partiyasının yaradıcılarından biridir. 2007-ci ildən Türkiyənin prezidentidir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif olunmuşdur. – 50,249–251.

**66. İraq,** İ r a q R e s p u b l i k a s ı – Cənub–Qərbi Asiyada – Dəclə və Fərat çayları hövzəsində neft ixrac edən ölkə. Sahəsi 438,3 min km$^2$, əhalisi 22,4 milyon nəfərdir. İnzibati ərazisi 18 mühafazaya bölünür. Dövlət başçısı prezident, hökumət başçısı isə Baş nazirdir. Ölkə ABŞ və NATO ölkələri ilə müharibə vəziyyətində olduğu üçün ali qanunverici orqanı yoxdur. Paytaxtı Bağdaddır. – 51,108.

**67. İran,** İran İslam Respublikası – Cənub–Qərbi Asiyada dövlət. Sahəsi 1,65 milyon km$^2$, əhalisi 62,2 milyon nəfərdir. Paytaxtı Tehran şəhəridir. İnzibati cəhətdən 24 ostana bölünür. Ali qanunverici hakimiyyət orqanı 4 il müddətinə seçilən Xalq Şurası Məclisidir. Hökuməti Baş nazir təşkil, prezident isə təsdiq edir. – 52,212.

**68. Mənuçehr Mottəki** (d.1953) – 2005–10-cu illərdə İran İslam Respublikasının Xarici İşlər naziri olmuşdur. – 52.

**69. Tailand,** Tailand Krallığı – Cənub–Şərqi Asiyada dövlət. Sahəsi 514 min km$^2$, əhalisi 60 milyon nəfərdir. Dövlət başçısı kraldır. Qanunverici orqanı ikipalatalı Milli Assambleyadır. İnzibati cəhətdən 73 çanqvata (əyalətə) bölünür. Paytaxtı Banqkok şəhəridir. – 53.

**70. Ekmələddin İhsanoğlu** (d.1946) – Türkiyə diplomatı, tarix elmləri doktoru, professor. Ana Vətən Partiyasının üzvü. 2005-ci ildən İslam Konfransı Təşkilatının Baş katibidir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 54.

**71. Lüksemburq,** Böyük Lüksemburq Hersoqluğu – Qərbi Avropada dövlət. Sahəsi 2,6 min km$^2$, əhalisi 415 min nəfərdir. İnzibati cəhətdən 3 mahala bölünür. Lüksemburq konstitusiyalı monarxiyadır. Dövlət başçısı böyük hersoqdur. Qanunverici orqanı Deputatlar palatasıdır. Paytaxtı Lüksemburqdur. – 55.

**72. Anri** (d.1955) – 1998-ci ildən Lüksemburq Hersoqluğunun hökumət naibi, 2000-ci ildən isə böyük hersoqudur. 1998-ci ildən Beynəlxalq Olimpiya Komitəsinin üzvüdür. – 55.

**73. Beynəlxalq Miqrasiya Təşkilatı** – hökumətlərarası beynəlxalq təşkilat. Təşkilata 122 üzv - dövlət daxildir. 18 dövlət isə

beynəlxalq və qeyri-dövlət təşkilatları ilə birlikdə müşahidəçilər statusuna malikdir. – 58.

**74. Ərdoğan Rəcəb Tayyib** (d.1954) – Türkiyə siyasi və dövlət xadimi. R.T.Ərdoğan 1980-ci ildən siyasi fəaliyyətə qoşulmuşdur. 1994-cü ildə İstanbul Böyük Şəhər Bələdiyyəsinin sədri, Ədalət və İnkişaf Partiyasının liderídir.

2002-ci ildə keçirilən növbədənkənar seçkilər nəticəsində Ədalət və İnkişaf Partiyası təkbaşına hakimiyyətə gəlmək imkanı əldə etdi və Ərdoğan TBMM-də Türkiyənin Baş naziri seçildi. – 59,205,233,235,259–266,267,268–272,294,330.

**75. Oljas Süleymenov** (d.1936) – məşhur qazax şairi, diplomat. Ümumittifaq Lenin komsomolu mükafatı laureatı. «Az i Ya» əsəri ilə məşhurlaşmışdır. Hazırda Qazaxıstan Respublikasının YUNESKO-da daimi nümayəndəsidir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 60.

**76. Türkmənistan,** Türkmənistan Respublikası – Orta Asiyanın cənub–qərbində dövlət. Sahəsi 488,1 min $km^2$, əhalisi 4574 min nəfərdir. İnzibati ərazisi 5 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Aşqabaddır. – 61,282.

**77. Neft Daşları** – Abşeron yarımadasından 42 km cənub–şərqdə, açıq dənizdə polad dirəklər üzərində salınmış «neft» şəhəri. Bu ərazi oradakı daşların (təqribən 20 ədəd) bəzilərində neft-qaz nişanələrinin olması ilə əlaqədar Neft Daşları adlandırılmışdır. Neft Daşları rayonunda geoloji kəşfiyyat işlərinə 1946-cı ildən başlanmışdır. Çıxarılan neft həm tankerlər, həm də boru kəmərləri vasitəsilə sahilə nəql edilir. – 61.

**78. Bayıl,** Səbayıl burnu – Abşeron yarımadasının (Azərbaycan Respublikası) cənub–qərbində, Bakı buxtasındadır. Bayıl mayakı buradadır. – 62.

**79. Nargin,** B ö y ü k Z i r ə – Xəzər dənizində, Bakı arxipelaqında ada, Bakı buxtasını dənizdən ayıran adalardan ən böyüyü. Abşeron yarımadasından cənubdadır. Sahəsi 1,4 km$^2$, uzunluğu 3,1 km, maksimal eni 0,9 km-dir. Neogen və Antropogen sistemlərinin çöküntülərindən təşkil olunmuşdur. –62.

**80. Beynəlxalq Olimpiya Komitəsi (BOK)** – muasir olimpiya hərəkatının daim fəaliyyət göstərən ali orqanı. Pyer de Kubertenin təşəbbüsü ilə yaradılmışdır. 1997-ci ildə BOK-un tərkibində 200 üzv (70-dən artıq ölkədən) var idi. BOK-u 200-ə yaxın Milli olimpiya komitəsi tanıyır. Mənzil-qərargahı Lozannadadır (İsveçrə). – 63.

**81. Afina** – Yunanıstanın paytaxtı, əhalisi 2,5 milyon nəfərdən çoxdur. Afina Yunanıstanın ən qədim şəhərlərindəndir, salındığı tarix dəqiq məlum deyil. Qədim Yunanıstanda Afina mühüm iqtisadi, siyasi və mədəni mərkəz, şəhər-dövlət idi. E.ə. 146-cı ildən Romanın tabeliyində, IV əsrdən 1204-cü ilədək Bizans imperiyasının tərkibində olmuşdur. 1204–1458-ci illərdə Afina hersoqluğunun paytaxtı idi. 1458-ci ildə Afinanı türklər tutmuşdu. 1834-cü ildən Afina Yunanıstanın paytaxtıdır.

Afina Yunanıstanın siyasi, iqtisadi və mədəni mərkəzidir. Afinada qədim yunan memarlığının abidələri qorunub saxlanılır. – 63,71,289.

**82. Kəmaləddin Heydərov,** K ə m a l ə d d i n F ə t t a h o ğ l u (d.1961) – gömrük xidməti general-polkovniki. 1995–2006-cı illərdə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, 2006-cı ildən Azərbaycan Respublikası Fövqəladə Hallar naziridir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 63–67.

**83. Niyaməddin Paşayev** (d.1980) – taekvondo ustası. Azərbaycan çempionudur. 2001-ci ildə Koreyada dünya çempionatında 1-ci yeri, 2002-ci ildə Yaponiyada dünya kuboku uğrunda yarışlarda 3-cü yeri tutmuşdur. – 65.

**84. Rəşad Əhmədov,** R ə ş a d A s i f o ğ l u (d.1981) – Azərbaycan taekvondoçusu. 2004–2008-ci illərdə Olimpiya oyunlarının istirakçısı. 2003, 2009-cu illərdə dünya çempionatının birinci mükafatçısı. – 65.

**85. Pekin** – Çinin paytaxtı (1949-cu ildən). Ölkənin siyasi, iqtisadi, elm və mədəniyyət mərkəzi. Əhalisinin sayına görə ölkənin ikinci (Şanxaydan sonra) şəhəri, Böyük Çin düzənliyində, Yundinxe çayı hövzəsindədir. Sahəsi 17,8 min km$^2$, əhalisi 7,2 milyon nəfərdir.

Pekin haqqında ilk məlumat e.ə.ikinci minilliyə aid edilir. Pekin Çinin ən iri sənaye mərkəzlərindəndir. – 67,70,282–291.

**86. Namiq Abdullayev** (d.1971) – sərbəst güləş ustası. SSRİ və Azərbaycanın Əməkdar idman ustası. 1994–95-ci illərdə Avropa çempionu, 1996-cı il Atlanta Olimpiya oyunlarında gümüş, 2000-ci ildə Sidney Olimpiya oyunlarında isə qızıl medal qazanmışdır. Azərbaycan Respublikasının «Tərəqqi» və «Şöhrət» ordenləri ilə təltif olunmuşdur. – 68.

**87. Elnur Məmmədli** (d.1986) – 2006-cı ildə cüdo üzrə Avropa çempionu, 2007-ci ildə dünya çempionatının gümüş mükafatçısı, 2008-ci il Pekin Olimpiya oyunlarında isə 73 kq çəki dərəcəsində olimpiya çempionu olmuşdur. – 68.

**88. Kifayət Qasımova,** K i f a y ə t Y a q u b q ı z ı (d.1983) – cüdo üzrə, idman ustası. 2006-cı ildə Avropa sempionatının gümüş, 2007, 2008-ci illərdə bürünc, 2009-cu ildə dünya çempionatının bürünc mükafatçısı olmuşdur. 2008-ci il Pekin, 2012-ci il London Olimpiya oyunlarında Azərbaycanı təmsil etmişdir. – 69.

**89. Abbas Abbasov,** A b b a s A y d ı n o ğ l u (d.1949) – 1992–2006-cı illərdə Azərbaycan Respublikası Baş nazirinin

birinci müavini olmuşdur, Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 69,94–96.

**90. Sidney** – Avstraliyada şəhər. Yeni Cənubi Uels ştatının inzibati mərkəzi. Əsası 1788-ci ildə qoyulmuşdur. – 71.

**91. Mövlud Mirəliyev** (d.1974) – samboçu. Əməkdar məşqçi. Avropa çempionatlarında 1993,1998-ci illərdə ikinci, 1995, 1999-cu illərdə üçüncü, 1996–97-ci illərdə birinci, dünya çempionatlarında isə 1997–98-ci illərdə üçüncü, 1999-cu ildə birinci, 2000–2001-ci illərdə isə ikinci yeri tutmuşdur. – 71.

**92. Mehman Əzizov** (d.1976) – cüdo üzrə idmançı, 1993–94-cü illərdə gənclər arasında beynəlxalq türnirlərin mükafatçısı, 2001–2002-ci illərdə isə qalibi olmuşdur. – 71.

**93. Səfər Əbiyev,** S ə f ə r A x u n d b a l a o ğ l u (d.1950) – general-polkovnik. 1995–2013-cü illərdə Azərbaycan Respublikasının Müdafiə naziri olmuşdur. – 73,83

**94. Gülhanə Hərbi Tibb Akademiyası** – Türkiyədə məşhur tibb ocaqlarından biri. 1898-ci ildən fəaliyyət göstərir. Akademiya ən müasir tibb avadanlığı ilə təmin edilmişdir. Burada həm müalicə edilir, həm də elmi tədqiqatlar aparılır. – 73.

**95. Müstəqil Dövlətlər Birliyi** (MDB) – 1991-ci il dekabrın 8-də Belorusiya, Rusiya və Ukrayna dövlət başçılarının imzaladıqları saziş əsasında SSRİ dağıldıqdan sonra yeni dövlətlərarası birlik kimi yaradılmışdır. Azərbaycan 1993-cü ilin sentyabrında MDB-yə daxil olmuşdur. Tərkibinə keçmiş SSRİ-nin 12 müttəfiq respublikası – Azərbaycan, Belarus, Ermənistan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Moldova, Özbəkistan, Rusiya, Tacikistan, Türkmənistan, Ukrayna daxildir. MDB-nin 1993-cü ildə qəbul edilmiş nizamnaməsində aşağıdakı birgə fəaliyyət sahələri nəzərdə tutulur: insan hüquq və azadlıqlarının təmin edilməsi; xarici siyasi fəaliyyətin əlaqələndirilməsi; ümumi iqtisadi məkanın formalaşdırılmasında,

nəqliyyat sisteminin və rabitənin inkişafında əməkdaşlıq; əhalinin sağlamlığının və ətraf mühitin mühafizəsi; sosial və mühacirət məsələləri, mütəşəkkil cinayətkarlıqla mübarizə; müdafiə siyasətində və sərhədlərin qorunmasında əməkdaşlıq.

MDB-nin orqanları aşağıdakılardır: Dövlət başçıları Şurası; Hökumət başçıları Şurası; Xarici İşlər nazirləri Şurası; Dövlətlərarası iqtisadi Şura; Mərkəzi Sankt-Peterburq şəhərində olan Parlamentlərarası Assambleya və s. MDB-nin daimi fəaliyyət göstərən orqanı Minsk şəhərində yerləşən Əlaqələndirmə Məsləhət Komitəsidir. – 73,274–285,288,311,314.

**96. Kanada** – Şimali Amerikada dövlət. Sahəsi 9,97 milyon km$^2$, əhalisi 29,6 milyon nəfərdir. Kanada 10 əyalətə və 3 əraziyə bölünmüş federasiyadır. Dövlət başçısı Böyük Britaniya kraliçasıdır. Onu ölkədə general-qubernator əvəz edir. Qanunverici orqanı ikipalatalı (Senat və İcmalar palatası) parlamentdir. Paytaxtı Ottavadır. – 80,81.

**97. Stiven Harper** (d.1959) – 2006-cı ildən Kanadanın 22-ci Baş naziri. Mühafizəkarlar Partiyasının lideri. – 81.

**98. Belarus,** B e l a r u s R e s p u b l i k a s ı – Avropada dövlət. Sahəsi 207,6 min km$^2$, əhalisi 10442 min nəfərdir. İnzibati ərazisi 6 vilayətə, 117 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Minskdir. – 82,282,284.

**99. Aleksandr Lukaşenko** (d.1954) – Belarus dövlət xadimi. 1994-cü ildən Belarus Respublikasının prezidentidir. – 82,282,284.

**100. Bakı– Tbilisi – Ərzurum** – Cənubi Qafqaz qaz kəməri. Rəsmən 2007-ci ildə açılmışdır. Kəmərin uzunluğu 970 km-dir (442 km Azərbaycandan, 248 km Gürcüstandan, 280 km isə Gürcüstan–Türkiyə sərhədindən Ərzuruma qədərdir). Kəmərə qaz

«Şahdəniz»dən ötürülür. – 88,165,205,233,234,243,250, 257,263,276,306.

**101. ATƏT-in Minsk qrupu** – 1992-ci il martın 24-də yaradılmışdır. 1997-ci ildə Minsk qrupunun tərkibinə aşağıdakı dövlətlər daxil olmuşdur: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyə, Danimarka və İsveç. 1994-cü ilin dekabrından Minsk qrupuna iki sədr – Rusiya və İtaliya rəhbərlik edirdi. 1996-cı ilin dekabrından onun üç – Rusiya, ABŞ və fransalı həmsədrləri var. Qrupun əsas vəzifəsi Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. – 90,111, 207,208,216,304,323.

**102. Fransa,** F r a n s a R e s p u b l i k a s ı – Qərbi Avropada dövlət. Sahəsi 551 min km$^2$, əhalisi 58,4 milyon nəfərdir. İnzibati cəhətdən 95 departamentə bölünür. Qanunverici orqanı iki palatadan (Milli Məclis və Senat) ibarət parlament həyata keçirir. İcra hakimiyyəti prezident və Nazirlər Şurasına məxsusdur. Paytaxtı Paris şəhəridir. – 93,207, 209,211,216.

**103. «Total»** – məşhur fransız neft şirkəti. 1954-cü ildə təşkil olunmuşdur. Bir çox ölkələrdə neftin kəşfiyyatı, emalı və satışı ilə məşğul olur. – 93,278.

**104. Azad Rəhimov,** A z a d A r i f o ğ l u (d.1964) – 2006-cı ildən Azərbaycan Respublikası Gənclər və İdman naziridir. – 94–96.

**105. «Şahdəniz» –** Azərbaycanın Xəzər dənizi sektorunda ən böyük və ən zəngin qaz yataqlarından biri. – 98,99,253,276,277.

**106. Astara** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. 1963-cü ildə ləğv edilib Lənkəran

rayonuna verilmiş, 1965-ci ildə yenidən müstəqil rayon olmuşdur. Cənubda və qərbdə İranla həmsərhəddir. Sahəsi 616 $km^2$, əhalisi 87,4 min nəfərdir. – 99.

**107. Sumqayıt** – Azərbaycanda şəhər. Bakıdan 35 km şimal–qərbdə, Xəzər dənizinin qərb sahilində yerləşir. Sahəsi 83 $km^2$, əhalisi 231,1 min nəfərdir. Əvvəllər kiçik yaşayış məntəqəsi olan Sumqayıt 1938-ci ildə Bakı neft sənayesini elektrik enerjisi ilə təmin edəcək İstilik Elektrik Stansiyasının tikintisi ilə şəhər tipli qəsəbəyə çevrildi və get-gedə Bakıdan sonra ölkəmizin ikinci sənaye şəhərinə çevrildi. Sənayesində kimya və metallurgiya sahələri əsas yet tutur. – 99, 168,169,184,193–196.

**108. Naxçıvan** – Azərbaycan Respublikasında şəhər. Naxçıvan Muxtar Respublikasının paytaxtı. Ərazisi 0,013 min $km^2$, əhalisi 67 min nəfərdən çoxdur. Naxçıvan Azərbaycanın ən qədim şəhərlərindəndir. Müasir Naxçıvan qədim, antik və orta əsr şəhər yerinin xarabalıqları üzərində yerləşmişdir.

Naxçıvan e.ə. IX–VI əsrlərdə qədim Manna və Midiyanın, eramızın əvvəllərində Albaniyanın, IV əsrdən Sasanilərin tərkibində olmuşdur. 654-cü ildə isə Naxçıvanı ərəblər işğal edirlər. Naxçıvan Azərbaycan Atabəylər dövlətinin (1136–1225) paytaxtlarından biri olmuşdur. 1828-ci il Türkmənçay müqaviləsinə qədər Naxçıvan müxtəlif dövlətlərin nüfuz dairəsində olub. Məhz bu ildən Naxçıvan Rusiya imperiyasına birləşdirildi və qəza mərkəzinə çevrildi. Naxçıvan şəhəri 1924-cü il fevralın 9-da Naxçıvan MSSR təşkil ediləndən muxtar respublikanın paytaxtı oldu. – 99,290.

**109. Lerik** (1938-ci ilədək Zuvand rayonu) – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Cənub və cənub–qərbdə İranla həmsərhəddir. Sahəsi 1084 $km^2$, əhalisi 66,2 min nəfərdir. – 99.

**110. Yardımlı** (1938-ciilədək Vərgədüz rayonu) – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Şimaldan, qərbdən və cənub–qərbdən İranla həmsərhəddir. Sahəsi 667 $km^2$, əhalisi 51,8 min nəfərdir. – 99.

**111. «Azəriqaz» İstehsalat Birliyi** – ARDNŞ-in hasil etdiyi təbii qazın Rusiya, İran və Gürcüstana ixrac edilən nəqli ilə məşğuldur. «Azəriqaz» İstehsalat Birliyinin əsas vəzifəsi respublikanın istehlakçılarını fasiləsiz, keyfiyyətli və təhlükəsiz təbii qazla təmin etmək, abonentlərə yüksək səviyyəli xidmət göstərmək, qaz şəbəkəsini beynəlxalq standartlara uyğun yenidən qurmaqdan ibarətdir. – 99,100,316,317.

**112. Gürcüstan,** G ü r c ü s t a n R e s p u b l i k a s ı – Cənubi Qafqazın mərkəzi və qərb hissəsində dövlət. Sahəsi 69,7 min $km^2$, əhalisi 5493 min nəfərdir. Dövlətin başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Tbilisi şəhəridir. – 102,206,215,235,240,243,253,258,259–266.

**113. Mixeil Nikolozoviç Saakaşvili** (d.1967) – hüquqşünas. 2003–2013-cü illər Gürcüstan Respublikasının prezidenti. 2000–2001-ci illərdə Gürcüstanda Ədliyyə naziri olmuşdur. Vahid Milli Hərəkat Partiyasının sədri, «məxməri inqilab»ın liderlərindən biridir. – 102,235,258,259–266.

**114. Vyetnam,** V y e t n a m S o s i a l i s t R e s p u b l i k a s ı (VSR) – Cənub–Şərqi Asiyada dövlət. Sahəsi 322 min $km^2$, əhalisi 76,1 milyon nəfərdir. İnzibati ərazisi 50 əyalətə bölünür. Dövlət başçısı prezident, dövlətin və qanunvericiliyin ali orqanı birpalatalı Milli Məclisdir. Paytaxtı Xanoydır. – 107.

**115. Nquen Minh Triet** (d.1942) – Vyetnam dövlət xadimi. 2006–2011-ci illərdə Vyetnamın prezidenti olmuşdur. – 107.

**116. Cəfər Vəliyev,** C ə f ə r C ə b r a y ı l o ğ l u (d.1930) – hüquqşünas. 1962–79-cu illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1987–92-ci illərdə Azərbaycan Respublikasının Daxili İşlər naziri, 1992–2000-ci illərdə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 109–110.

**117. Çingiz Abdullayev** (d.1959) – Azərbaycan Respublikasının Xalq yazıçısı. Onlarla detektiv roman və povestlər müəllifidir. Azərbaycan Yazıçılar Birliyinin katibidir. – 114–125.

**118. Gülhüseyn Abdullayev (Hüseynoğlu)** (1923–2013) – Azərbaycan nasiri, ədəbiyyatşünas, Azərbaycan Yazıçılar Birliyinin üzvü, filologiya elmləri doktoru, professor. Azərbaycan Respublikasının Xalq yazıçısı. Antisovet «İldırım» təşkilatının qurucularından biri olmuşdur. Azərbaycan ədəbiyyatında mənsur seirin yaradıcısı kimi tanınmışdır. – 114–125.

**119. Nəriman Həsənzadə** , N ə r i m a n Ə l i m ə m m ə d o ğ l u (d.1931) – Xalq şairi, filologiya elmləri doktoru. Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi. İncə lirizm ruhunda yazılmış şeirlərin müəllifidir. N.Nərimanova həsr edilmiş «Nəriman» poeması, XII əsr Azərbaycan həyatından bəhs edən «Atabəylər» mənzum dramının da müəllifidir. «Ədəbiyyat və incəsənət» qəzetinin Baş redaktoru olmuşdur. Azərbaycan Respublikasının «Şərəf» və «Şöhrət» ordenləri ilə təltif olunmuşdur. – 114–125.

**120. Sabir Rüstəmxanlı,** S a b i r X u d u o ğ l u (d.1946) – Azərbaycan şairi, publisist, ictimai xadim. Azərbaycan Respublikasının Xalq şairi. Milli Məclisin üzvüdür. 1991–95-ci illərdə Azərbaycan Respublikasının Mətbuat və informasiya naziri işləyib. Hazırda Vətəndaş Həmrəyliyi Partiiyasının sədridir. – 114–125.

**121. Zəlimxan Yaqub,** Z ə l i m x a n  U s u b  o ğ l u (d.1950) – Xalq şairi. 1995–2005-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 114–125.

**122. Ucar** – Azərbaycan Respublikasında inzibati rayon. 1939-cu ildə təşkil olunmuşdur. Ərazisi 853 km$^2$, əhalisi 77 903 nəfərdir. – 126–140.

**123. Zərdab –** Azərbaycan Respublikasında inzibati rayon. 1935-ci ildə təşkil edilmişdir. 1963-cü ildə ləğv edilərək ərazisi Ucar rayonuna verilmiş, 1965-ci ildən yenidən müstəqil rayon olmuşdur. Ərazisi 856 km$^2$, əhalisi 44417 nəfərdir. – 136,144–155.

**124. Kürdəmir** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil olunmuşdur. Sahəsi 1632 km$^2$ , əhalisi 95,1 min nəfərdir. – 136.

**125. Zərifə xanım,** Z ə r i f ə  Ə z i z  q ı z ı (1923–1985) – görkəmli Azərbaycan oftalmoloqu. Tibb elmləri doktoru, professor, Azərbaycan Milli EA-nın akademiki, Rusiya Tibb EA-nın akademiki, Azərbaycan Respublikasının Əməkdar elm xadimi. Görkəmli siyasi və dövlət xadimi Əziz Əliyevin qızı, ulu öndər Heydər Əliyevin həyat yoldaşı, prezident İlham Əliyevin anasıdır. Zərifə xanımın Azərbaycanda oftalmologiya elminin inkişafında müstəsna xidmətləri var. O, vaxtilə Azərbaycanda geniş yayılmış traxomanın, dünya təcrübəsində birincilər sırasında peşə, xüsusilə kimya və elektron sənayelərində peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsinə, habelə oftalmologiyanın müasir problemlərinə dair bir çox sanballı tədqiqatların müəllifidir. Həmçinin yüksək ixtisaslı səhiyyə kadrları hazırlanmasına böyük əmək sərf etmişdir. O, Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti Rəyasət Heyətinin, Sovet Sülhü

Müdafiə Komitəsinin, Azərbaycan Oftalmologiya Cəmiyyəti İdarə Heyətinin, «Vestnik oftalmologii» (Moskva) jurnalı redaksiya heyətinin üzvü olmuşdur. Yüksək elmi nailiyyətlərinə görə SSRİ Tibb EA-nın M.İ.Averbax adına mükafatına layiq görülmüşdür. – 137.

**126. Hilmi Özkök** (d.1940) – ordu generalı. 2006–2008-ci illərdə Türkiyə Respublikası Silahlı Qüvvələri Baş qərargahının rəisi olmuşdur. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 141–142.

**127. Ağsu** – Azərbaycan Respublikasında inzidati rayon. 1943-cü ildə təşkil edilmişdir. 1963-cü ildə ərazisi ləğv edilib Kürdəmir rayonuna birləşdirilmişdi. 1965-ci ildə ayrılaraq yenidən müstəqil rayon olmuşdur. Ərazisi 1020,1 km$^2$, əhalisi 69,4 min nəfərdir. – 156–161.

**128. Endruyu,** York Hersoqu, şahzadə (d.1960) – Britaniya şahzadəsi, kontr-admiral. Britaniya kraliçası II Elizabetin ikinci oğlu. Kral ailəsinin üzvü olduğu üçün Böyük Britaniya gerbinə əsasən, öz xüsusi gerbi var. – 162,163.

**129. Böyük Britaniya,** Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı – Qərbi Avropada dövlət. B.Britaniya adası, İrlandiya adasının şimal–şərq hissəsi, Anqlsi, Uayt, Normand, Orkney, Hebrid, Şetlend adaları və bir sıra kiçik adalardan ibarətdir. Sahəsi 244,1 min km$^2$, əhalisi 58,8 milyon nəfərdir. İnzibati cəhətdən qraflıqlara və qraflıq hüququnda olan şəhərlərə bölünür. Böyük London xüsusi inzibati vahiddir. B.Britaniya parlamentli monarxiyadır. Paytaxtı London şəhəridir. – 162,163,211.

**130. NATO** (Şimali Atlantika Müqaviləsi Təşkilatı) – hərbi-siyasi ittifaq. 1949-cu il aprelin 4-də Vaşinqtonda ABŞ, Böyük Britaniya, Fransa, Belçika, Niderland, Lüksemburq, Kanada, İtaliya, Portuqaliya, Norveç, Danimarka, İslan-

diyanın imzaladıqları Şimali Atlantika müqaviləsi əsasında yaradılmışdır. 1952-ci ildə Yunanıstan və Türkiyə, 1955-ci ildə Almaniya Federativ Respublikası, 1982-ci ildə İspaniya NATO-ya qoşulmuşlar. Varşava Müqaviləsi Təşkilatı dağıldıqdan (1990) sonra əvvəllər sosialist ölkələri düşərgəsinə daxil olmuş ölkələrin bir qismi NATO-ya üzvlüyə qəbul edilmiş, digər qismi isə ilkin mərhələ kimi, NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulmuşlar. Ali orqanı NATO Şurasının sessiyasıdır. Mənzil-qərargahı Brüsseldədir. – 164.

**131. Hüseynqulu Bağırov,** Hüseynqulu Seyid oğlu (d.1955) – iqtisadçı. 1993-cü ildən Qərb Universitetinin təsisçisi, prezidenti və rektorudur. 2000-ci ildə Azərbaycan Respublikası Ticarət naziri, 2001-ci ilin may ayından Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər naziridir. H.Bağırov bir sıra beynəlxalq akademiyaların və assosiasiyaların həqiqi üzvüdür. – 165–201.

**132. Oqtay Şirəliyev,** Oqtay Kazım oğlu (d.1950) – tibb elmləri doktoru, professor. 2005-ci ildən Azərbaycan Respublikasının Səhiyyə naziridir. – 165–201.

**133. Ramil Usubov,** Ramil İdris oğlu (d.1948) – general-polkovnik. 1994-cü ildən Azərbaycan Respublikasının Daxili İşlər naziridir. – 165–201.

**134. Xoşbəxt Yusifzadə,** Xoşbəxt Bağı oğlu (d.1930) – neftçi-geoloq, geologiya-minerologiya elmləri doktoru. Azərbaycan Milli Elmlər Akademiyasının akademiki. 1994–2000-ci illərdə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti, 2004-cü ildən isə birinci vitse-prezidentdir. Azərbaycan Respublikasının «Şöhrət» və «İstiqlal» ordenləri ilə təltif olunmuşdur. – 165–201.

**135. Natiq Əliyev,** Natiq Agaəli oğlu (d.1947) – 1993–2006-cı illərdə Azərbaycan Respublikası Dövlət Neft

Şirkətinin prezidenti olmuşdur. Hazırda Azərbaycan Respublikası Energetika naziridir. Birinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 165–201.

**136. Dünya Bankı** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi. 1945-ci ildə ABŞ-da Bretton–Vuds çərçivəsi sistemində yaradılmışdır. İdarə heyəti Vaşinqtondadır. Məqsədi inkişaf etməkdə olan ölkələrin iqtisadi və sosial dirçəlişinə kömək etməkdir. Səhmdar cəmiyyəti formasındadır və iştirakçıları yalnız Beynəlxalq Valyuta Fondunun üzvləridir. Banka 130-dan artıq dövlət daxildir. 1992-ci ildən Azərbaycan Respublikası Dünya Bankının üzvüdür. – 169,172, 206, 321.

**137. «Azərsu» Səhmdar Cəmiyyəti** – 2004-cü ildə Abşeron Regional Su Cəmiyyəti «Azərsu» Səhmdar Cəmiyyətinə çevrildi. Bakı Şəhər İcra Hakimiyyətinin «Bakıkanalizasiya» İstehsalat Birliyinin və Dövlət Tikinti və Arxitektura Komitəsinin ləğv edilmiş «Azərsukanaltəmir» və «Azərkəndsutəchizat» İstehsalat Birliklərinin respublikanın şəhər və rayonlarındakı müəssisə və təşkilatları onun tabeliyinə verilmişdir. Cəmiyyətin bütün səhmləri dövlətə məxsusdur. – 172,173,175,190,317.

**138. Hacı Zeynalabdin Tağıyev** (1838–1924) – məşhur mesenat, maarifpərvər. Bakı milyonçusu. Əvvəllər bənna işləmiş Hacı 1872-ci ildən neftçıxarma işinə kapital qoymuş və sahibkarlıq fəaliyyətinə başlamışdır. Bakıda «Tağıyev H.Z. lifli maddələrin emalı üzrə Qafqaz səhmdar cəmiyyəti»ni, toxuculuq fabrikini, «Xəzər manufaktura cəmiyyəti»ni, «Tağıyev balıq sənayesi səhmdar cəmiyyəti»ni, yerli sahibkarlarla birlikdə Bakı ticarət bankını yaratmış və Bank Şurasının sədri seçilmişdi.

Savadı olmayan Hacı savadsızlığın acısını duymuş və buna görə də Vətən övladlarının, xüsusilə kasıb oğlan və qızların təhsil almasına böyük qayğı göstərmişdi. O öz vəsaiti ilə Yaxın Şərqdə – Bakıda ilk qız gimnaziyası, qadınları işlə təmin etmək üçün toxuculuq fabriki, Mərdəkanda sənət məktəbi, teatr binası

tikdirir. Qiraətxanalar üçün qəzet və jurnalların pulunu ödəyir, öz xərcinə Azərbaycan şair və alimlərinin əsərlərini, həmçinin Azərbaycan dilinə tərcümələri çap etdirir. 1905–11-ci illər İran məşrutə hərəkatına silah və pulla yardım edir. İranda onlarla məktəbin açılmasına, məktəb ləvazimatı və zəruri kitablarla təmin edilməsinə, daxildə və xaricdə oxuyan və maddi təminata ehtiyacı olanlara daim yardım edirdi. «Kaspi», «Həyat», «Füyuzat» kimi qəzet və jurnalların nəşri üçün vəsait ayırmışdı.

Hacı Bakıya «Şollar suyu» kəmərini çəkdirmiş, Mərdəkanda dən üyüdən elektrik dəyirmanı tikdirmiş və qəsəbənin əhalisini ilk dəfə elektrik işığı ilə təmin etmişdir. – 178.

**139. Almaniya,** Almaniya Federativ Respublikası – Mərkəzi Avropada dövlət. Sahəsi 357 min km$^2$, əhalisi 81,9 milyon nəfərdir. AFR tərkibində 16 ərazisi olan federasiyadır. Dövlət başçısı prezident, hökumət başçısı isə federal kanslerdir. Ali qanunverici hakimiyyət orqanı parlamentdən – Bundestaq və Bundersatdan ibarətdir. Paytaxtı Berlin şəhəridir. – 179,196,211.

**140. Dövlət Neft Fondu –** 1999-cu ildə yaradılmışdır. Əsas fəaliyyəti Azərbaycanın neft strategiyasından əldə edilən gəlirlərin idarə edilməsidir. – 198,262,298,311.

**141. Venesuela Respublikası** – Cənubi Amerikanın şimalında dövlət. Sahəsi 916,4 min km$^2$, əhalisi 22,3 milyon nəfərdir. Venesuela – federasiya 21 ştata bölünür. Dövlət və hökumət başçısı prezident, qanunverici orqanı ikipalatalı Milli Konqresdir (Deputatlar palatası və Senat). Paytaxtı Karakasdır. – 202.

**142. Hüqo Rafael Çaves Frias** (d.1954) – 1999-cu ildən Venesuela prezidenti. – 202.

**143. İspaniya** – Cənub–Qərbi Avropada dövlət. Sahəsi 504,8 min km$^2$, əhalisi 39,3 milyon nəfərdir. İnzibati ərazisi 17 muxtar

vilayətə daxil olan 50 əyalətə bölünür. İspaniya konstitusiyalı monarxiyadır. Dövlət başçısı kral, qanunverici orqanı korteslərdir (ikipalatalı parlament). Afrikanın şimal sahilindəki Seuta və Melilya şəhər rayonları da İspaniyanın mülküdür. Paytaxtı Madriddir. – 203.

**144. I Xuan Karlos** (d.1938) – İspaniya kralı. 1975-ci ildə diktator Frankonun ölümündən sonra kral elan edilmişdir. – 203.

**145. Valensiya** – İspaniyanın şərqində, Aralıq dənizi sahilində şəhər-port. Valensiya Muxtar Vilayətinin inzibati mərkəzi. Tarixi mədəniyyət və turizm mərkəzidir. Əhalisi 753 min nəfərdir. Əsası eramızdan əvvəl II əsrdə qoyulmuşdur. – 203.

**146. Süleyman Dəmirəl** (d.1924) – Türkiyənin görkəmli siyasi, ictimai və dövlət xadimi. Yeddi dəfə hökumətə başçılıq etmiş, 1993–2000-ci illərdə Türkiyə Respublikasının prezidenti olmuşdur. Yeni türk dövlətləri ilə münasibətlərin, xüsusilə Azərbaycanla əlaqələrin genişlənməsi və möhkəmlənməsi Süleyman Dəmirəlin diqqət mərkəzində olmuşdur.

S.Dəmirəl Türkiyə–Azərbaycan, xalqlarımız və dövlətlərimiz arasında sarsılmaz dostluq münasibətlərinə xüsusi diqqət göstərdiyinə görə Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 205.

**147. Əhməd Necdət Sezər** (d.1941) – 2000–2007-ci illərdə Türkiyə prezidenti. 1962–83-cü illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır, 1998–2000-ci illərdə Türkiyə Konstitusiya Məhkəməsinin sədri olmuşdur. – 205,257,259–266.

**148. Bakı–Tbilisi–Qars –** Azərbaycan, Gürcüstan və Türkiyəni dəmir yolu ilə birləşdirən nəqliyyat dəhlizi. Yolun tikintisinə 2007-ci ildə başlanmışdır. Yolun uzunluğu 105 km-dir. Gürcüstanın Axalkalaki stansiyasından Qars şəhərinə qədər olacaqdır. Yolun çəkilişi təxminən 2015-ci ilin ortalarında başa çatmalıdır. – 205,206,255,264,301.

**149. Avropa İttifaqı** – 1992-ci ildə 12 ölkəni (Belçika, Böyük Britaniya, Almaniya, Yunanıstan, Danimarka, İrlandiya, İspaniya, İtaliya, Lüksemburq, Niderland, Portuqaliya, Fransa) birləşdirən Avropa Birliyi bazasında 1993-cü ildə Maastrixt müqaviləsinə əsasən yaradılmışdır.

Sonralar Avropa İttifaqına Avstriya, Finlandiya daxil olmuşdur. Müqavilə vahid siyasi, iqtisadi mühitin və valyutanın yaradılmasını, malın, kapitalın və adamların azad hərəkətinə bütün maneələrin aradan qaldırılmasını irəli sürmüşdür. Vahid Avropa vətəndaşlığı qəbul edilmişdir. Avropa Mərkəzi Bankında Avropa valyuta interneti fəaliyyət göstərir, 1999-cu ildə vahid valyuta–avro işlənir, vahid pul-kredit siyasəti aparılır. – 205,211.

**150. Beynəlxalq Valyuta Fondu** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi, beynəlxalq valyuta təşkilatı. 1945-ci ildə yaradılmış, 1947-ci ildən fəaliyyətə başlamışdır. İdarə heyəti Vaşinqtondadır. Dünyanın 130-a yaxın ölkəsi fondun üzvüdür. Nizamnaməsinə görə, məqsədi beynəlxalq valyuta əməkdaşlığına yardım etmək, ölkələr arasında valyuta-hesablaşma münasibətlərini nizama salmaq, fonda daxil olan ölkələrin ödəmə balanslarını tarazlaşdırmaq və valyuta məzənnəsini tənzimləməkdən ibarətdir. 1992-ci ildə Azərbaycan Respublikası Beynəlxalq Valyuta Fonduna qəbul olunmuşdur. – 206.

**151. Rumıniya** – Cənubi Avropada, Dunayın aşağı hövzəsində dövlət. Sahəsi 237,5 min km$^2$, əhalisi 22,7 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunvericilik orqanı ikipalatalı parlamentdir. Paytaxtı Buxarest şəhəridir. – 209,331–332.

**152. Atəşkəs rejimi** – 1994-cü il mayın 12-də Moskvada Ermənistan–Azərbaycan arasında atəşin müvəqqəti dayandırılması (atəşkəs) haqqında müqavilə imzalandı. Müqaviləyə

görə, müharibə aparan tərəflər sülh müqaviləsi bağlanana qədər atəşin dayandırılması haqqında razılığa gəldilər. – 210.

**153**. **İkinci dünya müharibəsi** (1939–45) – Almaniya, İtaliya və Yaponiya tərəfindən başlanmış böyük müharibə. İkinci dünya müharibəsi 1939-cu il sentyabrın 1-də Almaniyanın Polşaya girməsi ilə başlandı. Sentyabrın 3-də Böyük Britaniya və Fransa Almaniyaya müharibə elan etdi. 1940-cı ilin ortalarından alman qoşunları Danimarka, Norveç, Belçika, Niderland, Lüksemburq, sonra isə Fransanı işğal etdi.

1941-ci il iyunun 22-də Almaniya SSRİ-yə qarşı müharibə elan etdi. 1942–43-cü illərdə sovet ordusunun Stalinqrad və Kursk vuruşmalarında qələbəsi Almaniyanı qəti surətdə sarsıtdı.

1945-ci il mayın 2-də sovet ordusu Berlini aldı. Mayın 8-də Karlsxorstda (Berlin yaxınlığında) Almaniyanın danışıqsız təslim olması haqqında akt imzalandı.

Yaponiyanın təslim olması haqqında sənəd isə sentyabrın 2-də imzalandı. Bununla İkinci dünya müharibəsi qurtardı. İkinci dünya müharibəsində 72 ölkə iştirak etmişdir. Müharibədə iştirak edən ölkələrin silahlı qüvvələrinə 110 milyon adam çağırılmışdı. Müharibədə 62 milyon adam həlak olmuş, minlərlə şəhər, qəsəbə və kənd dağılmışdı. – 211.

**154. Çeyni Riçard (Dik)** (d.1941) – Amerikanın siyasi xadimi. 1989–1992-ci illərdə ABŞ-ın Müdafiə naziri olmuşdur. 1993-cü ildən Amerikada Sahibkarlıq İnstitutunun direktorudur. «Hallibörtn» korporasiyasının prezidenti, Amerika–Azərbaycan Ticarət Palatasının fəxri üzvüdür. 2001–2009-cu illərdə ABŞ-ın vitse-prezidenti olmuşdur. – 212.

**155. Monqolustan,** Monqolustan Respublikası – Mərkəzi Asiyada dövlət. Sahəsi 1566 min km$^2$, əhalisi 2,3 milyon nəfərdir. İnzibati ərazisi 18 aymaka bölünür. Ulan-Bator, Dərhan və Erdenet şəhərləri xüsusi ərazi bölgüsünə daxildir. Dövlət başçısı prezident, ali dövlət hakimiyyəti orqanı Böyük Xalq Xuralıdır. Paytaxtı Ulan-Batordur. – 214.

**156. Nambarin Enxbayar** (d.1958) – Monqolustan dövlət və siyasi xadimi. 2005-ci ildən Monqolustan prezidentidir. – 214.

**157. Zurab Noğaideli** – Gürcüstan siyasi xadimi. 2005–2007-ci illərdə Gürcüstan Respublikasının Baş naziri olmuşdur. – 215.

**158. Bastiliyanın alınması** – Parisdə qala. 1370–82-ci illərdə tikilmişdir. XV əsrdən həm də dövlət həbsxanası idi. Bastiliyada əsasən siyasi dustaqlar saxlanılırdı. 1789-cu il iyulun 14-də Paris üsyançıları Bastiliyanı hücumla aldılar. Bu, Böyük Fransa inqilabının başlanğıcı idi. Bastiliyanın alındığı gün Fransanın milli bayramı (1880) kimi qeyd olunur. – 216.

**159. Jak Şirak** (d.1932) – Fransanın görkəmli siyasi və dövlət xadimi. 1974–76 və 1986–88-ci illərdə Fransanın Baş naziri, 1977–95-ci illərdə Paris şəhərinin meri, 1995–2007-ci illərdə Fransa Respublikasının prezidenti. «Heydər Əliyev» ordeni ilə təltif olunmuşdur. – 216.

**160. Vasif Adıgözəlov,** V a s i f Z ü l f ü o ğ l u (1936–2006) – bəstəkar. Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının professoru. Azərbaycan Bəstəkarlar İttifaqı İdarə Heyətinin 1-ci katibi olmuşdur. Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi, Azərbaycan Respublikası Dövlət mükafatı laureatıdır. O bir çox musiqi əsərinin, 1 operanın, 5 musiqili komediyanın, 3 oratoriyanın, vokal-simfonik əsərlərin müəllifidir. Azərbaycan Respublikasının «Şöhrət» və «İstiqlal» ordenləri ilə təltif olunmuşdur. – 217–218.

**161. İtaliya,** İ t a l i y a R e s p u b l i k a s ı – Avropanın cənubunda dövlət. Ərazisinə Alp dağlarının qərb yamacları, Radan düzənliyi, Apennin yarımadası, Siciliya və Sardiniya adaları daxildir. Sahəsi 301 min km$^2$, əhalisi 57,5 milyon

nəfərdir. İnzibati cəhətdən 20 vilayətə bölünür. Paytaxtı Roma şəhəridir. – 220,221.

**162. Corcio Napolitano** (d.1925) – İtaliya siyasi xadimi 2006–2008-ci ildə İtaliya Respublikasının prezidenti olmuşdur və 2013-cü ildə yenidən İtaliya Respublikasının prezidenti seçilmişdir. – 220.

**163. Romano Prodi** (d.1939) –İtaliyanın siyasi və dövlət xadimi, hüquqşünas. 70-ci illərin axırlarında Sənaye naziri, 80-ci illərin sonunda isə Sənaye Yenidənqurma İnstitutunun prezidenti seçilmişdir. 1995-ci ildən sol mərkəzçilər koalisiyasına başçılıq edir. Romano Prodi müxtəlif yüksək dövlət vəzifələrində işləmiş və Baş nazir olmuşdur. – 221.

**164. Pakistan,** Pakistan İslam Respublika-sı – Cənubi Asiyada dövlət. Sahəsi 796 min km$^2$, əhalisi 133,5 milyon nəfərdir. Paytaxtı İslamabad şəhəridir. İnzibati cəhətdən 4 əyalətə və federal paytaxt ərazisinə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. – 222.

**165. Pərviz Müşərrəf** (d.1943) – 2001–2007-ci illərdə Pakistan Respublikasının prezidenti, ordu generalı. 1988–90 və 1993–96-cı illərdə Pakistanın Baş naziri, 1998-ci ildə Baş Qərargah rəisi olmuşdur. – 222.

**166. Kolumbiya,** Kolumbiya Respublikası– Cənubi Amerikanın şimal–qərbində dövlət. Sahəsi 1139 min km$^2$, əhalisi 35,7 milyon nəfərdir. İnzibati ərazisi 32 departamentə bölünür. Dövlət və hökumət başçısı prezident, qanunverici orqanı ikipalatalı Konqresdir. Paytaxtı Boqotadır. – 223.

**167. Alvaro Uribe Veles** (d.1952) – 2002–2009-cu illərdə Kolimbiyanın prezidenti olmuşdur. – 223.

**168. Belçika,** B e l ç i k a   K r a l l ı ğ ı – Qərbi Avropada dövlət. Sahəsi 30,5 min km$^2$, əhalisi 10,2 milyon nəfərdir. Belçika konstitusiyalı monarxiyadır. Dövlət başçısı kral, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Brüsseldir. – 224,225.

**169. Gi Verhofstadt** (d.1953) – Belçika siyasi xadimi. 1999–2008-ci illərdə Belçika Baş naziri. – 224.

**170. II Albert** (d.1934) – 1993-cü ildən Belçika kralı. Sakson-Koburq sülaləsindəndir. III Leopoldun oğludur. – 225.

**171. Misir Ərəb Respublikası** – Afrikanın şimal–şərqində və Asiyanın Sinay yarımadasında dövlət. Sahəsi 1001,4 min km$^2$, əhalisi 61 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Xalq Məclisidir. Paytaxtı Qahirə şəhəridir. – 226.

**172. Hüsnü Mübarək,** S e y i d   M ə h ə m m ə d (d.1928) – 1975–81-ci illərdə Misir Ərəb Respublikasının vitse-prezidenti, 1981–2011-ci illərdə prezidenti olmuşdur. – 226.

**173. Mərakeş,** M ə r a k e ş   K r a l l ı ğ ı – Şimal–Qərbi Afrikada dövlət. Sahəsi 446,6 min km$^2$, əhalisi 26,7 milyon nəfərdir. İnzibati ərazisi 35 əyalətə və 8 prefekturaya bölünür. Mərakeş konstitusiyalı monarxiyadır. Dövlət başçısı kral, qanunverici orqanı birpalatalı Nümayəndələr palatasıdır. Paytaxtı Rabatdır. – 227.

**174. VI Məhəmməd,** B i n   ə l - H ə s ə n (d.1963) – 1999-cu ildən Mərakeş kralı. VI Məhəmməd 1666-cı ildən Mərakeşi idarə edən Alautlar sülaləsindən 18-ci kraldır. – 227.

**175. Maldiv,** M a l d i v   R e s p u b l i k a s ı – Cənubi Asiyada Maldiv adalarında dövlət. Sahəsi 298 min km$^2$, əhalisi 266

min nəfərdir. Millətlər Birliyinə daxildir. Dövlət və hökumət başçısı prezident, qanunverici orqanı birpalatalı Xalq Şurasıdır. – 228.

**176. Məmun Əbdül Qəyyum** (d.1937) – 1978–2008-ci illərdə Maldiv Respublikasının prezidenti. Diktator üsul-idarəsinə görə həmişə tənqid edilmişdir. – 228.

**177. Hindistan,** H i n d i s t a n  R e s p u b l i k a s ı – Cənubi Asiyada dövlət. Millətlər Birliyinin tərkibindədir. Ərazisi 3,3 milyon km$^2$, əhalisi 1,2 milyard nəfərdir. Hindistan inzibati cəhətdən 22 ştata və 7 müttəfiq əraziyə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Dehli şəhəridir. – 231,335,336.

**178. Əbdül Kalam** (d.1931) – 2002–2007-ci illərdə Hindistan Respublikasının prezidenti. Əbdül Kalam Hindistanda raket və yerətrafı peyk proqramının yaradıcılarındandır. 1980-ci ildə onun başçılığı ilə birinci hind SLV–3 yerətrafı süni peyki kosmosa göndərilmişdir. – 231,335.

**179. İstanbul (**1453-cü ilədək Konstantinopol) – Türkiyədə ən böyük şəhər. İstanbul ilinin inzibati mərkəzi. Sahəsi 285,4 km$^2$, əhalisi 7,6 milyon nəfərdir. Mərmərə dənizi yaxınlığında Bosfor boğazının hər iki sahilindədir. Şəhərin çox hissəsi Avropada, az hissəsi Asiyadadır. Əsası e.ə. 660-cı ildə Bizans kimi qoyulmuşdur. Eramızım 330-cu ilində Roma imperatoru Konstantinin şərəfinə Konstantinopol adlandırılmışdır. 395-ci ilə qədər Roma imperiyasının, 395-1453-cü illərdə fasilələrlə Bizansın paytaxtı olmuşdur. 1453-cü ildə Türkiyə Konstantinolu tutmuş və İstanbul adlandırılmışdır. 1453–1918-ci illərdə Osmanlı imperiyasının, 1923-cü ilə kimi Türkiyə Respublikasının paytaxtı olmuşdur. – 232–266,327.

**180. Mustafa Kamal Atatürk,** Q a z i M u s t a f a K a m a l (1881–1938) –Türkiyənin dövlət, siyasi və hərbi xadimi, Türkiyə Respublikasının banisi və ilk prezidenti (1923–1938). Birinci dünya müharibəsi zamanı Dardanel boğazının müdafiəsində (1915) şücaət göstərmişdir.

Atatürk 1919-cu ildə «Kamalçılar hərəkatı»na – milli azadlıq hərəkatına başçılıq etmişdir. 1920-ci ildə Atatürk Ankarada yeni parlament – Türkiyə Böyük Millət Məclisini (TBMM) yaratdı, məclisin və təşkil edilən hökumətin sədri seçildi. Sakarya çayı yaxınlığında qələbəyə görə TBMM Atatürkə marşal rütbəsi və «Qazi» fəxri adını vermişdir. 1922-ci ildə Atatürkün komandanlığı ilə türk ordusu Türkiyəni xarici müdaxiləçilərdən tamamilə azad etdi.

Atatürk soyadı ona 1934-cü ildə TBMM tərəfindən verilmişdir. – 232,236,237,268,269,270,272.

**181. I Napoleon,** N a p o l e o n B o n a p a r t (1769–1821) – 1804–14 və 1815-ci illərdə Fransa inperatoru. Napoleon istedadlı sərkərdə kimi, Fransa tarixində özünə layiqli yer tutmuşdur. Napoleon fitri istedada, müstəsna işgüzarlığa, dərin zəkaya və yenilməz iradəyə malik bir şəxsiyyət idi. – 238.

**182. Buxarest** – Rumıniya Respublikasının paytaxtı (1861-ci ildən). Ölkənin cənubunda, Aşağı Dunay ovalığında, Dimbovitsa çayı sahilindədir. Tarixi-memarlıq abidələri, müxtəlif üslubları əks etdirən eklektik tikililəri ilə zəngindir. Şəhər XIV əsrdən məlumdur. Əhalisi iki milyon nəfərdir. – 331–332.

**183.** ***bp,*** «B r i t i ş P e t r o l e u m» – dünyanın ən iri neft şirkətlərindən biri. 1909-cu ildən bir çox ölkələrdə neftin kəşfiyyatı, çıxarılması, emalı və satışı ilə məşğuldur. *bp* 1994-cü ildən Azərbaycanda fəaliyyət göstərir. Hazırda ABƏŞ-in əsas operatorudur. – 259,262.

**184. «Əsrin müqaviləsi»** – 1994-cü il sentyabrın 20-də Bakıda «Xəzər dənizinin Azərbaycan sektorunda «Azəri», «Çıraq» yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi» haqqında dünyanın 11 ən iri neft şirkəti ilə bağlanmış müqavilə. – 261,314.

**185. Con Braun** (d.1948) – «Britis Petroleum» şirkətinin prezidenti. 1969–83-cü illərdə Alyaskada, Nyu-Yorkda, Londonda neft və qazın çıxarılması və kəşfiyyatı, istehsalı ilə məşğul olan böyük şirkətlərdə müxtəlif məsul vəzifələrdə çalışmışdır. – 259–266.

**186. «Azəri», «Çıraq», «Günəşli»** – Xəzərin Azərbaycan sektorunda ən iri neft yatağı. Bakıdan təxminən 120 km şərqdə yerləşən bu yataqlar Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ) adından *bp* şirkəti tərəfindən işlənir. «Azəri», «Çıraq» neft yataqları iki əsas lay dəstindən ibarətdir: Fasilə və Balaxanı. Konsorsium əvvəlcə hasilata Fasilə layından başlayıb. «Azəri», «Çıraq»da hasilat 1997-ci ilin noyabr ayında başlamışdır. – 260,262.

**187. İndoneziya,** İndoneziya Respublikası – Cənub–Şərqi Asiyada dövlət. Sahəsi 1904,5 min km$^2$, əhalisi 198,2 milyon nəfərdir. İnzibati ərazisi 24 əyalətə, əyalət statusu olan 2 xüsusi inzibati əraziyə, 1 metropoliten mahalına (paytaxt) bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı parlament – Xalq Nümayəndələri Şurasıdır. Paytaxtı Cakarta şəhəridir. – 273,337.

**188**. **Susilo Bambanq Yudhoyono** (d.1949) – istefada olan general-leytenant. 2004-cü ildən İndoneziyanın prezidentidir. – 273,337.

**189. Yava** – Malayya arxipelaqında ada. Böyük Zond adaları qrupundandır. İndoneziyanın əsas iqtisadi rayonudur. Cənubdan Hind okeanı, şimaldan Yava dənizi ilə əhatələnir.

Uzunluğu 1050 km, sahəsi 126,5 min km$^2$, əhalisi 87 milyondur. İndoneziya Respublikasının paytaxtı Cakarta şəhəri Yavadadır. – 273.

**190. Vladimir Ruşaylo** (d.1953) – 1972-ci ildən SSRİ Daxili İşlər Nazirliyində müxtəlif məsul vəzifələrdə işləmişdir. 1998-ci ildə Rusiya Daxili İşlər nazirinin müavini, 1999-cu ildə nazir, 2001-ci ildə MDB ölkələri üzrə Kollektiv Təhlükəsizlik Şurasının sədri, 2003-cü ildə isə Rusiya Təhlükəsizlik Şurasının katibi olmuşdur. – 274.

**191. RTR, Ümumrusiya Dövlət Televiziya və Radio Verilişləri Kompaniyası** (ÜDTRVK) – 1990-cı ildə yaradılmışdır, Rusiya Federasiyası ərazisində televiziya və radio verilişləri təşkil edir. 1998-ci il bazasında yaradılmış ÜDTRVK dövlət media holdinqı federal «Rossiya» və «Kultura» telekanalları, «Radio Rossii», «Mayak», «Orfey», «Yunost», «Qolos Rossii» radiostansiyalarını və 92 regional dövlət teleradiokompaniyalarını, Ostankino televiziya və Rusiya informasiya texniki mərkəzini, «Vesti» agentliyini əhatə edir. – 275–281.

**192. «Böyük Səkkizlər»** – bu ittifaqa ABŞ, Böyük Britaniya, Almaniya, Fransa, İtaliya, Yaponiya, Kanada və Rusiya daxildir. – 275,280.

**193. Sankt-Peterburq** – Əsası 1703-cü ildə I Pyotr tərəfindən qoyulmuşdur. 1918-ci ilə kimi Rusiyanın paytaxtı idi. Rusiya Federasiyasının ən böyük sənaye, mədəniyyət və elm mərkəzidir. – 275.

**194. «Eni»** – İtaliya neft və qaz kompaniyası. Mənzil-qərargahı Romadadır. 1953-cü ildə İtaliya dövləti tərəfindən yaradılmışdır. XX əsrin 90-cı illərində, XXI əsrin əvvəllərində bir hissəsi özəlləşdirilmişdir. «Eni» dünyanın 90 ölkəsində fəaliyyət göstərir. – 278.

**195. «LUKoyl»** – neft şirkəti. 1993-cü ildə Rusiya Federasiyası hökumətinin qərarı ilə yaradılmışdır. Nəhəng sənaye-maliyyə kompleksinə malik olan «LUKoyl» şirkəti Rusiya, MDB və dünyanın bir çox ölkələrində neft məhsullarının kəşfiyyatı, hasilatı, emalı və satışı ilə məşğul olur. Şirkət 1993-cü ildən Azərbaycanda fəaliyyət göstərir. – 278.

**196. «Şevron» korporasiyası** – dünyanın ən iri beynəlxalq enerji və kimya şirkətlərindən biri. Baş ofisi Kaliforniyanın San-Fransisko şəhərində yerləşir. Neft və kimya sənayesinin bütün sahələrində iş görən «Şevron»un dünyanın 100-ə qədər ölkəsində 450 filialı və birgə müəssisəsi fəaliyyət göstərir. Dünyanın müxtəlif ölkələrində 41 000 işçisi var. 1879-cu ildə «Rpasifik Kost Oyl Kompani» adı ilə fəaliyyətə başlamışdır. – 278.

**197. «İtoçu» şirkəti –** Yaponiyanın «İtoçu» korporasiyası. 1958-ci ildə yaradılmışdır. Dünyanın 176 ölkəsində şirkətləri və firmaları var. «İtoçu» 1996-cı ilin avqustundan Bakıda fəaliyyət göstərir. – 278.

**198. «Statoyl»** – Norveçin «Statoyl» şirkəti 1972-ci ildən fəaliyyət göstərir. Şirkət Şimal dənizinin Norveç sektorunda ən iri neft-qaz istehsalçısıdır. Hazırda dünyanın 19 ölkəsində neftin kəşfiyyatı, çıxarılması və emalı ilə məşğul olur. Şirkət 1994-cü ildən Azərbaycan neft layihələrində fəal iştirak edir. – 278.

**199. Özbəkistan,** Özbəkistan Respublikası – Orta Asiyanın mərkəzində dövlət. Sahəsi 447,4 min km$^2$, əhalisi 23 206 min nəfərdir. Özbəkistanın tərkibinə Qarakalpak Muxtar Respublikası və 12 vilayət daxildir. Dövlətin başçısı prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Daşkənd səhəridir. – 282,284.

**200. İslam Kərimov,** İ s l a m  Ə b d u q ə n i  o ğ l u (d.1938) – Özbəkistanın siyasi və dövlət xadimi. 1989–90-cı illərdə Özbəkistan KP MK-nın Birinci katibi olmuşdur. 1990-cı ildən Özbəkistan Respublikasının prezidentidir. – 282,284.

**201. Qırğızıstan,** Q ı r ğ ı z ı s t a n  R e s p u b l i k a s ı – Orta Asiyanın şimal–şərqində dövlət. Sahəsi 198,5 min km$^2$, əhalisi 4526 min nəfərdir. İnzibati ərazisi 6 vilayətə, 40 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Bişkekdir. – 282,284.

**202. Kurmanbek Bakiyev** (d.1949) – Qırğızıstan siyasi və dövlət xadimi, «Qırğızıstan xalq hərəkatı» blokunun lideri, 2005–2010-cu illərdə Qırğızıstan Respublikasının prezidenti olmuşdur. Hazırda Belarusda siyasi mühacirdir. – 282,284.

**203. Tacikistan,** T a c i k i s t a n  R e s p u b l i k a s ı – Orta Asiyanın cənub–şərqində dövlət. Sahəsi 143,1 min km$^2$, əhalisi 5705 min nəfərdir. İnzibati ərazisi Bədaxşən Muxtar Vilayətinə, 2 vilayətə və 45 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Düşənbə şəhəridir. – 282,284.

**204. İmaməli Rəhmon,** İ m a m ə l i  Ş ə r i f  o ğ l u (d.1952) – Tacikistanın siyasi və dövlət xadimi. 1992-ci ildə Tacikistan Ali Sovetinin sədri olmuşdur. Həmin ilin noyabrından Tacikistan Respublikasının prezidentidir. – 282,284.

**205. Moldova,** M o l d o v a  R e s p u b l i k a s ı – Cənub–Şərqi Avropada dövlət. Sahəsi 33,7 min km$^2$, əhalisi 4,36 milyon nəfərdir. İnzibati ərazisi 40 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Kişinyov şəhəridir. – 274,282,284.

**206. Vladimir Voronin** (d.1941) – Moldova siyasi və dövlət xadimi. 2001 və 2005-ci illərdə Moldova prezidenti olmuşdur. – 274,282,284.

**207. İsveçrə,** İ s v e ç r ə K o n f e d e r a s i y a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 41,3 min km$^2$, əhalisi 7,1 milyon nəfərdir. İsveçrə federativ, 23 kantona bölünmüş respublikadır. Dövlət başçısı prezidentdir, prezidenti parlament Federal Şura üzvlərindən 1 il müddətinə seçir, yenidən seçilmək hüququ yoxdur. Prezident həmçinin hökumət başçısıdır. Qanunverici hakimiyyət iki palatadan ibarət Federal Məclisə məxsusdur. Paytaxtı Bern şəhəridir. – 286.

**208. Moris Loyenberger** (d.1946) – hüquqşünas. İsveçrə dövlət və siyasi xadimi. 2001–2006-cı illərdə İsveçrənin prezidenti 2000, 2009-cu illərdə İsveçrənin vitse-prezidenti olmuşdur. – 286.

**209. Atlanta** – ABŞ-ın cənub–qərbində şəhər. Corcio ştatının inzibati mərkəzi. Ölkənin sənaye və tibb mərkəzi kimi məşhurdur. 1996-cı ildə Yay Olimpiya oyunları keçirilmişdir. Əhalisi 394 min nəfərdir. Əsası 1837-ci ildə qoyulmuşdur. – 289.

**210. Maştağa** – Bakının Sabunçu rayonunda şəhər tipli qəsəbə. Maştağa qədim yaşayış məntəqələrindəndir. Maştağa sözünün etimologiyasını vaxtilə burada məskunlaşmış massagetlər (maskutlar) tayfasının adı ilə əlaqələndirirlər. Maştağa Abşeronun xalq memarlığı mərkəzlərindən olmuşdur. Maştağa Şirvanşah I İbrahimin dövründə (1414-cü ildə tikilmiş məscidin kitabəsi Milli Azərbaycan Tarixi Muzeyində saxlanılır) tikilmişdi. 1669-cu ildə Stepan Razinin dəstəsi Maştağanı dağıtmış, çoxlu qənimətlə geri dönmüşdü. Memarlıq abidələrindən hamam (XVII əsr), Aqilbaba türbəsi, Xunxar türbəsi, Xoca Aslan, Həsənbəy, Pirşad (XVIII əsr) məscidləri və s. qalır. – 289.

**211. Gəncə –** Azərbaycan Respublikasında şəhər. Sahəsi 107 km$^2$, əhalisinin sayına görə Bakıdan sonra ikinci şəhərdir. Gəncə Azərbaycanın qədim şəhərlərindəndir, salındığı tarix dəqiq məlum deyil. Bəzi müəlliflər Gəncənin Makedoniyalı İsgəndərin dövründə (e.ə.336–323) salındığını qeyd etmişlər. – 290.

**212. Bərdə** – Azərbaycan Respublikasında rayon.1930-cu ildə təşkil edilmişdir. Sahəsi 957 km$^2$, əhalisi 132,9 min nəfərdir. – 290.

**213. Lənkəran** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 661 km$^2$, əhalisi 146,9 min nəfərdir. – 290.

**214. Quba** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 2575 km$^2$, əhalisi 140,0 min nəfərdir. – 290.

**215. Şamaxı** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil olunmuşdur. Sahəsi 3848 km$^2$, əhalisi 91,4 min nəfərdir. – 290.

**216. Zaqatala –** Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Şimal–şərqdə Dağıstanla, cənub–qərbdə Gürcüstanla həmsərhəddir. Sahəsi 1348 km$^2$, əhalisi 109,3 min nəfərdir. – 290.

**217. BMT-nin Dünya Ərzaq Proqramı Təşkilatı** – ərzaq məhsullarının istehsalında və ticarətində beynəlxalq əməkdaşlığı koordinasiya etmək məqsədilə BMT-nin tərkibində yaradılmış orqan. 1975-ci ildən fəaliyyət göstərir. Katibliyi Roma şəhərindədir. – 292–293.

**218. Mehmet Aydın** (d.1943) – Türkiyə siyasətçisi, Dövlət naziri. TBMM-nin millət vəkili, Ədalət və İnkişaf Partiyasının üzvü. – 294.

**219. Ağcabədi** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. 1963-cü ildə ləğv edilib. Ərazisi Ağdam rayonuna verilmiş, 1965-ci ildə yenidən müstəqil rayon olmuşdur. Sahəsi 1756 km$^2$, əhalisi 110,4 min nəfərdir. – 296.

**220. Balakən** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. 1963-cü ildə ləğv edilərək Zaqatala rayonuna verilmiş, 1965-ci ildə yenidən müstəqil rayon olmuşdur. Şimalda Dağıstanla, qərbdə və cənub–qərbdə Gürcüstanla həmsərhəddir. Sahəsi 923 km$^2$, əhalisi 85,3 min nəfərdir. – 296.

**221. Qobustan** – Azərbaycanın şərqində alçaq dağlıq sahə, uzunluğu 100 km, eni 80 km-ə yaxındır. Qobustan yaxınlığında, Qobustan qoruğu ərazisində zəngin qayaüstü təsvirlərlə yanaşı, Daş dövründən başlamış orta əsrlərədək çoxlu ibtidai insan düşərgəsi, qədim yaşayış məskəni, kurqanlar və s. arxeoloji abidələr vardır. Onların beşində Mezolit dördündə Neolit, yeddisində Tunc, birində antik və beşində orta əsrlər dövründə yaşayış olduğunu göstərən mdəni təbəqə və maddi qalıqlar aşkar edilmişdir. – 296.

**222. Salyan** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil olunmuşdur. Sahəsi 1632 km$^2$, əhalisi 95,1 min nəfərdir. – 296.

**223. Xaçmaz** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. 1963-cü ildə ləğv edilərək ərazisi Quba və Qusar rayonlarına verilmiş, 1965-ci ildə yenidən müstəqil

rayon olmuşdur. Sahəsi 1045 $km^2$, əhalisi 148,4 min nəfərdir. – 296.

**224. Mərkəzi Bank** – Azərbaycan Respublikasının mərkəzi bankıdır. Onun əsas vəzifəsi qiymətlərin sabitliyinin təmin edilməsi, xarici dönərli valyutalara nisbətən milli valyutanın kursunun möhkəmləndirilməsi, həmçinin ölkə bank sisteminin sabitliyinin qorunmasıdır. AMB valyuta tənzimlənməsi və nəzarətini həyata keçirir, xarici dövlətlərlə hesablaşma qaydalarını müəyyən edir, xarici valyuta ehtiyatlarını idarə edir. AMB həmçinin Azərbaycan Respublikasının ödəmə-hesabat balansının tərtibinə rəhbərlik edir. – 298.

**225. Əbülfəs Qarayev,** Ə b ü l f ə s M ü r s ə l o ğ l u (d.1956) – fəlsəfə elmləri namizədi. 1994-cü ildən 2006-cı ilədək Azərbaycan Respublikası Gənclər, İdman və Turizm naziri, 2006-cı ildən Mədəniyyət və Turizm naziridir. Respublika Olimpiya Komitəsinin birinci vitse–prezidentidir. Gənclər, İdman və Turizm naziri işlədiyi vaxtda respublikada idmanın və bədən tərbiyəsinin inkişafına ciddi fikir verilmiş, çoxlu idman meydançaları və olimpiya kompleksləri tikilmişdir. – 306.

**226. Fazil Məmmədov,** F a z i l Ə s ə d o ğ l u (d.1964) – iqtisadçı. 2000-ci ildən Azərbaycan Respublikasının Vergilər naziridir. – 306,317.

**227. Samir Şərifov,** S a m i r R a u f o ğ l u (d.1961) – hüquqşünas. 2006-cı ildən Azərbaycan Respublikasının Maliyyə naziridir. Eyni zamanda Qara Dəniz Ticarət və İnkişaf Bankında Azərbaycan Respublikası üzrə təməlçi direktorudur. – 306.

**228. Əli Abbasov,** Ə l i M ə m m ə d o ğ l u (d. 1953) – Texnika elmləri doktoru, professor. AMEA-nın həqiqi üzvü.

2000–2004-cü illərdə Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru olmuşdur. 2000-ci ildən Milli Məclisin üzvü, 2001-ci ildən AŞPA-nın üzvü olmuşdur. 2004-cü ildən Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları naziridir. – 306.

**229. İsmət Abasov,** İ s m ə t D u r s u n o ğ l u (d.1954) – iqtisadçı, iqtisad elmləri namizədi. 2008-2013-cü illərdə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı naziri olmuşdur. Hal-hazırda Baş nazirin müavinidir. – 306.

**230. Elman Rüstəmov,** E l m a n S i r a c o ğ l u (d.1952) – iqtisad elmləri namizədi. 1995-ci ildən Azərbaycan Milli Bankı İdarə Heyətinin sədridir. – 306.

**231. Sinqapur,** S i n q a p u r R e s p u b l i k a s ı – Cənub–Şərqi Asiyada dövlət. Sahəsi 639 km$^2$, əhalisi 3,05 milyon nəfərdir. Millətlər Birliyinə daxildir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Sinqapurdur. – 322.

**232. Sellapan Rama Natan** (d.1924) – 1999-cu ildən Sinqapur prezidenti. – 322.

**233. Mətyu Brayza** – Amerika diplomatı. 2001–2005-ci illərdə ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi olmuşdur. Sonra isə Dağlıq Qarabağ, Abxaziya və Cənubi Osetiya konfliktlərinin sülh yolu ilə həll olunması işi ilə məşğul olmuşdur. 2011–12-ci illərdə ABŞ-ın Azərbaycan Respublikasında Fövqəladə və Səlahiyyətli səfiri olmuşdur. – 323.

**234. Tatarıstan,** T a t a r ı s t a n R e s p u b l i k a s ı – Rusiya Federasiyası tərkibində federal vilayət. Paytaxtı Kazan şəhəridir. Sahəsi 68 min km$^2$, əhalisi 3773,8 min nəfərdir. – 324.

**235. Rüstəm Minnixanov** (d.1957) – Rusiya dövlət və siyasi xadimi. 2010-cu ildən Tatarıstanın prezidenti «Vahid Rusiya» Partiyası Ali Şurasının üzvüdür. – 324.

**236. Kazan** – Tatarıstanın paytaxtı. Volqa çayının sol sahilində, Kazanka çayının mənsəbindədir. Şəhəri XIII əsrin 2-ci yarısında bulqarlar salmışlar. 1399-cu ildə Moskva knyazlığının qoşunları dağıtmış, 30–40 il sonra yenidən tikilmişdir. XV əsrdən Kazan xanlığının mərkəzi olmuşdur. 1552-ci ildə rus dövlətinə birləşdirilmişdir. – 324.

**237. Ziya Məmmədov,** Z i y a A r z u m a n o ğ l u (d.1952) – dəmiryolçu mühəndis. 1996–2005-ci illərdə Azərbaycan Dövlət Dəmir Yolunun rəisi, 2005-ci ildən isə Azərbaycan Respublikasının Nəqliyyat naziridir. – 325–328.

**238. Abid Şərifov,** A b i d Q o c a o ğ l u (d.1940) – inşaatçı. 1995-ci ildən Azərbaycan Respublikası Baş nazirinin müavini. – 329.

**239. Əfqanıstan,** Ə f q a n ı s t a n İ s l a m D ö v l ə t i – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 652,2 min km$^2$, əhalisi 22,7 milyon nəfərdir. İnzibati ərazisi 29 vilayətə və mərkəzə tabeli 2 mahala bölünür. Dövlət başçısı prezidentdir. Paytaxtı Kabil şəhəridir. – 333.

**240. Həmid Kərzai** (d.1957) – 2004-cü ildən Əfqanıstan İslam Dövlətinin prezidenti. 2001–2002-ci illərdə Əfqanıstanın Baş naziri olmuşdur. – 333.

**241. Koreya,** K o r e y a R e s p u b l i k a s ı – Şərqi Asiyada dövlət. Sahəsi 98,5 min km$^2$, əhalisi 45,2 milyon nəfərdir. İnzibati ərazisi 9 əyalətə və 6 mərkəzi tabe şəhərə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Milli Məclisdir. Paytaxtı Seuldur. – 334.

**242. Roh Mu-Hyun (Ho Mu Xeyn)** (1946–2009) – 2003-2008-ci illərdə Koreya Respublikasının prezidenti. Dövlət başçısı olduğu dövr Cənubi Koreyada iqtisadiyyatın inkişafı və artım dövrü olmuşdur. – 334.

**243. Manmohan Sinqh** (d.1932) – Hindistan dövlət və siyasi xadimi. Hindistan Respublikasının 14-cü Baş naziri. – 336.

**244. Ramiz Rzayev,** R a m i z Y a q u b o ğ l u (d.1953) – hüquqşünas. 1995–2000-ci illərdə Azərbaycan Respublikasının Hərbi prokuroru, 2000–2005-ci illərdə Azərbaycan Respublikası Baş prokurorunun birinci müavini, 2005-ci ildən Azərbaycan Respublikası Ali Məhkəməsinin sədridir. Azərbaycan Respublikasının «Azərbaycan bayrağı», «Şöhrət» ordenləri ilə təltif olunmuşdur. – 338-343.

## Şəxsi adlar göstəricisi


**Abasıoğlu Kamuran** – 247,248,249
**Abasov İsmət** – 306
**Abbasov Abbas** – 69,94–96
**Abbasov Əli** – 306
**Abbasova Vəsilə** – 15
**Abdullayev Ağaxan** – 12–14
**Abdullayev Çingiz** – 114–125
**Abdullayev Gülhüseyn** – 114–125
**Abdullayev İslam** – 126,144
**Abdullayev Namiq** – 68
**Abutalıbov Hacıbala** – 24,165–201
**Adıgözəlov Vasif** – 217–218
**Axundzadə Ağayar** – 71,72
**II Albert** – 225
**Anri** – 55
**Atatürk Mustafa Kamal** – 232,236,237,268,269,270,272
**Audiya Məhəmməd** – 35
**Aydın Mehmet** – 294
**Aydınoğlu Elşad** – 12–14
**Babayev Arif** – 12–14
**Babayev Heydər** – 306
**Bağırov Hüseynqulu** – 165–201
**Baxışov Sadiq** – 134
**Bakiyev Kurmanbek** – 282,284
**Bayramov Rövşən** – 96
**Bayramov Təyyar** – 12–14
**Bayramova Aygün** – 12–14
**Bəylərov Ərəstun** – 20
**Braun Con** – 259–266
**Brayzə Mətyu** – 323

**Buş Corc** – 7,111–112,234
**Cengiz Vural** – 113
**Cəbrayılov Soltan** – 153
**Çembers Con** – 143
**Dadaşov Fəxrəddin** – 12–14
**De Brişambo Mark** – 49
**De Silqi İv-Tibo** – 287
**Denisov Andrey** – 274
**Dəmirəl Süleyman** – 205
**Drnovşek Yanez** – 44
**Endryu** (*York hersoqu,şahzadə*)– 162,163
**Enesku Corce** – 332
**Enxbayar Nambarin** – 214
**Əbiyev Səfər** – 73,83
**Əhmədov Elnur** – 12–14
**Əhmədov İlkin** – 12–14
**Əhmədov Rəşad** – 65
**Əhmədov Şahin** – 153
**Əl-Xətibi Əbdül** – 48
**Əl-Qirbi Əbubəkr** – 37
**Əl-İssavi Rafe** – 51
**Əl-Tüveyjri Əbdüləziz** – 57
**Ələkbərov Füzuli** – 70,71
**Əliyev Baba** – 18
**Əliyev Heydər** –16,17,19,20,21,23,25,30,58, 70,73,77,83–92,94,95,106, 109,110,125,125,126,127, 128,130,133,134,137,138, 139,144,146,149,151,152, 156,168,189,217,218,236–246,252,254,257,260,261, 268,269,270,271,272,289, 331,332, 339
**Əliyev Natiq** – 165–201
**Əliyev Sabir** – 17

**Əliyev Vaqif** – 165–201

**Əliyeva Mehriban** – 12–14,15–23,126,137–138, 139–140,144,153,154–155, 156
**Əliyeva Zərifə xanım** – 137
**Ərdoğan Rəcəb Tayyib** – 59,205,233,235,259–266, 267,268–272, 294,330
**Əsgərov Qocaq** – 12–14
**Əzizov Mehman** – 71
**Frias Hüqo** – 202
**Fürnen Jan** – 164
**Gebuza Armandu** – 46
**Gül Adbullah** – 50,249–251
**Gülər Müəmmər** – 232
**Hacı Əjdər** – 17
**Hacıbəyov Üzeyir** – 12–14
**Hankook Herbi** – 104
**Harper Stiven** – 81
**Heydərov Kəmaləddin** – 63–67
**Həsənzadə Nəriman** – 114–125
**Həşimov Elçin** – 12–14
**I Xuan Karlos** – 203
**İbrahimli Pərvaz** – 12–14
**İbrahimov Mənsum** – 12–14
**İhsanoğlu Ekmələddin** – 54
**İsayeva Gülnar** – 12–14
**İsmayılov Elçin** – 71
**İsmayılova Səkinə** – 12–14
**Jan Mişel** – 80
**Kalam Əbdül** – 231,335
**Kamal Saleh** – 56
**Kemulari Konstantin** – 102
**Kərimov İslam** – 282,284
**Kərimov Kamran** – 12–14

**Kərzai Həmid** – 333
**Kim Hak-sun** – 103
**Kinli Brunson** – 58
**Köçəryan Robert** –209
**Qarayev Əbülfəs** – 306
**Qasımov Alim** – 12–14
**Qasımova Fərqanə** – 12–14
**Qasımova Kifayət** – 69
**Qəhrəmanov Asif** – 153
**Qəyyum Məmun** – 228
**Qocayeva Cülzar** – 18
**Qulleh İsmayil** – 47
**Qukasyan Arkadi** – 208
**Lezar Devid** – 10
**Loyenberger Morits** – 286
**Lukaşenko Aleksandr** – 82,282,284
**Martinetti Rafael** – 70,94–96
**Mehdiyev Ramiz** – 24
**Mesiç Stipe** – 45
**VI Məhəmməd** – 227
**Məhərrəmova Aytən** – 12–14
**Məmmədli Elnur** – 68
**Məmmədov Fazil** – 306,307
**Məmmədov Nazim** – 15
**Məmmədov Nəriman** – 126,144
**Məmmədov Ziya** – 325–328
**Məmmədova Zülfiyyə** – 12–14
**Mərdanov Misir** – 20
**Minnixanov Rüstəm** – 324
**Mirəliyev Mövlud** – 71
**Mirzəyeva Bəyim xanım** – 12
**Morris Ceyms** – 292–293
**Mottəki Mənuçehr** – 52
**Mübarək Hüsnü** – 226
**Müslümov Möhlət** – 12–14

**Müslümov Niyazi** – 134
**Müşərrəf Pərviz** – 222
**I Napoleon** – 238
**Napolitano Corcio** – 220
**Natan Sellapan** – 322
**Nazarbayev Nursultan** – 25–26,28–36,204,250,282,284
**Niftəliyev Babək** – 12–14
**Nquen Minh Triet** – 107
**Noğaideli Zurab** – 215
**Norman Tyeri** – 93
**Orucova Vəfa** – 12
**Özatan Şərəf** – 248–249
**Özkök Hilmi** – 141–142
**Panitçpakdi Supaçai** – 101
**Paşayev Niyaməddin** – 65
**Peres Şimon** – 35
**Piriyev Heydər** – 83
**Prodi Romano** – 221
**Putin Vladimir** – 27,108,2-6,219,282,284
**Rasizadə Artur** – 24,109–110
**Rəhimov Azad** – 94–96
**Rəhmon İmaməli** – 282,284
**Roh Mu Hyun** – 334
**Ruşaylo Vladimir** – 274
**Rüstəmxanlı Sabir** – 114–125
**Rüstəmov Elman** – 306
**Rzayev Ramiz** – 338–343
**Saakaşvili Mixeil** – 102,235,258,259–266
**Sarıqaya Əli** – 59
**Sell Kley** – 234
**Zesər Əhməd Necdət** – 205,257,259–266
**Səlimov Rəsul** – 71
**Sinqh Manmohan** – 336
**Skard Halvdan** – 105
**Sözlü Hüseyn** – 269

**Sununu Con** – 7
**Suphamonqko Kantathi** – 53
**Süleymenov Oljas** – 60
**Sülün Yusif** – 236–237
**Şahbazov İlkin** – 65
**Şahin Mehmet** – 232,239–240,330
**Şaymiyev Mintimer** – 324
**Şərifov Abid** – 329
**Şərifov Samir** – 306
**Şirak Jak** – 216
**Şirəliyev Oqtay** – 165–201
**Tağıyev Hacı Zeynalabdin** – 178
**Taunzend Maykl** – 8–9
**Tokayev Qasımcomərd** – 24
**Tomson Peter** – 321
**Topbaş Qədir** – 232,237–239
**Usubov Ramil** – 165–201
**Veles Alvaro** – 223
**Vegener Roland** – 11
**Verhofstadt Gi** – 224
**Vəliyev Cəfər** – 109–110
**Voronin Vladimir** – 274,282,284
**Vudvord Devid** – 8–9
**Yudhoyono Susilo** – 273,337
**Yusifova Şəhrun** – 66
**Yusifzadə Xoşbəxt** – 165–201
**Zeynalov Elnur** – 12–14
**Zəlimxan Yaqub** – 114–125

## Coğrafi adlar göstəricisi

**Abşeron (*yarımada)*** – 167,168,169,170,171,174, 178,186,192,195, 298
**Afina** – 63,71,289
**Ağcabədi** – 296
**Ağsu** – 156–161
**Almaniya** – 179,196,211
**Almatı** – 24–36
**Amerika Birləşmiş Ştatları** – 7,10,111–112,113,205,207, 211,212,234, 248,262
**Anadolu** – 248
**Ankara** – 205
**Aralıq dənizi** – 10,30,250,277
**Asiya** – 32,33,35,36,103,238,282,301
**Astara** – 99
**Atlanta** – 289
**Avropa** – 5,10,33,35,65,66,68,70,105, 209,211,238,254,263,279,298, 301,321
**Badamdar** – 183
**Bakı** – 6,17,44,45,46,47,53,61,70, 71, 73,76,79,80,81,82,93,98,106, 107,108,112,118,131,157, 161,168,171,173,174,175, 179,183,184,185,186,187, 189,190,192,199,201,205, 214,216,219,220,221,222, 223,224,225,226,227,228, 229–230,231,286,291,298, 299,313,322,325,327,328, 329,332,333,334,335,336,337

**Balaxanı** – 178,179,185,197
**Balakən** – 296
**Bayıl** – 62
**Belarus** – 82,282,284
**Belçika** – 224,225
**Bərdə** – 290
**Bibiheybət** – 170,183
**Binə** – 15–23
**Binəqədi** – 170,171,184,192,197
**Böyük Britaniya** – 162,163,211
**Buxarest** – 331–332
**Buzovna** – 174,186
**Bülbülə** – 171,184
**Ceyhan** – 10,162,240,242,259–266, 271
**Ceyranbatan** – 184,195
**Cibuti** – 47
**Çexiya** – 179
**Çin** – 29
**Çuxurdərə** – 171
**Dağlıq Qarabağ** – 26,41,42,89,90,91,92,109, 111,122,123,132,133,134, 135,206,207,208,209,210, 216,244,245,256,304,305, 323
**Əbilov (*qəsəbə*)** – 183
**Əfqanıstan** – 333
**Əmircan** – 184
**Fələstin** – 35
**Finland** – 179
**Fransa** – 93,207,209,211,216
**Gəncə** – 290
**Goradil** – 76,198
**Gürcüstan** – 102,206,215,235,240,243, 253,258,259–266

**Hollandiya** – 173
**Hövsan** – 173
**Xaçmaz** – 296
**Xəzər dənizi** – 5,6,10,25,28,29,30,111, 167,174,175,183,184,186, 189,190,195,200,204,205, 212,260
**Xocasən** – 171,184
**Xorvatiya** – 45
**İndoneziya** – 273,337
**İordaniya** – 48
**İraq** – 51,108
**İran** – 52,212
İspaniya – 203
**İsrail** – 35
**İstanbul** – 232–266,327
**İsveçrə** – 286
**İtaliya** – 220,221
**Kanada** – 80,81
**Kazan** – 324
**Kolumbiya** – 223
**Koreya Respublikası** – 334
**Kürdəmir** – 136
**Qafqaz** – 250
**Qara dəniz** – 5–6,10
**Qarıqumlaq** – 137–138,139–140
**Qazaxıstan** – 24–36,60,61,204,250,254, 255,263,274,275,276,282, 283,284
**Qərbi Almaniya** – 211
**Qırğızıstan** – 282,284
**Qırmızıgöl** – 171
**Qobustan** – 296
**Quba** – 290
**Lerik** – 99

**Lələağacı (*Zərdabda kənd*)** – 155
**Lənkəran** – 290
**London** – 327
**Lüksemburq** – 55
**Maldiv** – 228
**Maştağa** – 289
**Mərakeş** – 227
**Mərdəkan** – 178,186
**Mərkəzi Asiya** – 178,186
**Misir** – 226
**Moldova** – 274,282,284
**Monqolustan** – 214
**Moskva** – 136,274–285,327
**Mozambik** – 46
**Multan** – 222
**Nabran** – 175
**Naxçıvan** – 99,290
**Naximov (*qəsəbə*)** – 183
**Nargin** – 62
**Novxanı** – 186
**Nyu-Hempşir** – 7
**Orta Asiya** – 248,249
**Özbəkistan** – 282,284
**Pakistan** – 222
**Paris** – 287
**Pekin** – 67,70,282–291
**Pərvanlı (*Zərdabda kənd*)** – 155
**Rumıniya** – 209,331–332
**Rusiya** – 27,29,61,74,108,206,219, 274–285,315
**Sabunçu** – 170,171,178
**Sakit okean** – 103
**Salyan** – 296
**Sankt-Peterburq** – 275
**Saray** – 184,195

**Sarıyer** – 236–246
**Səngəçal** – 185
**Sidney** – 71
**Sinqapur** – 322
**Sloveniya** – 44
**Sumqayıt** – 99,158,169,184,193–196
**Suraxanı** – 170,178
**Şəki** – 290
**Şamaxı** – 290
**Şıx** – 186
**Şüvəlan** – 186
**Tacikistan** – 282,284
**Tailand** – 53
**Tatarıstan** – 324
**Tokio** – 327
**Türkan** – 21,182
**Türkiyə** – 50,59,73,74,113,141–142, 204–213,232–272, 294,330
**Türkmənistan** – 61,282
**Ucar** – 126–140
**Uzaq Şərq** – 248
**Valensiya** – 203
**Venesuela** – 202
**Vyetnam** – 65,107
**Yardımlı** – 99
**Yava** (*ada*) – 273
**Yeni Suraxanı** – 178
**Yəmən** – 37
**Zabrat** – 198
**Zaqatala** – 290
**Zərdab** – 273
**Zirə** – 15–23,182
**Zuğulba** – 174

# MÜNDƏRİCAT

QARA DƏNİZ BİZNES FORUMUNUN İŞTİRAKÇILARINA

*12 iyun 2006-cı il*..........................................................................*6*

CORC BUŞ ADMİNİSTRASİYASI APARATININ KEÇMİŞ RƏHBƏRİ CON SUNUNU İLƏ GÖRÜŞ

*12 iyun 2006-cı il*..........................................................................*7*

«*bp*–AZƏRBAYCAN» ŞİRKƏTİNİN PREZİDENTİ DEVİD VUDVORD VƏ «BTC KO» ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU MAYKL TAUNZEND İLƏ GÖRÜŞ

*13 iyun 2006-cı il*..........................................................................*8*

ABŞ-ın «HALLİBÖRTN» ŞİRKƏTİNİN PREZİDENTİ VƏ BAŞ İCRAÇI DİREKTORU DEVİD LEZAR İLƏ GÖRÜŞ

*13 iyun 2006-cı il*..........................................................................*10*

AVROPA ŞURASI NAZİRLƏR KOMİTƏSİNİN «AQO» QRUPUNUN SƏDRİ ROLAND VEGENERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*13 iyun 2006-cı il*..........................................................................*11*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ÜZEYİR HACIBƏYOVUN ANADAN OLMASININ 120 İLLİYİNƏ HƏSR EDİLMİŞ MUĞAM KONSERTİNDƏ İŞTİRAK ETMİŞDİR

*13 iyun 2006-cı il*..........................................................................*12*

BAKININ XƏZƏR RAYONUNUN ZİRƏ VƏ BİNƏ QƏSƏBƏLƏRİNDƏ BİR SIRA OBYEKTLƏRİN AÇILIŞ MƏRASİMİ

*15 iyun 2006-cı il*.........................................................................................15

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN QAZAXISTANA SƏFƏRİ

*16 iyun 2006-cı il*.........................................................................................24

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ QAZAXISTAN PREZİDENTİ NURSULTAN NAZARBAYEVİN GÖRÜŞÜ

*16 iyun 2006-cı il*.........................................................................................25

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ RUSİYA PREZİDENTİ VLADİMİR PUTİNİN GÖRÜŞÜ

*16 iyun 2006-cı il*.........................................................................................27

QAZAXISTANIN BTC-yə QOŞULMASI HAQQINDA MÜQAVİLƏNİN İMZALANMASI MƏRASİMİ

*16 iyun 2006-cı il*.........................................................................................28

AQFETM-in II SAMMİTİNDƏ AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI

*17 iyun 2006-cı il*.........................................................................................32

BAKIDA İSLAM KONFRANSI TƏŞKİLATININ ÜZVÜ OLAN ÖLKƏLƏRİN XARİCİ İŞLƏR NAZİRLƏRİ ŞURASININ 33-cü SESSİYASINDA NİTQ

*19 iyun 2006-cı il*.........................................................................................37

SLOVENİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB YANEZ DRNOVŞEKƏ

*19 iyun 2006-cı il*.........................................................................................44

XORVATİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB STİPE MESİÇƏ

*19 iyun 2006-cı il..........................................................................45*

MOZAMBİK RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB ARMANDU EMİLİU GEBUZAYA

*19 iyun 2006-cı il..........................................................................46*

CİBUTİ RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB İSMAİL ÖMƏR QULLEHƏ

*19 iyun 2006-cı il..........................................................................47*

İORDANİYA KRALLIĞININ XARİCİ İŞLƏR NAZİRİ İLƏ GÖRÜŞ

*19 iyun 2006-cı il..........................................................................48*

ATƏT-in BAŞ KATİBİ İLƏ GÖRÜŞ

*19 iyun 2006-cı il..........................................................................49*

TÜRKİYƏ BAŞ NAZİRİNİN MÜAVİNİ, XARİCİ İŞLƏR NAZİRİ ABDULLAH GÜLÜN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*19 iyun 2006-cı il..........................................................................50*

İRAQIN XARİCİ İŞLƏR ÜZRƏ DÖVLƏT NAZİRİ İLƏ GÖRÜŞ

*19 iyun 2006-cı il..........................................................................51*

İRANIN XARİCİ İŞLƏR NAZİRİ İLƏ GÖRÜŞ

*19 iyun 2006-cı il..........................................................................52*

TAİLANDIN XARİCİ İŞLƏR NAZİRİ İLƏ GÖRÜŞ

*19 iyun 2006-cı il..........................................................................53*

İSLAM KONFRANSI TƏŞKİLATININ BAŞ KATİBİ İLƏ GÖRÜŞ

*19 iyun 2006-cı il..........................................................................54*

LÜKSEMBURQUN BÖYÜK HERSOQU ƏLAHƏZRƏT ANRİYƏ

*19 iyun 2006-cı il..........................................................................55*

İSLAM TİCARƏT VƏ SƏNAYE PALATASININ PREZİDENTİ İLƏ GÖRÜŞ

*20 iyun 2006-cı il..........................................................................56*

İSLAM TƏHSİL, ELM VƏ MƏDƏNİYYƏT TƏŞKİLATININ BAŞ DİREKTORU İLƏ GÖRÜŞ

*20 iyun 2006-cı il..........................................................................57*

BEYNƏLXALQ MİQRASİYA TƏŞKİLATININ
BAŞ DİREKTORU İLƏ GÖRÜŞ

*20 iyun 2006-cı il..........................................................................58*

DİALOQ VƏ ƏMƏKDAŞLIQ UĞRUNDA İSLAM KONFRANSI GƏNCLƏR FORUMUNUN PREZİDENTİ İLƏ GÖRÜŞ

*20 iyun 2006-cı il..........................................................................59*

GÖRKƏMLİ QAZAX ŞAİRİ, ALİM VƏ İCTİMAİ-SİYASİ XADİM OLJAS SÜLEYMENOV İLƏ GÖRÜŞ

*21 iyun 2006-cı il ..........................................................................60*

BAKI DƏNİZ VAĞZALININ ƏSASLI YENİDƏNQURMADAN SONRA AÇILIŞ MƏRASİMİ

*21 iyun 2006-cı il..........................................................................61*

RESPUBLİKA TAEKVONDO FEDERASİYASININ RƏHBƏRLİYİ, AVROPA ÇEMPİONATLARINDA MEDAL QAZANMIŞ İDMANÇILAR VƏ ONLARIN MƏŞQÇİLƏRİ İLƏ GÖRÜŞ

*21 iyun 2006-cı il ..........................................................................63*

RESPUBLİKA GÜLƏŞ VƏ CÜDO FEDERASİYALARININ RƏHBƏRLİYİ, AVROPA ÇEMPİONATLARINDA MEDAL QAZANMIŞ İDMANÇILAR VƏ ONLARIN MƏŞQÇİLƏRİ İLƏ GÖRÜŞ

*21 iyun 2006-cı il..........................................................................................68*

BAKIDA MÜDAFİƏ NAZİRLİYİNİN MƏRKƏZİ HƏRBİ KLİNİK HOSPİTALININ CƏRRAHİYYƏ KORPUSUNUN AÇILIŞ MƏRASİMİ

*22 iyun 2006-cı il..........................................................................................73*

MÜDAFİƏ NAZİRLİYİNİN GORADİL QƏSƏBƏSİNDƏKİ İSTİRAHƏT EVİ İLƏ TANIŞLIQ

*22 iyun 2006-cı il..........................................................................................76*

AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT QULLUQÇULARINA

*22 iyun 2006-cı il..........................................................................................77*

KANADANIN GENERAL-QUBERNATORU ZATİ-ALİLƏRİ XANIM MİŞEL JANA

*22 iyun 2006-cı il..........................................................................................80*

KANADANIN BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB STİVE HARPERƏ

*22 iyun 2006-cı il..........................................................................................81*

BELARUS RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ALEKSANDR LUKAŞENKOYA

*22 iyun 2006-cı il..........................................................................................82*

HEYDƏR ƏLİYEV ADINA AZƏRBAYCAN ALİ HƏRBİ MƏKTƏBİNİN NÖVBƏTİ BURAXILIŞINA HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ NİTQ

*23 iyun 2006-cı il..........................................................................................83*

«TOTAL» ŞİRKƏTİNİN HƏVƏSKAR FUTBOL KOMANDASININ ÜZVLƏRİ İLƏ GÖRÜŞ

*23 iyun 2006-cı il*........................................................................... *93*

BAKIDA SƏRBƏST GÜLƏŞ VƏ YUNAN–ROMA GÜLƏŞİ ÜZRƏ «QIZIL QRAN-PRİ» BEYNƏLXALQ TURNİRİNİN FİNAL MƏRHƏLƏSİNİN AÇILIŞ MƏRASİMİ

*23 iyun 2006-cı il*...........................................................................*94*

QARŞIDAKI QIŞ MÖVSÜMÜNDƏ ƏHALİNİN TƏBİİ QAZ, İSTİLİK, ELEKTRİK ENERJİSİ İLƏ TƏCHİZATI MƏSƏLƏLƏRİ VƏ ENERGETİKA SEKTORUNDAKI VƏZİYYƏTLƏ BAĞLI MÜŞAVİRƏDƏ ÇIXIŞ

*24 iyun 2006-cı il*...........................................................................*97*

BMT-nin TİCARƏT VƏ İNKİŞAF KONFRANSININ BAŞ KATİBİ SUPAÇAİ PANİTÇPAKDİ İLƏ GÖRÜŞ

*26 iyun 2006-cı il*...........................................................................*101*

GÜRCÜSTAN PREZİDENTİNİN MİLLİ TƏHLÜKƏSİZLİK MƏSƏLƏLƏRİ ÜZRƏ KÖMƏKÇİSİ, KONSTANTİN KEMULARİNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*27 iyun 2006-cı il*...........................................................................*102*

BMT-nin ASİYA VƏ SAKİT OKEAN ÜÇÜN İQTİSADİ VƏ SOSİAL KOMİSSİYASININ İCRAÇI KATİBİ KİM HAK-SUN İLƏ GÖRÜŞ

*27 iyun 2006-cı il*...........................................................................*103*

MƏŞHUR MUSİQİÇİ HERBİ HANKOOK İLƏ GÖRÜŞ

*27 iyun 2006-cı il* ..........................................................................*104*

AVROPA YERLİ VƏ REGİONAL HAKİMİYYƏTLƏR KONQRESİNİN SƏDRİ HALVDAN SKARDIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*27 iyun 2006-cı il*...........................................................................*105*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV PREZİDENTİN İŞLƏR İDARƏSİNİN KİTABXANASINDA

*27 iyun 2006-cı il..........................................................................106*

VYETNAM SOSİALİST RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HQUEN MİNH TRİETƏ

*27 iyun 2006-cı il..........................................................................107*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR PUTİNƏ

*27 iyun 2006-cı il..........................................................................108*

BAŞ NAZİR ARTUR RASİZADƏYƏ VƏ UZUN MÜDDƏT MÜXTƏLİF DÖVLƏT VƏZİFƏLƏRİNDƏ ÇALIŞAN CƏFƏR VƏLİYEVƏ «İSTİQLAL» ORDENİNİN TƏQDİM EDİLMƏSİ MƏRASİMİ

*27 iyun 2006-cı il ..........................................................................109*

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB CORC BUŞA

*27 iyun 2006-cı il..........................................................................111*

AMERİKA TÜRK ASSOSİASİYALARI ASSAMBLEYASININ PREZİDENTİ VURAL CENGİZ İLƏ GÖRÜŞ

*28 iyun 2006-cı il..........................................................................113*

«XALQ YAZIÇISI» VƏ «XALQ ŞAİRİ» FƏXRİ ADLARINA LAYİQ GÖRÜLMÜŞ BİR QRUP ƏDƏBİYYAT XADİMİ İLƏ GÖRÜŞ

*28 iyun 2006-cı il ..........................................................................114*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN UCAR RAYONUNA SƏFƏRİ

*29 iyun 2006-cı il..........................................................................126*

UCAR RAYONU İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ NİTQ

*29 iyun 2006-cı il*............................................................................*128*

ŞƏHİD AİLƏLƏRİNƏ VƏ QARABAĞ MÜHARİBƏSİ ƏLİLLƏRİNƏ YENİ MƏNZİLLƏRİN VERİLMƏSİ MƏRASİMİ

*29 iyun 2006-cı il* ............................................................................*134*

UCAR ŞƏHƏRİNDƏ YENİ AVTOVAĞZALIN AÇILIŞ MƏRASİMİ

*29 iyun 2006-cı il*............................................................................*136*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV UCAR RAYONUNDA

*29 iyun 2006-cı il* ............................................................................*137*

QAZIQUMLAQ KƏNDİNDƏKİ ŞADLIQ EVİNDƏ KEÇİRİLƏN TOY MƏRASİMİNDƏ ÇIXIŞ

*29 iyun 2006-cı il*............................................................................*139*

TÜRKİYƏ CÜMHURİYYƏTİ SİLAHLI QÜVVƏLƏRİNİN BAŞ QƏRARGAH RƏİSİ ORDU GENERALI HİLMİ ÖZKÖK İLƏ GÖRÜŞ

*29 iyun 2006-cı il* ............................................................................*141*

«CİSCO SYSTEMS» ŞİRKƏTİNİN PREZİDENTİ CON ÇEMBERSİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*29 iyun 2006-cı il*............................................................................*143*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ZƏRDAB RAYONUNA SƏFƏRİ

*30 iyun 2006-cı il*............................................................................*144*

ZƏRDAB RAYONU İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ NİTQ

*30 iyun 2006-cı il* ........................................................................*145*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV ZƏRDAB RAYONUNDA

*30 iyun 2006-cı il*.........................................................................*151*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN AĞSU RAYONUNA SƏFƏRİ

*30 iyun 2006-cı il* ........................................................................*156*

AĞSU RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ NİTQ

*30 iyun 2006-cı il*.........................................................................*157*

YORK HERSOQU, ŞAHZADƏ ENDRYU İLƏ GÖRÜŞ

*30 iyun 2006-cı il* ........................................................................*162*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV VƏ BÖYÜK BRİTANİYA KRAL AİLƏSİNİN ÜZVÜ, YORK HERSOQU, ŞAHZADƏ ENDRYU HEYDƏR ƏLİYEV FONDUNDA OLMUŞLAR

*30 iyun 2006-cı il*.........................................................................*163*

NATO BAŞ KATİBİNİN MÜAVİNİ JAN FURNEN İLƏ GÖRÜŞ

*3 iyul 2006-cı il*...........................................................................*164*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN SƏDRLİYİ İLƏ ÖLKƏMİZDƏ EKOLOJİ VƏZİYYƏTİN YAXŞILAŞDIRIL- MASI MƏSƏLƏLƏRİNƏ HƏSR OLUNMUŞ MÜŞAVİRƏDƏ NİTQ

*3 iyul 2006-cı il*...........................................................................*165*

YEKUN NİTQİ

*3 iyul 2006-cı il*..........................................................................*200*

VENESUELA BOLİVAR RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HÜQO RAFAEL ÇAVEZ FRİASA

*4 iyul 2006-cı il*..........................................................................*202*

İSPANİYANIN KRALI ƏLAHƏZRƏT I XUAN KARLOSA

*4 iyul 2006-cı il*..........................................................................*203*

TÜRKİYƏNİN «CÜMHURİYYƏT» QƏZETİNİN MÜXBİRİNƏ MÜSAHİBƏ

*4 iyul 2006-cı il* ..........................................................................*204*

MONQOLUSTANIN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB NAMBARİN ENXBAYARA

*5 iyul 2006-cı il*..........................................................................*214*

GÜRCÜSTANIN BAŞ NAZİRİ ZURAB NOĞAİDELİN İLƏ GÖRÜŞ

*5 iyul 2006-cı il*..........................................................................*215*

FRANSA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB JAK ŞİRAKA

*5 iyul 2006-cı il*..........................................................................*216*

BƏSTƏKAR, XALQ ARTİSTİ VASİF ADIGÖZƏLOVA «İSTİQLAL» ORDENİNİN TƏQDİM EDİLMƏSİ MƏRASİMİ

*6 iyul 2006-cı il*..........................................................................*217*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR PUTİNƏ

*9 iyul 2006-cı il*..........................................................................*219*

İTALİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB CORCİO NAPOLİTANOYA

*10 iyul 2006-cı il*...........................................................................*220*

İTALİYA RESPUBLİKASI NAZİRLƏR ŞURASININ SƏDRİ
ZATİ-ALİLƏRİ CƏNAB ROMANO PRODİYƏ

*10 iyul 2006-cı il*...........................................................................*221*

PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB PƏRVİZ MÜŞƏRRƏFƏ

*10 iyul 2006-cı il*...........................................................................*222*

KOLUMBİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB ALVARO URİBE VELESƏ

*10 iyul 2006-cı il*...........................................................................*223*

BELÇİKA KRALLIĞININ BAŞ NAZİRİ
ZATİ-ALİLƏRİ CƏNAB Gİ VERHOFSTADTA

*10 iyul 2006-cı il*...........................................................................*224*

BELÇİKANIN KRALI ƏLAHƏZRƏT II ALBERTƏ

*10 iyul 2006-cı il*...........................................................................*225*

MİSİR ƏRƏB RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB MƏHƏMMƏD HÜSNÜ MÜBARƏKƏ

*10 iyul 2006-cı il*...........................................................................*226*

MƏRAKEŞİN KRALI ƏLAHƏZRƏT VI MƏHƏMMƏDƏ

*10 iyul 2006-cı il*...........................................................................*227*

MALDİV RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB MƏMUN ƏBDÜL QƏYYUMA

*10 iyul 2006-cı il*...........................................................................*228*

«AZƏRBAYCANDA ÖZƏLLƏŞDİRMƏNİN 10 İLİ: NAİLİYYƏTLƏR VƏ PERSPEKTİVLƏR» FORUMUNUN İŞTİRAKÇILARINA

*11 iyul 2006-cı il*.......................................................................................*229*

HİNDİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB AVUL PAKİR CAYNULABDİN ƏBDÜL KALAMA

*12 iyul 2006-cı il*.......................................................................................*231*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN TÜRKİYƏYƏ SƏFƏRİ

*12 iyul 2006-cı il*.......................................................................................*232*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN GÖRÜŞÜ

*12 iyul 2006-cı il*.......................................................................................*233*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ABŞ-in ENERGETİKA NAZİRİNİN MÜAVİNİ İLƏ GÖRÜŞÜ

*12 iyul 2006-cı il*.......................................................................................*234*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN, GÜRCÜSTAN PREZİDENTİ MİXEİL SAAKAŞVİLİNİN VƏ TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN GÖRÜŞÜ

*12 iyul 2006-cı il*.......................................................................................*235*

İSTANBULUN SARIYER RAYONUNDA ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİN AÇILIŞ MƏRASİMİ

*12 iyul 2006-cı il*.......................................................................................*236*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVƏ TÜRKİYƏNİN NÜFUZLU «EKOVİTRİN» JURNALININ «AVRASİYADA İLİN SİYASƏT ADAMI» MÜKAFATININ TƏQDİM EDİLMƏSİ MƏRASİMİ

*12 iyul 2006-cı il..........................................................................247*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏ PREZİDENTİ ƏHMƏD NECDƏT SEZƏRİN GÖRÜŞÜ

*12 iyul 2006-cı il..........................................................................257*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ GÜRCÜSTAN PREZİDENTİ MİXEİL SAAKAŞVİLİNİN GÖRÜŞÜ

*12 iyul 2006-cı il..........................................................................258*

HEYDƏR ƏLİYEV ADINA BAKI–TBİLİSİ–CEYHAN ƏSAS İXRAC BORU KƏMƏRİNİN İSTİFADƏYƏ VERİLMƏSİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ NİTQ

*13 iyul 2006-cı il..........................................................................259*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN GÖRÜŞÜ

*13 iyul 2006-cı il..........................................................................267*

«TÜRKİYƏ–AZƏRBAYCAN QARDAŞLIĞI PARKI»NIN TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİ

*13 iyul 2006-cı il..........................................................................268*

İNDONEZİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB SUSİLO BAMBANQ YUDHOYONOYA

*18 iyul 2006-cı il..........................................................................273*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN RUSİYA FEDERASİYASINA SƏFƏRİ

*21 iyul 2006-cı il..........................................................................274*

RUSİYANIN RTR TELEVİZİYA KANALINA MÜSAHİBƏ

*21 iyul 2006-cı il..........................................................................275*

MDB ÖLKƏLƏRİ DÖVLƏT BAŞÇILARININ
QEYRİ-RƏSMİ GÖRÜŞÜ

*22 iyul 2006-cı il..............................................................................282*

İSVEÇRƏ KONFEDERASİYASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB MORİTS LOYENBERGERƏ

*24 iyul 2006-cı il..............................................................................286*

«VİNCİ» QRUPUNUN PREZİDENTI İV-TİBO DE SİLQİNİN
RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*24 iyul 2006-cı il..............................................................................287*

XXIX YAY OLİMPİYA OYUNLARINA HAZIRLIQ HAQQINDA

*24 iyul 2006-cı il ...........................................................................288*

BMT-nin ÜMUMDÜNYA ƏRZAQ PROQRAMININ İCRAÇI
DİREKTORU CEYMS MORRİSİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ
HEYƏTİ İLƏ GÖRÜŞ

*27 iyul 2006-cı il..............................................................................292*

TÜRKİYƏNİN DÖVLƏT NAZİRİ MEHMET AYDIN İLƏ
GÖRÜŞ

*27 iyul 2006-cı il..............................................................................294*

NƏRİMANOV RAYONU ƏRAZİSİNDƏ TƏŞKİL EDİLMİŞ KƏND
TƏSƏRRÜFATI MƏHSULLARININ SATIŞ YARMARKASI İLƏ
TANIŞLIQ

*29 iyul 2006-cı il..............................................................................295*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN SƏDRLİYİ İLƏ
KEÇƏN NAZİRLƏR KABİNETİNİN 2006-cı İLİN BİRİNCİ YARISININ
SOSİAL-İQTİSADİ YEKUNLARINA HƏSR OLUNMUŞ İCLASDA GİRİŞ
NİTQİ

*31 iyul 2006-cı il*..........................................................................................*297*

YEKUN NİTQİ

*31 iyul 2006-cı il*..........................................................................................*306*

DÜNYA BANKININ AVROPA VƏ MƏRKƏZİ ASİYA REGİONU ÜZRƏ İNFRASTRUKTUR SEKTORUNUN DİREKTORU PETER TOMSONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*31 iyul 2006-cı il*..........................................................................................*321*

SİNQAPUR RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SELLAPAN RAMA NATANA

*31 iyul 2006-cı il*..........................................................................................*322*

ATƏT-in MİNSK QRUPUNUN AMERİKALI HƏMSƏDRİ MƏTYU BRAYZƏ İLƏ GÖRÜŞ

*1 avqust 2006-cı il*........................................................................................*323*

TATARISTANIN BAŞ NAZİRİ RÜSTƏM MİNNİXANOVUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*1 avqust 2006-cı il*........................................................................................*324*

«EXCELSİOR» MEHMANXANASI DAİRƏSİNDƏ TİKİLƏCƏK YENİ KÖRPÜ VƏ TUNELLƏRİN TƏMƏLQOYMA MƏRASİMİ

*4 avqust 2006-cı il*........................................................................................*325*

HÖKUMƏT EVİNİN TƏMİR-BƏRPA İŞLƏRİNƏ HAZIRLIQLA TANIŞLIQ

*4 avqust 2006-cı il*........................................................................................*329*

TÜRKİYƏ BAŞ NAZİRİNİN MÜAVİNİ, DÖVLƏT NAZİRİ MEHMET ALİ ŞAHİNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*7 avqust 2006-ci il*........................................................................................*330*

BUXAREST ŞƏHƏRİNİN II SEKTORUNUN MERİ NEKUALİ ONTSANUNUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*7 avqust 2006-ci il* ........................................................................... *331*

ƏFQANISTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HƏMİD KƏRZAİYƏ

*7 avqust 2006-cı il* ........................................................................... *333*

KOREYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB ROH MU HYUNA

*7 avqust 2006-cı il* ........................................................................... *334*

HİNDİSTAN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB AVUL PAKİR CEYNULABDİN ƏBDÜL KALAMA

*7 avqust 2006-cı il* ........................................................................... *335*

HİNDİSTAN RESPUBLİKASININ BAŞ NAZİRİ
ZATİ-ALİLƏRİ
CƏNAB MANMOHAN SİNQHƏ

*7 avqust 2006-cı il* ........................................................................... *336*

İNDONEZİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB SUSİLO BAMBANQ YUDHOYONOYA

*7 avqust 2006-cı il* ........................................................................... *337*

ALİ MƏHKƏMƏNİN YENİ İNZİBATİ BİNASININ TƏMƏL QOYULMA MƏRASİMİNDƏ NİTQ

*8 avqust 2006-cı il* ........................................................................... *338*

*Q E Y D L Ə R* .............................................................................344

*Şəxsi adlar göstəricisi*..........................................................................395

*Coğrafi adlar göstəricisi* .....................................................................401

| | |
|---|---|
| **Kitabı çapa hazırlayan** | ***Tofiq Babayev*** |
| **Texniki redaktor** | ***Zoya Nəcəfova*** |
| **Yığım üzrə operator** | ***İlhamə Kərimova*** |
| **Kompüter tərtibatı** | ***Məhəbbət Orucov*** |

Cildin hazırlanmasında AzərTAc-ın materiallarından istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84x108 1/32. Ofset kağızı 1. Şərti çap vərəqi 26,5. Uçot vərəqi 27,0 Tirajı 5000. Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı. Bakı – Mehdi Hüseyn küç. 61, dalan 2, ev 3.
«Şərq-Qərb» mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.